AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2023, 3 (40)

BAKI-2023

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 3 (40), 2023

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# 2015-2018-Cİ İLLƏRDƏ BƏRDƏDƏ ARXEOLOJİ QAZINTILAR NƏTİCƏSİNDƏ AŞKARLANAN NUMİZMATİK TAPINTILAR

**Aygün Məmmədova**
Milli Azərbaycan Tarixi Muzeyi
aygun_kons@mail.ru
**Aslan Qasımov**
Milli Azərbaycan Tarixi Muzeyi
aslangasumov@gmail.com

***Açar sözlər:*** *arxeologiya, numizmatika, orta əsrlər, Bərdə, muzey, tapıntı*

*Yeni numizmatik faktların aşkarlanması, qeydiyyatı və təyinatı nəticəsində orta əsrlərdə Azərbaycanda sikkə zərbi və ticarət əlaqələrinin müəyyən edilməsi müasir dövrümüzdə aktuallıq kəsb edir.*

*Məqalədə ilk dəfə olaraq 2015-2018-ci illərdə Bərdə rayonu ərazisində tapılmış və hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan sikkələr haqqında məlumatlar verilmişdir.*

*Belə sikkələrin numizmatik təyinatı sayəsində Abbasilər (mis və gümüş, VIII - IX əsrlər), Azərbaycan atabəyləri (mis, Məhəmməd Cahan Pəhləvan və Əbubəkr bin Məhəmməd), Səlcuqlular (mis, II Qılıc Arslan), Səfəvilər (gümüş, I Hüseyn; mis, XVIII əsr) dövrünün sikkələri müəyyən edilmişdir.*

*Nəticədə VIII – XVIII əsrlərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi ilə qənaətlər əldə edilmiş və Bərdə şəhərinin qeyd edilən mərhələdəki əhəmiyyəti vurğulanmışdır.*

*Belə numizmatik faktlar hazırkı dövrümüzdə məqalə müəllifləri tərəfindən ali tədris müəssisələrində, əsasən də Qərbi Kaspi Universitetində - "Arxeologiya" "Qafqaz arxeologiyası", "Qafqaz numizmatikası" və "Azərbaycan numizmatikası" fənnlərinin tədrisində tətbiq edilir.*

*Məqalə tarixçilər, arxeoloqlar və numizmatlar üçün nəzərdə tutulmuşdur.*

## НУМИЗМАТИЧЕСКИЕ НАХОДКИ, ОБНАРУЖЕННЫЕ В 2015-2018-Х ГОДАХ ПРИ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПКАХ В БАРДЕ

**Айгюнь Маммадова**
**Гасымов Аслан Аллахшюкюр оглу**

***Ключевые слова:*** *археология, нумизматика, средние века, Барда, музей, находка*

*На современном периоде представляет актуальность выявление, регистрация и определение новых нумизматических фактов, способствующих раскрытию монетной чеканки и торговых связей средневекового Азербайджана.*

*Впервые в статье предоставлена информация о монетах, обнаруженных в 2015-2018-х годах при археологических раскопках в Барде и ныне хранящихся в Нумизматическом фонде Национального Музея Истории Азербайджана.*

*В результате нумизматического определения таких монет были выявлены монеты периода Аббасидов (медь и серебро; VIII - IXвв.), атабеков Азербайджана (медь; Мухаммед Джахан Пехливан и Абубекр бин Мухаммед), Сельджукидов (медь; Кылыч Арслан II), Сефевидов (серебро, Хусейн I; медь, XVIII в.).*

*В итоге были сделаны выводы о монетной чеканке и денежном обращении Азербайджана в VIII – XVIII вв.*

*Такие нумизматические факты на нынешнем этапе внедряются в учебный процесс предметов «Археология», «Археология Кавказа» и «Нумизматика Кавказа» и «Нумизматика Азербайджана» Западно Каспийского Университета.*

## NUMİSMATİC FİNDİNGS DİSCOVERED İN BARDA AS A RESULT OF ARCHAEOLOGİCAL EXCAVATİONS İN 2015-2018

**Aygun Mammadova**
**Gasimov Aslan Allahshukur ogly**

**Key words:** *archaeology, numismatics, middle ages, Barda, museum, find*

*As a result of the discovery, registration and identification of new numismatic facts, the defining of coinage and trade relations in Azerbaijan in the Middle Ages is relevant in our modern times.*

*For the first time, the article provides information about the coins found in the territory of the Barda region in 2015-2018 and currently preserved in the Numismatic Fund of the National Azerbaijan History Museum.*

*Due to the numismatic designation of such coins, the Abbasids (copper and silver, 8th - 9th centuries), the Atabays of Azerbaijan (copper, Muhammad Jahan Pahlavan and Abubakr bin Muhammad), the Seljuks (copper, II Kilic Arslan), the Safavids (silver, Husayn I; copper, XVIII century) period coins have been identified.*

*As a result, ideas were obtained about coinage and money circulation in Azerbaijan in the 8th - 18th centuries, and the importance of the city of Barda at the mentioned stage was emphasised.*

*Such numismatic facts are currently applied by the authors of the article in higher educational institutions, mainly in the Western Caspian University - in the teaching of the subjects "Archaeology", "Caucasian archaeology", "Caucasian numismatics" and "Azerbaijani numismatics".*

*The article is intended for historians, archaeologists and numismatists.*

Azərbaycanın son antik və orta əsrlər dövrü tarixinə nəzər saldıqda Bərdə şəhəri özünəməxsus hadisələrlə seçilməkdədir. Bərdə Albaniya dövlətinin paytaxtı olmaqla yanaşı, sonralar Ərəb xilafətinin Qafqazda yerləşən mərkəzi şəhəri kimi fəaliyyət göstərmişdir. Bu mərhələdə yüksəliş dövrünü yaşayan Bərdərus basqınlarından sonra tənəzzülə uğramışdır.

Bərdə şəhərində arxeoloji qazıntıların aparılması onun öyrənilməsi üçün yeni faktlar cəlb etmişdir. Akademik Nərgiz Paşayevanın təşkilatçılığı ilə Moskva Dövlət Universiteti Bakı Filialı və Oksford Universiteti arasında imzalanmış müqaviləyə əsasən Oksford Universitetində Nizami Gəncəvi mərkəzi yaradılmışdır. Bərdənin Arxeoloji Öyrənilməsi layihəsi məhz Nizami Mərkəzi tərəfindən həyata keçirilmişdir.

2015-ci ildə başlanan və 2018-ci ilə qədər davam edən arxeoloji qazıntılar Bərdə şəhərinin Torpaqqala adlanan ərazisində, həmçinin, Qaratəpə kəndində yerləşən eyniadlı abidədə aparılmışdır. Qazıntılara Oksford Universitetinin əməkdaşı, dr. Pol Vördsvörs rəhbərlik etmiş və layihədə xarici mütəxəssislərlə yanaşı yerli arxeoloqlar da iştirak etmişdilər. Məqalə müəlliflərindən Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Aslan Qasımov, həmçinin, Bakı Dövlət Universitetinin “Tarix” fakültəsinin tələbələri Mircavid Ağalarov və Elşən Salayev də qeyd edilən arxeoloji ekspedisiyaya qoşulmuşdurlar.

Arxeoloji qazıntılar nəticəsində aşkarlanan 20 000-dən (iyirmi min) artıq maddi-mədəniyyət tapıntıları (saxsı, metal, şüşə, antropoloji qalıqlar və d.) Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya və Numizmatika fondlarına təhvil verilmişdir.

Belə tapıntılar sırasında olan 58 ədəd sikkəni Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya elmi-fond şöbəsinin kiçik elmi işçisi Aslan Qasımov muzeyin Numizmatika Fonduna təhvil vermişdir.

Sikkələr uzun müddət torpaqda qaldığından təmizlənilməsi zəruri hesab edilmiş və bu məqsədlə muzeyin bərpa laboratoriyasına təhvil verilmişdir. Muzeyin bərpa laboratoriyasının müdiri, t.ü.f.d., dosent Afət Rüstəmbəyovanın rəhbərliyi ilə belə sikkələri muzeyin bərpaçı-rəssamı Dinarə Ağayeva təmizləmişdir. Təmizlənilmədən sonra sikkələrin numizmatik təyinatını muzeyin Numizmatika Fondunun müdiri, tarix üzrə fəlsəfə doktoru Aygün Məmmədova etmişdir.

Məqalədə məhz göstərilən numizmatik faktlar ilk dəfə təhlilə cəlb edilmişdir.

Sikkələrin ümumi çəkisi 213,34 qramdır. Sikkələrin çəkisini müəyyən etmək rahat olsa da, uzun müddət torpaqda qaldığından əksəriyyətində yazılar silinmişdir. Bu səbəbdən də məqalədə tədqiqata cəlb etdiyimiz mis və gümüş sikkələrin təyinatı əsasən metalına, tipinə və müəyyən qədər nəzərə çarpan epiqrafik və təsvirlərinə əsasən edilmişdir.

**Abbasilər.** Numizmatik təyinat nəticəsində Abbasilər dövrünün mis sikkəsi – fels (VIII əsr; 1 - 2 q, şəkil 1) və yazıları silinmiş gümüş sikkə (yarımdirhəm; IX əsrin II rübü; şəkil 2) müəyyən edilmişdir.

Abbasilər dövründə mis felslər Azərbaycanın yerli pul təsərrüfatında mühüm əhəmiyyətə malik idilər. Belə sikkələr yerli mədənlərdən əldə edilən metaldan zərb edilirdi. Bu sikkələrə ərəb kufi xəttilə müsəlman təqviminə (hicri qəməri) əsasən zərb ili, xəlifə və ya canişinin adı və titulu, dini ifadələr (Allahdan başqa ilah yoxdur, Muhəmməd onun elçisidir), zərbxana (şəhər və ya ərazi adı), eləcə də Qurandan ayələr zərb edilirdi.

Azərbaycanda zərb edilən və yerli ticarətdə istifadə edilən Abbasi mis felslərinə əsasən yazılar, bəzi hallarda xırda təsvirlər – ulduzlar, dairələr zərb edilirdi.

Bu dövrün mis feslərinə ərazi adları - “Azərbaycan”, “Arran”, “Ərminiyyə”, eləcə də şəhərlər - əl-Yəzidiyyə (Şamaxı), Bərdə, əl-Bab (Dərbənd) həkk edilmişdir. Xəlifə Mehdinin adından zərb edilən mis felslər dövrün nadir və unikal nümunələridir (2, s. 218-219).

Azərbaycanın müxtəlif məkanlarında (Qəbələ, Beyləqan) Abbasi mis felslərindən ibarət dəfinələr tapılmışdır (4, s. 16, 98).

Bərdədə aşkarlanan yazıları silinmiş gümüş sikkə (IX əsrın II rübü) - yarımdirhəm həm yerli, həm də beynəlxalq ticarətdə mühüm rola malik olmuşdur.

Abbasilər dövründə 100-dən artıq zərbxanasında müxtəlif tipli dirhəmlər istehsal edilirdi. Əsas pul vahidlərindən biri olan gümüş dirhəmin orta çəkisi 2,958 q təşkil edirdi və bütün pul gəlirləri həm dinarlar, həm də dirhəmlərlə hesablanırdı (7, s. 18).

Bərdədə aşkarlanan yarımdirhəm IX əsrin II rübünə aiddir. Qeyd edilən dövrdə Cənubi Qafqazın pul dövriyyəsində kəsik və ya sınıq dirhəmlər meydana gəlmişdi. Dirhəmi 2/1, 3/1, 4/1 hissələrə xırdalamaq üçün onu qayçı ilə kəsir və ya digər xüsusi alətlə kəsib bölürdülər.

Belə kəsik gümüş dirhəmlər əvvəllər də Bərdə rayonunda tapılmışdır. Bundan əlavə belə tapıntılara Masallı (Boradigah, Banbaşı, Əlvədi), Mingəçevir, Naxçıvan, Xaçmaz, Şamaxı, Quba, Qəbələ şəhərlərində də rast gəlinmişdir (7, s. 20).

IX əsrin əvvəllərindən X əsrin sonuna qədər beynəlxalq ticarətlə əlaqədar olaraq Xilafətin gümüş dirhəmləri Şərqi və Şimali Avropaya daxil olurdu (7, s. 19).

**Azərbaycan atabəyləri.** 2018-ci ildə Bərdədə digər sikkələrlə yanaşı həm də Azərbaycan atabəyləri dövrünün mis sikkələri - dirhəm və felsləri tapılmışdır.

Azərbaycan ərazisində belə sikkələrin ilk tapıntıları ötən əsrdə tapılmış və tədqiq edilmişdir. Daha sonrakı illərdə isə müxtəlif tiplər və qruplar təsnif edilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda müxtəlif çəki və tipə malik belə sikkələr qorunur. Xüsusi qeyd edilməlidir ki, bu dövrün başlıca sikkələri sırf misdən zərb edilmişdir.

Əbubəkr, Məhəmməd Cahan Pəhlivan və Abbasi xəlifəsi ən-Nasirin adı olan dövrün nadir qızıl dinarları (1,54 – 3,65 q) hazırda Amerika Numizmatika Cəmiyyətində qorunur (8, s. 527-541).

Bərdədə aşkarlanan sikkələr sırasında ikinci hökmdar Məhəmməd Cahan Pəhlivan (hicri 571 – 582 = 1175 - 1186) dövrünün mis sikkəsi vardır (şəkil 3).

Əbu Cəfər Nüsrəddin Məhəmməd Cahan Pəhlivan dövründə müxtəlif çəkili, standart (dairəvi) və qeyri-standart (itiuclu, dördbucaqlı və d.) sikkələr zərb edilmişdir (1, s. 12).

Belə sikkələrin bir qrupuna ərəb qrafikası ilə bu hökmdarın adı və titulları (əzəmətli məlik, atabəy, sultan, dünya və dinin Günəşi və s.), digərlərinə isə həm özünün, həm də qardaşı Muzəffərəddin Qızıl Arslanın adları, eləcə də sonuncunun titulu (əmirlər əmiri) zərb edilib.

Məhəmməd Cahan Pəhlivan hakimiyyətə gəldikdən sonra qardaşı Qızıl Arslanı ordu komandanı və Azərbaycan ilə Arrana canişin təyin etmişdir. Bu dövrün müxtəlif tipli sikkələrinə silahlar (xəncər, yay ilə ox) həkk edilmişdir.

Məhəmməd Cahan Pəhlivanın adı olan dirhəm və felsləri aşağıdakı təsnifata ayırmaq mümkündür:

- hicri 571-ci (1175) ildə əl-Mustədi və Arslanın adları ilə;
- hicri 571 – 575-ci illərin (1175 – 1179) bəzi sikkələrinə əl-Müstədi və Arslan, bəzilərinə isə əl-Müstədi və III Toğrulun adları ilə;
- hicri 571 – 582-ci illərdə (1176 – 1186) "dünya və dinin Günəşi", "əmirlər əmiri" titulları ilə.

Hicri 575 – 582-c illərdə (1179 – 1186) bu hökmdar adından zərb edilən sikkələr 3 tipdədir:

- ən-Nasirin adı ilə;
- ən-Nasir və III Toğrulun adları ilə;
- sultan Toğrul və Qızıl Arslanın adları ilə (1, s. 10).

Bərdə ilə yanaşı Məhəmməd Cahan Pəhlivanın sikkələri respublikamızın digər məkanlarında (Ağdam, Gəncə və d.) da aşkarlanmışdır (4, s. 116-117). .

Bərdədə aşkarlanan sikkələr sırasında həm də Əbubəkr ibn Muhəmmədin (587 – 607 = 1191 – 1210) də dövrünə aid mis sikkə vardır (şəkil 4).

Dördüncü hökmdar Əbubəkrin sikkələrinə əsasən onun titulları - “əzəmətli atabəy”, “şahənşah” idi. Dövrün müxtəlif tipli sikkələrinə Məhəmməd Cahan Pəhləvanın və xəlifə ən-Nasirin adları həkk edilmişdir (1, s. 15).

Bərdədə aşkarlanan sikkələr sırasında bu hökmdar dövrünün sikkələrində silah (ikidişli, bəzilərində isə üçdişli yaba) təsvirləri nəzərə çarpır.

Şəmkirdə zərb edilmiş mis sikkələr (7,41 - 7,88 q) Əbubəkr ibn Muhəmməd dövrünün nadir tapıntılarıdır.

Adını ərəb xəlifəsi və türk sultanı ilə birgə dövrün sikkələrinə həkk etməklə Azərbaycan atabəyləri dövlətin müstəqilliyini müəyyən qədər qorumağa çalışırdılar.

Dövrün başlıca zərbxanaları Naxçıvan, Beyləqan, Şəmkir, Gəncə, Bərdə, Ərdəbil, Urmiya, Təbriz, Marağa, Dəbil şəhərlərində yerləşirdi (1, s. 5).

Əbubəkr ibn Muhəmməd dövrünün sikkələri əvvəllər də Bərdə rayonu ərazisində aşkarlanıblar (4, s. 110). Bundan əlavə belə sikkələr Beyləqan, Gəncə, İmişli rayonlarında da tapılıblar (4, s. 116, 122).

Məhəmməd Cahan Pəhləvan və Əbubəkrin hakimiyyət dövrü şirvanşah-Kəsranilər – I Əhsitan bin Mənuçehr(1160 - 1196), Şahənşah bin Mənuçehr (1196 - 1202), II Əfridun bin Mənuçehr (1202-1203), I Fərruxzad bin Mənuçehr (1203-1204), II Fəriburz bin Əfridun (1203-1204) и I Gərşasb bin Fərruxzadın (1205-1225) hökmranlığı ilə həmdövrdür. Eynilə atabəylərin sikkələri kimi şirvanşah-Kəsranilərin də dirhəm və fesləri əsasən misdən zərb edilmiş və üzərinə Abbasi xəlifələri və Səlcuq sultanlarının adları həkk edilmişdir (6, s. 45 - 51).

**Roma Səlcuqluları.** Bərdədə aşkarlanan sikkələr arasında nəinki yerli, həm də xarici sikkə tapılmışdır.

Burada aşkarlanan mis sikkədə atlı təsviri və ərəb qrafikası ilə “Arslan” adı zərb edilmişdir. Tipinə əsasən sikkə Səlcuqlu sultanı II Qılıc Arslan (hicri 551 – 588 = 1155 - 1192) dövründə zərb edilmişdir (şəkil 5).

37 il hakimiyyətdə olan bu hökmdar dövründə Türkiyənin Konya, Sivas zərbxanaları ən intensiv fəaliyyəti ilə fərqləniblər. Onun dövründə mis felslər (2 – 3 q), gümüş dirhəmlər (3 q) və onların fraksiyaları (1/4, 1/6 dirhəmlər və d.) zərb edilmiş və 2,9 qram çəkili bəzi dirhəmlərdə “dinar” sözü nəzərə çarpır.
II Qılıc Arslanın sikkələrinə əsasən onun titulları – “əzəmətli sultan” və “izzəddin” (dinin əzizi) idi. Eynilə şirvanşah-Kəsranilər və Azərbaycan atabəylərinin sikkələrində olduğu kimi bu hökmdarın da sikkələrinə Abbasi xəlifəsi ən-Nasirin adı və “möminlərin əmiri” titulu həkk edilib (3, s. 356-359).

**Səfəvilər.** Qeyd etdiyimiz tapıntılar sırasında mühüm numizmatik faktlardan biri də 1,66 q çəkili gümüş sikkədir. Sikkədə ərəb qrafikası ilə “zərbe Təbriz”, “bəndeyi şahe vilayet”, “Huseyn”, “Allahdan başqa ilah yoxdur,

Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır" sözləri və rəqəmlərlə zərb ili "1129" (1716-1717) həkk edilmişdir.

Bu hökmdarın digər tipli gümüş sikkələrinə on iki imamın adları zərb edilmişdir.

Bərdədə aşkarlanan gümüş sikkə - abbası sultan Hüseyn dövrünə aiddir (1105 – 1135 = 1693 – 1723; şəkil 6). Belə sikkələr həm də Bakı, İsmayıllı, Qazax, Şamaxı, Bərdə, Lənkəran, Gəncədə də aşkarlanmışdır (4, s. 191, 193, 198, 199, 200).

Abbasıdan əlavə bu hökmdar dövründə digər nominallar – məhəmmədi və şahilər də zərb edilmişdir (5, s. 133-148).

Numizmatik faktlara əsasən bu hökmdar dövründə Qəzvin, Məşhəd, İsfəhan, Şirazda qızıl əşrəfilər (3,46 q), Naxçıvan, Gəncə, Təbriz, Rəşt, İrəvan şəhərlərində isə gümüş abbasılar zərb edilmişdir (1,3 - 36,3 q; 9).

Qeyd etdiyimiz gümüş sikkədən əlavə Bərdədə həm də 9 q çəkili mis sikkə tapılmışdır (şəkil 7). Sikkənin bir tərəfinə şir və Günəş təsviri, digər tərəfinə isə "fulus" sözü zərb edilmişdir. Tipinə əsasən bu sikkə XVIII əsrə aid mis qazbəyidir və dövrün pul təsərrüfatında istifadə edilmişdir.

**Nəticə.** Məqalədə təqdim etdiyimiz sikkələr İslam numizmatikasını təmsil edən faktlardır. Belə tapıntıların analoqları müasir dövrümüzdə nəinki Azərbaycanda, həm də Cənubi Qafqaz, Avropa ilə Asiyanın müxtəlif muzeyləri və şəxsi kolleksiyalarda saxlanılır.

2015-2018-ci illərdə Bərdədə aparılan arxeoloji qazıntılarda aşkarlanan sikkələr qeyd edilən ərazinin VIII – XVIII əsrlərdə önəmli mövqeyə malik olduğunu təsdiq edir. Belə sikkələrin tədqiqi orta əsr zərbxanalarını, hökmdar adlarını, eləcə də dini inancı, eləcə də xarici ölkələrlə (Türkiyə, İran, İraq) ticarəti müəyyən etməyə imkan verir.

Müxtəlif tarixi dövrlərin pul təsərrüfatını açıqlayan belə tapıntılar həm də yerli iqtisadiyyat, sikkə islahatları, kalliqrafik dəyişiklikləri də açıqlayan mühüm faktlardır.

## Ədəbiyyat:

1. Məmmədova A.M. Azərbaycan atabəylərinin sikkələri. Kataloq. Bakı: Təhsil NPM, 2022, 40 s.

2. Məmmədova A.M. Xəlifə əl-Mehdi (775-785) dövründə Azərbaycanda zərb edilən nadir mis sikkə İslam numizmatikasının təbliğində vasitədir// "İslam həmrəyliyi ili 2017 – reallıqlar və perspektivlər" Respublika elmi-metodik konfransının materialları (25-26 aprel 2017). Bakı: Bakı Universiteti nəşr., 2017, s. 218 - 219.

3. Məmmədova A.M. Xındırıstan dəfinəsi XII-XIII əsrlərin pul təsərrüfatını açıqlayır //V Beynəlxalq Həmzə Nigari Simpoziumu (17-19 may 2022). Ağdam, Quzanlı, 2022, s. 356-359.

4. Rəcəbli Ə.M. Sikkə dəfinələrinin izi ilə. Bakı: Ecoprint, 2019, 359 s.

5. Раджабли А.М. Монетное дело азербайджанского государства Сефевидов. Баку: Зия, 2014, 231 с..

6. Раджабли А.М. Монетная чеканка в государстве Ширваншахов (VIII – XVI вв.). Баку: Элм ва тахсил, 2015, 240 с.

7. Сейфеддини М.А. Средневековые монетные клады Азербайджана (1968-1983). Баку: Элм, 1994, 196 с.

8. Koumdjian D. Three unique gold coins of the Eldiguzid Atabegs of Nothwestern Iran // Tirage a part de actes du 8eme Congres International de numismatique. New York-Washington, 1973, p. 527-541.

9. Safavid// https://www.zeno.ru/showgallery.php?cat=2666.

**2015-2018-ci illərdə Bərdə ərazisində aparılan arxeoloji qazıntılarda aşkarlanan və hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan sikkələr.**



Şəkil 1. Inv. 57000. Abbasilər. VIII əsr. Mis fels, 1,97 q



Şəkil 2. Inv. 57001. Abbasilər. VIII – IX əsrlər. Gümüş yarımdirhəm, 0,8 q.



Şəkil 3. Inv. 57002. Azərbaycan atabəyləri. Məhəmməd Cahan Pəhləvan (hicri 571 – 582 = 1175 - 1186). Mis fels,1,6 q.



Şəkil 4. Inv. 57003. Azərbaycan atabəyləri. Əbubəkr ibn Muhəmməd (hicri 587 – 607 = 1191 – 1210). Mis dirhəm, 6,4 q.



Şəkil 5. Inv. 57004. Roma Səlcuqluları. II Qılıc Arslan (hicri 551 – 588 = 1155 - 1192). Mis dirhəm, 5,99 q (atlı təsviri ilə).



Şəkil 6. Inv. 57005. Səfəvilər. Hüseyn (hicri 1105 – 1135 = 1693 - 1723), Təbriz, hicri 1129 = 1716-1717, gümüş abbası, 1,65 q.



Şəkil 7. Inv. 57006. Səfəvilər. XVIII əsrin əvvəli. Mis qazbəyi, 9,05 q (şir və Günəş təsviri ilə).

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİ 1952-1989-CU İLLƏR TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**Aynur Kərimli**
Azərbaycan Dillər Universiteti
aynurkarimli0@gmail.com

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti,Türkiyə tarixşünaslığı, mühacirət dövrü, qardaşlıq yardımı, pantürkizim.*

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif aspektlərinin 1952-1989-cu illərdə Türkiyə tarixşünaslığında tədiqiqindən bəhs olunur. Azərbaycan tarixində misilsiz bir hadisə olan Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi yarandığı vaxtdan bugünədək istər Azərbaycan tarixçilərinin, istərsə də də xarici tarixçilərin, xüsusən də Türkiyə tarixçilərinin diqqət mərkəzində olan mövzulardan biri olmuşdur.Azərbaycan Xalq Cümhuriyyəti tarixinin XX əsrin 1950-80-ci illərində kifayət qədər tədqiqatı aparılmışdır. Cümhuriyyətin tarixini tədqiq edən Türkiyə tarixçiləri üçün ilkin mənbə 1920-ci ilin aprel hadisələrindən sonra Azərbaycandan mühacirət etməyə məcbur olmuş ziyalıların əsərləri olmuşdur. XX əsrin 40-cı illərinin ikinci yarısı və 50-ci illərində də mövzu geniş tədqiq olunmamışdır. Bunun əsas səbəblərindən biri kimi qeyd olunan dövrün İkinci dünya müharibəsi illərinə təsadüf etməsini göstərə bilərik. XX əsrin 60-70-ci illərindən etbiran AXC tarixinin Türkiyə tarixçiləri tərəfindən araşdırılması genişlənmişdir.*

# ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ 1952-1989 ГГ. В ТУРЕЦКОЙ ИСТОРОЛОГИИ

**Айнур Керимли**

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, Турецкая историография, период эмиграции, братская помощь, пантюркизм.*

*В статье речь идет об исследовании различных аспектов истории Азербайджанской Демократической Республики в турецкой историографии 1952-1989 годов. Изучение истории Азербайджанской Демократической Республики, являющейся уникальным событием в истории Азербайджана, со времени ее создания было одной из тем, находящихся в центре внимания как азербайджанских историков, так и*

*зарубежных историков, особенно турецких историков. В 1950-е и 1980-е годы XX века было проведено достаточное количество исследований по истории Азербайджанской Демократической Республики. Первоисточником для турецких историков, изучающих историю республики, были труды интеллектуалов, вынужденных эмигрировать из Азербайджана после апрельских событий 1920 года. Во второй половине 40-50-х годов XX века тема широко не изучалась. Одной из основных причин этого является то, что указанный период совпал с годами Второй мировой войны. С 60-70-х годов 20 века изучение истории АДР турецкими историками расширилось.*

## HISTORY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN TURKISH HISTORICOLOGY, 1952-1989

**Aynur Karimli**

***Key words:*** *Azerbaijan Democratic Republic, Turkish historiography, period of emigration, fraternal aid, pan-Turkism.*

*The article deals with the study of various aspects of the history of the Azerbaijan Democratic Republic in the Turkish historiography in 1952-1989. The study of the history of the Azerbaijan Democratic Republic, which is a unique event in the history of Azerbaijan, has been one of the topics in the focus of attention of both Azerbaijani historians and foreign historians, especially Turkish historians, since its establishment. In the 1950s and 1980s of the 20thcentury, a sufficient amount of research was carried out on the history of the Azerbaijan Democratic Republic. The primary source for Turkish historians studying the history of the republic was the works of intellectuals who were forced to emigrate from Azerbaijan after the April events of 1920. In the second half of the 40-50s of the 20th century, the topic was not widely studied. One of the main reasons for this is that this period coincided with the years of the Second World War. Since the 60-70s of the 20th century, the study of the history of the ADR by Turkish historians has expanded.*

Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olanAzərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi yarandığı vaxtdan bugünə kimi həm Azərbaycan tarixçilərinin,həm də xarici tarixçilərin diqqət çəkdiyi mövzulardan biridir. Bu mövzu Türkiyə tarixçilərinin daha çox diqqət məkzində olmuşdur. Mövzunun Türkiyə tarixşünaslığında xüsusi əhəmiyyət kəsb etməsini 3 əsas cəhət müəyyənləşdirir: 1) coğrafi yaxınlıq; 2) iki dövlətin əhalisinin etnik baxımdan qohumluğu; 3) iki dövlət arasındakı əlaqələrin həm 1918-1920-ci

illərdə , həm də müasir dövrdə yüksək səviyyədə olması.Son dövrlərdə iki ölkənin daha da yaxınlaşması bunun aktuallığını daha da dərinləşdirir.

Xalqımızın həyatında çox böyük əhəmiyyət kəsb edən 1918-1920-ci illərdə Azərbaycanilk dəfə olaraq dövlət suverenliyini qazanaraq dünya birliyində layiqli yer tutmağa çalışmışdır. Bu dövr Azərbaycan xalqının həyatında mühüm mərhələ olmaqla yanaşı,eyni zamanda onun gələcəyinin və istiqlalının bünövrəsini qoymuşdur. 1918-ci il 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi idi [3,434].1918-ci ill mayın 28-də Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktıolan İstiqlal Aktının qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyada Xalq Cümhuriyyəti formasında elan olunmuşdur [3,260].Azərbaycanın istiqlaliyyətinin elan olunması və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin adından mayın 30-da radioteleqraf vasitəsilə dünyanın əksər siyasi mərkəzlərinə -London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Buxarest, Tokio, Haaqa, Kopenhagen, Stokholm və s. yerlərə rəsmi məlumat verilmişdir.İstiqlal Aktının elan olunması Azərbaycan xalqının taleyində misli görünməmiş tarixi bir hadisə idi [2,68].

AXC tarixini tədqiq edən Türkiyə tarixçiləri üçün məhz ilkin mənbə rolunu 1920-ci ilin aprel ayında baş verən hadisələrdən sonra Azərbaycandan mühacirət etməyə məcbur qalmış ziyalıların əsərləri olmuşdur.Buna görə də mühacirət dövrü tarixşünaslığının öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.XX əsrdə mühacirətin daha böyük və kütləvi xarakter daşıyan ikinci mərhələsi Azərbaycan Xalq Cümhuriyyətinin (28 may1918-27 aprel 1920-ci il) süqutu ilə başlamışdır. Təxminən 1920-1940-cı illəri əhatə edən bu mərhələdə Azərbaycanın siyasi xadimləri ilə yanaşı, onlarla vətənpərvər ziyalı, alim, yazıçı ölkəni tərk etməyə məcbur olmuşdur. Onların içərisində Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Mirzə Bala Məmmədzadə, Almas İldırım, Əbdülvahab Yurdsevər, Kərim Odər, Əhməd Cəfəroğlu, Abbasqulu Kazımzadə, Məhəmmədəli Rəsuloğlu, Hüseyn Baykara, Məmmədsadiq Aran, Ümmülbanu (Banin) və başqaları kimi görkəmli şəxsiyyətlər vardır [2,221].

XX əsrin 40-cı illərinin ikinci yarısı və 50-ci illərində də mövzu ilə bağlı zəngin materiallar nəşr olunmamışdır. 50-ci illərdə çap olunmuş əsərlər isə bir növ daha öncə nəşr olunmuş kitabların məntiqi davamı təsiri bağışlayırdı. Lakin bu əsərlərin tədqiqat obyekti daha genişdir. Türkiyənin tarixçilərinin görkəmli nümayəndələrindən biri olanArın Engin təkpartiyalılıq dövründən 1970-ci illərin sonuna qədər otuzdan çox kitab və çoxlu məqalələr yazan respublikaçı ziyalıdır.A.Enginin Türk Tarix Qurumunun xətti ilə çap olunmuş “Atatürkçülük və Moskofluk-Türklük savaşları” adlı kitabının tədqiqat obyekti Rusiya işğalı altında olan türkdilli xalqların vəziyyəti və onların müstəqillik uğrunda

apardıqları mübarizə olmuşdur. Türk birliyi (pantürkizm) prinsipini rəhbər tutan A.Engin AXC dövrü tarixinə əsərində bir fəsil ayırmışdır. Müəllif belə hesab edirdi ki, Moskvanın törətdiyi işgəncələr1920-ci il 27 aprel tarixindən deyil, bolşeviklərin Bakıda fəaliyyətə başladığı dövrdən etibarən həyata keçirilmişdir. Bunun bariz nümunəsi kimi biz Stepan Şaumyanın 1918-ci il mart ayının 30-dan başlayaraq üç gün ərzində Bakıda törətdiyi qırğınları göstərə bilərik. A.Engin Türkiyə qoşunlarının Azərbaycana müdaxiləsini "Qardaşlıq yardımı" konsepsiyası kimi dəyərləndirir və bu fikri müdafiə edir. AXC-nin süqutunu bolşevik işğalı ilə əlaqələndirir, lakin türklərin tətbiq etdikləri gözləmə taktikasına haqq qazandırmır [1,20-21].

XX əsrin 60-70-ci illərində Türkiyə tarixşünaslığında AXC tarixinin araşdırılması daha zəngindir. Qeyd olunan illərdə dövrün ayrı-ayrı məsələləri ilə bağlı Türkiyə tarixçiləri dəqiq konsepsiyalar yaratdılar.Bu konsepsiyalar AXC-nin yaranması, Türkiyənin Azərbaycana göstərdiyi yardım, AXC-nin süqutu məslələridir. Türkiyə tarixşünaslığında əsasən, AXC-nin yaranmasında "türk amili"ni qəbul edənlər Türkiyə qoşunlarının Bakıya hərbi müdaxiləsini qardaşlıq yardımı hesab edirlər.Fahir Armaoğlu , Ahmet HazerHizal,Şerafettin Erel, Akdes Nimet Kurat yuxarıda qeyd olunan fikri qəbul edirlər.Buna baxmayaraq, həmin müəlliflər arasında da Türkiyənin həyata keçirdiyi Azərbaycan siyasətinin məqsədlərində fikir ayrılıqları vardır. Türkiyə Tarixşünaslığında olan digər bir baxış belə idi ki, müəyyən tarixçilər "qardaşılıq yardımı" konsepsiyasını qəbul edirlər amma eyni zamanda bu yardımda Türkiyənin müəyyən siyasi məqsədlər güddüyünü də inkar etmirlər. F.Armaoğlu yazır : "28 may tarixindən sonra Azərbaycan Osmanlı dövlətinə arxalanırdı.Bu vəziyyət Ənvər paşa başda olmaqla Osmalı dövlətinin rəhbərlərinə böyük üfüqlər açdı.Bakını ələ keçirdikdən sonra Türküstana və orta Asiya türklərini imperiyanın sərhədləri içərisinə alaraq Pantürkist birliyini qurmaq onların əsas məqsədi idi [1,126].

Hüsamettin Tuğaç tərəfindən yazılmış "Türk istiklal harbi: Doğu cephesi" adlı 1965-ci ildə nəşr olunan kitabın III cildi 1995-ci ildə Türkiyə Cümhuriyyətinin Müdafiə Nazirliyi tərəfindən nəşr olunmuşdur. Giriş, 12 fəsil və nəticədən ibarət olan bu əsər Birinci dünya müharibəsinin sonunda yaranmış olan əlverişsiz şəraitdə ermənilərin Şərqdə türk və müsəlman əhaliyə qarşı törətdiyi qətliamların qarşısının alınması, "Böyük Ermənistan"məsələsi və onun Şərqi Anadoluda yaratdığı əks-səda, Ermənistana qarşı həyata keçirilən hərbi əməliyyatlar nəticəsində imzalanmış Gümrü, Moskva və Qars sazişləri tədqiq olunmuşdur.Birinci dünya müharibəsində və müharibədən sonrakı illərdə də ermənilər türk və müsəlman əhaliyə qarşı dayanmadan etnik təmizləmə siyasətini davam etdirmişdir. Bu erməni zülmü 1914-cü il rus-türk sərhədindən kənarda qalan ərazilərdə ən yüksək həddə çatmışdır. Türk dövləti ermənilərin insanlıqdan kənar bu vəhşiliklərinə son qoymaq və Şərq sərhədlərinin

təhlükəsizliyini təmin etmək üçün ermənilərə qarşı Sarıqamış və Qars hərəkatlarını həyata keçirmək məcburiyyətində qalmışdır.

Kitabın birinci fəslində erməni məsələsi, Azərbaycanvə digər Cənubi Qafqaz ölkələrində siyasi vəziyyətdən bəhs olunur. Qeyd olunan fəsildə Mudros sülh müqaviləsinin imzalanması ilə türk ordusu Bakını tərk etdikdən dərhal sonra ingilis ordusunun 17 noyabr 1918-ci ildə Bakıya daxil olması, Azərbaycanın qonşu dövlətlərlə münasibətləri haqqında məlumat verilir [7,23-24].

Kitabın dördüncü fəslində Cənubi Qafqazda ermənilərin türk-müəlman əhalisinə qarşı törətdiyi zülümlər öz əksini tapmışdır. Mudros müqaviləsi ilə bərabər,Birinci dünya müharibəsinin sonlarına doğru Ermnənistanın müstəqilliyini elan edərək öz sərhədləri daxilində və xaricində İrəvan, Qars və Naxçıvan ərazilərində türk-müsəlman əhalini kütləvi şəkildə öldürür və köçüb getmələri üçün zülm etməyə başlamışdı [7,69]. Fəsildə eləcə də Naxçıvanın ingilislər tərəfindən işğalı və sonra ermənilərə təhvil verilməsi,daha sonra 19-20 iyul1920-ci il tarixində ermnənilərə qarşı həyata keçirilən uğurlu əks-hücum əməliyyatı ilə onların Naxçıvanı tərk etməsi haqqında geniş məlumat verilir.

Kitabın altıncı fəslində Azərbaycan 11-ci Qızıl ordu tərəfindən işğalından yazılır.Belə ki, 28 aprel 1920-ci ildə 11-ci Qızıl ordu Bakıya daxil olur, sonra isə Gəncə və Qarabağa hərbi qüvvələrini göndərmişdi. S.105 28 aprel 1920-ci ildə əslində xilaskar adı ilə Bakıya girən 11-ci Qızıl ordunun Daşnakların təsiri ilə Azərbaycanın yüksək rütbəli hərbçilərini həbs etməsi, ordunu ləğv etməsi və Azərbaycan sərvətlərinin Rusiyaya daşınması kimi davranışlarla xalqın milli və dini hisləri ilə oynaması Azərbaycanda inqilaba səbəb olmuşdur. Bu fəsildə Gəncədə 1920-ci il may ayının 20-də başlayan və 1 həftə davam edən Gəncə qarşıdurması və Ağdam müharibəsi geniş təsvir olunur[7,107-110]. Doqquz və onuncu fəsillərdə Sarıqamış və Qars əməliyyatları müfəssəl təsvir olunur. Kitabın son fəsillərində Gümrü və Moskva sülh sazişlərindən bəhs olunur.

XX əsrin 70-ci illərində Azərbaycan Xalq Cümhuriyyəti haqqında yazılmış əsas əsərlərdən biri "Azerbaycan istiklal mücadelesi tarihi" adlı kitabıdır. Sözü gedən əsərin müəllifi Hüseyn Baykara bolşevizmə qarşı olanların vəhşicəsinəsürgün edildiyi illərdə Türkiyəyə gələrək yaradıcılığını İstanbulda davam etdirmişdir. İstanbul Vəkillər Kollegiyasının hüquqşünaslarından olan müəllifin Azərbaycanın istiqlal mübarizəsindən bəhs edən "Azerbaycan istiklal mücadelesi tarihi" kitabı 1975-ci ildə İstanbulda nəşr olunmuşdur. Bolşevik şovinizminin hökm sürdüyü illərdə qələmə alınan kitabda Azərbaycanın azadlıq mübarizəsinin inkişaf prosesi araşdırılır. Müəllif bu araşdırmada Azərbaycanın çağdaş tarixinə işıq salır, çar rejiminə qarşı mübarizəni və bolşevik inqilabından sonra qısamüddətli Azərbaycan istiqlal tarixini araşdırır.Bolşevik xuntasına qarşı çıxan türk ziyalılarının, tarixçilərinin səsinin ciddi şəkildə kəsildiyi, yazıçıların, ziyalıların sürgündə olduğu SSRİ

dönəmində yazılan kitab,mühüm bir cəsarətin məhsuludur. 57 fəsildən ibarət olan kitabın ilk 9 fəsilində Azərbaycan iqtisadiyyatı izah edilir.

Müəllifin məlumatına görə, XIX əsrin sonlarına doğru Azərbaycanda bir çox ticarət sahəsində, xüsusilə neft sahəsində fəaliyyət göstərərək zənginləşmiş burjua sinfi formalaşmağa başladı. Bu təbəqənin işi və maarifçilik prosesinə verdiyi töhfə və dəstək, açdıqları yeni üslublu məktəblər sanki azadlıq mübarizəsini formalaşdırırdı. Burjuaziyanın maarifçiliyə dəstəyinə sübut kimi müəllif  Hacı Zeynəlabdin Tağıyevin 1901-ci ildəBakıda Birinci Aleksan-driyevski Türk Qızlar Gimnaziyasını açdığınıgöstərir [4,58].

H.Baykara 10 və 13-cü fəsillərıdə Azərbaycandakı siyasi hərəkatlardan bəhs edir. Bu fəsillərdə Azərbaycanda müstəqillik elan olunana qədər yaradılmış siyasi təşkilatlar və partiyalar haqqında məlumat verilir, Azərbay-candakı siyasi hərəkatların 1901-ci ildə Bakıda "Rusiya Sosial Demokratik Birliyi"nin yaradılması ilə başlandığı vurğulanır. Daha sonra 1904-cü ildə "Hümmət" sosialist partiyası yaradıldı. İkinci siyasi partiya isə 1905-ci ildə, inqilab günlərində və intensiv erməni hücumları şəraitində Əhməd Ağayev tərəfindən "Difai" adı ilə yaradılmışdır.Kitabda 1905-ci il rus-yapon müharibəsi və birinci rus inqilabı mühüm yer tutur. Birinci Rus inqilabının Azərbaycana təsirlərinin təsvir olunduğu 17-ci fəsildə müəllif göstərir ki, bütün rus əsir xalqlarında olduğu kimi Azərbaycanda da görünən azadlığın ilk həyəcanlı günlərinin təsiri ilə siyasi hərəkat başlamışdır.Kitabda bu mühitdə formalaşmış bir nümayəndə heyətinin çara yazdığı "milli arzular ərizəsi"nin tam mətnini görə bilərik.Hazırlanmış "milli arzular ərizəsin"dən aydın olur ki, o zaman Azərbaycanda insanlar istər ictimai, istərsə də siyasi arenada bir çox məsələlərdə məhdudiyyətlərə, ikili standartlara məruz qalmışdılar.

Kitabın 29 və 30-cu fəsillərində Müsavat partiyasının yaranması, Məhəmməd Əmin  Rəsulzadənin həyatı və şəxsiyyəti geniş təsvir olunur. Məlum olduğu kimi, Azərbaycanın müstəqilliyində Müsavat Partiyasının mühüm yeri var.

Kitabın 37-43-cü fəsillərində Azərbaycanda istiqlaliyyətin elan edilməsindənbəhs edilir. Müəllifin fikrincə, bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Azərbaycan istiqlal mübarizəsi fəallıq yolu tutmuşdur. Bundan əlavə, buradan öyrəndiyimiz digər diqqətçəkən məqam da odur ki, Müsavat partiyası keçirilən seçkilərdə fəhlə sinfinin 75%-ə qədər səsini toplamışdır[4,241].Nəticədə uzun sürən mübarizədən sonra 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın müstəqilliyi elan edildi [4,259].

Müəllif kitabının  47-ci fəsildə Mudros sülh müqaviləsinin imzalanması ilə Osmanlı ordu bölgəni tərk etməsini, lakin bu dəfə də ingilislərin bölgəyə girərək Bakını işğal etdiklərini qeyd edir [4,274].

Əslən tatar türkü olan digər bir tarixçi A.N.Kurat isə belə hesab edir ki, Türkiyənin əsas məqsədi Qafqaz regionunda türklərdən ibarət güclü "aralıq"

islam dövlətini yaratmaq idi. Bu dövləti yaratmaqla Türkiyə tarixi düşməni olan Rusiyadan özünü müdafiə etmək məqsədi güdürdü. A.N.Kuratın əsəri Türkiyə tarixşünaslığında AXC tarixinin təqdiqi ilə bağlı yazılmış ən dəyərli monoqrafiyalardan biridir. 13 fəsildən ibarət olan bu əsərin yeddi və səkkizinci fəsilləri 1917-1919-cu illərdə olan türk-sovet münasibətləri haqqındadır. Müəllif Türkiyə arxivlərində olan mühüm sənədləri, mövzu ilə bağlı yazılmış momnoqrafiya və memuar əsərləri, eləcə də xarici ölkələrin arxiv sənədlərini elmi şəkildə dərindən təhlil və tədqiq edərək öz dövrü üçün çox dəyərli bir elmi əsər yazmışdır.A.N.Kurat belə hesab edir ki, Azərbaycan dövlətinin istiqlalı Türkiyə tərəfindən rəsmən dərhal tanınmışdır. A.N.Kurat Azərbaycan millətini məhv etməyə çalışan Bakı Xalq Komissarlarını "erməni və rus"hakimiyyət orqanı kimi təsvir edirdi. O yazırdı :"bu qızıl idarə tamamilə müsəlman əhaliyə qarşı yönəlmişdir". Müəllif eyni zamanda Azərbaycan xalqı içərisində sinfi təbəqələşmənin zəif olduğunu və əsas kütlənin bolşeviklərə qarşı getdiyini bildirirdi. 1918-ci il iyunun 26-da baş verən döyüşdə bolşeviklər böyük itki verdilər [6,532].

A.N.Kurat Bakı azad edildikdən sonra Dağıstan əhalisinin Osmanlı imperiyasından kömək istəməsi ilə hərbi əməliyyatlar bu ərazidə davam etdirilmişdir. Oktyabrın 13-də Şimali Qafqaz Respublikasının yaradılması elan edildi. Beləliklə, Azərbaycanda və Dağıstanda iki müstəqil dövlət yarandı [6, 540-542].

Türkiyə tarixşünaslığında dahafərqli baxışlar da vardı. Belə ki, Osmanlı Türkiyəsinin Azərbaycana münasibətdə yalnız siyasi məqsədlər güddüyünü iddia edənvə bu konsepsiyanı müdafiə edənlər "Qafqaz İslam ordusu"nun Azərbaycana daxil olaraq Bakıya qədər gəlib çıxmasını tənqid edirdilər. Onlar bunu o dövrdə hərbi nazir olan Ənvər paşanın işğalçılıq planları ilə əlaqələndirirlər.K.Qarabəkir, K.Xalıq həmin konsepsiyanın tərəfdarları idilər. Bu yürüşün "işğalçılıq" əməli kimi qiymətləndirilməsi ya müxtəlif tarixçilərin və memuar müəlliflərinin "İttihad və tərəqqi" partiyasına qarşı olan şəxsi münasibətindən, ya da məsləyə rus-türk münasibətləri çərçivəsində yanaşan tarixçilərin bunu növbəti işğal prosesi kimi dəyərləndirilməsindən irəli gəlirdi. K.Qarabəkir hərbçidən daha çox siyasətçi kimi çıxış edirdi və buna görə də, Türkiyə daxilində siyasi rəqib hesab etdiyi Ənvər paşanın Bakı hücumunu tənqid edirdi, AXC-ni isə İngiltərənin siyasi aləti hesab edir, bu hökuməti devirməyə çalışırdı. K.Qarabəkir mövqeyindən yanaşan və əsərlərində yalnız ona istinad edən tarxiçilər yetişmişdi.

Onu da qeyd etmək lazımdır ki, Kazım Qarabəkir paşa Türkiyənin görkəmli hərbi və dövlət xadimi, Atatürkün yaxın silahdaşlarından biri idi. Ali hərbi təhsil almış Balkan (1912-1913) və Birinci dünya (1914-1918) müharibələrində iştirak etmiş Kazım Qarabəkir paşa Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan

bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Həmin ərazilərin müdafıəsi Os manlı ordusunun onun komandanlıq etdiyi I Qafqaz korpusuna həvalə olunmuǤdu. Naxçıvanı türk dünyasına açılan "Şərq qapısı" adlandıran Kazım Qarabəkir paǤanın komandanlıq etdiyi türk qşunu Naxçıvan mahalını erməni silahlı dəstələrinin Zəngəzur və s. yerlərdən etdikləri hücumlardan qətiyyətə qoruya bilmişdir. Azərbaycanda baş verən hadisələrlə daim yaxından maraqlanmış, Qars konfransında (1921) onun ərazi bütövlüyünün qorunub saxlanması üçün olduqca səmərəli diplomatik fəaliyyət göstərmişdir. Onun da imzaladığı Qars müqaviləsinin 5-ci maddəsinə və 3-cü əlavəsinə əsasən, Naxçıvan bölgəsinin muxtar ərazi kimi Azərbaycanın himayəsi altında saxlanılması dövlətlərarası səviyyədə razılaşdırıldı [2,81-82].

XX əsrin 70-ci illərdə nəşr olunan digər vacib bir əsər “Türk devrim tarihi” (1971) kitabıdır. Giriş və 4 fəsildən ibarət olan bu kitabın ikinci fəsilində “Şərq cəbhəsi” başlığı ilə olan hissədə Mudros sülh müqaviləsinin (30 oktyabr 1918-ci il) imzalandıqdan sonra türklərin Qafqazdan çıxması və bundan sonra ermənilərin o bölgədə yaşayan müsəlmanlara qarşı qətliam törətməsinin qarşısıalınmaz fakt olduğu qeyd olunur. Bu qətliamın az da olsa qarşısını almaq üçün müsəlman və türklərin sıx yaşadığı ərazilərdə yerli Şuralar yaradılmışdır.Onlar arasında iki əsas Şura fərqlənirdi, biri mərkəzi Qarsda olan “Cənub-qərbi Qafqaz müvəqqəti hökuməti”,digəri isə mərkəzi Naxçıvanda yaradılan Şura hökuməti idi. Gözlənildiyi kimi türk ordusu ərazini tərk edən kimi qətliamlar başlamış və bəzi ərazilər ermənilər tərəfindən işğal edilmişdir. Bu işğalın və qətliamın qarşısı 1920-ci il 3 dekabr tarixində Gümrü sülh müqaviləsinin imzalanması ilə alınmışdır [8,80-81].

XX əsrin80-ci illərdə də AXC tarixinin müxtəlif aspektləri haqqında Türkiyədə əsər və məqalələrin nəşri davam etdirilirdi. Yazılmış bu əsərlərdə 60-70-ci illərdə formalaşmış baxışlara elmi yenilik gətirilməmişdi, lakin mövzunun yeni siyasi çevrilişlər dövründə daha da dərindən araşdırılması üçün zəmin yaranmışdır. N.Dövlət, M.Öke, S.Selek və M.Yılmazın nəşr olunmuş əsərlərində mövzunun müxtəlif istiqamətləri işiqlandırılmışdır.

M.Ökenin 1986-cı ildə nəşr olunmuş “Ermeni meselesi” (1914-1923) adlı kitabı giriş, 3 fəsil və nəticədən ibarətdir. Kitabın 3-cü fəslində 1917-ci il Rus inqilabından sonra ermənilərin Qafqazda xüsusən Azərbaycanda törətdikləri 3 günlük qətliam nəticəsində qoca, qadın və uşaqlar da daxil olmaqla 20000 azərbaycanlının qətlə yetirildiyi “mart hadisələri” haqqında yazılmışdır [5,160].M.K.Ökenin kitabının birinci fəsli 1917-1918-ci illər hadisələrinə həsr edilmişdir.

Ümumiyyətlə,Türkiyədə M.Ökenin kitabı kimi “erməni məsələsi” mövzusunda yazılmış əsərlərin çoxunda 1918-ci il hadisələrinə toxunulmuşdur. Bu müəlliflər Bakıdakı Stepan Şaumyan rejimini ruslar və ermənilərin

Azərbaycan xalqı üzərində diktaturası kimi dəyərləndirirlər. Bu tarixçilər ermənilər tərəfindən törədilən 1918-ci il "mart qırğınını" erməni daşnaklarının törətdikləri qırğınlardan biri hesab edirlər. Tarixə "Mart hadisələri" kimi düşən və üç gün davam edən qırğınlar nəticəsində 20 min azərbaycanlı türk erməni və ruslar birləşmiş qüvvələri tərəfindən vəhşicəsinə qətlə yetirilib"[5,129].

M.Öke"Ermeni meselesi" kitabında Bakının əhəmiyyətini bu cümlələrlə ifadə edir: "Bolşeviklər Sovet iqtisadiyyatının Bakı nefti olmadan çökəcəyini anladıqlarından Qafqazı nüfuz dairələrinə almaq üçün erməni əsəlli S.Şaumyanı bölgəyə fövqəladə səlahiyyətli şəxs kimi bölgəyə göndərmişdilər"[5,160]. Müəllif türklərin Azərbaycana müdaxilə etməli olduğunu bu cümlələrlə qeyd edir: "erməni qətliamlarının artması və eləcə də Qafqazda baş verən hadisələrə münasibətdə böyük dövlətlərin özlərini geri çəkilməsi nəticəsində türklər Osmanlı dövlətinin Batumda daBrest-litovsk və Trabzon konfranslarında olduğu kimi sülhü ən qısa vaxtda bərpa etmək üçün hərbi güctətbiq etməkdən başqa çarələri qalmadığına inanırdılar". Eyni zamanda müəllif onu da vurğulayır ki, erməni, gürcü və azərbayanlıların bir dam altında sülh və əmin-amanlıq şəraitində yaşamasının mümkünsüzdüryəni, Cənubi Qafqaz Seyminin dağılması qaçınılmaz haldır [5,162].

M.Öke kitabında həmçinin 28 may 1918-ci il tarixində Azərbaycanın müstəqilliyini elan etməsi və 1918-ci il 4 iyuntarixində Osmanlı dövləti ilə sülh müqaviləsinin imzalandığı haqqında yazmışdır.Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq haqqında imzalanmış bu müqavilə Azərbaycan Xalq Cümhuriyyətinin hər hansı bir xarici dövlətlə bağladığı ilk müqavilə idi. Onun müqəddiməsində deyilirdi: "Bir tərəfdən, Osmanlı imperiyası və digər tərəfdən, suverenliyini elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual əsasda səmimi dostluq münasibətlərinin təsbit edilməsi üzrə qarşılıqlı sazişə gəlir". Azərbaycan üçün həmin vaxt çox əhəmiyyətli olan dördüncü maddədə göstərilirdi ki, Osmanlı hökuməti, əgər zəruri olarsa, sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Cümhuriyyətinə hərbi kömək göstərməyi öz üzərinə götürür. Azərbaycan üçün həmin vaxt ən çox əhəmiyyəti olan dördüncü maddədə göstərilirdi ki, Osmanlı hökuməti, əgər zərurət olarsa, ölkənin təhlükəsizliyinin təmin edilməsi və sülhün, əmin-amanlığın möhkəmləndirilməsiməqsədilə Azərbaycan Cümhuriyyətinə hərbi yardım göstərməyi öz üzərinə götürür[3,267].Eləcə də türklərin məqsədlərinin ekspansionizm deyil müdafiə etməkolduğunu göstərmək üçün türk ordusu Bakıya azəbaycanlı könüllülərin də daxil olduğu "Qafqaz İslam ordusu" ilə daxil olmuşdur.Müdaxilənin əsas məqsədini müəllif belə yazır:"İslam ordusu Bakını bolşevik erməni komissarı Stepan Şaumyandan qurtararaq ölkəni əsil sahibi olan azərbaycanlılara yenidən təhvil vermək üçün hərəkətə keçmişdir" [5,164].

Cəmi23ay mövcud olmağına baxmayaraq, Azərbaycan Demokratik Respublikası qısa müddət ərzində beynəlxalq arenada böyük uğurlar qazanmışdır.AXC-nin mövcudluğu dövründə qazandığı ən böyük uğur kimi 1920-ci il yanvar ayında Versal Ali Şurası tərəfindən de-fakto tanınmasını qeyd etmək olar. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin topladığı vacib tarixi təcrübə,demokratik dövlət quruculuğu bu gün onun hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikasında dönmədən həyata keçirilir [3,437].Qısa müddət ərzində sözün əsl mənasında tarixdə iz qoymuş AXC tarixinin araşdırılması həm Azərbaycan tarixçiləri üçün, həm xarici dövlətlərin, ələlxüsus da qardaş dövlətin tarixçiləri üçün öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

**Ədəbiyyat:**


1. Ağayev İ. 1917-1920-ci illər Azərbaycan tarixi Türkiyə tarixşünaslığında: tarix üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı.1993,230 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild.Bakı: Lider 2005, 440 s.
3. Azərbaycan tarixi.7 cilddə, V c.. Bakı : Elm,2008, 584 s.
4. Baykara, H. Azerbeycan istiklal mücadelesi tarihi,İstanbul,1975, 331 s.
5. Öke, M.K. Ermәni mәsәlәsi, İstanbul ,1986, 362 s.
6. Kurat, A.N. Türkiye ve Rusya, Ankara,1970, 755 s.
7. Tuğaç H. Türk istiklal harbi: Doğu cephesi (1919-1921), Genelkurmay Basım Evi, Ankara,1995, 404s.
8. Türk devrim tarihi. Ankara: Genelkurmay Basım Evi, 1971, 221 s.

# AZƏRBAYCANIN KARBOHİDROGEN EHTİYATLARI VƏ BUNUN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA ROLU

**Azər İsmayılzadə**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
aismayilzada@pfg.ae

***Açar sözlər:*** *Azərbaycan, karbohidrogen ehtiyatları, enerji təhlükəsizliyi, neft, geostrateji mövqe*

*Azərbaycan hələ qədim dövrlərdən digər təbii sərvətləri ilə yanaşı, nefti ilə də məşhur olmuşdur. XIX əsrin ikinci yarısından neftdən sənaye miqyasında istifadə olunması Azərbaycana olan marağı daha da artırdı və bu maraq hazırda da qalmaqdadır. Azərbaycan zəngin karbohodrogen yataqlarına malikdir. Ümumilikdə Xəzər hövzəsi neft ehtiyatlarının həcmi 203.2-257.7 milyard barreldir ki, bunun da 39-72 milyard barreli Azərbaycanın payına düşür. Xəzər regionunun təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 232 trilyon kub metrdir ki, bunun da 30 trilyon kub metri Azərbaycanın payına düşür. Təkcə Şahdəniz yatağındakı qazın həcmi 1.4 trilyon kub metr qiymətləndirilir.*

*Xəzər dənizi hövzəsi beynəlxalq və regional güclərin maraq dairəsinə daxil olmaqla mühüm geostrateji əhəmiyyət daşıyır və bunun da əsas hissəsini Azərbaycan və onun təbii sərvətləri təşkil edir.Hazırda Rusiya ilə Ukrayna arasında baş verən müharibə Avropa məkanının enerji təhlükəsizliyi məsələsində Xəzər hövzəsi karbohidrogen ehtiyatlarının əhəmiyyətini daha da artırmışdır.*

## ЗАПАСЫ УГЛЕВОДОРОДОВ АЗЕРБАЙДЖАНА И ЕГО РОЛЬ В ОБЕСПЕЧЕНИИ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ЕВРОПЫ

***Азер Исмаилзаде***

***Ключевые слова:*** *Азербайджан, углеводородные ресурсы, энергетическая безопасность, нефть, геостратегическое положение.*

*Азербайджан с древних времен славился своей нефтью наряду с другими природными ресурсами. Со второй половины 19 века использование нефти в промышленных масштабах повысило интерес к Азербайджану, и этот интерес сохраняется и сегодня. Азербайджан имеет богатые залежи углеводородов. В целом объем запасов нефти Каспийского бассейна составляет 203,2-257,7 млрд баррелей, из которых 39-72 млрд баррелей принадлежат Азербайджану. Объем под-*

*твержденных запасов газа Каспийского региона составляет 232 триллиона кубометров, из которых 30 триллионов кубометров принадлежат Азербайджану. Объем газа только на месторождении "Шахдениз" оценивается в 1,4 трлн. кубометров.*

*Бассейн Каспийского моря имеет большое геостратегическое значение, представляет интерес для международных и региональных держав, и основную его часть составляет Азербайджан и его природные ресурсы. Нынешняя война между Россией и Украиной еще больше повысила значение углеводородных ресурсов Каспия в энергетической безопасности Европы.*

## HIDROCARBON RESERVS OF AZERBAIJAN AND ITS ROLE IN ENSURING ENERGY SECURITY OF EUROPE

**Azer Ismailzade**

***Keywords:*** *Azerbaijan, hydrocarbon resources, energy security, oil, geostrategic position*

*Azerbaijan has been famous for its oil along with other natural resources since ancient times. From the second half of the 19th century, the use of oil on an industrial scale increased the interest in Azerbaijan, and this interest remains today. Azerbaijan has rich hydrocarbon deposits. In general, the volume of Caspian basin oil reserves is 203.2-257.7 billion barrels, of which 39-72 billion barrels belong to Azerbaijan. The volume of confirmed gas reserves of the Caspian region is 232 trillion cubic meters, of which 30 trillion cubic meters belong to Azerbaijan. The volume of gas only in the Shah Deniz field is estimated at 1.4 trillion cubic meters.*

*The Caspian Sea basin is of great geostrategic importance, being of interest to international and regional powers, and the main part of it is Azerbaijan and its natural resources. The current war between Russia and Ukraine has further increased the importance of Caspian hydrocarbon resources in the energy security of Europe.*

### Giriş

Qloballaşan dünyanı müasir dövrün ən mühüm və ən strateji xammallarından biri olan neftsiz təsəvvür etmək, demək olar ki, mümkün deyildir. Enerji mənbəyi olmaqla bərabər, təsərrüfatın hər bir sahəsində neft və neft məhsulları böyük əhəmiyyət kəsb etməkdədir. Dünyanın iqtisadi baxımdan inkişaf etmiş güc mərkəzləri neft və digər karbohidrogen ehtiyatlarına sahib olmaq və ya həmin ehtiyatların mövcud olduğu bölgə, dövlət və regionlara

nəzarəti əldə saxlamağı özlərinin strateji üstünlüklərinin və enerji təhlükəsizliklərinin təminatı hesab edirlər. Belə ki, son dövrlərdə Rusiya ilə Ukrayna arasında baş verən müharibənin nəinki bölgə xalqlarının, həmçinin Avropa məkanının da enerji təhlükəsizliyi məsələsində hansı rol oynadığı aydın görünməkdədir. Bu mənada neft, eyni zamanda beynəlxalq siyasətin və beynəlxalq münasibətlərin əsas mübarizə məsələlərindən birini təşkil edir.Neftdən sənaye miqyasında istifadə olunmağa başlamasından indiyədəkona sahib olmaq uğrunda böyük dövlətlər və şirkətlərin çox gərgin və intensiv mübarizə aparmalarının,neft mənbələrinə sahib olan ölkələrdə hakimiyyətlərin qurulması və yıxılmasının, müharibələr aparılmasının, üsyan, qiyam və iğtişaşların qaldırılmasının da baş verdiyini söyləmək və bunu sübut edən çoxlu faktlar gətirmək mümkündür. Bütün bunlar neftin təbii sərvət kimi nə qədər böyük əhəmiyyət kəsb etməsinin bariz göstəricisidir. Bu mənada Xəzər dənizi hövzəsi, o cümlədən Azərbaycan özünün geostrateji mövqeyi baxımından xüsusi rola malikdir.

**1. Qısa tarixi arayış.**

Şərqlə Qərb arasında mühüm coğrafi və strateji mövqeyə malik olan Azərbaycan qeyd edilən vəziyyəti ilə yanaşı dünyada öz təbii sərvətləri, xüsusən də neft və təbii qaz kimi karbohidrogen ehtiyatları ilə də çox məşhur olmuşdur. Azərbaycan ərazisi bu təbii sərvətlərlə zəngin olmaqla bərabər, qədim zamanlardan bunun hasilatı və istifadəsi, həmçinin ən əhəmiyyətli xammallardan biri kimi ticarəti ilə də məşğul olmuş, dünyanın müxtəlif bölgələri və dövlərinə göndərilən məhsullar arasında Azərbaycan nefti də öz yerini tapmışdır.Bunu hələ qədim və orta əsrlər dövrünə aid bir çox yazılı mənbələr də sübut edir. Alban müəllifi Musa Kalankatlının əsərində [12, s. 25] Albaniyada hasil edilən məhsullar içərisində neftin də adı çəkilir. Bundan əlavə, bir çox orta əsr ərəb müəllifləri də Azərbaycanda neftin hasilatına dair məlumat vermişlər. Bunlardan, Yaqut əl – Həməvi "Mucəm əl-Buldan" adlı əsərində Bakı şəhəri haqqında məlumat verərkən bildirmişdir: "Burada neft quyusu var. Onun icarə haqqı bir min dirhəmə çatır, o quyunun yanında isə arası kəsilmədən gecə və gündüz civə kimi qatı ağ neft püskürən başqa bir quyu vardır. Bu quyunun da icarə haqqı birincininki kimidir" [3, s.153].XIX əsrin ikinci yarısında daxili yanma mühərriklərinin ixtira olunması və neftdən sənaye miqyasında istifadə edilməyə başlanması enerji mənbəyi kimi onun əhəmiyyətini artırdı. Bununla əlaqədar, dünyanın hələ qədimdən zəngin neft yataqlarına malik olan Azərbaycan da böyük dövlət və şirkətlərin marağının cəmləşdiyi və toqquşduğu bir bölgəyə çevrildi, neftlə zəngin olan Bakının iqtisadi əhəmiyyəti xeyli artdı. Bunun nəticəsidir ki, XX əsrin əvvəllərində Bakı dünyada neft hasilatının həcminə görə birinci yerə çıxdı. Birinci və ikinci dünya müharibələri dövründə Bakıya və ən əsası da onun neft mədənlərinə sahib olmaq müharibə edən dövlətlərin əsas hədəfinə çevrildi və bunun üçün xüsusi planlar da işləyib

hazırlanmışdı. XIX əsrin sonlarından Bakı neftinə sahib olmaq uğrunda başlanan mübarizə I Dünya müharibəsindən sonra da davam etdirildi. Təsadüfi deyildir ki, Bakı neftinə qoyulmuşsərmayələrin vəziyyətini təhlil edən V. Mauther 1925-ci il martın 28-də Tayms qəzetində çap etdirdiyi məqaləsində Fransanın burada işlətdiyi neft sahələrinə yatırdığı sərmayənin miqdarının 70, Belçikanın 21, İngiltərəninkinin isə 172 milyon sterlinq olduğunu göstərmişdir [13, s.145]. İkinci dünya müharibəsi zamanı SSRİ-nin qələbəsinin təmin edilməsində Bakı neftinin həlledici rolu danılmaz fakdır. Lakin Azərbaycanın Sovet İttifaqı tərkibində olduğu müddətdə Azərbaycan xalqının ən böyük təbii sərvəti olan neftdən onun mənafeyinəlazımınca istifadə edilməmişdir. 1991-ci ildə SSRİ-nin dağılması ilə müstəqillik əldə etdikdən sonra Azərbaycan xalqıöztəbii sərvətlərindən, o cümlədənzəngin karbohidrogen ehtiyatlarından istədiyi kimi istifadə etmək imkanı qazandı. Lakin bu dövrdə ənənəvi iqtisadi əlaqələrin pozulması, texniki gerilik, əsaslı kapital qoyuluşunun azlığı və xarici investisiyanın olmaması və s. kimi səbəblərdən Azərbaycan neft sənayesində böhranlı vəziyyət yaranmışdı. Mövcud problemlərdən çıxış yolu ölkənin neft və təbii qaz sənayesinə xarici kapitalın cəlb edilməsi, bunun hesabına həmin ehtiyatların hasilatı və emalının artırılması, eyni zamanda onun dünya bazarına çıxarılaraq sərfəli şəkildə dünya qiymətlərinə uyğun satılması idi. Bu dövrdə beynəlxalq əhəmiyyətli xarici neft şirkətləri və böyük dövlətlərin, o cümlədən də qardaş Türkiyənin Azərbaycanavə onun təbii sərvətləri və karbohidrogen ehtiyatlarına böyük maraq göstərməsi həmin dövrdə mövcud problemlərin tezliklə həll edilməsinə olan ümidlərin canlanmasına gətirib çıxarırdı.

**2. Xarici dövlət və şirkətlərin Azərbaycana olan marağının səbəbləri.**

**a. Azərbaycanın geostrateji mövqeyi.**

Yuxarıda da qısa şəkildə qeyd etdiyimiz kimi xarici dövlətlərin və böyük neft şirkətlərinin bu kontekstdə Azərbaycan maraq göstərməsinin iki əsas səbəbi var idi:

- Azərbaycanın geostrateji mövqeyi
- Azərbaycanın zəngin karbohidrogen ehtiyatları

İlk növbədə Azərbaycanın geostrateji mövqeyinə diqqət yetirək. Məlum olduğu kimi, hal-hazırda dünyada gedən proseslər nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenə də özünün beynəlxalq əhəmiyyətini saxlamaqdadır. Dünyada artan enerji tələbatı və ticarət əlaqələrinin genişlənməsi səbəbindən Xəzər dənizi hövzəsi və Cənubi Qafqaz, xüsusilə Azərbaycan özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələri və s. imkanları ilə dünyanın aparıcı güc mərkəzlərinin geoiqtisadi və siyasi maraqlarının kəsişdiyi mərkəzə çevrilmişdir. Bir tərəfdən xarici siyasət və geosiyasi yönlərindəki fərqlər, digər tərəfdən dövlət idarəçiliyi və siyasi sistemlərin müxtəlifliyi, bölgədəki geosiyasi, geostrateji gücləri və imkanları, maraq və mənafe ambisiyaları arasındakı üst-üstə düşməyən məqamlar, beynəlxalq aləmin

müəyyən təhrikləri də daxil olmaqla XX əsrin son onilliyindən başlayaraq Xəzər hövzəsi ölkələrinin ciddi geoiqtisadi qarşıdurmaya sövq edilməsinə başlandı [10, s. 527]. Xəzər hövzəsi regionunda Qərb dövlətləri və Rusiya kimi beynəlxalq güclərlə yanaşı, regional və yerli əhəmiyyətli böyük və kiçik ölkələrin milli maraqları da təmsil olunur. Bunların sırasında bölgənin əsas geosiyasi gücü olan Türkiyə, həmçinin Azərbaycan, Qazaxıstan, Türkmənistan və İranı, bölgədən kənar ölkə hesab olunan Çin və regionda xüsusi strateji ərazi xarakteristikası ilə seçilən Gürcüstanı qeyd etmək olar. Geoiqtisadi parametrlər üzrə qiymətləndirmə aparan Ə. Həsənov Xəzər bölgəsindəki düşərgələrarası rəqabətin əsas hədəfləri kimi ilk növbədə aşağıdakıları qeyd etmişdir [10, s. 529-530].

- Xəzər hövzəsinin enerji ehtiyatlarına sahiblənmək, yaxud onlardan istifadə sahəsində üstün mövqeyə malik olma;
- hövzənin enerji resurslarının istehsalı və dünya bazarlarına çıxarılmasında iştirak;
- enerji istehsalında istifadə edilən texnologiya və maliyyə vəsaitinə sahiblik, yaxud makik olmaq;
- hasilatın pay bölgüsü;
- bölgənin enerji ixracı marşrutlarının və nəqliyyat-kommunikasiya sistemlərinin seçiminə təsir etmək və onların fəaliyyətinə nəzarət;
- neft-qaz istehsalı, istehlakı və ixracı sahəsindəki digər geoiqtisadi dividentlərə sahib olma və s.

Qeyd edilən amillər Xəzər hövzəsini dünyanın əsas aprıcı dövlətlərindən olan ABŞ və Rusiyanın əsas maraq dairəsi və geosiyasi hədəfinə çevrilməsinə gətirib çıxarır. Bunu həmin ölkələrin aparıcı politoloqlarının əsərlərindən də görmək mümkündür. Rusiya alimi və politoloq A. Duqin hesab edir ki, bölgənin geosiyasi xarakteristikası və əsas həlledici koordinatları tələb edir ki, burada mütəmadi olaraq Rusiyanın ABŞ və NATO alyansı ilə geosiyasi, geoiqtisadi və hərbi – geostrateji maraqları toqquşmalıdır[10, s. 530]. Müəllif bu qarşıdurmada uğur qazanmaq üçün bütün mümkün vasitələrdən istifadə etməyi məsləhət görməklə, əks təqdirdə ABŞ-ın dünya hegemonluğuna nail olacağını bildirmişdir. Bunun qarşısının alınması üsullarından biri kimi o, İranla müttəfiqlik münasibətlərini möhkəmləndirməyi və region ölkələri “daxilində İranmeylli separatçı və dini-fanatik meyilləri dəstəkləmək, qızışdırmaq, Rusiyaya sərf edəcək geosiyasi vəziyyət yaratmaq” kimi mənfur metodları belə utanmadan təklif edir

Yuxarıda qeнd edildiyi kimi,Qərb dövlətlərinin də regionda geostrateji maraqları vardır və qərb müəllifləri bunu öz əsərlərində qeyd edirlər. Z. Bjezinski həmun müəlliflərin yazdıqlarını ümumi şəkildə ifadə etmişdir. Avrasiyanı Amerika üçün əsas geosiyasi mükafat adlandıran müəllif qeyd edir ki, regional hökmranlıq uğrunda bir-birləri ilə mübarizə aparan və qlobal hakimiyyətə nail olmağa çalışan Avropa dövlətləri və xalqları minilliyin yarısı ərzində dünyanın işlərində əsas söz sahibi olmuşlar. Bu gün Avrasiyada rəhbər rolukontinentə

daxil olmayan dövlət oynayır və Amerikanın qlobal birinciliyi Avrasiya kontinentində onun üstünlüyünün nə qədər uzun sürəcəyindən və nə dərəcədə effektiv həyata keçiriləcəyindən bilavasitə asılıdır..Müəllif regionda Rusiyanın nüfuzunun azalmasına da diqqət çəkir və onun tədricən oyundankənar vəziyyətdə qalmasını xüsusi qeyd edir. "Geosiyasi çevriliş Cənub-Şərqə doğru, Xəzər dənizi hövzəsi zonasında və bütövlükdə Orta Asiyada Rusiyanın statusunun analoji əhəmiyyətli dəyişikliklərini meydana çıxardı. Sovet İttifaqının süqutuna qədər Xəzər dənizi faktiki olaraq Rusiya gölü idivə yalnız onun o qədər də böyük olmayan cənub sektoru İranla sərhəddə yerləşirdi. Müstəqil Azərbaycanın,...elə onun kimi də müstəqil Qazaxıstan və Türkmənistanın peyda olması ilə Rusiya Xəzər dənizinin sərvətlərinə beş iddiaçıdan yalnız birinə çevrildi. Rusiya indən belə bu resursların öz istəyinə uyğun istifadə edə biləcəyinə əmin ola bilməzdi". Z. Bjezinski Xəzər dənizi hövzəsi və ümumilikdə "Avrasiya balkanları"ndan bəhs edərkən Azərbaycanın regiondakı əhəmiyyətinə xüsusi diqqət ayırmışdır. "Özünün yerləşdiyi məkan etibarilə bu ölkə geosiyasi dayaq nöqtəsidir" deyən müəllif Azərbaycanı Xəzər dənizi hövzəsi və Orta Asiyanın zəngin sərvətlərinin yerləşdiyi "bardağa" çıxışa nəzarət edən ərazi kimi qiymətləndirir. "Ərazisindən keçən neft kəmərlərinin etnik cəhətdən ona qohum olan və ona siyasi köməklik göstərən Türkiyənin torpaqlarına uzanan müstəqil türkdilli Azərbaycan, regiona çıxışı inhisara alan Rusiyanın qarşısında maneəyə çevrilə və beləliklə də Moskvanı Orta Asiyanın yeni dövlətlərinin siyasətinə təsir etmək üçün əsas siyasi rıçaqdan məhrum edə bilərdi"[5, s. 193].

Beləliklə, qeyd edilənlərdən də məlum olur ki, ümumilikdə Xəzər dənizi hövzəsi beynəlxalq və regional güclərin maraq dairəsinə daxil olmaqla mühüm geostrateji əhəmiyyət daşıyır və bunun da əsas hissəsini Azərbaycan və onun təbii sərvətləri təşkil edir.

**b. Azərbaycanın karbohidrogen ehtiyatları.**

Ümumilikdə Xəzər hövzəsinin türk dövlətlərinin karbohidrogen ehtiyatları Qərb dövlətlərinin enerji təhlükəsizliyində xüsusi rola malikdir və Rusiyanın bu sahədəki monopoliyasına alternativ olmaq xarakteri də daşıyır. Buna görə də SSRİ-nin dağılması həmin dövlətlər qarşısında yeni perspektivlər açmış oldu. Bu baxımdan, SSRİ-nin dağılmasından sonra Qərb dövlətlərinin Xəzər regionu türk dövlətləri, xüsusilə də, Azərbaycan iqtisadiyyatına olan marağı daha da artdı.

Qeyd edək ki, Xəzər dənizi hövzəsi, o cümlədən Azərbaycanın neft ehtiyatlarının həcmi bu işlə məşğul olan müxtəlif institutlar və ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmışdır. Azərbaycan müstəqil olduqdan sonra xarici neft şirkətlərinin Azərbaycana gəlişi sürətlənməyə başladı. Buna əsas səbəb SSRİ-nin dağılması və Azərbaycanın böyük neft ehtiyatlarına malik

olması haqqında onlarda olan bilgi idi. Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən-quruda və suda 1 milyard 350 milyon ton, o cümlədən dəniz yataqlarından 415 milyon ton neft və təqribən 435 milyard kub metr qaz çıxarılmışdır [4, s. 31].

Con Hopkins Universitetinin Xəzər infrastrukturunun müasir beynəlxalq tədqiqi fakültəsinin apardığı tədqiqata əsasən, Xəzər dənizinin Azərbaycan, Qazaxıstan və Şərqi Türkmənistan sektorlarındakı mövcud resursların ümumi həcmi 100-200 miyard barrel həcmindədir. Bu resursların həcminə görə Xəzər regionu ümumi kəşf olunmuş ehtiyatlarının həcmi 100 milyard barrel olan Şimal dənizi regionu ilə müqayisə oluna bilər [8, s.32].ABŞ-ın Energetika Departementinin tədqiqatları da bu faktları təsdiq edir. Onların hesablamalarında Xəzər regionu neft ehtiyatlarının həcmi 200 milyard barrel qiymətləndirilir [14].

Orta Şərq ölkələrinin resurslarının 700 milyard barrel təşkil etdiyini nəzərə alsaq, onda Xəzər regionun dünyanın əhəmiyyətli neft ehtiyatları olan regionları içərisində ikinci yerdə durduğunu göstərə bilərik. Azərbaycan Respublikasının kəşf olunmuş neft ehtiyatları 12.5 milyard barrel, ehtimal edilən ehtiyatların həcmi isə 27 milyard barrel təşkil edir. Xəzərin Azərbaycan sektorunda mütəxəssislər tərəfindən 145 perspektiv struktur aşkar edilmişdir. Bunlardan 40-ı 60 metrədək, 33-ü 60-200 metrədək,72-i isə 200 metrdən çox dərinlikdə yerləşir. Proqnozlara görə, yaxın gələcəkdə Xəzərdən çıxarılan neft dünyadakı istehsalın 4 faizini təşkil edəcəkdir [14].

XXəsrin 90-cı illərində Rusiya tədqiqatçılarının qeyd etdiklərinə əsasən, Xəzər dənizi hövzəsi və Orta Asiya ölkələrinin qaz ehtiyatı 6-7 trilyon kub metr (dünya qaz ehtiyatının 4 faizi)miqdarında dəyərləndirirdilər. Bundan da Türkmənistanınkı 3.6 (2 faiz), Qazaxıstanınkı 1.95 (1.3 faiz), Azərbaycanınkı isə 0.9 (0.7 faiz) miqdarında göstərilirdi [10, s. 539].

Halbuki həmin dövrün Qərb ekspertlərinin fikrincə bu rəqəmlər azı 2-3 dəfə artıq göstərilirdi.ABŞ –ın Enerji İnformasiya Agentliyinin 1998- ci il dekabr tarixli məruzəsinə əsasən isə, İran və Rusiyanın Xəzər dənizinə yaxın bölgələri də daxil olmaqla, Xəzər bölgəsində 16-32.5 milyard barrel neft ehtiyatı var. Bu rəqəmin 15.6-32.1 milyard barrellik hissəsi Azərbaycan və Xəzər regionu türk dövlətlərinə aiddir. Bu rəqəmlər də bizə Xəzər bölgəsinin ABŞ (22 milyard barrel) və Şimal dənizi (17 milyard barrel) sahələlərindən daha çox neft ehtiyatına malik olduğunu göstərir.Ehtimal edilən əlavə neft ehtiyatlarının miqdarını nəzərə alsaq, bu göstərici daha da artmış olar. Belə ki, Azərbaycan da daxil olmaqla, Xəzər regionu türk dövlətlərinin 145 milyard barrel ehtimal edilən əlavə neft ehtiyatı vardır. Ümumilikdə götürsək, bu dövlətlərin Xəzər bölgəsindəki neft ehtiyatları 161-178 milyard barrel həcmindədir [7, s. 188]. Sonralar ABŞ-ın enerji informasiya agentliyinin məlumatlarında müəyyən dəyişikliklər edildi. Həmin məlumatlara əsasən isə Xəzər dənizi hövzəsinin neft ehtiyatlarının həcmi 17.2-71.7 milyard barreldir. Ehtimal edilən neft ehtiyat-

larının həcmi isə 186 milyard barrel qiymətləndirilir. Ümumilikdə götürdükdə isə, neft ehtiyatlarının həcmi 203.2-257.7 milyard barreldir ki, bunun da 39-72 milyard barreli Azərbaycanın payına düşür.Xəzər regionunun təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 232 trilyon kub metr, ehtimal edilən isə 328 trilyon trilyon kub metrdir (ümumilikdə 560 trilyon kub metr) ki, bunun da 65 trilyon kub metri (təsdiqlənmiş 30, ehtimal edilən 35 trilyon kub metr) Azərbaycanın payına düşür. Təkcə Şahdəniz yatağındakı qazın həcmi 1.4 trilyon kub metr qiymətləndirilir. ABŞ Dövlət Departamentinin və Milli Təhlükəsizlik Şurasının məruzəsində Xəzər hövzəsinin hazırki neft ehtiyatları təxminən 200 milyard barel (təxminən 27.5 milyard ton) miqdarında göstərilir [10, s. 541].

Ümumilikdə, Xəzər dənizi və Orta Asiya geniş bir təbii xəzinə halındadır. Belə ki, mütəxəssislər tərəfindən aparılmış hesablamalara görə, buradakı təkcə neft ehtiyatlarının 5-20 milyard ton həcmində olduğu təxmin edilməkdədir. Geoloqlar tərəfindən irəli sürülmüş nəzəriyyələrdən birinə əsasən, yerin dərinliklərində bir ucu İran körfəzi, digər ucu isə Tümen bölgəsində olan bir hövzə vardır. Lakin bunun Xəzərin altından keçən orta nöqtəsi təbii qaz və neft istehsalçıları üçün ən ümidverici hissəsidir [11, s. 174-175].

İngiltərənin məşhur Britiş Petrolium (BP) şirkətini hesablamalarına əsasən 2022-ci ildə dünya neft istehsalının həcmi 4.2 milyard ton təşkil etmişdir. Bunun da 35.1 milyon tonu Azərbaycan, 86 milyon tonu Qazaxıstan, 12 milyon tonu isə Türkmənistanın payına düşmüşdür [6, s. 16].

2021-ci il dünya qaz istehsalı həcmi 4 trilyon kub metr həcmində olmuşdur ki, bunun da 31.8 milyardı Azərbaycan, 32 milyardı Qazaxıstan, 51 milyardı Özbəkistan, 79.3 milyard kub metri isə Türkmənistanın payına düşmüşdür [6, s. 31]. Azərbaycan ərazisinin təxminən 70 faizi neft və təbii qaz yataqları üçün perspektiv hesab olunur. Ehtiyatlar baxımından Xəzər dənizinin şelfi daha perspektivlidir. Amerikan mütəxəssisləri tərəfindən buranın təsdiqlənmiş ehtiyatların həcmi 2.4-4.6 milyard ton həcmində qiymətləndirilir. Potensial ehtiyatların isə bundan bir neçə dəfə çox olduğu qeyd edilmişdir [9, s. 12]. Azərbaycanın Xəzər dənizi şelfindəki neft ehtiyatlarının təsdiqlənmiş həcmi 500 milyon-1.7 milyard tondur, ehtimal edilən ehtiyatlar isə 4.5 milyard ton həcmindədir [2, s. 41-42].

Məşhur Azərbaycan geoloq alimi, akademik X.Yusifzadənin qeydlərinə əsasən, 150 ildən artıq bir müddətdir ki, Azərbaycanda neft və təbii qazınsənaye üsulu ilə istehsalına başlanılmışdır. Bu müddət ərzində 70 neft-qaz yatağı aşkar edilmişdir ki, hal-hazırda bunlardan quruda 36-sı, dənizdə isə 18-i istismar olunmaqdadır. Bu günə qədər bu yataqlardan 1 milyard 390 milyon ton neft və 460 milyard kub metr qaz (bunlardan 330 milyard kub metri dəniz yataqlarından) hasil edilmişdir [15, s. 63, 16].

Ümumilikdə, Azərbaycan ərazisində hal-hazırda 54 neft və qaz yatağı istismar edilməkdədir. İndiyədək Azərbaycanda 1382 mln.ton neft və kondensat,

458.5 mlrd. kub m. qaz hasil edilmişdir. Dənizdə 28 neft-qaz yatağı aşkar edilmişdir ki, bunlardan 18-i indi də istismar olunur. Bu yataqlardan isə 450 mln.ton neft və kondensat, 328.1 mlrd.kub m.qaz hasil edilmişdir [1, s. 140].

Neft və qazın intensiv hasil edilməsinə baxmayaraq Azərbaycan yenə də böyük karbohidrogen ehtiyatlarına malikdir. Neft və kandesat ehtiyatlarının əksəriyyəti böyük və unikal yataqlarda cəmlənmişdir. Bunların da əksəriyyəti Abşeron arxipelaqında yerləşir. Məhz burada 70-ci illərin sonu, 80-ci illərdə Günəşli, Çıraq və Azəri kimi böyük yataqlar aşkar edilmişdir. Potensial ehtiyatların yarıdan çoxu da məhz Abşeron arxipelaqında yerləşir. Ümumilikdə isə, geofiziki metodlar vasitəsi ilə quruda və Xəzərin milli sektorunda Azərbaycanın malik olduğu karbohidrogen ehtiyatlarının həcmi 6-8 milyard ton həcmində qiymətləndirilir [1, s. 142].

Beləliklə, müxtəlif institut və tədqiqatçılar tərəfindən aparılmış hesablamalara əsasən təsdiqlənmişdir ki, Azərbaycanın zəngin neft ehtiyatları vardır və Qərb dövlətləri bu ehtiyatlardan faydalanmaqlaözlərinin enerji təhlükəsizliyini daha uzun müddətə, alternativ əsasda və etibarlı şəkildə təmin edə bilərlər. Bütün bu qeyd edilənlər Azərbaycanın geostrateji əhəmiyyətini bir daha təsdiq edir.

**Nəticə**

Beləliklə, yazılanları ümumiləşdirməklə qeyd emək olar ki, neft və digər karbohidrogen ehtiyatlar müasir dövrün əsas enerji mənbəyi kimi yenə də özünün iqtisadi və həmçinin strateji əhəmiyyətini saxlamaqdadır. Xəzər dənizi hövzəsi və o cümlədən də Azərbaycan bu sahədə mühüm əhəmiyyətə malikdir. Çoxəsrlik tarixə malik olan Azərbaycan neft sənayesi 1991-ci ildə SSRİ-nin dağılması ilə müstəqillik əldə etdikdən sonra daha da inkişaf etməyə başladı. Belə ki, Azərbaycan xalqı öz təbii sərvətlərindən, o cümlədən zəngin karbohidrogen ehtiyatlarından istədiyi kimi istifadə etmək imkanı qazandı. Bu dövrdə beynəlxalq əhəmiyyətli xarici neft şirkətləri və böyük dövlətlər həm regionun strateji əhəmiyyəti, həm də zəngin karbohidrogen ehtiyatlarından pay almaq məqsədilə regiona böyük maraq göstərməyə başladılar. Onların bura strateji cəhətdən əhəmiyyət verməsi Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub əlaqələri və s. imkanları ilə dünyanın aparıcı güc mərkəzlərinin geoiqtisadi və siyasi maraqlarının kəsişdiyi mərkəzə çevrilməsi ilə əlaqədar idi. Eyni zamanda zəngin karbohidrogen ehtiyatları da bu marağı daha da artırmışdır. Belə ki, həmin dövlətlər müxtəlif beynəlxalq tədqiqat institutları və alimlərinin apardığı hesablamalar və məruzələrin nəticələrinə əsasən dəyərləndirmələr apararaq buranın iqtisadi səmərəliliyini qiymətləndirmiş və külli miqdarda sərmayə yatırmağa qərar vermişlər.

## Ədəbiyyat

1.Алиев И. Каспийская нефть Азербайджана. М.:«Известия», 2003.

2. Амиров Дж. Запасы нефти и газа Каспийского региона и доставка их на мировой рынок // «İqtisadiyyat və audit», 2002, № 12, с. 41-45.

3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 2007.

4. Azərbaycan: Oktyabr-94, mart-95, Qəsd: Dövlət çevrilişi cəhdlərinin xronikası/ Tərtib edən: H.Orucov, Bakı: Azərnəşr, 1995, 798 s.

5. Bjezinski Z. Böyük şahmat taxtası. Bakı: 2013.

6. BP Statistical Review of World Energy 2022//www.bp.com/content/dam/bp/business-sites/en/global/corporate/pdfs/energy-economics/statistical-review/bp-stats-review-2022-full-report.pdf

7. Efegil E. Waşington'un Hazar havxası politikası ve Türkiye // "Avrasiya Dosyası", ABD özel. Ankara: yaz 2000, cilt-6, sayı-2, s. 187-203.

8. «Энергия. Экология. Экономия», 1999, № 3-4.

9. Energy Resources of the Caspian basin // "Caspian Basin". Spesial issue, 1998, № 6, p.12-14.

10. Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı: 2015.

11. İvanov S., Shelia V. Boru hattı politikası / Türk Cumhuriyyetleri ve Petrol boru hatları / Derleyen A. Yalçınkaya. İstanbul: Bağlam, 1998, s. 173-178.

12. Kalankatlı M. Albaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı: 2006.

13.Qaradağ R. Neft fırtınası. Bakı: Qanun, 2009

14.Мурадов А. Нефтяные запасы Азербайджана: состояные и перспективы использования. Газ. «Вышка», 2004, 12-18 марта.

15. Юсифзаде Х. Газ Азербайджанского сектора Каспийского моря // «Энергия. Экология. Экономия», 1999-2000, № 6-7, с. 63-71.

16. Yusifzade Kh. The status of the Caspian. // "Azerbaijan International", autumn 1994, p. 30.

# NƏSİMİ POEZİYASINDA BƏŞƏRİ SEVGİ

**Aysel Cəfərova**
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu
ayselcafarova56@gmail.com

***Açar sözlər:*** *Nəsimi, poeziya, fəlsəfə, sevgi, bəşəri sevgi.*

*Anadilli fəlsəfi poeziyanın banisi İmadəddin Nəsiminin yaradıcılığı çoxşaxəli olmaqla yanaşı fəlsəfi düşüncələr ilə də zəngindir. Bizim bu məqaləmiz dahi şair və mütəfəkkirin yaradıcılığını əhatə edən çoxsaylı mövzulardan ən genişlərindən birinə onun bəşəri sevgi anlayışına həsr olunmuşdur. Nəzərə alsaq ki, təsəvvüfdə sevgi bəşəri və ilahi olmaq üzərə mövcuddur və bir məqalədə hər iki mövzunun tam şəkildə əhatə olunması mümkün olmadığından bu məqalədə ilahi sevgiyə yer vermədən şairin sadəcə bəşəri sevgisini araşdırma mövzusu etmişik. Giriş hissədində bu mövzunun qələmə alınmasının müasir dövrdə nə üçün aktual olması barədə düşüncələr ifadə edilmişdir.*

*Məqalənin birinci hissəsində müəllif, İ. Nəsiminin şeirlərində geniş yer verdiyi bəşəri sevginin köklərini tədqiq etmişdir. Bu hissəddə müəllif, şairin şeirlərində tez-tez müraciət etdiyi Qurani-Kərimdən bəzi ayələrdən misallar göstərərək Allahın insana münasibəti, müqəddəs kitabda yer alan insan təsvirlərinə əsasən onun gözəl biçimdə yaradılmağından bəhs edir.*

*Məqalənin ikinci hissəsində müəllif insanı Allahın təzahürü olaraq görən şairin düşüncələri və şeirlərinə müraciət edərək onun bəşəri sevgisindən bəhs edir. Bu hissədə, şairin insanın gözəlliyinə və kamilliyinə baxaraq Allahın təcəllisini görməsi və buna görə də ona duyduğu sevgi və heyranlıq barədə qəzəllərə yer verilmişdir.*

*Nəticə hissəsində, müəllifin, şairin şeir və qəzəllərinin araşdırmasının sonunda əldə etdiyi ümumilikdə bəşəri sevgi barədə düşüncələri qısa şəkildə verilmişdir.*

# HUMAN LOVE İN NESİMİ'S POETRY

**Aysel Jafarova**
**ayselcafarova56@gmail.com**

***Keywords:*** *Nasimi, poetry, philosophy, love, human love*

*The founder of vernacular philosophical poetry, Imadaddin Nasimi's creativity is multifaceted and rich with philosophical thoughts. This article of*

*ours is dedicated to one of the broadest topics covering the creativity of the genius poet and thinker, his concept of human love. Considering that love in Sufism is both human and divine, and since it is impossible to fully cover both topics in one article, we have made the poet's human love the subject of research without giving place to divine love. In the introductory part, thoughts are expressed about why writing this topic is relevant in modern times.*

*In the first part of the article, the author, studied Nasimi's roots of human love, which he gave a lot of space in his poems. In this part, the author shows examples of some verses from the Holy Quran, which the poet often refers to in his poems, and talks about God's attitude towards man and his creation in a beautiful form based on the human images in the holy book.*

*In the second part of the article, the author refers to the thoughts and poems of the poet, who sees man as a of God, and talks manifestation about his love for humanity. In this part, there are ghazals about how the poet saw the manifestation of God by looking at the beauty and perfection of man, and therefore we can see his love and admiration for him.*

*In the concluding part, the thoughts of the author, about human love of the poet, in general, obtained at the end of the study of the poet's poems and ghazals are briefly presented.*

## ЧЕЛОВЕЧЕСКАЯ ЛЮБОВЬ В ПОЭЗИИ НЕСИМИ

**Айсель Джафарова**
**ayselcafarova56@gmail.com**

***Ключевые слова:*** *Насими, любовь, поэзия, философия, человеческая любовь*

*Творчество основоположника философской поэзии на родном языке Имадеддина Насими многогранно и богато философскими мыслями. Эта наша статья посвящена одной из самых широких тем, охватывающих творчество гениального поэта и мыслителя, его концепции человеческой любви. Учитывая, что любовь в суфизме и человеческая, и божественная, и так как невозможно полностью осветить обе темы в одной статье, мы сделали предметом исследования человеческую любовь поэта, не уступая место божественной любви. Во вступительной части высказываются мысли о том, почему написание данной темы актуально в наше время.*

*В первой части статьи автор изучал корни человеческой любви которой И. Насими, уделял много места в своих стихах. В этой части автор приводит примеры некоторых аятов из Священного Корана, на которые поэт часто ссылается в своих стихах, и рассказывает об*

*отношении Бога к человеку и его творении в прекрасной форме на основе человеческих образов в священной книге.*

*Во второй части статьи автор обращается к мыслям и стихам поэта, который видит в человеке проявление Бога, и говорит о своей любви к человечеству. В этой части есть газели о любви и преклонение поэта перед человеком, взглянув на красоту и совершенство человека увидив явление Бога в ним.*

*В заключительной части кратко представлены мысли автора, о человеческой любви поэта, вообще, полученные в конце изучения его стихотворений и газелей.*

## Giriş

Saysız müharibələrin baş verdiyi, insanların bir-birilərinə qarşı din, dil, irq, milli mənsubiyyət fərq etmədən aqressiya ilə dolduğu bir dördə təbii olaraq ziyalı insanlar bütün dünyanı daha tolerant və humanist olmağa çağırırlar. Yaşadığımız dövrdən bir neçə əsr öncədən bu ideyaları təbliğ edən və neçə nəsilə güclü təsir etməyi bacaran Nəsimi yaradıcılığının tədqiqi bu baxımdan aktualdır. Bizim də bu məqaləni yazarkən əsas məqsədimiz, Nəsiminin bəşəri sevgisi barədə gerçəklərə vaqif olmaq üçün onun yazıya tökdüyü sətirlərə nəzər salmaqla yanaşı eyni zamanda, mövzumuz çərçivəsində, onun yaşadığı dövrün ictimai-siyasi vəziyyətini, dərindən hakim olduğu İslam fəlsəfəsini, sufizmi, və hürufizmi də diqqətə almaqla fikirlərimizi əsaslandırmaqdır. Onu da əlavə edək ki, Nəsimi yaradıcılığının mürəkkəbliyini nəzərə alaraq, biz bu məqalədə yalnız yaradılış məsələlərinə toxunacağıq, idrak prosesini isə ayrıca bir tədqiqat mövzusu olaraq götürüləcəkdir.

**Nəsiminin insan sevgisinin kökü**

İ.Nəsimi insanı yaradılmışların ən gözəli, ən mükəmməli olaraq görürdü və bildirirdi ki, insanı sevməsi yaradanın onu sevməsinə görədir. O, tez-tez şeirlərində Quranın 95-ci surəsi "ət-Tin" -də keçən Həqiqətən, biz insanı ən gözəl quruluşda xəlq etdik (yaratdıq), sonra onu aşağılardan aşağıya atdıq." [1]ayəsinə müraciət edir. Faseh yazırdı ki, "əhsənittəqvim" dedikdə Allahın insanı surətən gözəl quruluşda yaratması nəzərdə tutulmur. Yəqin ki, Allah "Gözəl quruluş" dedikdə, insanda olan əsl, həqiqi, batini gözəllikləri, ondakı elm, əxlaq, ibadət və itaət, ümumiyyətlə onun kamilliyinə dəlalət edən gözəl xüsusiyyətləri nəzərdə tutmuşdur. Elə buna görə də insanın bir adı, daha doğrusu bir ləqəbi "əhsənittəqvim"dir, necə ki, Nəsimi başqa şeirində deyir. [2,s.52]

*Çün Əzazil əhsəni-təqvimə baş endirmədi,*
*Anda sirri-Kəbeyi-hənnan umarsan nə əcəb?!* [3,s.70]

Nəsimi, Tanrının yaratdıqlarından hamısından ən üstün insanı qılmağını Quran ayələrindən yola çıxaraq əsaslandırırdı. Məlum olduğu kimi Qurani-Kərimdə qeyb elminin bilicisinin yalnız Allah olduğu və bunu sadəcə seçilmiş şəxslərə bildirməsi barəsində bir neçə ayə mövcuddur. Məsələn, Nəml surəsi 65-ci ayədə bildirilir: *"(Ey Peyğəmbərimiz!) De: Asimanda və yerdə Allahdan başqa heç kəs qeyb elmindən agah deyildir və heç kəs nə vaxt diriləcəyini və nə vaxt qəbirdən qaldırılacağını bilmir."* *Eyni zamanda, Cin surəsi 26 və 27-ci ayələrə nəzər salaq:"O (Allah) qeyb elmini bilir və Allahın razı olduğu peyğəmbərlərdən başqa heç kəs qeyb aləminə agah deyildir."* Nəsimi də Qurana istinadən qeyb aləminin sirr olduğunu bildirənlərə qarşı insanın üzünə baxdığın təqdirdə açıq-aşkar orada qeybin sirrrlərini oxuyacağını bildirmişdir.

*Qeybi-mütləq sirrini əgərçi pünhan göstərir,*
*Aşikarə kəndözin bər vəchi-insan göstərir.* [3,s. 61]

Biz yuxarıda və aşağıda göstərdiyimiz beyti, Nəsiminin hürufizmin təsiri altında olduğu zamanlarda yazdığını güman edirik:

*Gər dilərsən, görəsən həq üzünü eynəl-yəqin,*
*Bistü-həştü sivü dü təvili bürhan göstərir.* [3,s.61]

İ. Nəsimi insanlara duyduğu dərin sevgi səbəbindən onları sadəcə bir şeyə görə ayırırdı: İnsanın kamil və cahil olmasına görə. Nəsimi cahil insana "Hər sözün fəhm etməyən adəm" deyə müraciət etmiş, kamil insana isə aşağıdaki misraları yazmışdır.

*Mərhaba, insani-kamil, canımın cananəsi,*
*Aləmin cismi sədəfdir, sənmisən dürdanəsi.* [3,s.31]

İnsanın zahirinin necə olmasından asılı olmadan, daxilində tanrı nuru olan hər kəs gözəldir. İnsanı çirkinləşdirən onun cahilliyi və bu səbəbdən də nəfsinə uymasıdır.

*Çün Əzazil əhsəni-təqvimə baş endirmədi,*
*Anda sirri-Kəbeyi-hənnan umarsan nə əcəb?!* [3,s.70]

Yuxarıdakı beytdə insanın ən uca məxluq olaraq yaradılmasına heyran olan Nəsimi, insana baş əyməyən İblisdən Kəbənin dirəyi, sütunu Hənnanın sirrini bilməyinin əbəs olduğunu vurğulamışdır.

*Səni bu hüsni-camal ilə, bu lütf ilə görən,*
*Qorxdular həq deməgə, döndülər insan dedilər.* [3,s.217]

Qurani Kərimə görə, Allah ilk insan olan Adəmi yaratdıqdan sonra ona öz ruhundan üfürmüşdür. Özündə yaradıcısı olan Allahın ruhunun hissələrini əks etdirən insana tanrı da demək mümkündür. Məhz buna görə də, Nəsimi insanı mükəmməl görürdü. İnsanın özünün Tanrının ruhunu əks etdirməsini dərk etməsi bir növ Tanrını dərk etmək sayılır. Könül Bünyadzadə, islam fəlsəfəsində panteist mövqeyə əsaslanan irrasional idrak forması barəsində yazır: "İnsanın ruhu sanki heç bir yerə tərpənmir, bütün yaradılmışları da, Yaradanı da, nisbini də, Mütləqi də öz içində tapıb dərk edir. Burada da

insanın idrak xətti Tanrıdan keçir, Lakin bu Tanrı kənar bir yerdə deyil, insanın özündədir. Mütləqi dərk etmiş insanın özü Tanrıdır." [4,s.79]

Nəsiminin bununla bağlı beytinə nəzər salaq:

*Kəndi Vücudunda çün buldu Nəsimi səni,*
*Bildi yəqin kəndidir məzhəri-ənvari-zat.* [3,s.11]

İnsana olan sevgi məhz kamil insana olmalıdır ki, öz elmi ilə hər bir sirrə vaqif olub ucalacaqdır. Buna görə də o, kamil insanı canından da əziz biri olaraq qarşılayır. Əlbəttə ki, Nəsimi kimi 3 dildə öz fəlsəfi fikirlərini rahatlıqla insanlara çatdıran biri üçün insanın maariflənməsi, kamil sayıla biləcək qədər bilgilərə sahib olması önəmlidir, həm də onun canından saya biləcəyi qədər. Şair, burada Tanrının yaratdığı bu dünyanın sədəfə və yaradılmışların ən sonuncusu və gözəli olan kamil insanı isə inciyə, mirvariyə bənzədərək onun nə dərəcədə dəyərli olduğunu vurğulamışdır. Cahil insandan bir insanın öyrənə və qazana biləcəyi bir şey yoxdur. Bunu aşağıdakı beytində belə ifadə etmişdir:

*Söhbət etmə, söhbət etmə dəgmə hər nadan ilə,*
*Nadanın tərbiyətindən həm yenə nadan bitər.* [3,s.24]

### Nəsimi poeziyasında Tanrı təzahürü olaraq insan

İ. Nəsimi, bütün yaradıcılığı boyunca Qurani-Kərimdə keçən ayələrə müraciət etmişdir. Nəsiminin gənclik illərindən heyran olduğu, şeirlərində tez-tez istifadə etdiyi "ənəl-həqq" ifadəsinin sahibi, elə Nəsimi kimi öz etiqadı uğruna, dediklərini anlaya bilməyən insanlar tərəfindən edam edilən sufi mütəfəkkir Hüseyn Mənsur Həllac da öz "Təvasin"ində Qurani-Kərimə müraciət etmişdir. Könül Bünyadzadə bu barədə yazır: "Əvvəla, Mənsur Həllac bütün əsəri boyu öz fikirlərini Qurani-Kərimdən gətirdiyi ayələrlə əsaslandırır və ya onun düşüncələri bir növ ayələrə verilmiş təfsir xarakteri daşıyır. Təsadüfi deyil ki, mütəfəkkir: "Quranda hər şeyin elmi var..." – deyə bildirir." [5,s.13]

Ümumiyyətlə, Orta əsrlər Azərbaycan ədəbiyyatında İzzəddin Həsənoğlu və Nəsimi kimi mütəfəkkirlərin qəzəllərində sufi-mistik ideyalar və obrazlar artım təşkil edirdi. Bu Nəsimi yaradıcılığında özünü daha qabarıq şəkildə göstərdi. Akademik İsa Həbibbəyli Nəsimi haqqında yazır: "Onun şeirlərində insan Orta əsrlər Şərq və Azərbaycan poeziyasında olduğu kimi aşiqanə şəkildə olmaqdan daha çox konkret olaraq fərdin mənəvi ucalığı, şəxsiyyətin daxili azadlığı və əzəməti formatında təqdim olunmuşdur. Daha doğrusu, Nəsimi insanı klassik Azərbaycan şeirindəki eşq mehrabındandan çıxardaraq ilahi varlıq səviyyəsinə doğru yol gedən həqiqət aşiqi qismində tərənnüm etmişdir." [6,s.10] Yəni, Nəsimi yaradıcılığında insan artıq sadəcə lirik aşiq olaraq deyil, eyni zamanda tanrısını sevən onu onu tapmaq üçün cəhdlər edən, eyni zamanda aciz deyil qüdrətli bir insan olaraq göstərilir.

*Mən mülki- cahan, cahan mənəm mən!*
*Mən həqqə məkan, məkan mənəm mən!* [3,s.22]

*Mən ərş ilə fərşü kafü nunam,*
*Mən şərhü bəyan, bəyan mənəm mən!* [3,s.22]
*Mən cümlə cahanü kainatam,*
*Mən dəhrü zaman, zaman mənəm mən.* [3,s.23]

Yuxarıdaki beytlərdə şair, demək olar poeziyasının əsasını təşkil edən insan haqqında dünyagörüşünü ortaya qoyaraq aciz sayılan insanı ülviləşdirir, qüdrətli göstərirdi. İnsanın bütün dünya və eyni zamanda dünyanın mülkü (yəni zənginliyi) olduğunu vurğulayaraq, həm də yer göy, bütün kainata bərabər olduğunu, insanın varlığının Allahın varlığının bəyanı, sübutu olduğunu bildirirdi. Nəsimi, ümumiyyətlə, insanın Allahın nurunun bir təzahürü olması fikrini bir çox qəzəllərində ifadə etmişdir. Məsələn, aşağıdaki beyt buna nümunə ola bilər.

*Ol gizli gəncin sirriyəm kim, zahir oldu gövhərim,*
*Ol gövhərəm kim, gün kimi aləmdə məşhur olmuşam.* [3,s.8]

Burada mütəfəkkir "gizli gənc" (gənc fars dilində xəzinə deməkdir) dedikdə "Mən gizli bir xəzinə idim. Bilinmək istədim və məxluqu yaratdım" qüdsi hədisinə istinadən Tanrını nəzərdə tutmuşdur. Tanrı bilinmək üçün insanı yaratmış və ona öz ruhundan üfürüb yer üzərinə xəlifə təyin etmişdir. İnsan da, Tanrı nurunun daşıyıcısı olaraq Tanrının varlığının birbaşa sübutudur. Buna əlavə misal olaraq Nəsiminin aşağıdakı beytini də göstərmək olar:

*Mən gənci-nihani, küntə kənzəm,*
*Mən gənci nihan, nihan mənəm mən!* [3,s.23]

Nəsimi, sufi olaraq insanın Tanrını dərk etmə yolunun, ancaq özü-özünü dərk etməkdən keçdiyini bilirdi və insanın nurlar nurunun – Tanrının təzahürü olduğundan əmin idi. Buna görə də aşağıdakı beyti qələmə almışdır.

*Kəndi vücudunda buldu Nəsimi səni,*
*Bildi yəqin kəndidir, məzhəri ənvəri zat.* [3,s.11]

İnsan özünü dərk edərsə ətrafını və ən əsas Tanrını dərk edər ki, bununla da yaradılan hər şey və hər kəsdə Onu görər. Bunu Z. Məmmədov belə ifadə edib: "Nəsimi Allahı dərk etməklə mövcud çoxluğun heçliyə varması, hər şeyin vahid varlığın təzahürü olaraq qalması fikrinə şərik olur." [7,s.254] Buna misal olaraq şairin aşağıdakı beytinə nəzər salaq:

*Mən məndə həqqi buldum, həqqəl-yəqin həqq oldum,*
*Uyxuda qaldı münkir nəqşü xəyal içində.* [3,s.33]

Nəsimi, bir sufi mütəfəkkiri olaraq, Tanrını dərk eləmək və ona çatmaq mərhələlərinin ən sonuncusuna, insanın, yuxarıda da bildirdiyimiz kimi yalnız özünə nəzər etməklə və özünü dərk etməklə çata biləcəyini vurğulamışdır. O, insanlara qarşı sevgi dolu olub onların qəlblərində gözəl şəkildə yer etmənin önəmini aşağıdakı beytində belə bildirmişdir:

*Təvafi-Kəbənin gərçi səvabı çoxdur, ey mövla,*
Könül Allah evidir gəl, təvaf etmək anı ovla! [3,s.65]

Şair, inanan insanın könlünün elə Allahın olduğu yer olaraq qəbul edərək, insan könlünü Kəbə ilə müqayisə etmişdir. Eyni baxış tərzini *"Könülmi yey, Kəbəmi yey, söylə bana aklı ərən, Yüz Kəbədən daha yeydir bir könül ziyarəti.*" [8,s.176] deyən sufi şair Yunus Əmrənin də yaradıcılığında görmək mümkündür.

Nəsimi, əslində qəlbində inam olmayan din xadimləri – sözdə "fəqihlər" və "sufiləri" tənqid edərək onların sıradan insanlardan heç bir üstünlüklərinin olmamasını və bu adlardan sadəcə qazanc vasitəsi kimi itifadə etməklərini tənqid etmişdir. Orta əsrlərdə insanları sözdə "din xadimlər"inə qarşı maarifləndirirdi.

*Ey qılan də vi ki, sufiyəm, fütüvvatın nədir?*
*Gər səfa əhlindən oldun, həqqə mir atın nədir, [3, s.17]*
*Və yaxud*
*Eyləmişsən surəti-sufiliyi dükkani-kəsb,*
*Bundan özgə var isə göstər kəramatın nədir. [3,s.17]*

Şair, ümumiyyətlə, şeirlərinin bir çoxunda özünü dindar və ya sufi kimi təqdim edən və əslində qəlblərində iman olmayan yalançı din yolçularını tənqid etmiş və sadəcə insanı tanrı tərəfindən yaradıldığı və onun yer üzündə bir tərənnümü olduğu üçün sevməyin belə yalandan namaz qılmaqdan, ibadət edirmiş kimi görünməkdən daha üstün olduğunu qeyd etmişdir. Nəsimi həqiqi dindar üçün, sufizmdə aşiq üçün ibadət etmək üçün məkanın fərqinin olmadığını, əsas olanın məşuqa olan həqiqi sevgi olduğunu qeyd edir. Onun aşağıdaki beytləri bu fikirlərinə gözəl bir nümunədir.

*Məscidü xanəgaha sən sufitək olma qürrə kim,*
*Aşiqə cümlə yerü gög məbədü sovməat olur. [3,s.58]*
Və yaxud
*Əhli-həq hər yerdə məskən dutsa həqdir mənzili,*
*Kəbəvü bütxanəvü məscid, kəlisası nədir? [3,s.20]*

Əbülfət Həsənoğlu yazır: "Könlündə Allahın üzünü görən aşiq Kəbədən üz döndərir - deyən aşiq, adi dindarlara müraciətlə gör ki, üzünü həqiqi qibləyə, Allaha tərəf çevirmişdir – söyləyir."

*Kəbədən döndərdi yüzün kim ki, gördü yüzünü,*
*Gör nə gerçək qibleyi-didarə döndərmiş yüzün. [9,s.30]*

Yuxarıda da qeyd etdiyimiz kimi sufilər insanı Tanrının yer üzərində təcəllisi kimi görürdülər. Nəsiminin də insana olan sevgisinin əsasında Tanrıya olan sevgi durur. Belə bir fikrə gəlmək mümkündür ki, şair baxdığı hər yerdə, ən çox da Qurani-Kərimə görə də "ən gözəl biçimdə yaradılmış" insan simasında Tanrını görməyi ilahi eşqin son həddi hesab edirdilər:

*Ey Nəsimi, sən həqi bil, həqqə iqrar eylə kim,*
*Çünki insanü bəşərsən, həq deyən insan mənəm! [3,s.22]*

Yuxarıdakı beytlərdə Nəsimi, Allahı tanıyıb, onu dil vasitəsilə dilə gətirməyi özünə nəsihət etmişdir. Nəsiminin bütün yaradıcılığı boyunca biz ilahi eşqlə yanaşı ən çox müraciət etdiyi mövzunun insana olan sevgi, kamil insan konsepsiyası olduğunu görürük. Onun ən məşhur və haqqında ən çox ziddiyyətli fikirlər olan "Sığmazam" rədifli şeirinə baxdıqda şeirin ilk misralarında şairin gözündə insanın ululuğunun şahidi oluruq:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam. [3,s. 4]

Burada şairin bəhs etdiyi iki dünya – daxili, yəni mənəvi dünyası və maddi həyat, insanın bədənidir. Bir insanda həm maddi, həm də mənəvi iki dünyanın yerləşə biləcəyi və eyni zamanda, insanın tək bir maddi aləmə sığa bilməyəcəyi qədər böyük və qüdrətli olmasından bəhs edir. Şairə görə, bu qədər qüdrətli yaradılmış varlıq təbii ki, cox sevilməlidir.

**Nəticə.**

Nəticə olaraq onu qeyd etmək istərdik ki, biz bu məqalə boyunca, İ. Nəsiminin bəşəri sevgi anlayışını ələ almağa çalışdıq. İlk öncə giriş hissəsində bu mövzuya müraciət etmə səbəblərindən qısaca bəhs etdik. Daha sonra Nəsiminin insana olan sevgisindən və bunun onun Allaha olan sevgisi ilə birbaşa əlaqəsindən bəhs etdik. Çünki, şairin insana sevgisi yaradana olan sevgisindən qaynaqlanırdı. Elave olaraq, biz şairin bir sufi kimi insanı Tanrının yer üzündə bir təzahürü olaraq görməsi və mədh etməsi ilə əlaqəli beytlərinə nəzər salmış və təhlil etmişik.

O, əsrlər öncədən insanlar uğruna mübarizə apardığı üçün insanların sevgisini qazanmışdır və onun təbliğ etdiyi birlik-bərabərlik ideyasında din-dil ayırım olmadan hər kəsi əhatə edirdi. İnsanların bir-birlərini dinlərini qəbul elətdirmək məqsədilə və ya öz dinlərindən görmədiklərini, kafir saydıqlarını qəddarcasına qətl etdikləri vaxtda belə tolerant olmaq həqiqətən, də Yunus Əmrənin də dediyi kimi "Yaradılanı severim Yaradandan ötrü" deməkdir. Nəsimi öz dili ilə bunu belə izzah edir:

*İsamısan, Musamısan?!*
*Ya Yusifi-Kənanmısan?!*
*Vallah ki, canım canısan,*
*Mən səndən üz döndərmərəm.*[1]

Məqaləni yazarkən apardığımız araşdırmanın sonunda gəldiyimiz nəticə - şairin yaradıcılığında geniş şəkildə öz əksini tapan insan sevgisinin qaynağı bizcə, ilk öncə İlahiyə olan sevgidən gəlir. Çünki ən nəhayətində Nəsimi bütün həyatı boyunca davam edən, insanı Tanrının təzahürü olaraq görməsi və insanı həm

[1] https://www.ens.az/az/imadeddin-nesimi-yuz-min-cefa-qilsan-mene

maddi, həm də mənəvi aləmə sahib olan, gözəlliyini gördükcə heyran olunmalı olduğunu, Allahın varlığının bir dəlili olaraq ilahi nura sahib olduğunu dəfələrlə dilə gətirmişdir. Bütün bunlar da, bu mükəmməl şəkildə yaradılmış məxluqa sevgi və hörmət hissinin duyulmasına kifayət edir. Beləliklə, Nəsimi, yaşadığı dövrün onun qarşısına çıxartdığı bütün əngəllərinə baxmayaraq dəyərsiz sayılan insanı ucaltmaqla yanaşı ona duyulan sevgini də ülviləşdirmişdir.

**Ədəbiyyat:**


1. Qurani-Kərim
2. Ramiz Faseh, Seyyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi, Bakı, "Şərq-Qərb", 2007, 392s/
3. İmadəddin Nəsimi, Seçilmiş əsərləri, Həqq məndədir, Bakı, Kitab Klubu, 2019, 378s
4. Bünyadzadə Könül Yusif qızı, Şərq və Qərb: İlahi vəhdətdən keçən özünüdərk, Bakı, 2006, 242s.
5. Təsəvvüf nurunun iki çırağı: Mənsur Həllac və Sərrac Tusi. Bakı: "Adiloğlu nəşriyyatı", - c. 7: – 2007, -192s.
6. Həbibbəyli İ. Böyük Azərbaycan şairi İmadəddin Nəsimi, AMEA Fəlsəfə İnstitutu, Nəsiminin Fəlsəfəsi və Ümumbəşəri Dəyərlər, Bakı, "Elm və təhsil" 2019, (s.4-25), 473s.
7. Zakir Məmmədov, Azərbaycan fəlsəfə tarixi, Bakı, Şərq-Qərb, 2006, 328s.
8. Hümmətova, X. Yunus Əmrə məqalələr toplusu/ Hümmətova X. – Bakı: "Elm və təhsil", - 2012, 240s.
9. Həsənoğlu, Ə. Nəsimi "Ənəlhəqqin kökləri"/ Həsənoğlu.Ə. - Bakı: "Nurlan nəşriyyatı", -2004. – 100s.
10. https://www.ens.az/az/imadeddin-nesimi-yuz-min-cefa-qilsan-mene

# BOLŞEVİZMİN MİLLİ MÜNASİBƏTLƏRDƏ TUTDUĞU MÖVQE VƏ AZƏRBAYCAN SSR-DƏ MİLLİ SİYASƏTDƏ İLK ƏYİNTİLƏR (1920-Cİ İLLƏRİN I YARISI)

**Cəfər Xanəliyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
cafar.xanaliyev1988@mail.ru

**Açar sözlər:***milli münasibətlər, formal müstəqilliyin sonu, sovet milli siyasəti, ərazi bütövlüyünə qəsd.*

*Sovet Rusiyasının Azərbaycana qarşı demək olar ki, bütün sahələrdə mahiyyət etibarilə çar Rusiyasından o qədər də fərqlənməyən imperialist və milli müstəmləkə xarakteri daşıyan siyasət tətbiq etməyə çalışması, həmçinin milli münasibətlərdə tutduğu riyakar mövqe Cənubi Qafqazın çoxmillətli ölkəsi olan Azərbaycan SSR üçün xüsusi ilə çox ağır nəticələrə gətirib çıxardı.Əgər Azərbaycan və Gürcüstan arasındakı münasibətlərdə gərginlik mənbəyi olan ərazi və sərhəd münaqişələrini tərəflərin qarşılıqlı güzəştləri əsasında nisbətən tez həll etmək mümkün olmuşdusa, lakin ən çox ərazi itirən yenə də Azərbaycan SSR oldu.*

*Moskva tərəfindən Qarabağın dağlıq hissəsində Azərbaycanın ərazi bütövlüyünə qarşı planlaşdırılan yeni qəsd həm də Ermənistandakı müxtəlif siyasi rejimlərin, sonradan isə sovet Ermənistanının başladığı ərazi iddiaları oyunu idi. Sovet milli siyasətinin rəsmi elan edilmiş prinsiplərinin praktik fəaliyyətdə ciddi təhrif edilməsi, beynəlmiləlçi respublika bolşevik rəhbərliyinin qeyri-ciddi mövqeyi və mərkəzin bu məsələdə tutduğu birtərəfli, qərəzli mövqe 1920-ci illərin ilk yarısında Ermənistanın xeyrinə tarixi ərazilərimizin itirilməsinə gətirib çıxardı. Belə bir siyasət əhalinin bolşevik hökumətinin vəd etdiyi keyfiyyətcə yeni milli münasibətlərin bərqərar olacağına bəslədiyi inamın boşa çıxması demək olmaqla bərabər, sonda Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlərimiz daxilindəki ərazimizin xeyli azalması ilə nəticələndi.*

*Sovet milli siyasətinin anti-Azərbaycan mahiyyətini müəyyən edən başqa bir istiqamət yeni hakimiyyətin ilk vaxtlar ağız dolusu vəd etdiyi milli sovet respublikalarının Sovet Rusiyası ilə tam bərabər hüquqlu əsaslarla əlaqələr saxlayacağına, sosialist cəmiyyəti qurulmasında əlbir hərəkət edəcəkləri haqqındakı bəyanat və öhdəliklərin 1920-ci ilin yayından başlayaraq ciddi dəyişikliklərə məruz qalması idi.*

*Zaqafqaziya ittifaqı və SSRİ-nin təşkili heç bir siyasi reallıq və iqtisadi zərurətdən irəli gəlməyərək, yalnız mərkəzin siyasi ambisiyalarının və məkrli planlarının zorakı üsullarla həyata keçirilməsinin nəticəsi idi.*

# ПОЗИЦИЯ БОЛЬШЕВИЗМА В НАЦИОНАЛЬНЫХ ОТНОШЕНИЯХ И ПЕРВЫЕ УКЛОНЕНИЯ В НАЦИОНАЛЬНОЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ ССР (ПЕРВАЯ ПОЛОВИНА 1920-Х ГГ.)

**Джафар Ханалиев**

**Ключевые слова:** *национальные отношения, конец формальной независимости, советская национальная политика, покушениена территориальную целостность.*

*Попытка советской России применить против Азербайджана, практически во всех сферах, политику империалистического и национального колониального характера, по существу не отличавшуюся от царской России, а также лицемерная позиция в национальных отношениях привели к очень тяжелым последствиям, особенно для Азербайджанской ССР, многонациональной страны Южного Кавказа. Если территориальные и пограничные конфликты, являющиеся источником напряженности в отношениях между Азербайджаном и Грузией, удалось разрешить относительно быстро на основе взаимных уступок, но зато Азербайджанская ССР все же потеряла больше территорий.*

*Новый заговор, спланированный Москвой против территориальной целостности Азербайджана в Нагорном Карабахе, был также игрой территориальных претензий, начатой различными политическими режимами в Армении, а затем и Советской Арменией. Серьезное искажение в практической деятельности официально провозглашенных принципов советской национальной политики, несерьезная позиция интернационалистского республиканского большевистского руководства и занимаемая в этом вопросе односторонняя, предвзятая позиция центрального руководства, привели к потере наших исторических территорий в пользу Армении в первой половине 1920-х годов. Такая политика означала потерю веры населения, обещанные большевистским правительством качественно новые национальные отношения в конечном итоге привело к значительному сокращению нашей территории чем в пределах границ во времена Азербайджанской Демократической Республики.*

*Еще одним направлением, определившим анти-Азербайджский характер советской национальной политики, было обещание новой власти в первое время, что национальные советские республики, будут*

*поддерживать отношения с советской Россией на равноправных основаниях, что они будут действовать сообща в построении социалистического общества, и обязательства, начиная с лета 1920 года, обещанния претерпели существенные изменения.*

*Основание Закфедерации и СССР не была связанно какой-либо политической реальностью или экономической необходимостью, а была лишь результатом насильственной реализации политических амбиций и коварных планов центра.*

## THE POSITION OF BOLSHEVISM IN NATIONAL RELATIONS AND THE FIRST CHANGES IN NATIONAL POLITICS IN THE AZERBAIJAN SSR (I HALF OF 1920S)

**JafarKhanaliyev**

**Key words:***national relations, end of formal independence, soviet national policy, attack on territorial integrity.*

*Soviet Russia's attempt to apply an imperialist and national-colonial policy towards Azerbaijan, which is essentially not that different from tsarist Russia in almost all areas, as well as its hypocritical position in national relations, led to particularly severe consequences for Azerbaijan SSR, a multi-ethnic country of the South Caucasus. . If the territorial and border conflicts, which are the source of tension in the relations between Azerbaijan and Georgia, were resolved relatively quickly on the basis of mutual concessions of the parties, the Azerbaijan SSR would be still the one that lost the most territory.*

*The new conspiracy planned by Moscow against the territorial integrity of Azerbaijan in the mountainous part of Karabakh was also a game of territorial claims started by different political regimes in Armenia, and later by Soviet Armenia. The serious distortion of the officially announced principles of the Soviet national policy in practical activity, the frivolous position of the Bolshevik leadership of the internationalist republic and the one-sided, biased position taken by the center on this issue led to the loss of our historical territories in favor of Armenia in the first half of the 1920s. Such a policy meant that the people's faith in the establishment of qualitatively new national relations promised by the Bolshevik government was wasted, and in the end, it resulted in a significant reduction of our territory within the borders of the Azerbaijan Democratic Republic.*

*Another direction that defines the anti-Azerbaijani nature of the Soviet national policy is that the declarations and commitments of the national Soviet republics, which the new government promised at first, that the national Soviet republics would maintain relations with Soviet Russia on the basis of full equal rights, and that they would work hand in hand in building a socialist society, were seriously violated starting from the summer of 1920.*

*The formation of the Transcaucasian Union and the USSR was not the result of any political reality or economic necessity, but only the result of the violent implementation of the political ambitions and insidious plans of the center.*

Sovet hakimiyyəti qurulmasının, onun Azərbaycanda tətbiq etdiyi sözdə bir, əməli fəaliyyətdə fərqli milli siyasətinin xalqımızın tarixində törətdiyi faciəli nəticələri çox olmuşdur. Bu siyasətin milli dövlətçiliyimizə, milli adət-ənənələrimizə, mədəniyyətimizə vurduğu zərbələr ölçüyəgəlməz dərəcədə böyükdür. Biz indiki tədqiqatımızda bunlardan yalnız bəziləri, indiyədək tarixi ədəbiyyatlarda və elmi dövriyyədə verilməmiş bir sıra məqamlar üzərində dayanmağı vacib sayırıq.

Azərbaycanda bolşevik sovet milli siyasətinin ən ağır nəticəsi sovet hakimiyyətinin elə ilk günlərindən birmənalı şəkildə qəbul olunan "müstəqillik oyunu" ilə başlamış sosialist dəyişikliklərinin həyata keçirilməsi şəraitində hər cür milli müstəqillik təzahürlərinə son qoyulmasını və sonda milli sosialist respublikalarının Sovet Rusiyanın tərkibinə qatılmasını nəzərdə tutan sovet imperiyasının yaranması ilə milli müstəqillikdən tam məhrum edilməsi idi.

Sovet milli siyasətinin həyata keçirilməsi gedişində xalqımızın başına gətirilən daha bir faciə, tarixi bəla proletar həmrəyliyi və beynəlmiləlçiliyi adı ilə əzəli və tarixi Azərbaycan torpaqlarının Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikalarına "bağışlanması" idi.

Bu faciə 70 ilə yaxın davam etsə də, 1991-ci ildə dövlət müstəqilliyinin bərpa edilməsi ilə Azərbaycanda dövlətçiliyin yeni, dönməz və daha parlaq səhifəsi açılsa da, amma mərkəzin 1920-ci illərdə müxtəlif vaxtlarda sərhəd-boyu ərazilərimizi "öz ata-baba mirası" kimi qonşu sovet respublika-larına pay verməsinin acı və ağır fəsadlarının bəlalarını biz bu gün də yaşamaqda, görməkdə davam edirik.

Qeyd edək ki, milli respublikaların müstəqilliyinin ləğvinə aparan sovet milli siyasətinin ağır nəticələrini tək biz yox, digər milli sovet respublikaları da öz üzərlərində hiss edirdilər. Yəni o vaxt beynəlxalq vəziyyətin əlverişsizliyi, daxili səbəblər və digər faktorların təsiri ilə milli müstəqilliyin qorunması mümkün olmasa da, ancaq əvvəlki "parçala, hökm sür!" imperiya siyasətini indi bir qədər dəyişilmiş formada məharətlə davam etdirən Sovet Rusiyasının qonşu

milli respublikalar arasında milli ədavəti məharətlə qızışdırmağa nail olaraq törətdiyi ərazi və sərhəd münaqişələrinin "bolşeviksayağı" həlli gedişində ən çox ərazi itkilərinə məruz qalan da məhz Azərbaycan SSR oldu.

Qafqazda hələ Rusiya çar imperiyası dövründə çoxmillətli region sayılan ərazilərin yeni sovet hakimiyyəti dövründə milli qarşıdurma və silahlı münaqişələrə çevrilməsi tamamilə gözlənilən hal olsa da, amma Sovet Rusiyasının bu vəziyyəti daha da qızışdırması, Azərbaycan SSR üçün xüsusi ilə çox ağır nəticələrə gətirib çıxardı.

Cənubi Qafqazda onlarla belə mübahisəli vəmilli zəmində qarşıdurma yaradan vəziyyətlərin çoxu Azərbaycan SSR-lə bağlı idi. Axalsıx, Borçalı vilayətləri, Qarayazı düzənliyi, Zaqatala dairəsi ən çox Azərbaycan və Gürcüstan respublikalarının qarşılıqlı iddialarının meydanı idisə, Cənubi Qafqaza XIX əsrin əvvəllərindən başlayaraq zaman-zaman köçürülüb gətirilən ermənilərin, Moskvanın xüsusi olaraq havadarlıq etdiyi Ermənistan SSR-nin əzəli torpaqlarımıza – Zəngəzur, Qarabağ, Naxçıvan, Şərur, Dərələyəz və digər ərazilərimizə iddiaları tamamilə ədalətsiz və qeyri-qanuni idi.

Sovet Rusiyası yeni yaranmış sovet milli respublikaları arasında belə ərazi mübahisələri yarandığı vaxt malik olduğu hərbi, siyasi, inzibati və digər formalar vasitəsi ilə vəziyyətin gedişinə, yerli hökumətlərin mövqeyinə təsir edib qayda-qanunu bərpa etmək və sakitliyə nail olmaq əvəzinə Azərbaycan SSR rəhbərliyindəki ziddiyyətlərdən, erməni-rus kadrlarının anti-milli mövqelərindən vəziyyəti daha da mürəkkəbləşdirmək üçün məharətlə istifadə edirdi.

Əgər Azərbaycan və Gürcüstan arasındakı münasibətlərdə gərginlik mənbəyi olan ərazi və sərhəd münaqişələrini tərəflərin qarşılıqlı güzəştləri əsasında nisbətən tez həll etmək mümkün olmuşdusa, lakin ən çox ərazi itirən yenə də Azərbaycan SSR oldu.Borçalı, Qarayazı və Axalsıx kimi türk-müsəlman əhalisinin üstünlük təşkil etdiyi bölgələrin mərkəzin ciddi təzyiqləri altında Gürcüstana verilməsi növbəti tarixi faciəmiz və ədalətsizlik idi.[14, s.127].

Bundan da ağır itkilər mərkəzin Ermənistanla Azərbaycan arasında guya, mübahisəli sayılan tarixi ərazilərimizin taleyini həll edəndə baş verdi. Azərbaycan Kommunist (bolşeviklər)Partiyası Mərkəzi Komitəsinin hazırladığı və Moskvaya göndərdiyi müxtəlif sənədlərdə istər Zəngəzurun, istərsə də Qarabağın tarixi Azərbaycan torpaqları olmasını sübut edən çoxlu sübutlar və faktlar var idi.[2]. Lakin, məhz mərkəzin siyasi ambisiyalarının, imperiya siyasətinin təzyiqləri və yerli rus-erməni bolşevik partiya funksionerlərinin satqınçılığı məsələ ətrafında mübahisə və müzakirələrin xeyli davam etməsinə, sonda isə bu günlərimizdə xalqımız üçün irili-xırdalı siyasi və milli münasibətlərlə bağlı problemlərin səbəbi olan qərarların qəbul edilməsinə gətirib çıxarmışdı.

Moskva tərəfindən Azərbaycan və Ermənistan Respublikaları arasında sərhəd və ərazi iddialarının "həll edilməsinin" guya başa çatması elan edilməsindən sonra belə, sərhədboyu ərazilərdən azərbaycanlı əhalinin dəfələrlə qaçqın düşməsi, Ermənistan tərkibində saxlanılan azərbaycanlılardan ibarət yaşayış məntəqələrində sosial-iqtisadi problemlərin get-gedə ciddiləşməsi və yerli hökumətin bu vəziyyətə tam laqeyd münasibəti, sərhədboyu Azərbaycan ərazisində əsasən ermənilərin yaşadığı yaşayış məntəqələrinin dəfələrlə Ermənistan SSR-ə birləşdirmək üçün xüsusi təşkil olunmuş seperatçılıq kampaniyaları nəinki o illərdə, həm də sonrakı on illər boyu davam etməkdə idi.

Qeyd etdik ki, Azərbaycanın tarixi torpaqlarının Ermənistana güzəşt edilməsi praktikası tarixində 1920-ci illər ən kədərli və ağır dövr kimi yadda qalmışdır.

Burada İrəvan şəhərinin hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ermənistana güzəşt edilməsini bir daha yada salmaq yerinə düşərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AXC-nin tariximizdə yeri və əhəmiyyətini yüksək qiymətləndirməklə bərabər bunu da əlavə etmişdir ki, *"AXC Milli Şurasının bu qərarı haqqında mən fikirlərimi dəfələrlə bildirmişdim. Bu gün də demək istəyirəm ki, böyük səhv və böyük cinayət idi. Ancaq bu tarixi həqiqətdir".*[6, s.210].

Beləliklə, əvvəli hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayan Ermənistanın qeyri-qanuni və ədalətsiz tələblərini müdafiə edən respublika daxilindəki və ondan kənardakı qüvvələrin köməyi ilə torpaqlarımızın itirilməsi, ərazi bütövlüyümüzün pozulması prosesi zaman-zaman davam etmişdir.

*"1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi".*[6, s.211].

Bu işdə ən dəhşətlisi isə o idi ki, Azərbaycan torpaqlarının bədnam qonşulara güzəşt edilməsi məsələsinin müzakirələrində Azərbaycanın partiya və dövlət rəhbərlərinin fikri soruşulmadan və ya rəyi nəzərə alınmadan gizli qərarlar qəbul edilirdi.

1920-ci il avqust ayının 10-da, yəni Ermənistanda sovet hakimiyyəti qurulmasından 3 aydan çox əvvəl İrəvanda daşnak Ermənistan hökuməti və Sovet Rusiyanın imzaladığı sazişdə sonuncu Zəngəzur və Naxçıvan bölgələrinin Ermənistana birləşməsi tələbinə öz razılığınıbildirmişdi.[11, s.134].Bu qərarın qəbul edilməsinə İosif Stalin və Serqo Orconikidzenin də təsiri böyük olmuşdu və bu mövqe yaxın vaxtlarda Ermənistanın sovetləşdirilməsi perspektivləri ilə əlaqələndirilirdi.RSFSR-lə Daşnaq Ermənistanı arasında imzalanmış 10 avqust, 1920-ci il müqaviləsinin altı bəndindən dördü

Azərbaycan-Ermənistan ərazi məsələlərinə aid idi. Müqavilənin ikinci bəndində deyilirdi: "Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu sazişlə müəyyən edilmiş zolaqlar istisna olmaqla mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzası və Naxçıvan diyarı RSFSR qoşunları tərəfindən tutulur".[1, iş.201, v.171-172]. Ərazi məsələləri ilə bağlı həmin müqavilədə olduqca ədalətsiz qərar qəbul edilir. Həmin müqavilənin şərtlərinə görə Azərbaycana məxsus olan Şərur-Dərələyəz bölgəsi bütövlükdə qeyd-şərtsiz Ermənistana verildi. Qarabağ, Zəngəzur və Naxçıvan isə "mübahisəli ərazilər" elan olundu. Şərur-Dərələyəz bölgəsinin belə səxavətlə Ermənistana "bağışlanması" ermənilərin iştahını daha da artırdı və Azərbaycanın digər ərazilərinin, o cümlədən Zəngəzurun işğalına siyasi zəmin yaratdı. Bununla Sovet Rusiyası Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü. Ərazi məsələri ilə bağlı mərkəzin belə ədalətsiz mövqeyinə ciddi etirazını bildirən Nəriman Nərimanov Moskvaya həyəcanlı teleqramlar və Azərbaycan nümayəndə heyətini göndərmişdi. N.Nərimanovun avqustun 12-də Lenin və Çiçerinə göndərdiyi teleqramda daşnak Ermənistanın işğalçılıq siyasətini və onu müdafiə edən Mərkəzin nümayəndələrinin birtərəfli mövqeyini qətiyyətlə pisliyir və Ermənistanın hərəkətlərinə son qoyulmasını tələb edirdi. Lakin təəssüf ki, Nəriman Nərimanovun müraciəti cavabsız qalır.

1920-ci il dekabr ayının 1-də Moskvanın birbaşa təzyiqləri altında Azərbaycan rəhbərliyi adından guya Azərbaycanın Ermənistanla mübahisəli ərazilərdən əl çəkməsi, Zəngəzurdan, Naxçıvandan imtina etməsi, Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verməsi haqqında fikirlərin rəsmən səslənməsi [7, s.7]prosesi bir günün işi deyildi. Əslində bu bəyanatın məzmunu Moskvadan başlayaraq, həmin ərəfədə Rusiya Kommunist (bolşeviklər) Partiyasının Cənubi Qafqaz Bürosunda bir neçə dəfə müzakirə edilmiş, buradakı azərbaycanlı təmsilçilərin ciddi etirazlarına baxmayaraq səs çoxluğu ilə qəbul edilmişdi.

Azərbaycan torpaqlarının taleyinin avtoritar üsullarla həlli İrəvanda sovet hakimiyyəti elan olunandan iki gün sonra, 1920-ci il dekabrın 2-də RSFSR-lə Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin xüsusi maddələri ilə davam etdirildi. Sazişin 3-cü maddəsində yazılırdı ki, Rusiya Sovet hökuməti İrəvan quberniyasının..., Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır.[3, s.63]. Ermənistan sovetləşdikdən sonra Zəngəzuru ələ keçirməyə can atan ermənilər 1920-ci ilin sonundan başlıyaraq Azərbaycan ərazilərinə hücumlarını yenə də davam etdirdilər. Rəsmi İrəvan Sovet Rusiyasının XI Qırmızı Ordusu ilə saziş imzaladı və onun köməyi ilə 1921-ci ilin iyulunda Zəngəzurun yuxarı hissəsini işğal etdilər. Beləliklə, Azərbaycan torpaqları olan 11.000 kv.km ərazimiz (buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərləyəz qəzası və Göyçə dairəsi daxil idi) Ermənistana verildi.

Doğrudur, həmin vaxt Azərbaycan rəhbərliyinin, eləcə də Naxçıvanda yerli əhalinin bu qərara etiraz çıxışlarının güclənməsi, həmçinin Osmanlı dövlətinin diplomatik təzyiqləri səbəbindən Naxçıvanın taleyi Ermənistanın (RSFSR və Ermənistan SSR arasında) planlaşdırdığı kimi həll edilmədi. Zəngəzur məsələsində isə o vaxtkı Azərbaycan rəhbərliyinin, xüsusilə də Nəriman Nərimanov və onun həmfikirlərinin öz əvvəlki mövqelərini inadla müdafiə etməsi bədnam 1920-ci il 1 dekabr bəyanatındakı müddəanın icrasının 1927-ci ilə qədər ləngiməsinə müəyyən qədər təsir edən amillərdən biri olmuşdur.

Lakin, 1920-ci illərin ikinci yarısında proletar diktaturası rejiminin sərt cəza tədbirlərinin gücləndiyi, milli bolşevik qüvvələrin beynəlmiləlçi bolşevik qüvvələri ilə mübarizədə məğlubiyyəti qəti aydın olduqdan sonra, Mərkəz bu məsələnin Ermənistanın xeyrinə həll edilməsi üçün son addımlarını da atdı. Moskvadakı himayədarlarının köməyi ilə Ermənistanın şovinist ruhlu hakim dairələri Azərbaycanın digər ərazilərini də zorla qoparıb öz ərazilərinə birləşdirməyə nail ola bildilər. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasının qərarı ilə Cəbrayıl qəzasının 24 kəndi, 1927-ci il 20 iyun tarixli iclasının qərarı ilə isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisi "mübahisəli ərazi" kimi kimə məxsus olduğu məsələsi müzakirəyə çıxarılmışdı. [17]. Zaqafqaziya MİK-in 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayənlərindən isə D.Bünyadzadə, M.C.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasında (protokol №3) Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun 3 kəndi – Tuqut, Nüvədi və Eynazur Ermənistana verildi. [10, s.231].

Bu itirilən torpaqların hamısını ürək yanğısı ilə qeyd edən Ümummilli lider Heydər Əliyev demişdir: *"...1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvan Muxtar Respublikasının 657 kv. km torpağı Ermənistana verilmişdi... Başqa torpaqlar da verilibdir...Sırf Azərbaycan kəndi olan Nüvədi kəndi də 1929-cu ildə Azərbaycanın tərkibindən Ermənistana verilibdir... Ermənilər Zəngilanı (o vaxt Cəbrayıl qəzası idi) alanda Araza çıxan ərazini 10 kilometr dəmir yol xəttini işğal etmişdilər... İndi isə 46 kilometr Arazboyu ərazini ələ keçiriblər..."*[5]. Ən ağırı isə bu idi ki, Naxçıvan bununla da Azərbaycanın əsas hissəsindən bu günədək ayrı salındı və qardaş Türkiyə ilə hər cür əlaqələr düşünülmüş şəkildə kəsildi. Sovet totalitar rejiminin milli siyasəti nəticəsində Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsiylə Azərbaycan torpaqları parçalandı, pərən-pərən salındı. Torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin və şərait yaradılıdı.

2020-ci ildə 44 günlük Zəfər Müharibəsində qələbəmizi rəsmiləşdirən 10 noyabr Üçtərəfli Bəyanatda Naxçıvana maneəsiz nəqliyyat əlaqələrinin təmin edilməsi haqqında Ermənistanın götürdüyü öhdəliyi öz himayədarlarına

arxalanaraq bu günədək yerinə yetirməməsi məsələnin əvvəlcədən düşünülüb hazırlanmış məkrli planın bir addımı olduğunu sübut edir.

Moskva tərəfindən Qarabağın dağlıq hissəsində Azərbaycanın ərazi bütövlüyünə qarşı planlaşdırılan yeni qəsd Ermənistandakı müxtəlif siyasi rejimlərin, sonradan isə sovet Ermənistanının başladığı ərazi iddiaları oyunu idi.

Qeyd etməliyik ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hərəkatında Qarabağ məsələsi digər bu sıradan olan ərazi iddiaları ilə müqayisədə xüsusi ilə davamlı olmuşdur. Lakin, Azərbaycan tərəfinin, xüsusi ilə Nəriman Nərimanovun və ona yaxın milli əqidəli rəhbər partiya-sovet kadrlarının inadkarlığı, gərgin fəaliyyəti o illərdə ermənilərin niyyətlərinin gerçəkləşməsinin qarşısını müəyyən qədər almışdı.

Tərəflərin kəskin qarşıdurmasının, siyasi mübarizəsinin mərkəzin birtərəfli mövqeyi səbəbindən güclənməsi bu məsələ ətrafında da mübarizəni get-gedə daha da şiddətləndirirdi.

İosif Stalin, Serqo Orconikidze kimi Rusiya Kommunist (bolşeviklər) Partiya rəhbərlərinin və onların yerli partiya təşkilatındakı əlaltılarının Azərbaycanın müstəqilliyinin məhdudlaşdırması yolunda, ərazi bütövlüyünün pozulması üçün göstərdikləri cəhdlərin bəzən sonadək baş tutmaması, o vaxtki siyasi reallıqları nəzərə alsaq, bəlkə də bir möcüzə idi.

Bu hadisələrin gedişində bəzən elə vəziyyətlər də yaranırdı ki, Dağlıq Qarabağın Ermənistana verilməsinin az qala Ermənistan SSR-də sosial dəyişikliklərin və sosializm cəmiyyəti qurulmasının həlledici şərti kimi qələmə verənlər öz məqsədlərinə olduqca çox yaxınlaşmış olurdular. Yalnız son anda Nəriman Nərimanov və digər milli maraqları qorumağa çalışan həmkarlarının gərgin əməyi, məqsədyönlü fəaliyyəti, xüsusi inadkarlığı sayəsində Azərbaycan əleyhinə Ermənistanın xeyrinə bir cəbhədə birləşmiş qüvvələrin plan və niyyətləri pozulurdu.

Ermənistan SSR-nin Dağlıq Qarabağa olan iddiaları haqqında Moskvadan başlayaraq partiyanın Zaqafqaziya bürosunda, onun plenumlarındakı müxtəlif müzakirələrdə söylənilmiş fikirlər və qəbul edilmiş qərarlar barədə indiyədək tarixi ədəbiyyatlarda çox yazılmışdır. Buna görə də biz indiki tədqiqatımızda elmi dövriyyədə hələlik verilməmiş, toxunulmamış bəzi məqamlar üzərində dayanmaq istərdik.

Qeyd etməliyik ki, RK(b)P Zaqafqaziya bürosunun 1921-ci il 4 və 5 iyul tarixli iclaslarının protokollarının, onların məzmunun diqqətlə təhlili hal-hazırda bizə bəzi fərqli qənaətlarimizi söyləməyə imkan verir.

Bu bir mənalı şəkildə aydındır ki, Qarabağın dağlıq hissəsinin Azərbaycan SSR tərkibində qalmasına və Azərbaycanın 1992-ci il 2 martında Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) qəbul edilərkən [9, s.9]həmin ərazinin Azərbaycanın tərkibində olmasını təsdiq edən inzibati xəritə əsas götürülməklə təşkilata üzv olmasına görə xalqımız sözün əsl mənasında Nəriman

Nərimanovun həmin 1921-ci il 4-5 iyul tarixli qərarların ətrafındakı baş verən hadisələrin gedişində nümayiş etdirdiyi əsl fədakar mövqeyinə görə çox borcludur.

Bəhs edilən 1921-ci il 4-5 iyul müzakirələri xalqımızın və onun milli maraqlarının qorunmasının nə qədər çətinliklə əldə olunduğunu bir daha yenidən göstərmiş oldu. Hər iki gündə Qafqaz bürosunun iclaslarında kəskin diskusiyyalar şəraitində gedən müzakirələrdə İosif Stalin, Serqo Orconikidze bir daha anti-azərbaycan mövqelərini nümayiş etdirərək Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə verilməsi məsələsində xüsusi fəallıq göstərmişdilər.

Məsələnin Azərbaycan SSR üçün daha fəsadlı nəticələrlə başa çatacağı variantının, bir qədər obrazlı desək, zərərsizləşdirilməsində, vəziyyətin Moskvanın emissarlarının və onların Azərbaycan rəhbərliyindəki əlaltılarının arzu etdikləri məcrada davam etməsinin qarşısının alınmasında Nəriman Nərimanovun, Azərbaycan Kommunist (bolşeviklər)Partiyası Mərkəzi Komitəsinin tərkibindəki milli ruhlu vətənpərvər nümayəndələrinin əlbir hərəkətləri müstəsna əhəmiyyət kəsb etmişdi.

Mərkəzin 1921-ci ilin iyulunda Azərbaycan partiya təşkilatına rəhbər təyin etdiyi Sovet dövlətinin ən tanınmış simalarından biri olmuş Sergey Kirovun bu məsələyə münasibətdəki mövqeyinin araşdırılması bu günə qədər sonadək araşdırılmamış bəzi məsələlərin dəqiqləşdirilməsinə kömək etmiş olardı.

Qeyd etməliyik ki, Sergey Kirov burada fəaliyyətə başladığı vaxtlarda yerli şəraitə tam bələd olmaması və yerli partiya təşkilatında qarşıdurma vəziyyətinin aradan qaldırılması yollarını tapmağa çalışdığı bir vaxtda Dağlıq Qarabağ məsələsinin müzakirələrində, müvafiq yekun qərarın ilkin variantının qəbul edilməsində, əvvəlcə, bəlkə də inersiya ilə, hələ Moskvada birgə iş şəraitindən tanıdığı İ.Stalinin və S.Orconikidzenin mövqelərində dayanmışdı.

Lakin, Sergey Kirov bəhs edilən iyul günlərində məsələ ətrafında qızğın müzakirə və mübahisələrdə Nəriman Nərimanovun və müzakirələrdə iştirak etmiş Muxtar Hacıyevin, Mirzə Davud Hüseynovun gətirdiyi arqumentlərin haqlılığını və ciddiliyini gördükdən sonra öz mövqeyinidəyişmişdi.[16, c.58].

Məhz S.Kirovun Qarabağ məsələsi ətrafında müzakirələrin gedişində gözlənilmədən mövqeyini dəyişməsi mərkəzin emissarlarının da fikirlərinin müəyyən qədər dəyişməsinə və sonda Dağlıq Qarabağa muxtariyyət statusu verilməklə, Azərbaycan SSR-nin tərkibində qalması haqqında yekun qərarın qəbul edilməsinə mühüm kömək göstərmişdi.

Lakin S.Kirov sonradan muxtariyyət məsələsinin mövcud vəziyyətdən düzgün çıxış yolu və məsələnin ədalətli həlli variantı kimi qəbul edilməsi ilə həmrəy olmamışdı.[16, c.59]. Bubaxımdan Dağlıq Qarabağın statusu məsələsində vəziyyətin hələ 1921-ci il iyunun əvvəlində müəyyənləşməsinə

baxmayaraq, onun inzibati-ərazi quruluşunun tam müəyyənləşməsinin 1923-cü ilin 7 iyuluna kimi ləngiməsində S.Kirovun mövqeyinin təsirini etiraf etməmək düzgün olmazdı.

Tədqiqatımızda aydınlıq gətirdiyimiz başqa bir məqam 1921-ci il 5 iyulda Qafqaz Bürosunun Dağlıq Qarabağa statusun hansı formada veriləcəyi, sonradan Zaqafqaziya sovetlər qurultayı, Azərbaycan K(b)P-nın qurultay və plenumlarındakı məsələyə düzəliş və əlavələrin edilməsi nəticəsində muxtariyyət statusunun aid ediləcəyi ərazilərin hüdudlarının dəyişikliyə məruz qalmasıdır.

Azərbaycan Kommunist (bolşeviklər)Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 1923-cü il 1 iyun tarixli iclasında Azərbaycan Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin qərarında “Muxtar Qarabağ vilayəti” yaratmaq tədbirləri irəli sürülmüşdü. Bunlara uyğun olaraq 1923-cü ilin 7 iyulunda Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret qəbul edilmişdi.[16, c.95].

Lakin, partiya təşkilatı və ali qanunverici orqanın qərarlarında qeyd olunduğu kimi, Qarabağın aran və dağlıq hissələrinin bir yerdə olmasını nəzərdə tutan “Muxtar Qarabağ vilayəti” yaradılması planı erməni əhalisinin üstün olduğu Qarabağın yuxarı hissəsini əhatə edən Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması variantı ilə ermənilərin gələcəkdə irəli sürəcəkləri ərazi iddiaları üçün daha əlverişli baza yaradılmasını təmin edirdi.

Muxtar vilayətin yaradılması prosesinin gedişində sovet diktaturası rejiminin təbiətindən və sovet milli siyasətinin əsl mahiyyətinin təsirindən irəli gələn başqa ciddi qanun pozuntuları da baş verdi. Dağlıq Qarabağda yaşayan azərbaycanlıların məsələ ilə bağlı rəyinin nəzərə alınmaması, status məsələsinin, heç olmazsa, orada yaşayanların iştirakı ilə referendumla müəyyən olunmaması və digər özbaşınalıqlar o vaxtkı respublikanın beynəlmiləlçi rəhbərliyi tərəfindən ört-basdır edilmişdi. Bunun zərərli və təhlükəli nəticələri özünü çox da gözlətmədi. Bu vəziyyət əvvəlcə 1945-ci ilin sonunda, sonra 1950-ci illərin axırlarında və nəhayət 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları üçün zəmin yaratmış oldu.

Beləliklə, sovet milli siyasətinin rəsmi elan edilmiş prinsiplərinin praktik fəaliyyətdə ciddi təhrif edilməsi, beynəlmiləlçi respublika bolşevik rəhbərliyinin qeyri-ciddi mövqeyi və mərkəzin bu məsələdə tutduğu birtərəfli, qərəzli mövqe 1920-ci illərdə Ermənistanın xeyrinə tarixi ərazilərimizin itirilməsinə gətirib çıxardı. Belə bir siyasət əhalinin bolşevik hökumətinin vəd etdiyi keyfiyyətcə yeni milli münasibətlərin bərqərar olacağına bəslədiyi inamın boşa çıxması demək olmaqla bərabər, sonda Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlərimiz daxilindəki ərazimizin xeyli azalması ilə nəticələndi.

Sovet milli siyasətinin anti-Azərbaycan mahiyyətini müəyyən edən başqa bir istiqamət yeni hakimiyyətin ilk vaxtlar ağız dolusu vəd etdiyi milli sovet

respublikalarının Sovet Rusiyası ilə tam bərabər hüquqlu əsaslarla əlaqələr saxlayacağına, sosialist cəmiyyəti qurulmasında əlbir hərəkət edəcəkləri haqqındakı bəyanat və öhdəliklərin 1920-ci ilin yayından başlayaraq ciddi dəyişikliklərə məruz qalması idi.

Sovet Rusiyası bolşevik hökumətinin Azərbaycan Sovet Sosialist Respublikasının mahiyyətcə formal müstəqilliyi adı almış "müstəqillik oyunu" əslində əvvəlki "beynəlmiləlçilik və bərabər hüquqlar" əsasında əməkdaşlıq vədlərindən fərqli olaraq, əvvəlcə siyasi, ardınca iqtisadi mülahizələr səbəbindən praktik fəaliyyətdə təhrif edilməyə, sonra isə inkar olunmağa başladı.

Azərbaycanda sovet hakimiyyətinin mövcudluğunun elə ilk aylarından Sovet Rusiyası ilə münasibətlərin xarakterinin dəyişməsinin ilk beş aylıq mərhələsi 1920-ci ilin sentyabrın 30-da Azərbaycan Sovet Sosialist Respublikası və Rusiya Sovet Federativ Sosialist Respublikası arasında hərbi-siyasi ittifaq müqaviləsinin imzalanması ilə yekunlaşmışdı.[4, s.52]. Müqavilənin şərtlərini diqqətlə nəzərdən keçirsək, dərhal aydın olurdu ki, Azərbaycan rəhbərliyi, guya mövcud siyasi vəziyyətin mürəkkəbliyi, iqtisadi əlaqələrin pozulduğu və "düşmən kapitalist əhatəsi" şəraitində təklikdə mövcud olmağın qeyri-mümkünlüyü ilə razılaşaraq, müstəqil dövlətçilik fəaliyyəti üçün qəbuledilməz prinsipial əhəmiyyətli sayılan bir sıra səlahiyyətlərini Rusiyaya həvalə edirdi.

Bu müqavilədən başlayaraq 1922-ci ilin martın 12-də üç Cənubi Qafqaz milli sovet respublikasının iştirakı ilə Zaqafqaziya Federasiyasının yaradılması haqqında qərar [13]qəbul edilənədək Azərbaycan SSR hökuməti əksər dövlətçilik səlahiyyətlərini Sovet Rusiyasının ixtiyarına verməklə, daha bir neçə ciddi siyasi səhvlər etmiş oldu.

Belə demək də tam doğru olmazdı ki, dövlətçilik fəaliyyətinin mühüm funksiyalarının Sovet Rusiyasına həvalə edilməsi yerli milli hökumətin təşəbbüsü və ya mövqeyinin əksi olmayaraq, mərkəzin siyasi iradəsi əsasında baş verirdi.

Sovet hökuməti qurulmasından cəmi bir neçə ay keçəndən sonra Azərbaycan SSR-də cəmiyyət və dövlət quruculuğu ilə bağlı bütün addımların yalnız Moskva ilə razılaşdırıldıqdan sonra icra edilməsi təkcə respublika rəhbərliyindəki milli mütərəqqi düşüncə tərzli və uzaqgörən bolşevik kadrların deyil, yerlərdə adi insanların da narahatçılığına və bundan irəli gələn müraciətlərin edilməsinə səbəb olurdu. Vəziyyətin bu məcrada davam etməsi tezliklə Azərbaycanın Moskvadan siyasi, iqtisadi asılılığına səbəb olacaq sosialist dəyişikliklərinin yerli şəraiti və milli xüsusiyyətləri nəzərə almadan, Sovet Rusiyasının direktiv göstərişlərinə uyğun həyata keçirilməsi Azərbaycan SSR-nin "formal müstəqilliyinə" son qoymalı, onun müstəmləkə rejiminin yeni formada davamı olan "sovet imperiyası" tərkibinə daxil edilməsi ilə nəticələnməli idi.

Sosialist quruculuğu prosesinin çətinlikləri, mövcud düşmən əhatəsi və digər əsassız mülahizələri əsas götürən Moskvanın diktəsi ilə 1920-ci ilin sonu və 1921-ci ilin ilk yarısında üç Zaqafqaziya Respublikasının nəqliyyat, ticarət və digər iqtisadi əlaqələrinin idarə olunmasının mərkəzləşdirilməsi sahəsində bir sıra addımlar atıldı.

1921-ci ilin 3 noyabrında Zaqafqaziya respublikalarının vahid ittifaq dövləti yaratması ətrafında Moskvanın başladığı siyasi oyunların yekunu olaraq hazır ittifaq müqaviləsi layihəsi təklifi irəli sürüldü.[15, c.108-109]. Azərbaycanda, müəyyən qədər də Gürcüstanda Zaqafqaziya ittifaqının açıq əleyhinə çıxanlar (Nəriman Nərimanov, Ruhulla Axundov, Mirzə Davud Hüseynov və digərləri) guya beynəlmiləlçilik mövqelərindən uzaq düşməkdə, partiyanın siyasi xəttinə qarşı çıxmaqda günahlandırılaraq müxtəlif təzyiqlərlə üzləşmişdilər. Onlar bir qədər sonra tamamilə azlıqda qalaraq, hadisələrin bu məcrada davamına hansısa təsir göstərmək imkanlarını da itirdilər.

1922-ci ilin martın 12-də üç Zaqafqaziya Sovet Sosialist Respublikası ali qanunverici orqanlarının birgə iştirakı ilə onların ittifaqının yaradılmasını təsdiq edən müqavilə imzalandı. Müqaviləyə əsasən ittifaqın iki ali orqanı – İttifaq Soveti və Ali İqtisadi Şura arasında vəzifə bölgüsü də aparıldı.[15, c.109-110].

İttifaq müqaviləsinin şərtinə əsasən üç respublikanın vahid federasiyada birləşməsi nəzərdə tutulsa da, "qısamüddətli müstəqillik" dövrünün ardınca onların, demək olar ki, bütün hüquqlarından məhrum edilmiş Zaqafqaziya milli respublikalarının yerində faktiki olaraq vahid dövlət olan ZSFSR yaradıldı. Bu təxminən bir ildən çox davam edən mərkəzin "milli müstəqillik" oyununun sonu, Azərbaycan SSR-nin onsuz da formal olan "müstəqilliyinin" ləğv edilməsində, yəqin ki, həlledici addım oldu.

1922-ci ilin 10-13 dekabrında keçirilmiş Zaqafqaziya Sovetlərinin I Qurultayında yeni ittifaqın Konstitusiyası qəbul edildi.[8, s.6]. Burada Mərkəzi İcraiyyə Komitəsinə, Xalq Komissarları Sovetinə seçkilər əvvəlcədən hazırlanmış senarı əsasında keçirilərək mərkəzin siyasi iradəsinə tam uyğun idi. Doğrudur, bəzi mülahizələrə əsaslanaraq daxili işlər, səhiyyə və digər nazirliklərin birləşdirilməsi müvəqqəti təxirə salınsa da, faktiki olaraq bütün məsələlər vahid mərkəzdən idarə olunur, ilk növbədə iqtisadi cəhətdən çox geridə qalan Gürcüstan SSR və Ermənistan SSR iqtisadiyyatının nisbətən daha zəngin iqtisadi potensiala və təbii sərvətlərə malik Azərbaycan SSR hesabına dirçəlməsinə şərait yaradılırdı.

Bu prosesdə ən ağırı o idi ki, barələrində bəhs etdiyimiz milli əqidəli və açıq dünyagörüşlü rəhbər kadrların etirazlarına heç bir əhəmiyyət verməyən mərkəz şəhərlərdə, sənaye müəssisələrində, mədəni-maarif kollektivlərində, qəzalarda, hətta kəndlərdə bu məsələnin müzakirələrinin gedişində bu qərarın "bəyənilməsini" təşkil edirdilər.

Beləliklə, Zaqafqaziya ittifaqının təşkili heç bir siyasi reallıq və iqtisadi zərurətdən irəli gəlməyərək, yalnız Mərkəzin siyasi ambisiyalarının və məkrli planlarının zorakı üsullarla həyata keçirilməsinin nəticəsi idi.

1922-ci ilin 30 dekabrında Moskvada dörd Sovet Respublikasının – RSFSR, ZSFSR, Ukrayna SSR və Belorusiya SSR-nin – vahid ittifaq yaradıb Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) adlanan dövlətdə birləşməsi də[12, s.14],demək olar ki, eyni senarı əsasında həyata keçirildi. Beləliklə, Azərbaycanın "formal" dövlət müstəqilliyinə son qoyuldu və ya milli dövlətçillik tarixində 70 ilə yaxın davam edən fasilə yarandı.

Təhlillərimiz göstərdi ki, Cənubi Qafqazda çoxmillətli region sayılan ərazilərin yeni sovet hakimiyyəti dövründə də milli qarşıdurma və silahlı münaqişələrə çevrilməsi tamamilə gözlənilən idi. Lakin, Sovet Rusiyası bu vəziyyəti daha da qızışdırdı və bu, Azərbaycan SSR üçün xüsusi ilə çox ağır nəticələr verdi.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərindən başlayaraq respublikanın ərazi bütövlüyünə yeni qəsdlər törədildi. Əslində Azərbaycan ərazisi Sovet Rusiyası tərəfindən hərraca çıxarılmışdı. Azərbaycan Sovet Sosialist Respublikasının sərhədboyu ərazilərinin bir qismi qonşu Gürcüstan və Ermənistan SSR-ə güzəştə gedildi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyəti dövründən miras qalmış 113,9 min kv. kmərazi sovet hakimiyyəti illərində 86.6 min kv. km-dək itirildi. Ermənistanın təcavüzü və Sovet Rusiyasının hərbi-siyasi təzyiqi nəticəsindəəzəli yurd yerimiz, tarixi torpaqlarımız olan Zəngəzurun cənub-qərb hissəsindəki ərazilərin də ermənilərə "bağışlanması" və burada Mehri rayonunun təşkili ilə Azərbaycan SSR özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, bu bölgə ilə əlaqələr çətinləşdi. Sovet totalitar rejiminin milli siyasəti nəticəsində Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsiylə Azərbaycan torpaqları parça-parça edildi, onunla Türkiyə arasında əlaqələr pozuldu, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin və şərait yaradılıdı.

Sovet milli siyasətinin daha bir acı təzahürü olan, əsassız erməni iddiaları əsasında 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili Azərbaycan SSR-ə qarşı törədilmiş növbəti ərazi qəsdi idi. DQMV-nin Azərbaycan SSR tərkibində təşkil olunmasına baxmayaraq bu Ermənistana və onun himayədarlarına Qarabağ üzərində gələcək siyasi oyunları üçün bir "əlyeri" imkanlarının yaradılması idi. Əslində elə belə də oldu.Sonrakı on illiklərdə cərəyan edən hadisə və proseslər göstərdi ki, DQMV Azərbaycanın suveren ərazisinəyerləşdirilmiş saatlı bomba kimi gələcəkdə davamlı olaraq Respublikamızın ərazi bütövlüyünə çox ciddi təhdidlərin törədilməsinə rəvac verirdi. Belə ki, zaman keçdikcə DQMV-nin erməni rəhbərliyi Moskvadakı bəzi havadarlarının dəstəyi ilə bu tarixi torpaqlarımızın Azərbaycan SSR tərkibindən çıxarıb Ermənistan SSR-ə birləşdirmək üçün xeyli iş aparır, bu istiqamətdə

fəallaşırdı. Nəhayət, SSRİ dağılana yaxın artıq ermənilər Qarabağda silahlandırılmışdı və bölgəni işğal etmək üçün Ermənistan Silahlı Qüvvələri 1988-ci ildən aktiv hərbi əməliyyatlara başlayaraq Azərbaycan ərazisinə təcavüz etdi. 1980-ci illərin sonu - 1990-cı illərin əvvəlində bu bölgədə baş verən silahlı qarşıdurmalar, Ermənistanın DQMV-ni özünə birləşdirmə tələbləri və Azərbaycan Respublikasına hərbi təcavüzü müharibəyə səbəb olur. Ermənistan ordusu Azərbaycan Respublikasının beynəlxalq hüquqla tanınmış ərazilərini –keçmiş DQMV-nivə ona qonşu 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğal edir. 27 sentyabr 2020-ci ildə başlayanvə möhtəşəm zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi dövrünədək 30-ilə yaxın müddətdə tarixi torpaqlarımız olan Qarabağ bölgəsi düşmən tapdağı altında qaldı.

Dediklərimizi ümumiləşdirərək deyə bilərik ki, sovet hökuməti qurulmasından dərhal sonra Azərbaycan SSR-də cəmiyyət və dövlət quruculuğu ilə bağlı bütün addımların yalnız Moskva ilə razılaşdırıldıqdan sonra icra edilməsi təkcə respublika rəhbərliyindəki milli mütərəqqi düşüncə tərzli və uzaqgörən bolşevik kadrların deyil, yerlərdə adi insanların da narahatçılığına və bundan irəli gələn müraciətlərin edilməsinə səbəb olurdu.

Sonda onu deyək ki, deyilənlərin nəticəsi olaraq Azərbaycanın Moskva-dan siyasi, iqtisadi asılılığına səbəb olacaq sosialist dəyişikliklərinin yerli şəraiti və milli xüsusiyyətləri nəzərə almadan, Sovet Rusiyasının direktiv göstəriş-lərinə uyğun həyata keçirilməsi Azərbaycan SSR-nin "formal müstəqilliyinə" son qoymalı, onun müstəmləkə rejiminin yeni formada davamı olan "sovet imperiyası" tərkibinə daxil edilməsi ilə nəticələnməli idi. Bu da özünü çox gözlətmədi.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Dövlət Arxivi. F.28, siy.1, iş.201, v.171-172.

2. Azərbaycanlıların soyqırımı və deportasiyası. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Prezident Kitabxanası // https://files.preslib.az/projects/azerbaijan/gl7.pdf.

3. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920-iyun 1941). Bakı, "Elm", 2008. 568 s.

4. Bayramova R.M. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər). Bakı, "Elm" nəşriyyatı, 2007; 196 səh.

5. Əliyev H.Ə. Naxçıvanın müxtariyyatı tarixi nailiyyətimizdir və biz bunu qoruyub saxlamalıyıq // "Azərbaycan qəzeti", 17 yanvar 1998-ci il.

6. Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz iyirmi dördüncü kitab. noyabr 2022 - dekabr 2022. Bakı, Azərnəşr, 2022; 372 səh.

7. Hacıyev İsmayıl. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və soyqırımı siyasəti // Xalq qəz., 31 mart 2019-cu il. Səh. 7.
8. İsmayılov X.C. Azərbaycanda sovet hüqunun inkişafı kontekstində konstitusion dəyişikliklər. // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2018. №1. səh. 5-22.
9. Məmmədəliyeva Leyla. BMT-Azərbaycan: 25 illik əməkdaşlığın əsas məqamları // Xalq qəz., 07 aprel 2017-ci il. Səh. 9.
10. Məmmədov N.Z. Azərbaycan dövlətçiliyi tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər). Bakı, Bakı Universiteti, 2012, 508 səh.
11. Məmmədov N.Z. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan-Ermənistan ərazi məsələləri. // Tarix və onun problemləri. №1-2. Bakı, 2009. Səh.132-141.
12. Ömərov V. Azərbaycan SSR-in ZSFSR və SSRİ-yə qatılması və formal siyasi müstəqilliyin və dövlətçiliyin ləğvi // Səs qəz., 2012, 23 noyabr. Səh. 14.
13. Paşayev A. Azərbaycanda sovet totalitar rejimi necə yarandı // "Azərbaycan" qəz., 21-22 iyul 2001-ci il.
14. Rəhmanzadə Şamil. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı, Aspoliqraf - 2008, 376 səh.
15. Багирова Ирада. Интеграционные процессы на Южном Кавказе и политика великих держав в исторической ретроспективе. // Кавказ и Глобализация. Т.1(2). 2007. с.102-113.
16.К истории образования Карабахской автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Азернешр, Баку: - 1989. с.193.
17. О том, как менялась граница Зангезура в составе Азербайджанской ССР и Армянской ССР // https://1news.az/news/20210604092857677-O-tom-kak-menyalas-granitsa-Zangezura-v-sostave-Azerbaidzhanskoi-SSR-i-Armyanskoi-SSR

# XIX əsrin ikinci yarısında çarizmin Şimali Azərbaycanda keçirdiyi bəzi aqrar islahatlar barəsində

**Ceyhun Hüseynov**
A.A.Bakıxanov adına Tarix İnstitutu
ceyhunh137@gmail.com

***Açar sözlər:*** *pay torpağı, torpaq, islahat, quberniya, Şimali Azərbaycan, Rusiya, çarizm*

*Bu məqalədə etibarlı mənbə və ədəbiyyatdan toplanmış çoxsaylı materiallar əsasında Şimali Azərbaycanda aqrar islahatların gedişi, onların mahiyyəti və nəticələri, habelə aqrar münasibətlərin tənzimlənməsinə yönəlmiş çar hökumətinin digər tədbirləri nəzərdən keçirilir.*

*Araşdırmalar inandırıcı şəkildə göstərir ki, mərkəzi imperator hökuməti dövlət torpaqlarının sahibliyindən tamamilə imtina etmək istəmirdi. Buna görə də 1900-1904-cü illərdə aparılan islahatlar dövlət kəndlilərinin pay torpaqları hesabına yalnız daimi istifadəsinə imkan verdi. Bununla belə, çarizm öz mövcudluğunun sonuna qədər dövlət kəndlilərinin öz pay torpaqlarının sahiblərinə çevrilməsinə imkan vermirdi.*

## О некоторых аграрных реформах, проведенные царизмом в Северном Азербайджане во второй половине XIX века

**Джейхун Гусейнов**

***Ключевые слова:*** *надел, земля, реформа, губерния, Северный Азербайджан, Россия, царизм*

*В настоящей статье на основе многочисленных материалов, собранных из достоверных источников и литературы рассматривается ход аграрных реформ, их суть и последствия, а также другие мероприятия царского правительства, направленные на урегулирование аграрных отношений в Северном Азербайджане. Проведенные исследования убедительно показывают, что центральное имперское правительство не хотело полностью отказаться от права собственности над казенными землями, поэтому реформы 1900-1904 гг. допускали только постоянное пользование казенных крестьян земельными наделами. Все-таки до конца своего существования царизм не допустил превращения казенных крестьян в собственников своих наделов.*

# On some agrarian reforms carried out by tsarism in Northern Azerbaijan in the second half of the 19th century

**Jeyhun Huseynov**

***Key words:*** *allotment, land, reform, province, Northern Azerbaijan, Russia, tsarism*

*In this article, on the basis of numerous materials collected from reliable sources and literature, the course of agrarian reforms, their essence and consequences, as well as other measures of the tsarist government aimed at regulating agrarian relations in Northern Azerbaijan are considered. The conducted studies convincingly show that the central imperial government did not want to completely abandon the right of ownership over state lands; therefore, the reforms of 1900-1904 allowed only the permanent use of state-owned peasants' land plots. Still, until the end of its existence, tsarism did not allow the transformation of state-owned peasants into owners of their allotments.*

21 aprel 1903-cü ildə 1900-cu il qanununu inkişaf etdirən və konkretləşdirən qaydalar qəbul olunmuşdur. Bu qanunla pay torpaqlarından istifadə hüququ olan kəndlilərin sayı xeyli azaldılırdı. Bu, minlərlə kəndlinin tamamilə torpaqsız qalması və ya pay torpaqlarınınn müəyyən hissəsindən məhrum olması demək idi. Qanuna görə iki, yaxud daha artıq icmalara ümumi torpaq sahəsinin ayrılmasına o halda icazə verilirdi ki, bütün torpaqlar və ya əkin sahələrinin bir hissəsi bu kəndlərin ümumi istifadəsində olsun. Bu zaman ümumi torpaq sahəsini almaq istəyən kəndlərin yığıncaq üzvlərinin üçdə ikisinin lehinə səs verməsi də vacib idi. Ümumi sahələrin bölünməsi üçün torpaq sahələrinin sərhədlərinin düzəldilməsi, onların daha münasib şəklə salınması məqsədilə icmalar arasında kənd yığıncaqlarının qərarı ilə torpaqların dəyiş-düyüş edilməsinə icazə verilirdi. Əgər bunun üçün icmaların razılığı olmasaydı torpaqların sərhədlərinin düzəldilməsi məqsədilə xırda sahələrin məcburi dəyiş-düyüş edilməsinə də icazə verilirdi Belə halda dəyişdilən sahələrin sahəsi 5 desyatindən çox olmamalı idi. Üzümlüklər, meyvə bağları, süni şəkildə suvarılan torpaqlar, meşə kənarları, kəndlilər tərəfindən qurudulmuş bataqlıqlar, onların saldığı meyvəliklər, mal-qara tövlələri, su quyuları icma üzvlərinin icazəsi olmadan sərhədlərin düzəldilməsi məqsədilə zorla dəyişdirilə bilməzdi [7, c. 406-407].

1903-cü il aqrar qanununda çarizmin aqrar siyasətinin mürtəce xarakteri özünü büruzə verir. Belə ki, qanunun müstəmləkə mahiyyəti onun tətbiqi zamanı xəzinə torpaqlarında məskunlaşmış yerli əhali ilə rus köçkünləri arasında ayrı seçkiliyin edilməsində özünü göstərir. Belə ki, qanunun 5-ci

bəndində bu qaydalarla səlahiyyətli orqanların icazəsi ilə dövlət torpaqlarında salınmış kəndlər və qəsəbələrin sakinlərinə torpaqların ayrılması nəzərdə tutulduğu göstərildiyi halda qanunun 7-ci bəndində göstərilir ki, bu qaydalar Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin razılığı əsasında səlahiyyətli orqanların icazəsi olmadan xəzinə torpaqlarında məskunlaşan rus köçkünlərinə aid edilirdi [7, c. 405-406].

Qanunun meşə sahələrinin ayrılması və ona görə verginin müəyyən edilməsi ilə bağlı qaydalarında bəzi icmalar üçün meşə materiallarının buraxılışının saxlanması yaxud onun meşə sahələrinin ayrılması ilə əvəz olunması Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin razılığı əsasında müəyyən olunurdusa, İrəvan quberniyasında belə əvəzlənməyə icazə verilmirdi [7, c. 412] ki, bu faktın özü də qaydaların müstəmləkəçi mahiyyətindən xəbər verir.

Qeyd olunmalıdır ki, 1900-cü ilin 1 may və 1903-cü ilin 21 aprel əsasnamələri gözlənilən nəticəni vermədi, bu dəyişikliklər dövlət xəzinə kəndlərində vergi və mükəlləfiyyət sistemini ağırlaşdıraraq mürəkkəbləşdirdi və kəndlilərin əsarəti daha da qüvvətləndirdi.

XX əsrin əvvəllərində aqrar sahədə verilmiş qanunlar dövlət kəndlilərinə aid edildiyi üçün sahibkar kəndlilərinin torpaq-mülkiyyət münasibətləri məsələsi tənzimlənməmiş olaraq qalmışdı. Bu səbəbdən də yaranmış vəziyyət sahibkar kəndlilərinin arasında da mükəlləfiyyətli münasibətlərin ləğv edilməsi məsələsini actual etmişdi.

XX əsrin əvvəllərində Cənubi Qafqaz diyarında bütün kəndli əhalisinin 1/3-i, təxminən həmin vaxta kimi 706.622 hektar torpağı ala bilməyən 118.295 təsərrüfatın durumu acınacaqlı vəziyyətdə idi. Qafqaz canişini vəzifəsində Q.S. Qolitsını əvəz edən İ.İ. Vorontsov-Daşkov 1905-ci il oktyabrın 12-də çara təqdim etdiyi "Qafqaz diyarının idarəçiliyinə dair qeydlər"ində bölgədəki qeyri-sabit vəziyyətin başlıca səbəbini əvvəlki rəhbərliyinin zamanında aqrar məsələdə buraxdığı nöqsanlarla izah edirdi. O, əhali arasında narazılıqların səbəblərindən olan onların bəylərdən olan asılı münasibətlərin dərhal ləğv edilməsininin tərəfdarı olduğunu bildirirdi [4, c. 40-41, 48]. Eyni zamanda, o, bəylərə kompensasiya ödənilməsini tamamilə zəruri hesab edərək 1905-ci il noyabrın 22-də o, Nazirlər Sovetinə dövlət xəzinəsindən sahibkarlara kompensasiya verilməsi şərti ilə torpaq mülkiyyətçilərinin torpaqlarının kəndlilərə pulsuz verilməsini nəzərdə tutan qanun layihəsini təqdim etdi [2, c. 259-261].

İmperiyanın əkinçilik naziri N. Kutler və maliyyə naziri İ.P. Şipovun qeydləri nəzərə alınaraq layihədə müəyyən düzəlişlər edilmiş və altı bənddən ibarət yeni layihə hazırlanır. Burada məcburi və ya asılı münasibətdə qalan kəndlilərə və dövlət köçkünlərinə sərəncam verildiyi gündən istifadələrində olan torpaqlara sənədlərlə müəyyən edilmiş hüdudlarda, belə sənədlərin olmaması və ya qeyri-dəqiqliyi şəraitində isə onların faktiki istifadəsində olan

torpaqlarda mülkiyyət hüququ vermək nəzərdə tutulmuşdu. Fərman verildiyi gündən onların bütün məcburi və ya asılı münasibətləri dayandırılır, kəndlilər yuxarıda qeyd olunan torpaqlar üçün müəyyən olunmuş dövlət və zemstvo vergilərini ödəməli idilər. Qanun layihəsində bu məsələ ilə bağlı xüsusi sərəncam veriləne qədər kəndlilərin göstərilən kateqoriyaları üçün torpaq mülkiyyətçilərinin torpaqlarında yerləşən otlaqlardan və meşələrdən istifadə hüququnun, habelə torpaq mülkiyyətçilərinin kəndli torpaqlarında yerləşən otlaq və meşələrdən istifadə hüququnun saxlanılması, nəzərdə tutulurdu. Üçüncü bənddə erməni kilsəsinin asılı kəndlilərinin monastırın zəruri hallarda Qafqaz canişininə aztorpaqlı və torpaqsız kəndlərə boş dövlət torpaqları hesabına torpaq sahələri ayırmağa icazə vermək nəzərdə tutulurdu. Layihəyə görə torpaq sahiblərinə təzminat olaraq təxminən 30 milyon rubl ödənməli idi. Qanun layihəsi 1906-cı il aprelin 4-də Nazirlər Şurasının iclasında müzakirə edilsə də, islahatın həyata keçirilməsi üçün ayrılacaq məbləğin Dövlət Dumasında müzkirə olunmasının zəruriliyi səbəbindən layihə dumanın müzakirəsinə verilir [2, c. 270-273].

Cənubi Qafqazda aqrar məsələnin həllinin vacibliyini dərk edən deputatlar N.S. Çxeidze, İ. Heydərov və E.P. Qeqeçkorinin təşəbbüsü ilə Dumanın 34 deputatı Zaqafqaziya kəndlilərinin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin ləğv edilməsini nəzərdə tutan layihə irəli sürdülər. Canişinlik tərəfindən 1909-cu ilin əvvəlində hazırlanan qanun layihəsinin son variantı müzakirələrdən sonra Nazirlər Kabinetinin təsdiqinə təqdim edildi və 1911-ci ildə təsdiq olundu. Dövlət Duması və Dövlət Şurası tərəfindən də təsdiqlənən qanun layihəsini 1912-ci il dekabrın 20-də II Nikolay imzaladı. Qanun "Hökumətin yardımı ilə İrəvan, Yeııizavetpol, Bakı, Tiflis və Kutaisi quberniyalarında pay torpaqların satın alınması yolu ilə kəndlilərin mülkədarlar və sahibkarlardan olan müvəqqəti mükəlləfiyyətli münasibətlərinin ləğv edilməsi haqqında əsasnamə" adlanırdı [8, c. 1687].

Qaydalara görə qanunla müəyyən edilmiş öhdəlikləri olmayan aşağıdakı torpaqlar sahibkarlara heç bir ödənc ödənmədən kəndlilərin xüsusi mülkiyyətinə verilirdi: həyətyanı sahələr; yuxarı təbəqəyə mənsub olmayanların bütün əmlakları; İrəvan quberniyası və Bakı quberniyasının Quba qəzasındakı bəy mülkləri; Yelizavetpol, Bakı və Tiflis quberniyalarındakı xan, bəy, ağalar və məliklərin qeyri-münasib ərazilərdə yerləşən və sahibkarın xeyrinə vergi ödənməyən mülklər; yuxarı təbəqəyə mənsub olmayanların mülklərində salınmış bütün bağlar; yuxarı təbəqəyə mənsub olmayanların mülklərində 18 oktyabr 1879-cu ilə kimi salınmış bağlar; eləcə də kəndli mülklərində yerləşən, sahibkarların istifadəsində olmayan əkinə yararsız bataqlıq, qumluq, qayalıq, gilli yerlər [8, c. 1689].

20 dekabr 1912-ci il və 1 yanvar 1913-cü ildə IV Dövlət Dumasının verdiyi qanuna görə, kəndlilərin daimi istifadələrində olan torpaqları satın

almalı idilər. Mülkədar kəndlilərə verilən pay torpaqları müqabilində dövlət xəzinəsindən pul almalı, kəndlilər isə həmin pulu müəyyən müddətdə xəzinəyə verməli idilər. Cənubi Qafqaz quberniyalarında feodal-asılılıq münasibətləri ləğv edilməli, torpaqlar kəndlilərin xüsusi mülkiyyətinə keçməli idi. 1913-cü il yanvar qanuni feodal mükəlləfiyyətlərini ləğv etmişdir. Kəndlilər pay torpaqlarının xüsusi mülkiyyətçilərinə çevrildilər. Bakı və Yelizavetpol quberniyalarında pay torpaqları müqabilində xəzinə mülkədarlara 10,3 milyon manat pul verməli idi. Kəndlilər həmin pulu faizi ilə birlikdə (21 milyon manat) 28–56 il ərzində ödəməli idilər. Bu qanunlar kəndlilərin vəziyyətində əsaslı dönüş yaratmasa da Azərbaycan kəndlilərində sinfi təbəqələşməni və kapitalist münasibətlərinin inkişafını sürətləndirmişdir.

Ayrı-ayrı quberniyalarda dövlət tərəfindən satın alınaraq aztorpaqlı və torpaqsız kəndlilərə verilən torpaqların sahəsi və ödəncin miqdarı aşağıdakı kimi idi: Tiflis quberniyasında 98,5 min desyatin torpaq üçün 4917864 rubl, Kutaisi quberniyasında 57244 desyatin torpaq üçün 2444146 rubl, İrəvan quberniyasında 131121 desyatin torpaq üçün 5384396 rubl, Yelizavetpol quberniyasında 268449 desyatin torpaq üçün 7404945 rubl, Bakı quberniyasında 98326 desyatin torpaq üçün isə 2963484 rubl ödənməli idi. Ödənişin hesablanması qaydası belə idi: borcun ödənməsi üçün 28, 41 və 56 il olmaqla üç müddət müəyyən olunmuşdu. Bu müddətə müvafiq olaraq da ödəncin hər manatı üçün illik ödənəcək əlavə məbləğ də müəyyən olunmuşdu ki, bu, 28 illiyə 6 qəpik, 41 illiyə 5 qəpik, 56 illiyə isə 4,5 qəpik müəyyən olunmuşdu. Ödənişin məbləği illərə bölünməli, 6 və ya 4,5 qəpiyə vurulmalı idi. Məsələn, ödənc 200 rubl olsaydı, 28 il ərzində illik ödənişlərin məbləği 200 x 6 = 12 rubl, 56 il üçün isə 200 x 4,5 = 9 rubl olacaq idi. Əslində, 28 illik müddətə kəndlilər 336 rubl, yəni alınan məbləğdən 136 rubl artıq ödəməli idilər [8, c. 1691; 2, c. 287].

Buna töycünün kapitallaşması da deyilirdi. Belə ki, bütün torpaqlar sahibkarın mülkü hesab olunduğundan kəndlilər pay torpaqlarını ondan almalı idilər. Ancaq torpaq sahibinə torpaq üçün ödənilməli olan məbləğ torpağın dəyəri ilə deyil, töycünün kapitallaşması yolu ilə müəyyən edilirdi. Ödəncin miqdarı müəyyən edilərkən, bütün feodal rentası müəyyən bir əmsalda nağd pula yenidən hesablanırdı. Torpaq mülkiyyətçiləri tərəfindən alınan məbləğ qoyulmuş kapitaldan əldə edilən gəlirin 6%-i hesab olunurdu (bu, bankdakı depozitlər üzrə hər il yığılan faizə bərabər idi). Töycünün kapitallaşması bu cür aparılırdı [5, c. 121].

1912-ci il 20 dekabr qanunu Cənubi Qafqazın digər yerlərində olduğu kimi, Azərbaycanda da 1913-cü il yanvarın 1-dən həyata keçirilməyə başlandı. Bakı və Yelizavetpol quberniyaları üzrə ödənc 1163 mülkə aid edilmişdi. 1913-cü il yanvarın 1-dən etibarən 403,4 min desyatin. pay torpağı sahibkar kəndlilərin xüsusi mülkiyyəti elan edildi, kəndlilər xüsusi mülkiyyəti olan pay

torp ağı üçün xəzinəyə faizlə birlikdə 20755376 rubl pul ödəməli idilər. Zaqatala dairəsində isə ödəncə aid edilmiş 47 kənd 20 il müddətində dövlət xəzinəsinə 284969 rubl ödənc verməli idi [3, s. 50].

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazdakı müvəqqəti mükəlləfiyyətli kəndlilərin asılılıqdan azad edilməsi prosesi Rusiyanın mərkəzi əyalətlərindən fərqlənirdi. Belə ki, əgər Rusiyanın mərkəzi əyalətlərinin kəndlisi müvəqqəti mükəlləfiyyətli münasibətlərin ləğv olunduğu vaxtdan XX əsrin əvvəllərinə kimi olan müddətdə ona verilmiş hər desyatin torpaq üçün orta hesabla 43 rubl ödəməli olmuşdusa, Cənubi Qafqazda bu rəqəm 387 rubl təşkil etmişdir [2, c. 277].

20 dekabr 1912-ci il qanunu əslində Stolıpin aqrar siyasətinin Cənubi Qafqazda həyata keçirilməsi idi. Bu siyasət torpaq sahibkarlarının hüquqları və feodal istehsal münasibətlərini saxlamağa yönəldilmişdi. Stolıpin aqrar siyasətinin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda tətbiq edilməsinin tərəfdarlarının səylərinə baxmayaraq, onların arzusu həyata keçmədi. Çünki çarizm həmin vaxta kimi həyata keçirilən islahatlarla Stolıpinin aqrar islahatının müddəalarının bütün kəndlilərin 20 faizini təşkil edən sahibkar kəndinə tətbiq olunmasına razılıq vermişdi.

Azərbaycanın şimal-qərb bölgəsində, Zaqatala dairəsində isə rəiyyətlərin bəylərdən və keşkəl sahiblərindən olan asılılığının ləğv edilməsi isə xüsusi qanunla tənzimlənmişdir. Burada kəndlilər üç qrupa bölünürdülər: heç kimə vergi ödəməyən kəndlilər – 8700 tüstü; keşkəl kənd sakinləri – 3000 tüstü; bəy kəndlərinin sakinləri – 900 tüstü [1, c. 126]. Zaqatala dairəsində torpaq mülkiyyət münasibətlərini tənzimləmək məqsədilə hələ 1869-cu ildə təşkil olunmuş silki-torpaq komissiyası 1874-cü ilin mayında özünün islahat layihəsini təqdim etsə də təşkil olunsa da bu islahat həyata keçirilməmiş qalmışdı [1, c. 134, 148].

Belə vəziyyət XX əsrin əvvəllərinə kimi davam etmiş, məhz həmin vaxtı dairədə torpaq-mülkiyyət münasibətlərinin nizamlanması məqsədilə işlərə başlanılmışdır. Bu məqsədlə 1908-ci ildə Qafqaz canişini tərəfindən kəndlilərlə bəylər arasındakı münibətləri tezliklə həll etmək məqsədilə Tiflisdə inzibati və vergi müfəttişliyinin tərkibində mülki hissə üzrə köməkçisi E.Vatanatsinin başçılığı ilə idarənin və vergi müfəttişliyinin məmurları, eləcə də bəylərin nümayəndələrinin iştirakı ilə"Xüsusi şura" təşkil etdi. Toplanan müşavirə islahat planını işləyib hazırladı və qərara aldı ki, "mükəlləfiyyətlərin ödənilərək alınması" yolu ilə asılı münasibətləri aradan qaldırmaq olar. Lakin qeyd olundu ki, bunun üçün onların növlərini, ölçülərini və pul ifadəsində dəyərini müəyyən etmək lazımdır. Bu işləri həyata keçirmək üçün Teymur-Xan-Şurada vilayətin hərbi qubernatoru S.Volskinin başçılığı ilə bütün dairələrin rəisləri, vergi müfəttişləri və maraqlı tərəflərin nümayəndələrindən (bəylər və kəndlilər) ibarət "Müvəqqəti vilayət komissiyası" yaradıldı [10, c. 86].

Bu komissiya, kəndlilərlə bəylər arasındakı asılı münasibətlərin mənşəyi və hazırkı vəziyyəti barədə, habelə hər bir kənd üçün ödədikləri mükəlləfiyyətləri pula çevirməklə miqdarı və onu alan bəylər haqqında müfəssəl nəticə hazırlayır. Bəylərə ödəniləcək ödəncin hesablanması zamanı 1908-ci ildən əvvəlki son beş ilin orta qiymətlərindən istifadə edilmişdir. Komissiyanın tərtib etdiyi cədvəldə ödəncin yerinə yetirildiyi bölgənin hər bir kəndi üzrə onun pulla dəyəri, rüsumların illik məbləğinin 10 mislini təşkil edən ödənilmə miqdarı, habelə rüsumların ödənilməsi zamanı ayrı-ayrı təsərrüfatların xəzinəyə ödəyəcəkləri ödənişlərin orta ölçüsü göstərilmişdi. Uzunsürən müzakirələrin nəticəsi olaraq canişin dəftərxanası tərəfindən iki qanun layihəsi hazırlandı - "Dağıstan vilayəti və Zaqatala dairəsinin kəndlilərinin bəylər və keşkəl sahiblərindən olan asılı münasibətlərinin ləğv edilməsi haqqında" və "Dağıstan vilayəti və Zaqatala dairəsinin əhalisinin torpaq idarəçiliyi haqqında" [10, с. 87].

Hər iki layihə Dövlət Dumasına təqdim olunsa da uzun müzakirələrdən sonra mahiyyəti kənd icmaları, ayrı-ayrı sahibkarlar və məscidlərin faktiki istifadəsində olan torpaqların onların mülkiyyətində saxlanmasından ibarət olan "Dağıstan vilayəti və Zaqatala dairəsinin əhalisinin torpaq idarəçiliyi haqqında" layihə təsdiq olunmur. "Dağıstan vilayəti və Zaqatala dairəsinin kəndlilərinin bəylər və keşkəl sahiblərindən olan asılı münasibətlərinin ləğv edilməsi haqqında" layihə 1913-cü il iyunun 21-də Dövlət Dumasının iclasında müzakirə olundu. Duma komissiyasının məruzəçisi Xarlamov deputatları Rusiya hakimiyyətinin təqsiri səbəbindən Qafqazda bu günə qədər davam etmiş təhkimçiliyin qalıqlarına son qoymağa və qanun layihəsini tələsik qaydada qəbul etməyə çağırdı [10, с. 87].

Qanun layihəsi Dumada 1913-cü il iyunun 22-də son variantda təsdiq edildi. 1913-cü il iyulun 7-də IV Dövlət Duması tərəfindən təsdiq olunmuş "Dağıstan vilayəti və Zaqatala dairəsinin kəndlilərinin bəylər və keşkəl sahiblərindən olan asılı münasibətlərinin ləğv edilməsi və bu yerlərdə kəndli işlərinin qurulması haqqında" qanun imperator II Nikolay tərəfindən təsdiq edildi [9, с. 733-735].

Qaydalarla (1-ci maddə) müəyyən edilirdi ki, 1913-cü il yanvarın 1-dən bütün tabeliyində olan kəndlilər bəylərin və keşkəl sahiblərinin xeyrinə vergi ödəməkdən azad edilirlər. Ləğv edilmiş mükəlləfiyyətlərə görə bəylərə xəzinədən birdəfəlik müavinət verilirdi ki, kəndlilər onu 20 il ərzində dövlətə qaytarmalı idilər. Zaqatala dairəsi üzrə bəylərə və keşkəl sahiblərinə ödəniləcək ödəncin məbləği 284968 rubl müəyyən olunmuşdu [6, справочный отдел, с. 148].

1913-cü ilin sentyabrın 1-dən yerlərdə qanunun icrası zamanı baş verə biləcək müxtəlif xarakterli narazılıqların baxılması funksiyası həvalə edilmiş 20-i Dağıstan vilayətində, 3-ü isə Zaqatala dairəsində olmaqla ümumilikdə 23

barışdırıcı münsif vəzifəsi təsis olunurdu. Onların hər birinə də bir tərcüməçi müəyyən olunurdu. Xəzinədən münsiflərin saxlanması üçün ildə 46 min rubl, tərcüməçilərin axlanması üçün isə ildə 13080 rubl vəsait ayrılırdı. Zaqatala dairəsi üzrə barışdırıcı münsiflərin qərarından olan narazılığa Tiflis quberniya kəndli məsələləri üzrə idarədə baxılırdı [6, справочный отдел, с. 144].

1912-ci ildə, Bakı və Yelizavetpol quberniyalarında yaradılmış 12 münsif şöbəsinin sayı 1913-cü ildə 32-yə çatdırılmışdı. Zaqatala dairəsində isə ödənc əməliyyatını aparmaq üçün üç münsif vəzifəsi təsis edildi, bununla əlaqədar olaraq inzibati dairənin ərazisi 3 barışdırıcı şöbəyə bölündü. Hər barışdıncı şöbənin işinə bir münsif rəhbərlik edirdi [3, s. 51].

Bu yarımfəsildə aparılmış tədqiqata yekun vuraraq qeyd etmək lazımdır ki, çar Rusiyasının Şimali Azərbaycandakı aqrar siyasəti qeyri ardıcıllığı ilə seçilmiş və bu siyasət çarizmin bu bölgədəki mövqelərinin sabitliyindən asılı olataq dəyişmişdir. Belə ki, 1861-ci il aqrar islahatı ilə Rusiyanın mərkəzi əyalətlərində kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətinə son qoyulsa da, XIX əsrin sonu – XX əsrin əvvəlləri boyu Cənubi Qafqazla bağlı bu istiqamətdə müxtəlif aqrar qanunların qəbul edilməsinə baxmayaraq Şimali Azərbaycanda kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyəti davam etmişdir. Bütün bu müddətdə Rusiyanın buradakı aqrar siyasətinin vasitə və üsulları bu diyardakı kəndlilərin durumunun yaxşılaşdırılmasına deyil, çarizmin Cənubi Qafqazda möhkəmlənməsinə xidmət etmişdir. Yalnız XX əsrin əvvəllərindən etibarən imperiyanın daxili sosial-iqtisadi və siyasi həyatında baş vermiş təlatümlü hadisələr çarizmi Cənubi Qafqazda həyata keçirdiyi aqrar siyasətinə yenidən baxmağa, bu istiqamətdə ciddi dəyişikliklər etməyə vadar edir ki, 1912-1913-cü illər aqrar qanunlarının verilməsi də məhz bununla bağlı idi.

### Ədəbiyyat:

1. Авалиани С.Л. Крестянский вопрос в Закавказье том 3. Одесса, 1914.
2. Агаджанян С. Ш. Ликвидация временнообязанного состояния крестьянства в Закавказье: закон от 20 декабря 1912 г. // https://cyberleninka.ru/article/n/likvidatsiya-vremennoobyazannogo-sostoyaniya-krestyanstva-v-zakavkazie-zakon-ot-20-dekabrya-1912-g/viewer
3. Azərbaycan tarixi. 7 cilddə. cild V. Bakı, Elm, 2008.
4. Всеподданнейшая записка по управлению Кавказским краем графа Воронцова-Дашкова. Тифлис, 1907.
5. Мотревич, В. П. Аграрная история России (IX–XX вв.). Екатеринбург, 2012.
6. Правила о прекращении зависимых отношений поселян Дагестанской обл. и Закатальскогоокр. к бекам и кешкелевладельцам. Кавказский календарь на 1914 г. Тифлис, 1913.

7. Полное собрание законов Российской империи. Третье собрание (1881-1913), Т. XXIII (1903), часть 1-я, закон 22822.
8. Полное собрание законов Российской империи. Третье собрание (1881-1913), Т. XXXII (1912), часть 1-я, закон 38539
9. Полное собрание законов Российской империи. Третье собрание (1881-1913), Т. XXXIII (1913), часть 1-я, закон 39734.
10. Халифаева А.К. Аграрная реформа в Дагестане во второй половине XIX в. Известия вузов. Северо-Кавказский регион. Общественные науки. 2004. № 4.

# ŞAMAXIDA MÜSƏLMANLARA QARŞI SOYQRIMININ TƏŞKİLİ VƏ HƏYATA KEÇİRİLMƏSİ

**Eldar Hacıyev**
Azəbaycan Dövlət Pedaqoji Universiteti
hacieldar55@gmail.com

***Açar sözlər:*** *mütləqiyyət, qaraguruhçu, Qəza İcraiyyə Komitəsi, Milli Şuralar, Şəhər Duması*

*Məqalədə Rusiyada mütləqiyyətin devrilməsindən sonra Şamaxı qəzasında və şəhərində yaranan siyasi vəziyyət, "Daşnaksütyun" partiyası, Erməni Milli Şurasının Bakıdakı bolşeviklərlə olan gizli cinayətkar birliyi və onun Şamaxının müsəlman əhalisi üçün faciəli nəticələri arxiv materialları və tarixi mənbələr əsasında işıqlandırılmışdır. Müəllif 1918-ci ilin mart- iyul aylarında Şamaxı şəhərində və qəzada baş verən ictimai-siyasi hadisələri təhlil edərək Erməni Milli Şurasının müsəlman əhaliyə qarşı törətdiyi təxribatlarla bərabər, bu təxribatların arxasında gizlənən məkrli məqsədləri də göstərmişdir.*

*Məqalədə həmçinin "Şamaxı Müsəlman Milli Şurasının," "Şirvan Tələbələr Birliyinin" fəaliyyəti, Şamaxının görkəmli simalarının qırğın və talanların qarşısını almaq üçün etdikləri cəhdlər faktlar əsasında göstərilməklə bərabər, onlara elmi münasibət bildirilmişdir.*

## ОРГАНИЗАЦИЯ И ОСУЩЕСТВЛЕНИЕ ГЕНОЦИДА ПРОТИВ МУСУЛЬМАН В ШЕМАХА

**Эльдар Гаджиев**

***Ключевые слова:****самодержавия, черносотенцы, Уездьной Исполнительный Комитет, Национальные Советы, Городская Дума*

*В статье освещается политическая обстановка Шемахинском уезде. Одновременно на основе архивных и исторических фактов показывается преступное действие партии «Дашнакцутюн», «Армянского Национального Совета» с большевикской партией против мусульманского населения уезда и города. Анализируя общественно-политические события происходившие в городе Шемахи и в уезде в марте-июуле 1918 года автор показал провакации совершенные Армянским Национальным Советом против мусульманского населения. А также коварные цели скрывающиеся за этими провакациями.*

*В статье на основе фактов и научного подхода показана деятельност « Шемахинского Мусульманского Националного Совета», «*

*Ширванского Студенческого Союза», а также усилия видных деятелей Шемахи по предотвращению массовых убийств и грабежей.*

## ORGANIZATION AND IMPLEMENTATION OF GENOCIDE AGAINST MUSLIMS IN SHAMAKHI

**Eldar Hajiyev**

***Key words:*** *absolutism, black bandit, Accident Executive Committee, National Councils, City Duma*

*In the article, the political situation in Shamakhi district and city after the overthrow of absolutism in Russia,The "Dashnaksutyun" party, the secret criminal association of the Armenian National Council with the Bolsheviks in Baku and its tragic consequences for the Muslim population of Shamakhi are highlighted on the basis of archival materials and historical sources.*

*Analizinq the socio-politikal events that fook place in the city of Shamakhi and the provins in march-juli 1918, the author showed the provokations committed by the Armenian National Counsil aqainst the muslim population, as well as the insidious qoals hidden behind these provocations.*

*In the article, the activities of the "Shamakhi Muslim National Council", "Shirvan Students Union" and the efforts made by the prominent fiqures of Shamakhi to prevent massaracres and lootinq are shown on the basis of facts and a scientifie attitude was qiven to them.*

1917-ci ilin fevralında Rusiyada mütləqiyyətin devrilməsi və Müvəqqəti Hökumətin yaradılması xəbəri mart ayının 2- də Şamaxıya da çatdı. Qaraguruhçu qüvvələr istisna olmaqla geniş əhali kütləsi bu xəbəri sevinclə qarşıladı. Şəhərdə və qəzada İcraiyyə Komitəsi yaratmaq məqsədi ilə martın 6-da seçki keçirildi. Nəticədə 19-nəfərdən ibarət Qəza İcraiyyə komitəsi seçildi. Komitəyə seçilənlərin 8 nəfəri ruhani, 4 nəfəri tacir, 3 nəfəri məmur, 2nəfəri hüquqşünas-məhkəmə vəkili,2 nəfəri isə Şəhər Dumasının üzvü idi. İcraiyyə Komitəsinin sədrliyinə I Dövlət Dumasının üzvü olmuş Məmməd Tağı Əlizadə seçildi.[1] İctimai-siyasi həyatda yaranan canlanma Şamaxı qəzasında da Milli Şuraların yaranmasına şərait yaratdı. Bunlardan Şamaxı Müsəlman Milli Şurasını, Erməni Milli Şurasını, Şamaxı Şəhər Rus Cəmiyyəti Komitəsini, "Şirvan Tələbələr Bürosunu" göstərmək olar. Bundan əlavə Azad bəy Qocamanbəyovun rəhbərlik etdiyi Şəhər Qəza Komissarı vəzifəsi və Əsgər və fəhlə Deputatları Soveti yaradıldı. Nəticədə Bakıda olduğu kimi Şamaxıda da iki hakimiyyətliliyə bənzər vəziyyət yarandı.

Şamaxı Ərzaq Komitəsinin komissarı Atabekyanın təxribatçı fəaliyyəti nəticəsində şəhərdə ərzaq böhranı yarandı. Yoxsul əhali arasında ölüm halları

baş verdi. Təxribatı daha da dərinləşdirməyə can atan Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası şayələr yaydı ki, güya azərbaycanlılar "xristian əhalini qırmağa" hazırlaşırlar və ona görə də taxılı anbarlarda gizlədiblər. Bu təxribata ilk olaraq Şamaxı Fəhlə-əsgər deputatları Soveti inandı. Fəhlə-əsgər Deputatları Soveti həmin günlərdə ermənilərin simasında özlərinə müttəfiq qazandı. Bu müttəfiqlik ermənilərin müsəlmanlara qarşı daha aqressiv olmalarına təkan verdi.

1917-ci ilin sonlarına doğru qəzada əsasən müsəlmanlardan ibarət quldur dəstələri peyda oldu. Onlar milliyyətindən asılı olmayaraq insanları qarət edir, öldürürdülər. Ermənilər isə baş verən hadisələrdə bütün müsəlmanları günahlandırırdılar. Şamaxı İcraiyyə Komitəsində qəzada asayişə nəzarət etmək üçün azərbaycanlılar, ruslar, ermənilər və molokanlardan ibarət milis dəstələrinin yaradılması ilə bağlı məsələ müzakirə edildi. Erməni nümayəndələri yaradılacaq batalyonun ancaq ermənilərdən ibarət olmasını təkid etdilər. Bu müsəlmanlar tərəfindən etirazla qarşılananda erməni əsgərləri silahlarını götürüb batalyonu tərk etdilər. Belə olanda Qəza Komissarı yanında Tərlan bəy Əliyarbəyovun rəhbərliyi altında xüsusi səlahiyyətə malik milis rəisi vəzifəsi yaradıldı.[2] Nəticədə Kürdəmir və Şamaxı arasında fəaliyyət göstərən quldur dəstələri dağıdıldı.

Məkrli məqsədlərini həyata keçirməyə can atan ermənilər və molokanlar Şamaxını tərk edən rus qarnizonunun yerində öz silahlı dəstələrini yaratmaq qərarına gəldilər. Müsəlmanların bu qarnizona daxil olmalarının qarşısını almaq üçün komandaya hərbidən ehtiyata buraxılanların qəbul edildiyini elan etdilər. Məlum olduğu kimi ali silkin nümayəndələri istisna olmaqla azərbaycanlıları hərbi xidmətə çağırmırdılar. Yaranmış vəziyyətdən təşvişə düşən qəzanım azərbaycanlı nümayəndələri Cənubi Qafqazın hakimiyyət dairələrinə müraciət edərək yaradılan qarnizonda təmsil olunmaları barədə razılıq aldılar. Kazarmada yerləşən erməni əsgərləri azərbacanlı əsgərləri incidir və sılah sursat oğurluğu ulə məşğul olurdular. Azərbaycan kəndliləri ermənilərin oğurladığı iki furqon silahı Ağsu kəndi yaxınlığında onların əlindən almışdı. Vəziyyətin gərginləşməsinə imkan verməmək üçün şəhər idarəsinin başçısı Teymur ağa Xudaverdiyev erməni və müsəlman əhalinin nümayəndələrinin yığıncağını topladı. Yığıncaqda çıxış edən Azad bəy Qocamanbəyov, Asəf Şıxlıbəyov, axund Cəfərqulu və b. bildirdilər ki, erməni əhalisi tərəfindən müsəlmanlar üçün heç bir təhlükə yoxdur. Burada fikir ayrılıqlarını və ziddiyyətləri danışıqlar yolu ilə həll etmək üçün Millətlərarası Şura yaradıldı.[3]

1918-ci il yanvarın əvvəllərində 12 furqon silah-sursatın Bakıdan Şamaxı ermənilərinə göndərilməsi barədə məlumat əlddə olundu. Məsələni müzakirə edən Milli Şura qərara aldı ki, həmin furqonların ikisi Müsəlman Komitəsinin simasında azərbaycanlılar üçün ayrılsın. Milli Şura karvanın qabağını kəsmək istəyən Mərəzə kədlilərini inandırdıkı, bu silahlar müsəlmanlara qarşı

işlənməyəcək. Nəticədə müsəlmanlar aldandılar, silahlarermәni və molokan kəndlərinə daşındı.[4]

1918-ci ilin fevralın birinci yarısında Bakıdan Şamaxı Misəlman Komitəsinə və Şamaxı Erməni Komitəsinə daxil olan teleqramlarda bildirilirdi ki, erməni əsgərlərindən ibarət dəstə Şamaxı istiqamətində hərəkət edir. Sonralar məlum oldu ki, həmin dəstə Padar yarımstansiyasında qatardan düşərək çol yolu ilə dağlarda yerləşən erməni kəndlərinə tərəf getmişdir. Dəstə Bico kəndi yaxınlığından keçəndə kənd əhalisi danışıqlar aparmaq üçün ağsaqqllaqrdan bir neçəsini göndərdilər. Lakin həmin adamlar ermənilər tərəfindən öldürüldülər. Kənd əhalisi ilə bir qədər atışdıqdan sonra ermənilər kənddən uzaqlaşdılar. Bico hadisələri Şamaxının müsəlman əhalisi ilə ermənilər arasında birinci silahlı toqquşma oldu.[1] Bu hadisə Şamaxı qəzasının müsəlman əhalisi arasında güclü qəzəb doğurdu. Açıq toqquşma Şamaxının erməni liderləri üçün də arzuolunmaz idi və onlar müsəlmanlara qarşı gözlənilməz hücuma üstünlük verirdilər. Bakı və Şamaxıda baş verən hadisələrin xronologiyası sübut edir ki, baş verən hadisələr bolşevik-daşnak ittifaqının vahid planı və senarisi əsasinda həyata keçirilmişdir. 1918-ci ilin ikinci yarısında Bakıdan Şamaxıya gəlmiş "Hümmət" və "Müsavat" partiyalarının nümayəndələrinin Teymur bəy Xudaverdiyevə anlatdıqları fikrimizi təsdiqləyən sübutdur. Həmin dövrdə Bakıdan göndərilən 1200 nəfərlik silahlı erməni dəstəsi Şamaxını tutduqdan sonra Göyçaya hərəkət edib oradakı erməni dəstələri ilə birləşməli, sonra Ərəş qəzasından keçib Nuxanı tutub möhkəmlənməli, Bakıdan Yevlaxa gəlməli olan zirehli texnikanı gözləməli idi. Yalnız bundan sonra hər iki dəstə müsəlmanların başlıca dayağı olan Yelizavetpola doğru hərəkət etməli idi.[5]

Həmin dəstəilə görüşüb, onların məqsəd və məramlarənı aydınlaşdırmaq, əllərindəki silahları Şamaxı qarnizonuna təhvil verməlri ilə bağlı danışıqlar aparmaq üçün azərbaycanlılar və ermənilər tərəfdən yaradılan birgə nümayəndə heyətinin Qozluçayda görüşü oldu. Görüşdən qayıdan nümayəndə heyəti şəhər müftisinin evində yığıncaq keçirdi. Yığıncaqda çıxış edən erməni yepiskopu Baqrat bildirdi ki, bu silahlı dəstə Şamaxıya getməliymiş və onların bir hissəsi şəhərdə, digər hissəsi isə Mədrəsə kəndində yerləşməli idi. Lakin nümayəndə heyətinin təkidi ilə onlar Mədrəsə kəndinə getməyə razılıq veriblər. Baqrat eyni zamanda bildirdi ki, bu dəstə Şamaxı komissarına kömək edəcək və yolların asayişini qoruyacaqdır. O, çıxışında dəstənin erməni və rus rəhbərlərinin Şamaxının müsəlman əhalisinə olan açıq nifrətlərindən bir kəlmə də olsun demədi.

Elə həmin gün, martın 14-də [köhnə stillə] Şamaxı qarnizonunda açıq atışmaya keçən insident baş verdi. Tərlan bəy Əliyarbəyovun qarnizon komandiri təyin olunacağını eşidən erməni və rus əsgərləri silah anbarını qarət etməyə başladılar. Hər iki tərəfdən yaralananlar oldu. Vəziyyət çətinliklə nəzarət altına alındı.

Səhəri gün səhər saat 6-da ermənilər top atəşlərinin köməyi ilə Meysəri və Mədrəsə istiqamətlərindən Şamaxıya hücuma başladılar. Dörd saatlıq döyüşdən sonra ermənilər Mədrəsə kəndinə geri çəkilməyə məcbur oldular. Şəhərə qayıdan azərbaycanlı əsgərlər şəhərin yuxarı hissəsindən keçərkən erməni evlərindən onlara atəş açıldı. Azərbaycanlılar onları cavab atəşi ilə qarşıladılar. İstədiklərinə nail ola bilməyən ermənilər diplomatik manevrə əl atdılar.[6] Həmin gün Şəhər qlavası Teymur bəy Xudaverdiyev arxiyepiskop Baqratdan məktub aldı. Məktubda arxiyepiskop baş vermiş faciəvi anlaşılmazlıqdan kədərləndiyini, məsələni müzakirə etmək və barışığa nail olmaq üçün Millətlərarası Komitənin toplanmasını təklif edirdi. Yığıncaq S.Lalayevin evində keçirildi. İştirakçılar xoş münasibətlərin qorunub saxlanılmasının zəruriliyi fikrinə gəldilər və barışıq imzalandı. Müsəlmanlar ermənilərin növbəti yalanlarına inandılar və şəhərdə olan silahlı kəndlilər evlərinə dağıldılar.

Martın 18-də [köhnə stillə] Şamaxı şəhəri Mədrəsə və molokanların yaşadıqları Cabanı-rus kəndləri tərəfdən top atəşinə tutuldu. Azad bəy Qocamanbəyov və gənclərə hərbi təlim öyrətmək üçün Şamaxıya gəlmiş iki türk zabiti şəhərin müdafiəsini təşkil etməklə məşğul oldular. Gündüz saat 12-yə dək erməni hücumunun qarşısını almaq mümkün oldu. Molokanların arxadan hücumu azərbaycanlılar arasında çaşqınlıq yaratdı. Bunu görən şəhərin erməni əhalisi Lüteran kilsəsi istiqamətindən keçərək müsəlmanların evlərini yandırmağa başladılar. Axşama yaxın şəhərin top atəşinə tutulması dayandırılsa da, ermənilər küçələrdə müsəlmanları öldürməkdə davam edirdilər.[6]

Gecə müsəlmanların nümayəndələri Teymur bəy Xudaverdiyevin evinə toplaşaraq qeyd-şərtsiz təslim olmaq qərarına gəldilər. Axund Cəfərqulu və həkim Sazonov qərarı ermənilərə bildirməküçün şəhərin yuxarı məhəlləsinə getdilər. Səhər saat 4-də ermənilərin cavabı alındı. Onlar müsəlmanlarda olan bütün silahların ermənilərə və molikanlara təhvil verilməsini tələb etdilər. Tələb bütünlüklə yerinə yetirilsə də, daha bir neçə gün qətllər və qarət davam etdi. İsmayıl xan Ziyadxanlının bir neçə yüz süvari dəstənin başında Şamaxıya daxil olması erməni və molokanları şəhəri tələsik tərk etməyə məcbur etdi. İ. Ziyadxanlı Mədrəsədə yerləşən erməni dəstələrini də məğlub etdi. Onun dəstəsi Qozlu-Çay kəndində yaşayan molokan kəndinə gəldi və burada gizlənən erməni silahlılarının təslim edilməsini tələb etdi. Lakin Molokanlar iki gün möhlət istədilər. Vaxt başa çatanda isə erməniləri təslim etməkdən imtina etdilər. İ. Ziyadxanlının qüvvələri Qozlu-Çay kəndi üzərinə hərəkətə keçdi və tezliklə aydın oldu ki, erməni və molokanların sayı onun dəstəsindən xeyli çoxdur. Digər tərəfdən Bakıdan yeni erməni hərbi hissələrinin yaxınlaşdığı da məlum oldu. Qüvvələrin qeyri- bərabər olduğunu görən İsmayıl xan Şamaxıya çəkilərək əhaliyə bildirdi ki, ermənilərin şəhərə hücumu gözlənilir,əhali dərhal şəhəri tərk etməlidir. Əhalinin bir hissəsi əmlakını buraxıb şəhəri tərk etdi. İsmaxıl xan Ziyadxanlı da şəhəri tərk etdi.[7] Lakin üç gün ərzində şəhərə

ermənilərin hücumu baş vermədi. Yaranan sakitlik şəhəri tərk edən və Kürdəmir kəndlərində məskunlaşan 3 minə qədər əhalinin Şamaxıya dönməsinə səbəb oldu. Onlar şəhərə qayıtdıqdan iki gün sonra- aprelin birinci ongünlüyündə Stepan Lalayanın və Tatavos Əmirovun silahlı qüvvələri şəhərə soxularaq müsəlmanlara qarşı qəddarlıqla qətllər törətdilər. Ermənilər qocalara, qadınlara və uşaqlara aman vermədilər.

Dövlət Dumasının üzvü olmuş Məmməd Tağı Əliyev, Axund Cəfərqulu xüsusi amansızlıqla qətlə yetirildi. Axund Cəfərquli 400 nəfərə qədər qadın və uşağı evində və "Yuxarı Qala"məscidində gizlətmişdi. Silahlı ermənilər onun evinə və məscidə soxularaq qadın və uşaqları öldürdülər. Məscidlərə hücum etməyin təşəbbüsçüsü olan Stepan Lalayev Şamaxıda böyüdüyü üçün gözəl bilirdi ki, müsəlmanlar məscidləri Allahın evi saydıqlarından ermənilərin oraya hücum etməyəcəklərini düşünürlər. Amma, yanıldılar; məhz S.Lalayevin şəxsi əmri ilə əsir götürülən müsəlmanlar da məscidlərə dolduruldu, qapıları mıxladıqdan sonra binaya od vurdular. Qaçanları isə güllələdilər. Şamaxılıların iftixarı olan Cümə məscidi, Kələbazar, Şıxminas, Yuxarı Qala, İmamlı, Şapurlu, Talış, Meydanlı və s. kimi 13 məhəllə məscidi yandırıldı və dağıdıldı. Ermənilərin həyata keçirdikləri vəhşiliklərin nəticəsində iki mindən çox qadın və uşaq diri-diri odda yandırıldı.[7]

Şamaxının qarəti və dağıdılması Stepan Lalayevin türklərə olan nifrətinin bariz nümunəsi idi. 1918-ci ildə S.Lalayevin 27 yaşı var idi. Onun atası, qatı daşnakçı Balabəy Lalayev və arvadı Bakıda 1905-ci il erməni-müsəlman qırğını zamanı öldürülmüşdü. 1918-ci ci il martın axırlarında S.Lalayev Bakıda idi və müsəlmanlara qarşı olan qırğında fəal iştirak etmişdi. Bakıda axıtdığı qanlardan doymayan S.Lalayev Şamaxıda da ağlasığmaz vəhşiliklər törətdi. İstintaqa ifadə verən şahidlərin dediklərindən: S.Lalayev deyirdi "Bütün müsəlmanları doğramaq lazımdır. Onlardan yalnız bir neçəsini nümunə üçün sərgidə saxlamaq lazımdır". Şamaxı soyqrımının şahidi olmuş şəxs ifadəsində deyir: "Mən öz qulaqlarımla eşitdim ki, o, ucadan qışqırıb bildirdi ki, atamın başında olan tüklərin sayı qədər müsəlman öldürməliyəm".[7]

Qırğın və qarətlərdə Şamaxı ermənilərinin tanınmış nümayəndələri və partiya nümayəndələri çox fəal idilər. Azərbaycanlılara qarşı xüsusi vəhşilikləri ilə fərqlənən ermənilərdən poçt-teleqraf idarəsinin rəisi Arşak Gülbandovu və onun zabit oğlunu, Şamaxı qəza rəisinin keçmiş köməkçisi Qavriil Qaraoğlanovu, aptek sahibi Mixail Arzumanovu Keçmiş qəza komissarı Atabekovu, keçmiş pristav Xaçanovu, və b. göstərmək olar. Bu adamların hər biri yerli silahlı erməni dəstələrinə rəhbərlik etmişdi. Müsəlmanlar tərəfindən parlamentyor kimi danışıqlara getməyə razılıq vermiş həkim Sazonov öz ifadəsində bildirmişdi: " Mən zorakılığın yolverilməz olduğunu ermənilərə bildirərək dedim ki, kartın üzü dönə də bilər, ermənilər özləri bu gün müsəlmanların düşdükləri vəziyyətə düşə bilərlər. Poçt-teleqraf idarəsinin

rəisinin oğlu Gülbandov və keçmiş pristav Xaçanov üstümə qışqıraraq dedilər ki, müsəlmanlara aman yoxdur, onların hamısını məhv etmək lazımdır”.

Şəhərin rus sakinlərinin verdikləri ifadələrdən məlum olur ki, ermənilər müsəlmanları müdafiə edən, onlarla yaxın münasibətlər saxlayan, hətta ərzaq almaq üçün müsəlman məhəllələrinə düşən xristianlara da düşmən münasibət bəsləmiş,hətta onları güllələmişdilər.

Şamaxı hadisələrində erməni yepiskopunun xüsusi rolunu həm müsəlman, həm də xristian əhalidən olan şahidlər qeyd edirlər. Onların hamısı Baqratı müsəlmanlara qarşı çıxan ermənilərin ideya rəhbəri hesab edirdilər. Baqrat erməni xislətinə uyğun olan siyasət yeridərək müsəlmanlara qarşı törədilən cinayətlərin həm ilhamçısı, həm də ideya rəhbəri olmuşdur. Baqrat baş vermiş qanlı cinayətlərin sonrakı məsuliyyətindən xilas olmaq üçün özünü el gözündə kənara çəkmiş, hətta müsəlmanların xilaskarı rolunu oynamağa cəhd göstərmişdir. Baqratın sözlərinə görə Bakı erməniləri 20 min müsəlmanın həyatını xilas etmişdir. Baqratın bu sözləri 1918-ci il sentyabrın 15-də türk-azərbaycan ordusu Bakıya daxil olduqdan sonra, şəhərdə qisas almaq hissi ilə yanan azərbaycanlılar ilə ermənilər arasında yeni toqquşmalar baş verdiyi zaman deyilmişdi.

Bakıda sentyabr hadisələri ilə bağlı Baqrat artıq yeni bir rolda çıxış edir və o, müsəlmanları erməni xalqına qarşı törədilən cinayətlərdə ittiham edərək bildirir ki, ermənilərə qarşı törədilən qanlı hadisələr şeytancasına əvvəlcədən düşünülmüş və soyuqqanlılıqla həyata keçirilmişdir.

İndi Şamaxı qəzasında erməni millətçilərinin həyata keçirdikləri vəhşilikləri, bütöv bir xalqa qarşı törədilən genosidi nəzərdən keçirək. 1918-ci ilin əvvvəlləri üçün Şamaxı qəzasında 229 kənd var idi. Onlardan 196-sı azərbaycanlı, 21-i erməni 11-i rus-molokan, 1-i yəhudi kəndi idi. İki kəndin- Mirikənd və Talış Məlikməhəmməd kəndinin əhalisi qarışıq idi. Şamaxı qəzasında qarət və qırğınlar Şamaxı şəhəri ilə eyni vaxtda; 1918-ci il martın axırlarından iyulun ortalarına qədər davam etmişdir. Bütün bu dövr ərzində qəzada 110 azərbaycanlı kəndinin əhalisi erməni və molokanlar tərəfindən kütləvi zorakılığa məruz qalmışdır. 110 müsəlman kəndindən beşi; Qəleyibuğurt, Quruzma, Məlhəm, Yuxarı Çağan və Aşağı Çağan insan tələfatına məruz qalsalar da dağıntı və yanğınlara məruz qalmamışdır. Elə kəndlər var idi ki, bütün əhalisinin üçdə biri məhv edilmişdi. Məsələn Navahı kəndində 955, Dilmanda 585, Qubalı Baloğlan kəndində 535, Ağsu kəndində 500, Bağırlıda 370, Tircanda 360 və s. dinc sakin öldürülmüşdü. Dağlarda, meşələrdə, çöllərdə yaşamağa məcbur olan insanlar soyuqdan, aclıqdan və xəstəliklərdən kütləvi şəkildə tələf olmuşdular. Belə ölənlərin sayı Şamaxı qırğını zamanı ölənlərin sayından xeyli çox idi.[8]

Şamaxı qəzasının müsəlman kəndlərinə həm də küllü miqdarda maddi ziyan dəymişdi. Həmin kəndlərin əhalisi iri və xırda buynuzlu mal-qaranı, ev

əşyalarını itirməklə bərabər yaşadıqları evlərdən də məhrum olmuşdular. Məsələn Ağsu kəndində 500 evdən 4-ü, Mərzəndigə və Tağlabiyan kəndlərində 80 evdən 10-u, Bəklə kəndində 50 evdən 8-i salamat qalmışdı. Nabur kəndində 280 evdən 200-ü yandırılaraq dağıdılmışdı.

Düzənlikdə yerləşən Abdulan polis sahəsinə daxil olan kəndlər və dəmir yol stansiyasının yaxınlığında yerləşən Hacıqabul, Pirsaat və Navahı kəndləri qəflətən erməni qoşunlarının hücumlarına məruz qalmışdılar. Yüzlərlə itki verən bu kəndin əhalisi Kür çayını üzüb Cavad qəzasına keçməklə canlarını qurtara bildilər. Abdullan polis sahəsində 1918-ci ilin martın axırlarından – iyun ayına qədər kəndlər qarət və dağıntılara məruz qaldı. Meyniman, Bicov, Çaylı Ağakişibəy, Rəhimli və s. kimi kəndlər iki dəfə, Ovçulu, Mərəzəli, Sərdəgar kimi kəndlər isə üç dəfə qarətə məruz qaldı.[8]

Şamaxı qəzasının Muğanlı, Göylər, Navahı, Şorbaçı, Sərdəgar və s. kimi kəndlərinin əhalisi erməni quldurlarına qarşı mərdliklə vuruşdular Hətta ermənilərin birinci hücumunu bir çox kəndlərdə dəf edə bildilər. Məsələn, Muğanlı kənd sakinləri beş gün ərzində Mirikənd, Zəhri və Sagiyan kəndlərindən hücum edən silahlı erməni dəstələrinin qarşısını aldılar. Hücumda erməni kəndlərinin 60 yaşına qədər bütün kişiləri iştirak edirdi. Yalnız beşinci gün Novo-Dmitriyevkadan molokanların arxadan zərbə endirmələri müdafiəçilərin müqavimətinin qırılmasına səbəb oldu.

Ermənilərə qarşı mərdliklə müqavimət göstərən kəndlərdən biri də Göylər kəndi olmuşdur. Bu kəndin sakinləri birinci hücum zamanı erməni silahlı dəstələrini məğlub edərək kənddən qovub çıxarmışdı. Lakin ikinci hücum zamanı ermənilərin köməyinə molokanların gəlməsi və hücum edənlərin sayca dəfələrlə çox olması sakinlərin ev-eşiklərini ataraq kənddən qaçmalarına səbəb oldu. Kənddə olan 400 evdən 200-ü yandırıldı və kəndin 2800 nəfərlik əhalisi yarıbayarı azaldı.[8]

Yuxarıda qeyd etdiyimiz kimi, Şamaxı qəzasının iki kəndində müsəlmanlar və ermənilər qarışıq şəkildə yaşayırdılar. Mirikənddə 18 erməni, 17 müsəlman evi var idi. Erməni silahlı dəstələri kənddə yaxınlaşanda kəndin erməniləri müsəlmanları müdafiə edərək silahlı dəstəni kəndə hücum etməmək üçün dilə tutdular.Lakin kəndin müsəlman əhalisi ermənilərin digər müsəlman kəndlərində törətdikləri vəhşilikləri eşitdikdə başa düşdülər ki, həmkəndliləri olan ermənilərin onları müdafiə edəcəklərinə ümüd azdır. Kəndin azərbaycanlı ailələri qonşu Mədrəsə ermənilərini şübhələndirməmək üçün əmlaklarını və mal-qaralarını götürmədən hissə-sissə kəndi rərk edib Suraxanı kəndinə sığınmışdılar. Səkkiz gündən sonra Mirikənddən Şamaxıya gələn həmkəndliləri onları geri qayıtmaq üçün dilə tutdu. Nəticədə 19 nəfərdən ibarət bir neçə ailə geri qayıtdı. Ermənilər bu ailələrin hamısını məhv etdilər, əmlaklarını isə qarət etdilər. Qeyd olunduğu kimi Şamaxı qəzasında qarət və talanlar islam-türk ordusu gələnə qədər davam etdi.[9]

Beləliklə, 1918-ci ilin mart-iyul aylarında Şamaxı qəzasının 100 kəndi yandırılaraq dağıdılmış, 110 kəndin əhalisi isə erməni-molokan quldur dəstələrinin hücumlarına məruz qalmışdır.[10]

Kənd sakinlərindən hücumlar zamanı və əsirlikdə ölənlərin sayı ümumilikdə 10341 nəfər olmuşdur ki, onların da 4359 nəfəri qadınlar və uşaqlar olub. Şamaxı qəzasında müsəlman sakinlərin əmlakına dəyən zərər isə yalnız qeydiyyata alınmış faktlara əsasən 607 167 420 rubl olmuşdur. İnsanlara vurulan mənəvi-psixoloji zərbənin miqyası isə müqayisə olunmaz dərəcədə idi.[11]

## Ədəbiyyat:


1. Рустамова-Тогиди С. Шемаха. Март-июль 1918 г. Азербайджанские погромы в документах. Т.1, Баку,2013.
2. Qəniyev S. 1918-ci il Şamaxı genosidi. Bakı, 2003.
3. ARDTA, Fond 1061, siyahı 1, iş 107, vərəq 3.
4. Yenə orada, fond 1061, siyahı 1, iş 107, vərəq 57.
5. Yenə orada, iş 107, vərəq 63.
6. Yenə orada, iş 109, vərəq 75.
7. Yenə orada, iş 105. Vərəq 80-85
8. Yenə orada, iş 106, vərəq.26.
9. Muradov M. A. Çar Rusiyasının Azərbaycana köçürmə siyasəti.Bakı, 1994.
10. Байков Б. Л. Воспоминания о революции в Закафказье- Архив русской револьюции. М., 1991, Т.9.
11. ARDTA, fond 1061, siyahı 12, iş 87, vərəq 22.

# ALBAN MONASTIRI UZUNLAR

**Elmira Məmmədova (Süleymanova)**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
suleymanova.elmira1954@mail.ru

***Açar sözlər:*** *Uzunlar-Odzun, erməniləşdirmə, birnefli bazilika, açıq mehrab.*

*Məqalə hazırda Ermənistan Respublikasının inzibati-ərazi sistemində olan Qafqaz Albaniyasının tarixi ərazisində yerləşən Uzunlar alban monastırının tarixinə həsr olunub. Monastırın adını Uzunlar kəndindən, "Uzunlar" etnotoponiminin isə adını həm Oğuz türkləri arasında, həm də Qıpçaq türkləri arasında bir çox türk xalqları arasında rast gəlinən Uzunlar tayfasından götürdüyü müəyyən edilmişdir. Türktayfaları polietnik Albaniyada mütləq əksəriyyət təşkil edirdi.*

*Erməni saxtakarları qıpçaq türkcəsini qədim ermənilərin dili elan etməklə, eyni zamanda mədəni alban xristian irsini də erməni dili elan etmişlər. Tarixi faktlara əsaslanaraq göstərilir ki, 19-20-ci əsrlərdə Ermənistan Respublikası ərazisində Azərbaycanın tarixi-memarlıq irsinin erməniləşdirilməsi və mədəni terroru prosesi baş vermiş, bu proses zamanı Uzunlar Alban monastırı olmuşdur. erməniləşdirmə və mədəni terrora məruz qaldı.*

# АЛБАНСКИЙ МОНАСТЫРЬ УЗУНЛАР

**Эльмира Мамедова**

***Ключевые слова:*** *Узунлар-Одзун,арменизация, однонефная базилика, Алтарь под открытым небом.*

*Статья посвящена истории албанского монастыря Узунлар, расположенного на исторической территории Кавказской Албании, находящейся ныне в административно-территориальной системе Республики Армения. Определено, что монастырь получил свое название от села Узунлар, а этнотопоним «Узунлар» берет свое название от тюркского племени Узунлар, который встречается у многих тюркских народов, как среди тюрков огузов, так и среди тюрков кыпчаков, представляющих абсолютное большинство в полиэтничной Албании.*

*Армянские фальсификаторы, объявив кыпчакский тюркский язык языком древних армян, вместе с этим объявили и культурное албанское христианское наследие армянским. На основе исторических фактов*

*показано, что на протяжении XIX-XX веков шел процесс арменизации и культурного террора историко-архитектурного наследия Азербайджана на территории Республики Армения, в ходе которого арменизации и культурному террору подвергся и албанский монастырь Узунлар.*

## ALBANIAN MONASTERY UZUNLAR

**Elmira Mammadova**

***Keywords:****Uzunlar-Odzun, armenization, one-nave basilica, open-air altar.*

*The article is devoted to the history of the Albanian monastery Uzunlar, located on the historical territory of Caucasian Albania, which is now in the administrative-territorial system of the Republic of Armenia. It is determined that the monastery got its name from the village of Uzunlar, and the ethnotoponym "Uzunlar" takes its name from the Türkic tribe Uzunlar, which is found among many Türkic peoples, both among the Oghuz Türks and among the Kipchak Türks, representing the absolute majority in polyethnic Albania.*

*Armenian falsifiers, declaring the Kypchak Turkic language as the language of the ancient Armenians, at the same time declared the cultural Albanian Christian heritage to be Armenian. Based on historical facts, it is shown that during the 19th-20th centuries, the process of armenization and cultural terror of the historical and architectural heritage of Azerbaijan on the territory of the Republic of Armenia took place, during which the Albanian monastery of Uzunlar was also subjected to armenization and cultural terror.*

Серьезным пробелом в исследованиях отечественной историографии выступает проблема конфессиональной идентификации архитектурных памятников Кавказской Албании. (3) Армянская наука и ученые на протяжении десятилетий выдвигают свою версию создания памятников, основанную на искажении исторических фактов и источников, всячески пытаются доказать и выдать уникальную архитектуру Кавказской Албании за работу армянских зодчих. Тем самым проводится процесс арменизации историко-архитектурного наследия Азербайджана.

Проблема усугублялась и тем, что христианскому зодчеству Кавказской Албании до последнего времени не было уделено должного внимания со стороны азербайджанских исследователей, что создало возможность незаконно причислять расположенные на территории исторического Азербайджана памятники Албанского народа к чуждым культурам, по той причине, что мусульманское население, считая их чуждыми в религиозном плане, тем самым делало их бесхозными,

доступными для других этносов, как это произошло с множеством христианских памятников, расположенных на территории нынешней Армении, которые именуются фальсификаторами «величайшими памятниками армянского зодчества».

Среди построенных *христианских* памятников *Албанской* апостольской церкви значимое место занимаетмонастырь Узунлар.



**Албанский монастырь Узунлар** – старейший величественный албанский христианский памятник в одном из самых красивых горных уголков исторической Албании над каньоном реки Дебед, ныне расположенный на плоскогорье недалеко от города Алаверди в центре селения Одзун (Узунлар) Лорийской области Армении, ограниченным с севера хребтом Вираайоц, с юга-востока – хребтом Гугарац, а с юга – Базумским хребтом.В окрестных пещерах были найдены рукописные дневники, свидетельствующие о том, что во времена раннего средневековья село являлось крупным культурным центром. Еще с XIII века из бьющегося источника в северо-западной части села по трубам из обожженной глины здесь была проведена студеная питьевая вода, и рядом построена лечебница. Албанский автор XIII века Вардан Великий упоминает его как поселок. Действительно, территория нынешнего селения Одзун богата разнообразными памятниками, относящимися к

различным эпохам, что свидетельствует о его древнейшей истории. И несмотря на свой почтительный возраст почти все памятники отлично сохранились до наших дней. Все они находятся между собой в тесной композиционной и хронологической связи и это показывает их заметную роль как хозяйственных, религиозных, и просветительских центров.

Монастырь получил свое название от села Узунлар, а этнотопоним «Узунлар» берет свое название от Тюркского племени Узунлар, который встречается у многих Тюркских народов, как среди тюрков огузов, так и среди тюрков кыпчаков. (7) С 30 сентября 1968 года название села Узунлар известно также и в армянской литерации, как Одзун. По одной версии, основанной на предании о прибытии сюда апостола Фомы в первом веке для помазания местных монахов, возникновение названия Одзун со словом оцел – помазывать.Правда она относится к маловероятным версиям, так как основана на мифическом содержании.По другой армянской версии, само местечко было названо так в честь «четвертого армянского католикоса и выдающегося духовного, общественного деятеля, законоведа, реформатора» Ованнеса III, получившего прозвище «одзнеци», то есть «борец со змеями». Согласно легенде, Ованнес III Одзнеци получил это прозвище после того, как спас родное село от нападения огромных змей. Стоило только Ованнесу осенить чудовищ крестным знамением, как они поспешили в страхе скрыться. Эта версия является совсем невероятной и, прежде всего, потому, что официальное принятие христианства армянами произошло в пределах верховьев Ефрата, то есть значительно далеко от пределов этого селения, которое никогда не было религиозной резиденцией армянских католикосов, а сам армянский католикосат переехал на территорию нынешней Армении лишь в 1441 году и армянские католикосы ни первый, ни второй, третий и четвертый никак не могли проживать в этой местности в VI веке. Поэтому достаточно известный в раннем средневековье монастырский комплекс Узунларявляется одним из величественных памятников албанского зодчества, достопримечательностью коренных жителей этой местности – албан.

Монастырь Узунлар сейчас больше похож на обычный храм, чем на монастырь. Весь монастырский комплекс - это по сути дела всего две постройки: собор Святой Богородицы и слева от него обелиск. (5) Об этом монастыре сохранилось мало сведений, поэтому, к сожалению, точная дата постройки неизвестна. Однако, учитывая общую конструкцию церкви, внутреннее убранство, а также некоторые архитектурные тонкости, монастырь представляет собой великолепный пример албанской архитектуры раннего средневековья. Согласно историкам XIII века в начале IV века с благословения Св.Григория Просветителя на месте

монастыря был возведен однонефный бескупольный храм, который в V веке был разрушен землетрясением, в начале VI века храм был заново отстроен и перестроен в VIII веке. Архитектурно-художественный анализ и надписи на стенах уверенно относят монастырь к строениямконца V-середины VI веков.

Собор Святой Богородицы расположен на центральной возвышенности села и виден почти из любой его точки. (8) Собор отличается простотой и просторностью форм, обилием света и тени. Он построен в виде купольной базилики почти целиком из ярко-розового фельзита, за исключением части внутренней отделки из базальтовых плит. Его планировка прямоугольная, растягивающаяся с запада на восток, основные размеры 31.62×20.71 м. Внутреннее убранство собора довольно типичное для христианской архитектуры по всему Кавказу – высокие колонны, круглые арки, узкие окна для света. Изнутри собор делится на 3 зала 3 парами колонн. Кроме внутреннего зала имеется также внешний зал, опоясывающий собор с трёх сторон. Зал представляет собой две галереи с юга и севера, упирающие на западном фасаде в стену с арочным входом в центре. Арочные галереи, расположенные по бокам от центрального входа являются особенностью собора. Такое архитектурное решение редкость для албанских храмов Размеры внутреннего зала 20.98×11.12 м. Двумя рядами колонн зал делится на три нефа. На западе центральный неф оканчивается полукруглым алтарём, а боковые — двухэтажными ризницами. Купол, расположенный практически в центре прихода, доминирует над всей конструкцией собора.

Вся конструкция собора наполнена живописными средствами выражения **монументальности.** (7) Изнутри стены украшают прекрасные старинные фрески с христианскими сюжетами. Рельефные и орнаментальные изображения исполнены с большим мастерством. В их стилистике и исполнении ощущаются изящность и пластичность, присущие VI-VII векам. Особенно впечатляет наличник западного портала с различными орнаментами в виде виноградных ветвей а такжесложный синтез рельефных и орнаментальных украшенийна вершине центральных окон. В конце зала, над алтарем изображена икона Богородицы с младенцем на руках.

Фасадная часть здания украшена различными **барельефами** и оформлена искусной художественной резьбой, которые включают изображения на растительную тематику, окруженные **кресты.**



В десяти метрах от купольного собора базилики, на северо-восточной стороне расположен архитектурно-оформленный раннехристианский памятник-надгробие V-VI века. Богато украшенный монумент – один из уникальных памятников раннего средневековья, который в народе получил название «Алтарь под открытым небом».Скорее всего, там среди арочных колонн расположено два четырёхсторонних памятника высотой в пять метров с живописнымии барельефами на религиозную

Согласно христианской традиции, надгробие направлено лицевой стороной на запад. Памятник установлен на ступенчатом основании. Представляет собой двухарочную аркаду, выполненную из шлифованного камня. Под каждой из арок находится четырёхметровая прямоугольная стела, на каждой стороне которой по всей длине высечены изображения. На западных и восточных гранях выполнены Евангельские сюжеты и сюжеты о распространении христианства в Албании. На северных и южных гранях, типично свойственный албанскому зодчеству, богатый геометрический и растительный орнамент. Каждая грань окаймлена неповторяющимся орнаментом с христианскими сюжетами. На северной колоне изображены Дева Мария с младенцем, крещение Христа, император Константин с сестрой. На южной колоне – 12 апостолов. Также на колоннах высечены орнаменты, рассказывающие о победе христианства в Албании и Византии.

Имеющий исключительную историко-культурную ценность Албанский монастырь Узунлар, датируемый VI веком, вплоть до XIX века являлся одним из самых красивых достопримечательностей на исторической территории Албании. Несмотря на свой почтительный возраст это сооружение фактически ремонта не видело, за исключением того, что в IX веке растрескавшуюся черепичную кровлю храма представители албанского рода Абовянов заменили туфом.Лишь после

ликвидации Албанского католикосата в 1836 году и подчинения его Армянской Григорианской церкви монастырь несколько раз реставрировался и при его реконструкции проводилась грубая арменизация албанского культурного наследия. Так, в 1888 году в восточной части собора Святой Богородицы были построены две звонницы в стиле армянского зодчества.Процесарменизации продолжался и в советское время, когда в 80-х годах монастырь был признан аварийным и начались работы по ее восстановлению. При проведении подготовительных работ были обнаружены фрагменты албанского орнамента и образцы албанской черепицы VI века, предметы старинного албанского быта, которые были представлены артефактами армянской культуры. Кроме того, под кровлей купола была обнаружена винная бутылка с запиской о результатах ремонта, проведенного в 1889 году. Документ передан в Институт древних рукописей Матенадаран для восстановления и изучения. При этом было разрушено 3 столба северной аркады, вскрыты фундаменты, нарушено местоположение 30 процентов находящихся во дворе собора Святой Богородицы надгробных памятников.Работы остались незавершенными из-за осложнившейся политической ситуации конца 80-х годов XX века. Последняя реставрация монастыря произошла в 2012-21014 годах при участии специалистов Миланского политехнического института (Италия). Группа армянских и итальянских инженеров в ходе ремонтно-восстановительных работ путем вмешательства во внешний облик монастыря полностью отреставрировали его, строения были укреплены новыми растворами и тросами, а фасад был очищен от органики. В ходе работ были применены прочные стекловолоконные тросы и ткани, с помощью которых укреплены купол и стены. реставраторы заменили прежние железные соединения высокоэффективными клеями.

Таким образом, на протяжении XIX-XX веков шел процесс арменизации и культурного террора историко-архитектурного наследия Азербайджана на территории Республики Армения. (8) В ходе этого процесса формировался широкий общественный альянс ученых, деятелей культуры, организаций, чтобы сконцентрировать внимание зарубежных СМИ и мировой общественности на якобы армянском происхождении памятников албанского христианского зодчества. Но армянские исторические «исследования», которые проводятся и сейчас, вступают в конфликт с научным подходом к истории.

Особо следует выделить в этом процессе роль армянской церкви, так как у армян на протяжении многих веков не было государства, и в качестве политической организации церковь возглавляла армянский народ. Следует отметить два пути, которыми армянская церковь

приобщалась к албанскому христианскому наследию. Это прежде всего разрушение культовых сооружений Кавказской Албании и преобразование некоторых албанских церквей в действующие армянские. (7) В этом процессе Эчмиадзин в результате упразднения албанского католикосата перенял его культуру, храмы, книги и т.д. Албанское христианское наследие подверглось преднамеренному уничтожению и арменизации. Так было положено начало присвоению богатого историко-культурного наследия Азербайджана. Однако их притязания на богатое архитектурно-культурное наследие Кавказской Албании лишены научного обоснования. Ни одна из разработанных в Албании композиций не находит себе близких параллелей в Армении. Это была настолько уникальная архитектурная школа, что не только в V- VI веках, но и в дальнейшем это были совершенно разные архитектуры. (3) В этом соотношении архитектуре Кавказской Албании принадлежит свое определенное место.

**Литература:**

**1.Ахундов Д.А.** Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986. 311с.

**2.Бретаницкий Л.С., Веймарн Б.В.** Искусство Азербайджана IX-XVIIвв.- М., «Искусство», 1976, 272 с.

**3.Гаджиева С.** Неповторимость культовой архитектуры Кавказской Албании. //udi.azhttps://udi.az › articl

**4.Геюшев Р.Б.** Христианство в Кавказской Албании.-Баку, "Элм", 1984, 284 с.

**5. Одзунский монастырь**, Лори// advantour.com https://www.advantour.com ›

**6.Тревер К. В.** Очерки по истории и культуре Кавказской Албании IV в. до н. э. – VII в. н. э. М.-Л.: Изд. АН СССР, 1959, 389 с.

**7.Мамедова Н.** Культурный террор. Армяне продолжают приватизировать культовые сооружения Кавказской Албании в Карабахе. // Каспий, 2018, 5 июля, с. 11-12.

**8.Мамедова Г.Г.** Культовое зодчество Кавказской Албании.-Баку, "Элм", 1997.

**9.Шахкян Г.** Лори. Каменные страницы истории. Ереван: «Айастан», 1986 ( на арм. яз.)

# SOVET RUSİYASININ AZƏRBAYCANDA XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ ƏRAZİ BÖLGÜSÜ VƏ ZƏNGƏZURUN STATUSUNUN MÜƏYYƏN EDİLMƏSİ

**Kamran Əsədov**
AMEA-nın A.A Bakıxanov adına Tarix İnstitutu
kamranesedov@bk.ru

***Açar sözlər:*** *Zəngəzur, türk torpağı, Qarabağ, etnik təmizləmə, Zəngəzur dəhlizi*

*Bu, ilk növbədə, Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində tutduğu mövqe ilə bağlıdır. Onun Qərb dövlətlərinə və beynəlxalq təşkilatlara inteqrasiyası və digər amillər 1917-1929-cu illərin sonunda Azərbaycan-Ermənistan münasibətlərində Zəngəzur məsələsinə yenidən baxılmasını zəruri edir.*

*Rusiya işğalı zamanı Azərbaycanın dövlətçiliyi üçün təhlükə mənbəyi olan Azərbaycan xalqı etnik təmizləməyə və ərazi itkilərinə məruz qaldığından, Azərbaycanın XIX-XX əsrlər tarixi etnik birliyə, xalqımızın ərazi bütövlüyü və dövlətçilik ənənələriə təhdidlərlə yadda qalıb. Tarixi şəraitə görə, Rusiyanın siyasi rəhbərliyi tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən deportasiyalar və zorakı ərazi təmizləmələri formaca fərqli, məzmunca eyni idi.*

*Azərbaycan tarixşünaslığında mövzunun tədqiqi mühüm məsələlərdən biridir. Mövzunun öyrənilməsi zamanı istifadə olunan tarixi ədəbiyyatı 5 qrupa bölmək olar:*

*1. Azərbaycan Respublikasında nəşr olunan elmi əsərlər;*

*2. Sovet Azərbaycanı tarixşünaslığına aid tarixi əsərlər;*

*3. Xarici və immiqrasiya tarixşünaslığında çap olunmuş əsərlər;*

*4. Müstəqilliyin bərpasından bu günə qədər Azərbaycan tarixşünaslığında çap olunmuş əsərlər;*

*5. Jurnalist məqalələri və internet resursları.*

*Cümhuriyyət dövründə Azərbaycan-Ermənistan münaqişəsində Zəngəzur məsələsi əsasən 1918-1920-ci illərdə Azərbaycan və Ermənistan arasında münasibətləri saxtalaşdıran erməni tarixşünaslığında cümhuriyyət qurucularının rəsmi sənədlərində, məruzələrində, əsərlərində, publisistikasında və xatirələrində işıqlandırılmışdır.*

# ТЕРРИТОРИАЛЬНЫЙ РАЗДЕЛ СОВЕТСКОЙ РОССИИ В АЗЕРБАЙДЖАНЕ В 20-Х ГОДАХ ХХ ВЕКА И ОПРЕДЕЛЕНИЕ СТАТУСА ЗАНГЕЗУРА

**Камран Асадов**

***Ключевые слова:*** *Зангезур, турецкая земля, Карабах, этническая чистка, Зангезурский коридор.*

*В первую очередь это связано с положением Азербайджана в современной системе международных отношений. Его интеграция в западные страны и международные организации и другие факторы вызывают необходимость пересмотра Зангезурского вопроса в азербайджано-армянских отношениях в конце 1917-1929 гг.*

*Во время российской оккупации азербайджанский народ, являвшийся источником опасности для государственности Азербайджана, подвергался этническим чисткам и территориальным потерям, поэтому история Азербайджана 19 и 20 веков запомнилась угрозами этническому единству , территориальная целостность и традиции государственности нашего народа. Согласно историческим обстоятельствам, депортации и насильственные территориальные чистки, направленные против азербайджанского народа политическим руководством России, были разными по форме и одинаковыми по содержанию.*

*Изучение темы в азербайджанской историографии является одним из важных вопросов. Историческую литературу, задействованную в изучении темы, можно разделить на 5 групп:*

*1. Научные работы, опубликованные в Азербайджанской Республике;*

*2. Исторические работы, связанные с историографией Советского Азербайджана;*

*3. Работы, опубликованные в зарубежной и иммиграционной историографии;*

*4. Работы, опубликованные в азербайджанской историографии от восстановления независимости до наших дней;*

*5. Журналистские статьи и интернет-ресурсы.*

*Зангезурский вопрос в азербайджано-армянском конфликте в республиканский период освещался в основном в официальных документах, отчетах, трудах, публицистике и мемуарах основателей республики, в том числе армянской историографии, фальсифицировавшей отношения между Азербайджаном и Арменией в 1918-1920 гг.*

# TERRİTORİAL DİVİSİON OF SOVİET RUSSİA İN AZERBAİJAN İN THE 20S OF THE 20TH CENTURY AND DETERMİNİNG THE STATUS OF ZANGEZUR

**Kamran Asadov**

***Keywords:*** *Zangezur, Turkish land, Karabakh, ethnic cleansing, Zangezur corridor*

*First of all, this is related to the position of Azerbaijan in the modern system of international relations. Its integration into Western countries and international organizations and other factors make it necessary to re-examine the Zangezur issue in Azerbaijan-Armenia relations between the end of 1917 and 1929.*

*During the Russian occupation, the Azerbaijani people, who were a source of danger for the statehood of Azerbaijan, were subject to ethnic cleansing and territorial loss. Therefore, the history of Azerbaijan in the 19th and 20th centuries was remembered with threats against the ethnic unity, territorial integrity and statehood tradition of our people. According to the historical circumstances, the deportations and violent territorial cleansing directed against the Azerbaijani people by the political leadership of Russia were different in form and the same in content.*

*Studying the topic in Azerbaijani historiography is one of the important issues. Historical literature involved in the study of the topic can be divided into 5 groups:*

*1. Scientific works published during the Republic of Azerbaijan;*

*2. Historical works related to the historiography of Soviet Azerbaijan;*

*3. Works published in foreign and immigration historiography;*

*4. Works published in Azerbaijani historiography from the restoration of independence to the present day;*

*5. Journalistic articles and Internet resources.*

*The Zangezur issue in the Azerbaijan-Armenian conflict during the republic period was mainly given in official documents, reports, works, journalistic writings, and memoirs of the founders of the Republic, including Armenian historiography that falsified the relations between Azerbaijan and Armenia in 1918-1920.*

## Giriş

XX əsr Azərbaycan tarixi, Azərbaycan xalqının etnik birliyinə, ərazi bütövlüyünə və dövlətçilik ənənəsinə qarşı yönələn təhdidlər ilə yaddaşlarda qalıb. Tarixi şəraitə uyğun olaraq, Azərbaycan xalqına qarşı yönələn deportasiya və zorakı ərazi təmizləmələri formaca müxtəlif olsa da, məzmunca

eyni idi.

Azərbaycan xalqının XIX əsr tarixi faciələrinin arxasında Rusiyanın Qafqaz siyasəti və uydurulmuş "erməni məsələsi" durur. XX əsrin əvvəllərində "erməni məsələsi" yeni mərhələyə daxil olur. Bu məsələ Osmanlı Türkiyəsindən Cənubi Qafqaza transfer edilir. Bununla da, Cənubi Qafqazdakı Azərbaycan türklərinə məxsus torpaqların tarixi faciəsi başlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-cü il aprelin 15-də Naxçıvana Azərbaycan SSR-in tərkibində muxtariyyət verilməsinin 90 illiyinə həsr olunmuş rəsmi toplantında çıxışında demişdir:"...Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana vermişlər. Bu tarixi ədalətsizlik idi. Cünki Zəngəzur Azərbaycanın əbədi və əzəli torpağı idi....Ancaq mən inanıram ki, gün gələcək Zəngəzur daxil olmaqla erməni işğalı altında olan torpaqlarımız öz əzəli və həqiqi vətəni – Azərbaycana qayıdacaq" Azərbaycan xalqının gözlədiyi o tarixi gün gəldi.

2020-ci il 27 sentyabr-10 n0yabr tarixində 44 günlük Vətən müharibəsində Şanlı Ordumuz Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında 30 ilə yaxın düşmən işğalı altında olan torpaqlarımızı işğaldan azad etdi. Növbəti hədəf Avrasiya türk xətti olan Zəngəzur dəhlizinin açılmasıdır.

Cənubi Qafqazda Azərbaycan türklərinə məxsus olan və uydurma "erməni məsələsi"nin qurbanına çevrilən ərazilərindən biri də Zəngəzur qəzasıdır. Daşnaksütyun partiyası fəaliyyətini Türkiyə ərazisindən Cənubi Qafqaz ərazisinə keçirdikdən sonra hədəfə aldıqları əsas Azərbaycan ərazisi Qarabağ və Zəngəzur qəzası idi. Zəngəzur qəzasında Azərbaycan kəndləri erməni kəndləri ilə əhatə olunduğu üçün ən təhlükəli vəziyyət burada yaranmışdır. Zəngəzur qəzası Qarabağ ilə Naxçıvan arasında yerləşdiyi üçün geosiyaası və geostrateji əhəmiyyət kəsb edirdi. Digər tərəfdən Zəngəzur qəzası İran və Türkiyə dövlətləri ilə sərhəd təması olduğu üçün Rusiya dövləti üçün strateji ərazi hesab olunurdu.

**Azərbaycanın ərazı bütövlüyünün pozulması**

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Gorusda Zəngəzur qəza komitəsi yaradıldı və komitənin sədri azərbaycanlı Şirvani, onun müavini isə milliyyətcə erməni olan Qaragözov təyin edildilər [2,45]. Ancaq təəssüf ki, Zəngəzura Sovet hakimiyyəti tərəfindən nə maddi, nə hərbi, nə də siyasi ideoloji cəhətdən heç bir yardım göstərilmirdi. AK(b)P II qurultayında Zəngəzurdan seçilmiş nümayəndə, milliyyətcə erməni olan Tatyan öz məruzəsində iki il davam edən milli qırğın nəticəsində bölgənin 200 müsəlman kəndinin tamamilə dağıldığını bildirmiş, Zəngəzura maddi və hərbi baxımdan köməklik göstərilməsi barədə məsələ qaldırmışdı. O, çıxışında belə bir faktı vurğulamışdı ki, Sovet hakimiyyətinin qurulmasından keçən 4-5 ay müddətində Zəngəzur əməkçiləri nə bir qəpik maaş, kəndlilər isə nə bir funt kerosin belə

almamışlar [8, 115].

Sovet işğalının ilk mərhələsində Zəngəzurun statusu məsələsi də mübahisəli olaraq qalırdı. Belə ki, Çiçerin 1920-ci il iyunun 19-na aid teleqramda bildirirdi ki, Qarabağ, Zəngəzur, Naxçıvan və Culfa nə Ermənistana, nə Azərbaycana birlədirilməməli, yerli Sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdırlar [10,85]. Təbii ki, Sovet rejiminin möhkəmləndirilməsi planı ilə bu plan üst-üstə düşmədiyindən, Q.K.Orconikidze Çiçerinə göndərdiyi sənədlərdə yazırdı: "...mənim fikrim belədir – Qarabağ və Zəngəzuru təcili Azərbaycana birləşdirmək;.." və ya digər bir teleqramda o, Lenin və Çiçerinə yazırdi ki, "Azərbaycan Qarabağa, Zəngəzura, Naxçıvan və Şərur-Dərələyəz qəzalarına iddia edir...yuxarıda göstərilən ərazilər özlərini Azərbaycan Sovet Respublikasının bir hissəsi sayırlar...Azərbaycan heç bir halda Qarabağ və Zəngəzursuz keçinə bilməz. Ümumiyyətlə, Azərbaycanın nümayəndəsini Moskvaya çağırmaq, Azərbaycana və Ermənistana aid bütün məsələləri onunla birgə həll etmək lazım gəlir."[2, 96]. Azərbaycan İnqilab komitəsinin 1920-ci il 18 may tarixli dekreti ilə Qarabağ və Zəngəzur qəzalarında Fövqəladə Komissar vəzifəsi təsis edildi. Ə.Q.Şirvani komissar, erməni Qaragözov isə onun müavini kimi 1920-ci ilin 26 avqustunda işə başladılar [7,94]. İyunun 1-də Zəngəzur qəza inqilab komitəsi yaradıldı. Avqustun əvvəlində isə ermənilər Gorus da daxil olmaqla 4 ətraf kənddə qəza inqilab komitəsi yaratdılar. və 18 avqusta qədər qəzada belə ikili idarəçilik hökm sürdü. 1920-ci il 18 avqustda Qarabağda – Şuşada qurultay keçirildi [1, 347] Qurultayda Zəngəzur qəzasının böyüklüyü nəzərə alınaraq, onu iki: aşagı – Bərgüşad və yuxarı - Gorus rayonlarına ayırmaq və hər birində müstəqil inqilab komitəsi yaratmaq razılaşdırılmışdı.

XI ordu hissələri Naxçıvan bölgəsini tutduğu vaxtda Zəngəzurda ermənilərin təkrar hərbi əməliyyatları başlamışdılar. Dronun dəstəsi Sisyanı tutmuş, Njde isə Qafan istiqamətində döyüşərək, avqustun 3-də Əngələvidi və Gorusu tuta bilmişdilər, lakin qısa müddət ərzində Sisyan, Qafan və Gorus yenidən geri qaytarılmışdı. Belə bir vəziyyətdə Qarabağ inqilab Komitəsinin Azərbaycan XDİK-ə göndərdiyi 28 avqust 1920-ci il tarixli sənəddə bildirilirdi ki, Zəngəzur qəzasının müsəlman kəndlərinin vəziyyəti ağlamalıdır [4, 30]. Təbii ki, bu bölgələrin Sovet ordusu tərəfindən işğalının ləngiməsi ilə razılaşmayan XI ordu komandanlığı 1920-ci ilin oktyabrın 20-də "Zəngəzurda əksinqilabi qiyamın yatırılması və Bazarçay xəttininin əldə möhkəm saxlanması haqqında " 88/op saylı əmrinə əsasən, Zəngəzur zərbə qrupu yaradıldı. Noyabrın 2-4-də Sisyan və Gorus rayonlarındakı erməni qüvvələri dağıdıldı, lakin ayın sonlarında Zəngəzurda vəziyyət yenidən ermənilərin xeyrinə dəyişdi. Sovet hərbi qüvvələrin Naxçıvanın işğalına yönəldildiyindən, Zəngəzurda ermənilər üstünlük qazandılar və bu isə Zəngəzura olan iddiaların yenidən canlanmasına şərait yaratdı [8, 47].

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarın başlıca məqsədi onun mərkəzi bəndində ("q") öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Sovet Ermənistanın tərkibinə keçirlər. 1920-ci il dekabrın 1-də Nərimanov Azərbacan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasındın qərarı barədə bəyanat verdi. Nərimanov həmin bəyanatda yalnız Zəngəzurun Ermənistana verilməsindan bəhs edirdi [4, 52]Zəngəzurun inzibati bölgüsü ilə bağlı Azərbaycan rəhbərliyində narazılıqlar isə özünü göstərməkdə idi. Məhz buna görə Zəngəzurun Ermənistana verilməsi rəsmən elan olunsa da, qəzanın onun idarəçiliyinə keçməsi dərhal baş verməmişdi. AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında "Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili" haqqında qərar çıxarıldı. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi - Kürdüstan qəzasına bölmək təklif edilirdi [9, 32].

1933-cü ildə Ermənistan SSR-in ərazisi rayonlara bölünür və Zəngəzur adı xəritədən silinir, Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı [ 5,114]. Nəticədə Naxçıvanın digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində isə əvvəlcə Kürdüstan qəzası, sonra isə Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. 1992-93-cü illərdə isə Zəngəzurun bu əraziləri də dünya supergüclərinin aktiv hərbi-siyasi dəstəyi ilə işğal edildi.

Ermənistana belə güzəştlərin edilməsi Rusiya hökumətinin məqsədyönlü fəaliyyətindən irəli gəlirdi. Bunu S.Orconikidzenin belə bir çıxışı da təsdiq edirdi "...məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər" [8, 272] . Həmin fikirləri sovet rəhbərliyi tərəfindən mərhələ-mərhələ ortalığa atılan və regionda həyata keçirilən bu şüarlar da (əvvəlcə "Yalnız Sovet hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü təmin edə bilər", sonra isə "Yalnız Sovet hakimiyəti Zəngəzuru Ermənistana qaytara və Azərbaycanı Qarabağa muxtariyyat verməyə məcbur edə bilər") təsdiqləyir.

İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtardı. Həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi. Göründüyü kimi, işlər İ.Stalinin "Azərbaycanın fatehi" adlandırdığı Q.Orconikidzenin "əvvəlcə Naxşıvanla Zəngəzurun Ermənistana keçməsinə nail olmaq və sonra da Azərbaycanı Dağlıq Qarabağa muxtariyyat verməyə vadar etmək" planına uyğun gedirdi. Doğrudur, AK(b)P MK Siyasi Bürosu və RK(b)P MK Qafqaz Bürosunun İ.Stalin, Q.Orconikidze, Qabrielyan, B.Leqran, Ə.Qarayev və b. iştiraki ilə keçirilən birgə iclasında (4.XI.1920) Rusiya ilə Ermənistan arasındakı müqavilənin şərtlərinə toxunularkən belə bir qərar qəbul edilmişdi: "Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə

nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız lap son halda baş tuta bilər" [8, 247]. Belə bir qərar çox yəqin ki, Sovet hökümətinin faktiki hadisələri pərdələməsi və ya hər hansı etiraz yarana biləcəyi halda özlərini sığortalama cəhdi ola bilərdi. Eyni zamanda İ.Stalinin Bakıda AK(b)P MK və Bakı komitəsinin birgə plenumunda-RK(b)MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı Soveti və s. birgə iclasında (9.XI.1920) "Zəngəzur məsələsi"nin müzakirəsi zamanı söylədiyi aşağıdakı sözlər də fikrimizə əsas ola bilər: əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa vermək olar. Onun belə bir mövqeyini bir sıra digər mülahizələrlə yanaşı, həm də "Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz". 30 noyabr 1920-ci ildə AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi "tarixi" qərarlara aydınlıq gətirmək məqsədilə orada iştirak edənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir. Q.Orconikidze, Sarkis (S.Ter-Danielyan), Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və b. iclasda 3-cü məsələ kimi "Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı" müzakirə edilmiş və geniş bir qərar çıxarılmışdı [2, 131].

**Zəngəzurun statusunun müəyyən edilməsi**

Zəngəzurun ermənilərə verilməsi, əslində isə "bağışlanması" istiqamətində daha bir addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən, təntənəli "tarixi" iclasında N.Nərimanov Bəyanatla çıxış etdi. "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın-kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanın bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanın qoşunları isə buradan çıxarılırlar" [9, 254]. Burada daha sonra qeyd edilirdi ki, Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin-neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır.

Bu Bəyanatla Azərbaycan torpaqlarının Ermənistana verilməsi ("bağlanması") ilə bağlı bəzi mövqe və mülahizələri də bilmək maraqlı və faydalı olardı. Bakı Sovetinin həmin iclasının yekdilliklə qəbul olunan qətnaməsində "Nərimanovun Bəyanatı"nın tamamilə bəyənildiyi bildirilir və onun "...Ermənistanla müsəlman dünyası arasındakı çoxəsrlik düşmənçilik və qanlı müharibələri birdəfəlik aradan qaldırmaqla Qafqaz və bütün Şərq

xalqlarının tarixində yeni səhifə açdığı qeyd edilirdi” [9, 296].

Çoxlu arxiv sənədlərinin də təsdiqlədiyi kimi, torpaqlarımızın parçalanması və paylanmasında əsas rol oynayanlardan biri olan İ.Stalin bu hadisəni belə “izah” etmişdi: “Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir” [5,42].

Bakı Sovetinin həmin iclasındakı çıxışında “əzabkeş erməni xalqının” Sovet hakimiyyətinin bayrağı altına gəlməsini alqışlayan Q.Orconikidze bu bəyanatı “bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt” kimi qiymətləndirmişdi. Həmin çıxışında o, Azərbaycanın strateji bölgələrinin əhəmiyyətini azaldaraq demişdi:Q.Orconikidze elə həmin gün PK(b)P MK Qafqaz Bürosunun üzvü-erməni kommunistlərinin liderlərindən biri olan Nazaretyana məlum Bəyanat barədə xəbər yetirdikdə o, “mətbuatda bərəkallah azərbaycanlılar”- deyə car çəkməyə başlayacağıq cavabını vermişdi. Q.Orconikidze 1920-ci il dekabrın 2-də Bakıda verdiyi məlumatda V.Leninə və İ.Stalinə “Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir” xəbərini çatdırmışdı.

Həmin dövrdə N.Nərimanov Moskvaya etiraz teleqramı göndərirdi: “Müsəlmanlar sovet hakimiyyətinin Azərbaycanı əvvəlki sərhədlər daxilində saxlaya bilməməsini xəyanət, ermənipərəstlik, ya da Sovet hakimiyyətinin zəifliyi hesab edəcəkdir ” [9, 38]. Çiçerin isə tarixi Azərbaycan torpaqlarına erməni ordusunun yeridilməsini tənqid edən Nərimanova cavab olaraq yazırdı ki, “Əgər bir sıra mübahisəli yerləri bizim qoşunlar dərhal tutulmayıbsa, bu yalnız qoşunlarımızın kifayət etməməsi ilə izah olunur...” [6, 158].

Başqa bir məktubunda isə N.Nərimanov onu millətçilikdə ittiham edənlərə cavab verərək “Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti ... millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı, Gürcüstana müftə neft verilməzdi” [3, 285]. Bu məsələ İ.M.Musayevin “Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti”(1917-1921-ci illər) Bakı, Bakı Univ. Nəşriyy, 1996, 328 s. kitabın 270-ci səhdə də əks olunub. Tədqiqatçılar bu bəyanatla bağlı daim Nərimanovu ittiham etsələr də, Ş.Qurbanov, onun bu bəyanatı AK (b)P MK Siyasi Bürosunun qərarı kimi 1920-ci il noyabrın 30-da Siyasi Büronun iclasında oxuduğunu və onun şəxsi qərarı olmadığını və dekabrın 1-də isə Bakı Sovetinin iclasında elan etdiyini bildirirlər [6, 89].

Dekabrın 3-də Stalin Ermənistana göndərdiyi təbrik teleqramında göstərilirdi ki, Azərbaycan “mübahisəli ərazilərdən könüllü olaraq əl çəkir və Zəngəzurun, Naxçıvanın və Dağlıq Qarabağın sovet Ermənistanına verilməsini elan edir”. Azərbaycan rəhbərliyinin az öncə sədalanan beynəlmiləlçi güzəştləri və ilkin sazişlə (10.VIII.1920) hədəfə alınanlar RSFSR-lə Sovet Ermənistanı arasındakı hərbi-siyasi müqavilə (2.XII.1920) ilə möhkəmləndirildi və

gerçəkləşdirildi. Həmin sazişin 3-cü maddəsində yazılırdı ki, Rusiya Sovet hökuməti İrəvan quberniyasının.... (Naxçıvan və çevrəsindəki torpaqlar), Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Bunula da Rusiya-Ermənistan münasibətlərində mühüm önəmə malik olan məsələlərdən ən başlıcası-Azərbaycan torpaqları ətrafındakı növbəti sövdələşmə o mərhələ üçün bu şəkildə yekunlaşdırıldı [1, 415].

Sovet Rusiyasının Xalq xarici işlər komissarı Çiçerinin Zəngəzur, Qarabağ, Ordubad, Şərur-Dərələyəz və Naxçıvan məsələsində tutduğu antiazərbaycan və antitürk mövqeni araşdırdıqda belə təsəvvür yaranır ki, görünür bolşeviklər ingilislərlə gizli danışıqlar əsasında bu barədə ümumi razılığa gəlibmişlər. Bu layihənin həyata keçirilməsi ilə Türkiyə ilə Azərbaycan SSR və Orta Asiya arasında birbaşa əlaqə kəsilirdi. Bu isə həm ruslara, həm bütövlükdə qərb aləminə, həm də İrana çox sərf edirdi. Bu məslənin gizli məqamlarından çox yəqin ki, məlumatı olan N.Nərimanov 1920-ci il tarixli məlumatın birində yazırdı ki, “Dünyada heç kəs göstərilən vilayətlərin (Qarabağ və Zəngəzurun) əhalisinin Azərbaycanla birləşməsinə rəylərini bildirmələrinə təsir göstərməyimizə mane olmaq imkanında deyildir... İndi bu vilayətlərin güzəştə gedilməsi ... Sovet hakimiyyətinin nəinki Azərbaycanda, həm də İranda və Türkiyədə nüfuzdan düşməsi olacaqdır” [4, 52].

Aztar 1920-ci il avqustun 18-də Şuşada Zəngəzur qəza və sahə İnqilab Komitələrinin fəal iştirakı ilə Zəngəzur və Qarabağ nümayəndələrinin qurultayı keçirildi. Bu qurultayda sovetlərin təkidi və təklifi ilə gələcəkdə ermənilərin bu torpaqları daha asan yolla ələ keçirə bilmələri üçün Zəngəzur iki hissəyə – Bərgüşad (Aşağı Zəngəzur) və Gorus (Yuxarı Zəngəzur) rayonlarına parçalandı. Beləliklə, Yuxarı Zəngəzurun Azərbaycandan ayrılmasının əsası qoyuldu. Bununla da Sovet Rusiyası Ermənistan və Azərbaycan arasında mübahisəli məsələlərin həllindən Azərbaycanı kənarlaşdırdı, onu təmsil etməyi öz üzərinə götürdü. Sovet Rusiyası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi layihəsi hazırlanarkən Azərbaycanın hüquqları pozulmuş, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırılmışdı.

1920-ci ilin yayında Azərbaycanın siyasi vəziyyətinin mürəkkəbliyindən istifadə edən Ermənistan hökuməti təcavüzü gücləndiridi. İyulun axırlarında erməni hərbi hissələri Zəngibasarı dağıtdı və Naxçıvana doğru irəlilədi. Lakin türk qoşunu tərəfindən Naxçıvanın nəzarət altına alınması ermənilərin qabağında sipər oldu. İyunun 6-da XI Ordu hissələri Zəngəzur istiqamətində hücuma keçən erməni qoşunlarının qarşısını aldı. Lakin iyulun axırları – avqustun əvvəllərində Ermənistanda məğlub olmuş üsyançıları təqib etmək bəhanəsi altında Ermənistan qoşunları Zəngəzura yenidən hücum etdi və Zəngəzurun böyük bir hissəsini zəbt etdi. AK(b)p MK-nın 10 iyul 1920-ci il tarixli iclası Qarabağ məsələsini müzakirə etdi və buradakı əhalinin arzusunu, Azərbaycan və Bakı iqtisadi rayonu ilə əlaqəsini nəzərə alaraq onun

Azərbaycan SSR tərkibində qalmasını daha məqsədəuyğun saydı. Bu məsələ ilə əlaqədar olaraq 1 dekabr 1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulması münasibəti ilə Bakı Sovetinin təntənəli iclasında N.Nərimanov Azrevkomun Bəyanatını elan etdi. Burada deyilirdi ki, bundan sonra heç bir ərazi iddiaları iki qonşu xalqın - ermənilərlə müsəlmanların arasında qanlı qırğınlara səbəb ola bilməz və Dağlıq Qarabağa öz müqəddəratını təyin etmə hüququ verilmişdir [3, 54]. Nərimanovun dekabrın 1də oxuduğu bu bəyanat tarixə "Nərimanov bəyanatı"adı ilə düşdü [2, 158]. Bu bəyanatla Zəngəzurun 4504,5 kv.km ərazisi Ermənistana hədiyyə edildi.

Dağlıq Qarabağ ətrafında baş verən bu mübahisələr AK(b)p MK-nın və RK(b)p-nin Qafqaz Bürosunda iclaslarda dəfələrlə müzakirə edilmiş və hər dəfə də regionun əhalisinin arzu və istəkləri nəzərə alınmışdır [4, 59]. Belə ki, bütün bu ijlaslarda Dağlıq Qarabağdan olan nümayəndələr onun Azərbaycan SSR tərkibində qalmasını məqsədəuyğun saymışdır. 1920-ci ilin iyununda N.Nərimanov Moskvaya göndərdiyi məlumatda bildirmişdir ki, "Qarabağ və Zəngəzur ....bu yerlər mübahisəsiz olaraq Azərbaycanın tərkibində olmalıdır"[ 4,131].Bu vaxtlar Azərbaycanda baş verən üsyanlar işğalçı XI Orduda elə hiddət yaratmışdı ki, onlar ermənilərin Azərbaycan sərhəddinə təcavüzünə və onların törətdiyi cinayətlərə biganə qalırdı. Səbəb də məlum idi. Ermənilər tərəfindən azərbaycanlılar nə qədər çox sıxışdırılsa, yerli əhalinin XI Orduya itaəti bir o qədər artardı. Həmçinin Sovet Rusiyasını o torpaqların hansı millətin əlində olması deyil, bütün Qafqazı bolşevik təsirinə salmaq maraqlandırırdı. Məlumdur ki, Azərbaycandan sonra Rusiyanın növbəti hədəfi Ermənistan və Gürcüstan idi. 1920-ci il noyabrın 29-da Ermənistanda «inqilab» baş verdi [4, 211].

Əslində bu, o demək idi ki, Azərbaycan Zəngəzurun bir hissəsinin və Naxçıvanın işğalı ilə razılaşır. Bəyanatın digər prinsipinə əsasən Azərbaycan Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verirdi.1920-ci il dekabrın 1-də elan olunmuş belə bir məsuliyyətsiz bəyanat nəticəsində Azərbaycan ermənilərin işğalı ilə razılaşdı. Lakin ermənilərin və onların havadarlarının iştahası daha böyük idi. Qarabağın dağlıq hissəsi və Naxçıvan məsələsi gündəlikdə qalırdı.

Naxçıvan əhalisi bu qərara tabe olmadı, kəskin etiraz çıxışları baş verdi. Ermənistanın nümayəndələri diyara buraxılmadı. B.Vəlibəyov dekabrın 24-də Yerevana çağırıldı, həm də Ermənistan İnqilab Komitəsi tərəfindən Naxçıvanda Fövqəladə Komissar təyin edildi. Ancaq xalq onun gəldiyi vaqonu Şahtaxtı stansiyasında qatardan açaraq Naxçıvana buraxmadı. Dekabrın 28-də Ermənistan İnqilab Komitəsi Naxçıvanı müstəqil Sovet Respublikası kimi tanıdı. 1921-ci ilin əvvəllərində burada RSFSR, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə əhalinin rəy sorğusu (referendum) keçirildi. Naxçıvan camaatının 90%-i Azərbaycanın tərkibində qalmaq arzusunu bildirdi

[4, 112].

1921-ci ilin II yarısında Yuxarı Zəngəzur –Gorus Ermənistanın əlinə keçdi. Azərbaycanlılar buradan sıxışdırılaraq öz doğma torpalarından didərgin salındılar. Ermənistan Aşağı Zəngəzuru –Bərgüşadı da ələ keçirməyə çalışırdı. Hacısanlıda Sultan bəyin dəstələri, Sovet Ordusu tərəfindən 1921-ci ilin iyununda tərksilah edildikdən sonra buna daha münasib şərait yaranmışdı. Qubadlı qəzasına Ermənistanın səlahiyyətli nümayəndə təyin etdiyi Ocaqqulu Musayev özünü yerli silahlı dəstələrin baş komandanı elan etmişdi. Lakin düşmən bu dəfə istəyinə nail ola bilmədi.

Əhalisinin milli ruhu hələ də yüksək olan Azərbaycanı parçalamaq, onu ciddi problemlər qarşısında qoyub tam asılı vəziyyətdə saxlamaq üçün Moskva yeni tədbirlər görürdü. Yuxarı Qarabağda milli münaqişə ocağı qızışdırılırdı. Ermənistan hökuməti 1921-ci ilin iyununda Azərbaycanın suveren hüquqlarını kobudcasına pozaraq, guya onun razılığı ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında dekret verdi. Azərbaycanın razılığı haqqında fikrin ağ yalan olduğu AK (b) MK siyasi təşkilat bürosunun iclasında ifşa olundu [2, 113].

1921-ci il iyunun 27-də AK(b)P MK özünün siyasi və təşkilat bürosunun birgə iclasında bu məsələyə baxmağa məcbur oldu. Bu dəfə milliyyətcə azərbaycanlı olan kommunistlər birləşərək yekdilliklə Ermənistanın iddialarını rədd etdi.

Qarabağ məsələsinin Azərbaycan SSR üçün böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq bu məsələnin PK(b)P MK-nın qəti qərarına keçirilməsi haqqında qərar qəbul edildi. N.Nərimanov V.İ.Leninə bu məsələ ilə bağlı teleqram vurdu və məktub yazdı. Məktubda deyilirdi: «Əziz Bladimir İliç: Teleqrammada göstərdiyimi təkrar etməyə məcburam. Vəziyyət dəhşətlidir. Mərkəz Azərbaycanın, Ermənistanın və Gürcüstanın müstəqilliyini qəbul edib. İndi isə mərkəz Azərbaycanın mübahisəsiz ərazisini Ermənistana verir. Əgər bu ərazi Gürcüstana verilsəydi, buna ictimai-siyasi don geydirmək olardı. Lakin bu ərazinin Ermənistana, daşnaklara verilməsi düzəlməyən səhvdir. Bizim oradakı nümayəndəmiz bu məsələ ilə bağlı sizə ətraflı məlumat verəcəkdir. … Əziz Bladimir İliç, görəsən «Müstəqil Azərbaycan» sözü sizin ağzınızdan çıxmamışdırmı? [6,115].

Azərbaycana qarşı aparılan ədalətsiz siyasəti SSRİ Mərkəzi İcraiyyə Komitəsinin həmsədri Nəriman Nərimanov RK(b)P MK-ya və Stalinə yazdığı «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı məşhur məktubunda cəsarətlə ifşa etdi. N.Nərimanov Azərbaycanın taleyinin daşnaklara tapşırıldığını bildirdi. 1927-ci ildə Zaqafqaziya (Cənubi Qafqaz) MİK-in qərarı ilə Mehri-Cəbrayıl qəzalarından 24 kənd, Aşağı Zəngəzurdan 1065 desyatin torpaq sahəsi, 1929-cu ildə daha 13 min hektar Azərbaycan ərazisi – Nüvədi, Tuğut və Yernəzir kəndləri, habelə Naxçıvandan 9 kənd, Qaymaqlı ilə Kürumuzlu arasındakı sahələr (228,9 desyatin) Ermənistana verildi. Zaqafqaziya (Cənubi Qafqaz)nın

və SSRİ-nin qanunvericilik orqanlarında fəaliyyət göstərən Azərbaycan nümayəndələri isə respublikanın suveren hüquqlarının pozulmasına qarşı əməli bir iş görə bilmədilər.

27 iyul 1921-ci ildə yenə AzK(b)p MK bürosu "Azərbaycan və Ermənistan sərhədləri haqqında" məsələ müzakirə etmiş və burada da Dağlıq Qarabağın iqtisadi cəhətcə Azərbaycandan ayrı yaşaya bilməyəcəyini qeyd etmişdir. Daha sonra bu məsələ 4 və 5 iyun 1921-ci ildə RK(b)p MK-nın Qafqaz Bürosunda yenidən müzakirə edilmişdir. Burada S.M.Kirov, F.İ.Maxaradze, A.F.Myasnikov, A.İ.Nazaretyans, N.Nərimanov, İ.D.Orexanişvili, Q.K.Orjenikidze, C.P.Fiqanter, həmçinin RK(b)p MK-nın üzvü, milli işlər komissarı İ.V.Stalin və Azərbaycan SSR Xarici İşlər Komissarı M.D.Hüseynov iştirak etmişlər. İclas problemi dərindən öyrənərək bu qərara gəlmişdir ki, DQMV Azərbaycan SSR tərkibində qalmaqla ona geniş özünü idarə hüquqları verilsin [5,52].

1921-ci ildə Z.Kartaşyanın Avropada nəşr olunan kitabında deyilirdi ki, Amerika Ermənistana torpaqları əldə etməkdə lazımı kömək göstərmədiyindən, Ermənistan iddia etdiyi torpaqların 60% -ni əldə edə bilmədi . 1921-ci ilin iyunun 25-27-də Tiflisdə "Mübahisəli ərazilər" məsələləri üzrə komissiyanın iclası keşirildi. İclasda Ermənistan nümayəndəsi Bekzadyan bildirdi ki, "Zaqafqaziyanın inzibati bölgüsü ədalətsiz aparılmışdır. Əgər dostcasına yaşamaq istəyiriksə, erməni əhalisinin yığcam şəkildə yaşadığı ərazilər Ermənistana güzəşt edilməlidir". O eyni zamanda bildirdi ki, Stalin Moskvada onunla və Myasnikovla söhbət zamanı bu fikrə tamamilə şərik çıxmışdır [3, 64].

24.12.1928-ci il K(b)P MK-nın iclasının 55 saylı protokolunda göstərilir ki, Rəhim Hüseynov Kürdüstan qəzasının komitəsinə sədr kimi təyin Sovet hökuməti Kürdüstana xüsusi diqqət yetirir, burada İstisu istirahət mərkəzi istiqamətində yolların çəkilməsi, büdcə məslələrinin müzakirəsində buraya geoloji kəşfiyyata başlanmasının vacibliyi, buradakı yeraltı sərvətlərdən istifadənin vacibliyi göstərilirdi. Eyni zamanda ağır həyat şəraiti nəzərə alənmaqla burada partiya işçilərinin əmək haqqlarının 30% artırılması təklif olunurdu. Eyni zamanda Kürdüstanda 3 aqromərkəzin yaradılması, Minkənd kəndlilərinə kanal çəkilməsi üçün ssuda ayrılması, dəyirmanlar üzərinə qoyulan vergilərin azaldılması və ya ləğvi, kəndlilərə kredit verilməsinin vaxtının uzadılması, Kurdüstanda işləmək üçün həkim göndərilməsi və onəarın maaşının artırılması və s. məsələlər bu qəza ilə bağlı praktiki təkliflərdə yer almışdı. Burada əhalinin cəmi 4-8%-nin savadlı olması, keçilməz dağları, sıldırımları, sıx meşələri burada antisovet elementlərinin üstünlük təşkil etməsinə şərait yaradır. Məxfi adı altında hesabatda Sultanov qardaşlarının gizli adamlarının burada təbliğat aparması barədə məlumat toplanıb . Siyasi büronun 18 sentyabr 1020-ci il iclas protokolunun qərarlarından birində deyilir ki, "Hərbi inqilab

Şurasına və Xalq Hərbi Komissarlığına tapşırılsın ki, Sulyan bəyin bandasını ləğv etsinlər” [2, 25].

1929-cü ildə yenidən 13 min hektar Azərbaycan ərazisi –Nüvəndi, Tutut və Ernazar kəndləri, habelə Naxçıvandan 9 kənd (582,9 des.), Qaymaqlı və Kürümüzlü arasında sahələr (228, 9 ha) Ermənistana verildi. 1938-ci ildə Ermənistanla Azərbaycan arasında sərhəddi dəqiqləşdirmək bəhanəsi ilə «bərabərtərəfli» komissiya yaradıldı.Azərbaycan tərəfdən də komissiyaya erməni, torpaq komissarlığının sədri İsaxanyan rəhbərlik edirdi. Martın 5-7-də imzalanmış protokola əsasən Laçının Qaragöl yaylası, Qubadlının Çayzəmi adlanan sahəsi, Qazağın Kəmərli kəndi və Kəlbəcərin Zod sahəsi Ermənistana verildi. Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 5-də bu protokolu təsdiq etdi. Lakin buna baxmayaraq, azərbaycanlılar müqavimət göstərir, öz torpaqlarını əldən vermirdilər.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1.Azərbaycan tarixi. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2010, 545 s.

2.Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 1990, 93 s.

3.Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təjavüzkarlıq siyasəti (XIX əsrin axırı - XX əsr). Bakı, Elm, 1998, 322 s.

4.Cəfərov C.M. Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu-30-cu illər). Bakı, “Elm”, 2008, 300 s.

5.Eloğlu S. Zəngəzur hadisələri. Bakı, Azərnəşr, 1992, 58 s.

6. İsmayılov K. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı, “Turxan”, 2014, 248 s.

7. Məmmədov Ç.İ. Azərbaycanın siyasi tarixi. (XIX – XX əsrlər). Bakı, “Avropa” nəşriyyatı, 2006, 336 s.

8. Məmmədova H.İ. Azərbaycan xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920).Bakı, “Nağıl Evi” nəşriyyatı, 2006, 150 s.

9. Paşayev A. XIX-XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar. Bakı,”Çaşıoğlu” 2011, 328 s.

10.The History of Public and Cultural reformation in the Caucasus and Central Asia (19th- early 20th century). – IICAS-UNESCO. Samarkand, 2013. Kollektiv monoqrafiya 280 s

11. The History of Public and Cultural reformation in the Caucasus and Central Asia (19th- early 20th century). – IICAS-UNESCO. Samarkand, 2013. Kollektiv monoqrafiya 290 s

# Ümumtəhsil Məktəblərində Tədris Ekskursiyalarının Təşkili – Muzeydə Dərs

**Mübariz Əmirov**
ADPU, Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası
mubariz1503@gmail.com

***Açar sözlər:*** *ümumtəhsil məktəbləri, tədris, ekskursiya, şagird, dərs, muzey, tarix fənni*

*Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Tarix təlimində tədris ekskursiyalarının yeri, rolu, mahiyyəti, təşkili qaydaları, təlim və tərbiyəvi əhəmiyyəti şərh edilib. Tədris ekskursiyalarının didaktik və tərbiyəvi cəhətlərinə aydınlıq gətirilib. Tədris ekskursiyalarının təlim istiqaməti, didaktik dəyəri açıqlanıb. Tədris ekskursiyalarının şagirdlərin həyata hazırlanmasında, dünyagörüşlərinin genişlənməsində, tarix elminə marağın artırılmasındakı roluna aydınlıq gətirilib. Muzeydə dərsin nümunəsi verilib. Tədris ekskursiyaları şəxsiyyətin formalaşmasını, təlimin keyfiyyətinin yüksəldilməsini motivləşdirən metod kimi səciyyələndirilib.*

## Образовательных экскурсий в общеобразовательных школах организация-Урок в музее

**Мубариз Амиров**

***Ключевые слова***: *общеобразовательная школа, обучение, экскурсия, ученик, урок, музей, предмет истории.*

*В статье обоснована актуальность темы. Разъяснены место, роль, сущность, правила организации, обучающее и воспитательное значение образовательных экскурсий в историческом образовании. Уточнены дидактические и воспитательные аспекты образовательных экскурсий. Объявлено воспитательное направление и дидактическое значение образовательных экскурсий. Выяснена роль образовательных экскурсий в подготовке учащихся к жизни, расширении их мировоззрения, повышении интереса к истории. Пример урока был приведен в музее. Образовательные экскурсии характеризуются как метод, стимулирующий формирование личности и повышение качества образования.*

# Educational excursions in secondary schools organization-lesson at the museum

**Mubariz Amirov**

***Keywords:*** *secondary schools, teaching, excursion, student, lesson, museum, history subject*

*The relevance of the topic is justified in the article. The place, role, essence, rules of organization, training and educational importance of educational excursions in history education were explained. Didactic and educational aspects of educational excursions have been clarified. The educational direction and didactic value of educational excursions have been announced. The role of educational excursions in preparing students for life, broadening their outlook, and increasing interest in history has been clarified. An example of the lesson was given in the museum. Educational excursions are characterized as a method that motivates the formation of personality and the improvement of the quality of education.*

Pedaqoji ensiklopediya qeyd edir ki, ekskursiya - bu şagirdlərdə tədris-tərbiyəvi işinin adi, təbii şəraitdə və ya muzeylərdən və s. müxtəlif predmet və hadisələrin öyrənilməsini təşkil etməyə imkan verən forma və metoddur.

Tarix dərsində tarix üzrə ümumi tədris ekskursiyası, həmçinin ekskursiyaların başqa növləri, hər şeydən əvvəl onların məqsədlərində əks olunur. Tarix biliyi şagirdlərin elmi dünyagörüşlərinin formalaşmasına motiv yaradır. Ekskursiya əyaniliyi göstərir. Şagirdlərin idrak fəaliyyətinin spesifikası və götürmə emosionallıqları bununla təyin edilir. Tarixi keçmişin bilavasitə mənimsənilməsi və keçmişin predmetləri və indiki həqiqətlərin aktiv dərk edilməsi tədris ekskursiyasının mahiyyətini təşkil edir.

Tədris ekskursiyasının pedaqoji imkanları nədən ibarətdir? O anlayışları konkretləşdirir, parlaq və bədii təsəvvürlərin yaradılmasına kömək edir, tarixi biliklərin müxtəlif mənbələrini cəlb etməyə, ən yaxşı üsulla öyrənilən hadisə və prosesləri canlandırmağa, keçmişi bərpa etməyə imkan verir. "Tədris ekskursiyası şagirdlərin düşüncə və təxəyyülünün inkişafına imkan yaradır, onların idrak fəaliyyətini aktivləşdirir və müəyyən edir. Tarixə maraq oyadır və inkişaf etdirir, həyatla əlaqəni həyata keçirir və nəticədə məktəblilərin mənəvi tərbiyəsinin formalaşmasına motiv yaradır, onların dünyagörüşlərinin genişlənməsinə, intellektlərinin inkişafına xidmət edir və əmək, hərbi-vətənpərvərlik, estetik tərbiyəvi məsələlərini həll edir" [1, s.75].

Tədris ekskursiyası dərsdənkənar ekskursiyadan fərqlənir:

a) məktəb proqramının əsasında keçirilir və tez-tez analoji mövzu ilə sinifdə dərsi əvəz edir.

b) şagirdlər üçün məcburidir və bütün sinfi əhatə edir.

Tədris ekskursiyasını adətən ekskursovod deyil, müəllim keçirir.

Hal-hazırda məktəblərdə yüzlərlə diyarşünaslıq və tarix muzeyləri yaradılmışdır. Onlarda sinifdə dərsin keçirilməsinin bütün tələblərinə cavab verə bilən təlim keçirilə bilər-biliklərin yoxlanılması, dəftərlərdə qeydlər və s. Bu şagirdlərin muzeydə rahat yerləşməsi nəticəsində mümkün ola bilər. Muzeydə keçirilən dərs məqsədəuyğundur, yalnız zəngin ekspozisiya materialları olduqda və həm də sinfə gətirilə bilməyən ekspozisiya materialı olduqda daha məqsədəuyğun olur.

Tarix üzrə tədris ekskursiyalarının formaları:

Tədris ekskursiyaları ekskursiya obyektinin xarakterindən asılı olaraq bir neçə formaya bölünə bilər.

a) muzey, b) tarixi hadisələrin yerləri, c) tarixi-mədəni abidələr, d) müasir yerlər və s.

Didaktik məqsədinə və təlim prosesində yerinə görə təlim, ekskursiyaları aşağıdakı növlərdə ola bilər.

Tədris ekskursiyalarının səmərəli təşkilinin metodik şərtləri aşağıdakılardır:

Tədris ekskursiyalarının effektiv keçirilməsinin metodik şərtlərinə tarix dərsinə verilən tələblər də aid ola bilər. V-XI siniflərdə tarix üzrə keçirilən tədris ekskursiyalarının bir neçə vacib metodlarının üstündə dayanaq.

“Tədris ekskursiyası şagirdlərin xüsusi hazırlığını tələb edir. Müəllim əvvəlcədən siniflə ekskursiyanın mövzusu, yeri, vaxtı haqqında müsahibə keçirir, qısa olaraq obyektin özəllikləri haqqında məlumat verir” [2, s.15].

1. Şagirdlərin təfəkkürünün inkişafının əsas tələbi ekskursiyada onların qarşısında düşünülmüş məsələlər qoyulmasıdır (həm kollektiv, həm də fərdi). Şifahi və yazılı məlumat hazırlamaq, rəsm, şəkil çəkmək, həmçinin büllet albom hazırlamaq, təşkil etmək və s.

Tapşırıq tarixi abidənin xüsusi "dilinin" başa düşülməsi formalaşdırmalıdır. Həmçinin abidə, sənəd, hər hansı tarixi mənbə öz-özünə deyil, hər hansı tarixi hadisə əsasında proseslərin inkişafı kimi yaranır. Həmçinin ümumi tipdə olan sual-tapşırıqlar da verilə bilər. Eksponatlardan hansı daha çox təəssürat yaratdı? Ekskursiya dərsində ən çox nə yadda qaldı? Dərsliklə müqayisədə siz yeni nə öyrəndiz? Hansı eksponatlar hadisə, təzahür, insanlar haqqında daha aydın təsəvvür yaradır. Sizin keçmiş haqqında düşüncələriniz ekskursiya dərsindın sonra necə dəyişdi? Ekskursiya dərsində siz hansı tarixi mənbələrlə tanış oldunuz? Gördüyünüz eksponatların dilinin öz ahəngi nədir?

2. Bir çox hallarda ekskursiyanı ekskursovod keçirir, amma müəllim də ona hazırlaşmalıdır. Əgər ekskursiyanı müəllim aparsa, ekspozisiyanı öyrənir, eksponatların fərqli xüsusiyyətlərini mənimsəyir, ətraflı təhlil üçün bir neçə

obyekt seçir.

3. Müsahibə zamanı, müəllim ekskursiya obyektlərini materialının mənimsənilməsinə nail olmalıdır. Bu müsahibənin xarakteri müxtəlif ola bilər: bir halda əyani obyektlər biliklə təyin edən mənbə kimi çıxış edir. Digər halda isə əsas aparıcı rolu müsahibə tutur, əyani obyektlər isə bədii, sənədli dayaq rolunu oynayır. Təlim ekskursiyası şagirdlərin yalnız əyani təsəvvürlərlə yüklənməsi ilə məhdudlaşmır, onun gedişində xarici obyektin təsvirini və hadisənin mahiyyətinin açılmasını onun qanunauyğunluqlarını birləşdirməlidir.

Tarixçi-metodist A.F.Rodina yazır: "Nəzəri material əyani obyektlərin mənimsənilməsini aktivləşdirir, onların mahiyyətini anlamağa kömək edir. Eyni zamanda zəruri tarixi təsəvvürlərin yaradılmasına, mürəkkəb anlayışları mənimsəməyə, ümumiləşdirilmiş biliklər əldə etməyə imkan yaradır" [3, s.25].

Müəllim (və ya bələdçi) şagirdləri abidələri, eksponatları oxumağı və görməyi öyrətməlidir. Onların spesifikasını başa salmaq müəllimin fəaliyyətinin məcburi vəzifəsidir. Ekskursiyada həmçinin keçmişin şifahi canlandırılması obyekti onun ilk görüşündə təsvir etmək, dövr haqqında parlaq müsahibə ilə ayrı-ayrı eksponatları bağlamaq, insanlar, onların əhval-ruhiyyələri, zövqləri, adət-ənənələrini qeyd etmək çox vacib və əhəmiyyətlidir.

4. Ekskursiyalarda hekayə, təsvir, başa salmaq, sənədlərlə iş və s. istifadə oluna bilər. Ancaq təlimin formalarından istifadə muzeydə və şəkil qalereyasında müxtəlif olacaq (əmək alətlərinin, geyimlərin, avadanlıqların təsviri vaxtı), digər tərəfdən, abidə yerləri (küçə ekskursiyaları, abidələrə baxış, döyüş yerləri və s.) üzrə ekskursiyaların gedişi müxtəlif olur. Bu vaxt müəllim nəinki şagirdlərin müşahidələrinə, obyektləri xarakterizə etməyə rəhbərlik edir, həm də abidələr haqqında canlı, bədii şərh verir, şagirdlərin özlərinin obyektlərin müşahidəsi zamanı mənimsəyə bilmədikləri məlumatları onlara mənimsədir.

Nümunə üçün deyək ki, tarix müəllimi planlı-tədris ekskursiyasını "Milli Azərbaycan Tarixi Muzeyi"nə təşkil edir. Burada ekskursovod şagirdlərə muzey haqqında aşağıdakı məzmunda məlumatı verir. Şagirdlər ekskursovoddan həm şifahi məlumatları mənimsəyir, həm də muzeyin eksponatları ilə əyani tanış olurlar.

Azərbaycan tarix muzeyi. Azərbaycanın böyük muzeylərindən biri - 1920-ci ildə əsası qoyulmuş Dövlət Tarix Muzeyi şəhərin ən gözəl yerlərindən birində, məşhur neft maqnatı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1895-96-cı illərdə tikilmiş malikanəsində yerləşir. 1921-ci ilin mayından fəaliyyətə başlayan muzeyin 1936-cı ilə qədər adı Azərbaycan SSR-in Dövlət Muzeyi olub və elmi-tədqiqat sahəsində əvəzedilməz rol oynayıb. Bədii-tarixi dəyərlərə əsaslanaraq 1920-30-cu illərdə təbiət, tarix, teatr, ədəbiyyat, din və ateizm muzeyləri, Şirvanşahlar sarayı muzey qoruğu, əlyazmalar fondu (sonralar Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu oldu) yaradıldı.

Ərsəyə gəldiyi ilk gündən mədəni-maarif sahəsində fəaliyyətini gücləndirərək Milli Elmlər Akademiyası strukturunda elmi-tədqiqat müəssisəsinə çevrildi. Bu dövrlər ərzində muzeyin elmi-tədqiqat planına Azərbaycan tarixinin bütün dövrlərinin öyrənilməsi və ekspozisiyada göstərilməsi ən ümdə məsələ kimi daxil olub. Bu muzey Azərbaycan ərazisində olan bütün qədim maddi-mədəniyyət abidələrinin elmi tədqiqatı ilə məşğuldur. 60-70-ci illərdə arxeoloqlar tərəfindən görülən səmərəli işlər sayəsində muzey ölkənin qabaqcıl arxeoloji tədqiqat mərkəzinə çevrilir. Muzeydə 300 mindən çox maddi-mənəvi mədəniyyət nümunəsi var ki, bunlar 6 bölmədə qorunur. 93 mindən çox eksponat arxeologiya şöbəsinin fondunda qorunur ki, bunlar Azərbaycan tarixinin Paleolit dövründən başlayaraq orta əsrlərədək olan dövrü əhatə edir. Burada daşdan düzəldilmiş əmək alətləri, misdən, dəmirdən hazırlanmış əmək və məişət əşyaları, gil və çini qablar, zərgərlik nümunələri qorunub saxlanılır. Müxtəlif dövrlərə aid Azərbaycan tarixinin və dövlətçiliyinin öyrənilməsində çox böyük əhəmiyyətə malik olan 150 mindən çox sikkə və əskinaslar numizmatika fondunu bəzəyir. Azərbaycan ərazilərindən aşkar edilmiş qızıl, gümüş, mis pullar həm dövlətçilik tariximizin, həm də digər dövlətlərin varlığını sübut edən dəlillərdən biridir. Numizmatika fondunda şərq pullarının sayının çoxluğuna görə o dövrkü SSRİ ərazisində Azərbaycan yüksək yerlərdən birini tutur. Numizmatika fondunda pullarla bərabər nişanlar, möhürlər, poçt markaları, kağız pulların nişanları mövcuddur ki, bütün bunlar xalqımızın tarixinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Muzeyin fondu daim zənginləşməkdə davam edir. Burada 4 min yaşı olan arxeoloji tapıntılar, qızıl əşyalar da var. Muzeyin birinci mərtəbəsinin ekspozisiyasında daş dövrünün primitiv icmalan (2 milyon il əvvəl), tunc və dəmir dövrləri (6 yüz min il əvvəl), qədim və yaxın orta əsrlər dövrü (e.ə. IX əsrdən XII əsrə qədər), XII-XV əsr Azərbaycan mədəniyyəti, XVI- XVII əsr Azərbaycan elmi və xalq təsərrüfatı ilə bağlı məlumatlar sərgilənir. II mərtəbənin sərgisində XVII əsrin sonu XIX əsrin əvvəlləri, Rusiyanın Azərbaycanın işğalının əvvəli - 1801-1813-cü illər və sonu - 1826-1828-ci illər haqqında, Şimali Azərbaycan (1830-1870), XIX əsr ağac emalı, xalça işi və ipək istehsalı, ticarət, iqtisadiyyatın, elmin, təhsilin və mədəni həyatın inkişafı, eyni zamanda yayılmış inanclar, adətlər, I Dünya müharibəsində ölkənin vəziyyəti, 1918-ci il soyqırımı və müasir dövrdə ölkənin siyasi-hərbi vəziyyəti öz əksini tapıb. 2007-ci ildə Muzeyin binasında məşhur mesenat və filantrop Hacı Zeynalabdin Tağıyev və onun ailəsinə həsr edilmiş memorial muzey otağı təsis edilib.

**Nəticə** olaraq deyə bilərik ki, tədris ekskursiyalarının didaktik və tərbiyəvi təsirinin yüksək dəyərləndirən maarifsevənlər bu sahədə çoxsaylı uğurlara imza atırlar. Tədris ekskursiyalarının səmərəli təşkili təlimin keyfiyyətini yüksəldir, şagirdlərin dünyagörüşünün formalaşmasına və onların həyata hazırlanmasına, eləcə də şəxsiyyət kimi formalaşmasına motiv yaradır.

**Problemin aktuallığı**. Ümumtəhsil məktəblərində tədris ekskursiyaları tarixin tədrisinin əyaniləşdirilməsində, təlimin həyatla əlaqələndirilməsindəki didaktik əhəmiyyətini, eləcə də tərbiyəvi təsirindən istifadəyə kəskin ehtiyac var. XXI əsrin şəxsiyyətinin formalaşdırılmasındakı rolunu nəzərə alaraq bu istiqamətdə tədqiqatların aparılması vacibliyi ortaya çıxır.

**Problemin elmi yeniliyi**. Ümumtəhsil məktəblərində tarix üzrə tədris ekskursiyalarının mahiyyəti və tətbiqi qaydaları və onun didaktik və tərbiyvəi əhəmiyyətinin şərhidir.

**Problemin praktik əhəmiyyəti**. Ümumtəhsil məktəblərində tarix üzrə tədris ekskursiyalarından muzeylərdə dərslərin keçirilməsi üzrə yaradılmış bu sistemdən orta məktəbin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində faydalana bilərlər.

### İstifadə olunmuş ədəbiyyat

1.Внеклассная работа по истории. Состовител. Д.В.Кацюба. М., 1975, 315 стр.

2.Историческое краеведение. под.ред. Н.П.Милонова. М., 1969, 279 стр.

3.Родина А.Ф. Массовые формы внеклассной работы по истории в восьмилетней школе. М., 1961, 318 стр.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 3 (40), s.103-113

# HEYDƏR ƏLİYEV FONDUNUN QƏDİM AZƏRBAYCAN XALÇAÇILIĞI SƏNƏTİNİN TANINMASI İSTİQAMƏTİNDƏ GÖRDÜYÜ İŞLƏR

**Qənirə Mirzəxanlı**
BakıDövlətUniversiteti
gannim3@mail.ru

***Açar sözlər**: Azərbaycan xalçaçılığı, xalça, ilmə sənəti, Heydər Əliyev Fondu, mədəniyyət*

*Məqalədə Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin ən özəl nümunəsi olan qədim Azərbaycan xalçalarını, xalçaçılıq sənətini dünyada, eyni zamanda Vətəndə tanıtması, ön plana çəkilməsi haqqında geniş izah verilib. Ən əsas diqqət verilməli olan məqam xalçaçılığın Azərbaycan tarixində və mədəniyyətində tutduğu yerdir. Məqalənin elmi yeniliyi Heydər Əliyev Fondunun həm Azərbaycan, həm də ölkə hüdudlarından uzaqda Azərbaycan mədəniyyətinin ən dəyərli incisi olan Azərbaycan xalçaçılıq sənətinin tanınması yönündə gördüyü tədbirlər, mədəniyyət və tariximizi xalçadakı naxış və ornamentləri ilə çatdırılmasıdır. Heydər Əliyev Fondunun Azərbaycanın qədim ilmə sənətinə verdiyi önəm, tədbirlərin təşkilindən bəlli olur. Məqalədə Fondun tədbirlərin təşkilinə hazırlığı, tədbirlərdə mədəniyyətimizi iştirakçılara xalça dilində təqdim etməsi xüsusi maraq doğuran məqamlardandır. Festival və sərgilərdə xalçaların təqdimatından bəhs edən məqalədə, həmçinin Ulu Öndər Heydər Əliyevin Azərbaycanın əntiqə parçalarına, ilmə sənətinə verdiyi dəyər də qeyd olunub. Bu dəyəri hər dəfə təşkil etdiyi tədbirlərlə xalqa və dünya ictimaiyyətinə təqdim edən Fond təsadüfi deyil ki, Ümummilli Liderin adını daşıyır.*

# ACTIVITY OF HEYDAR ALIYEV FOUNDATION IN THE DIRECTION OF RECOGNITION OF ANCIENT AZERBAIJANI CARPET ART

**Ganira Mirzakhanli**

***Key words:** Azerbaijani carpetart, carpet, loop art, Heydar Aliyev Foundation, culture*

*The article gives broad explanations on how the Heydar Aliyev Foundation promotes ancient Azerbaijani carpets, the art of population in the world, as well as in the homeland, putting on the front line. The most important attention is the place where the people are in the history and culture of Azerbaijan. The scientific novelty of the article is that the measures taken by the Heydar Aliyev Foundation to recognize Azerbaijani folk art - the most valuable pearl of Azerbaijani culture both in Azerbaijan and far beyond the country's borders, lead our culture and history to the sciences and ornaments on the people. The value provided by the Heydar Aliyev Foundation to the ancient art of the deity of Azerbaijan is obvious in the organization of events. In the article, special attention is paid to the preparation of the Fund for the organization of events, the presentation of our culture to the participants of events in the language of carpets. The article, which tells about the representation of carpets at festivals and exhibitions, also notes the value provided by the Great Leader Heydar Aliyev on ancient fragments of Azerbaijan, in the art of the deity. It is no coincidence that the Foundation, which organizes this value every time and provides it to the people and the world community, bears the name of the National Leader.*

## ДЕЯТЕЛНОСТЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА В НАПРАВЛЕНИИ РАСПОЗНАВАНИЯ ДРЕВНЕГО АЗЕРБАЙДЖАНСКОГО КОВРОВОГО ИСКУССТВА

**Ганира Мирзаханлы**

***Ключевые слова:*** *азербайджанское ковровое искусство, ковер, петлевое искусство, Фонд Гейдара Алиева, культура.*

*В статье подробно рассказывается о популяризации древних азербайджанских ковров,как самого особого образца азербайджанской культуры и искусства ковроткачества в мире и в то же время на Родине Фондом Гейдара Алиева. Важнейшим моментом, на который следует обратить внимание, является место ковроткачества в истории и в культуре Азербайджана. Научная новизна статьи заключается в предпринятых Фондом Гейдара Алиева мерах по признанию самой ценной жемчужиной азербайджанской культуры искусства азербайджанского ковроткачества, передающего нашу культуру и историю узорами и орнаментами на коврах, как в Азербайджане, так и далеко за его пределами границы страны. Важность Фонда Гейдара Алиева для древнего искусства науки Азербайджана очевидна из организации мероприятий. В статье особое внимание уделяется к подготовке Фонда*

*к организации мероприятий и презентации. Особенно важно донести весь этот процесс распространения нашей культуры участникам на языке ковра. В статье, в которой говорится о представлении ковров на фестивалях и выставках, также упоминается значение, придаваемое Великим лидером Гейдаром Алиевым древним предметам Азербайджана и искусству плетения. Неслучайно Фонд, который представляет эту ценность людям и так же мировому сообществу своими мероприятиями, носит имя Общенационального Лидера.*

Heydər Əliyev Fondu qeyri-hökümət və qeyri-kommersiya təşkilatı olaraq 2004-cü ildən fəaliyyət göstərir. Xüsusilə də Fondun mədəniyyət sahəsindəki fəaliyyəti Vətən hüdudlarını aşaraq, demək olar ki, bütün dünya dövlətlərini əhatə edir. Adını Ümummilli lider Heydər Əliyevdən götürən Heydər Əliyev Fondu onun irsini yaşadaraq, həm də Ulu Öndərin Azərbaycan mədəniyyətinə, tarixinə verdiyi dəyəri bu günə qədər yaşadıb və yaşadacaq.

Fondun əsas fəaliyyətlərindən biri qədim Azərbaycan xalçaçılıq sənətini dünyada tanınması istiqamətində gördüyü işlərdir. Azərbaycan xalçaları etnikmotivləri və naxışları ilə Vətənimizin tarixi, mədəniyyəti, adət-ənənələri haqqında çox şey deyir. Milli xalçaçılıq sənəti Azərbaycanda var olan ən qədim peşələrdəndir. Ən maraqlısı isə Azərbaycanın hər bölgəsində onu fərqləndirən, həmçinin birləşdirən ümumi tərzi və naxışları vardır. Xalçaçılıq, ilmə işləmi mədəniyyətimizin simvoluna çevrilmişdir. Arxeoloji qazıntılar nəticəsində Azərbaycanda xalçaçılığın tarixinin ta qədimə söykəndiyini deyə bilərik.

Heydər Əliyev Fondu isə qədim Azərbaycan xalçaçılığı sənətinin incilərini dünya ictimaiyyətinə ən doğru şəkildə çatdırmaq üçün hər tədbiri görmüşdür. Bu tədbirlərdən biri 2007-ci ildə baş tutmuşdur. 2007-ci ilin oktyabrında Heydər Əliyev Fondu Rusiyanın birinci xanımının və Rus Dilinin İnkişafı Mərkəzin də təşkilatçılıq etdiyi Moskvada baş tutan “BibliObraz2007” Beynəlxalq Festivalında iştirak etmişdir. Bu festivalda 22 ölkənin nümayəndələri iştirak edirdi. Bu festival zamanı iştirakçılar Azərbaycan stendində sərgilənmiş eksponatlarla tanış olmaq imkanına malik idilər. Bu stenddə Azərbaycan klassik yazıçılarının rus və digər dillərdə nəşr olunmuş əsərləri də daxil olmaqla, Fondun Azərbaycan mədəniyyətinə və o zamankı Qarabağ probleminə həsr olunmuş yeni nəşrləri, əl işi olan kuklaları, miniatür əsərləri, musiqi alətləri, mis məmulatlar və digər artefaktlar var idi. Tədbirdə ənənəvi Azərbaycan aşpazlığının nümunələri də yer alırdı. Adları çəkilən nümunələrdən başqa festivalda Azərbaycan xalçaçılıq sənətini təmsil edən mini-xalça nümunələri də yer alırdı. Bu xalça növlərinin nümayişi xalqı təmsilən Fondun Azərbaycan xalçaçılıq sənətinə verdiyi dəyərin göstərgəsidir. [6.s147-148]

Qədim ilmə sənətinin dünyaya tanınmasında Heydər Əliyev Fondunun bir başqa təşəbbüsü o idi ki, Fondun təşkilatçılığı ilə 2009-cu ilin noyabrında

Avropa Parlamentinin qərargahında ilk dəfə olaraq Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Bu günlər çərçivəsində Azərbaycanı təmsil edən incəsənət ustalarının konserti keçirilib, həmçinin burada sənət əsərləri, bədii miniatürlər, ən əsası isə Azərbaycanın qədim tətbiqi və xalçaçılıq sənətini əks etdirən eksponatlar da yer almışdır. Bundan əlavə Heydər Əliyev Fondunun beş illik fəaliyyətini müxtəlif sahələrdə əks etdirən albom və bukletlər nümayiş olunub. [7]

Fondun bir başqa təşəbbüsü 2010-cu ilin noyabr ayında Azərbaycanın Böyük Britaniyadakı səfirliyi və "Bakı" jurnalı ilə birgə "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı xalça sərgisi təşkil etməsi idi. Bu sərgi Böyük Britaniyanın paytaxtı Londonda baş tutmuşdur. Sərgidə Azərbaycanda xalçaçılıq məktəblərini, o cümlədən onların coğrafi mövqeyinin xüsusiyyətlərini, naxışları və dizaynı, rəngi texnikası haqqında ətraflı məlumat verilib. Sərgi zamanı Heydər Əliyev Fondu tərəfindən nəşr olunan «Azərbaycan» kitabının ingilis versiyası da təqdim olunub.

Azərbaycan xalçalarının bir digər sərgisi UNESCO-nun qərargahında, 19-29 aprel 2011-ci il tarixində keçirilmişdir. Sərginin açılışında Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və YUNESKO-nun baş direktoru İrina Bokova iştirak edib. Sərgidə Azərbaycan xalçaçılıq məktəbinin ən gözəl nümunələri, xalçaçılıq məktəblərinin yaranması və inkişafının bütün istiqamətləri, o cümlədən xalçalarda təsvir edilən naxışların coğrafi areallara görə fərqləri, eyni zamanda rəng texnikaları nümayiş olunub. Sərgidə diqqəti cəlb edən ən əsas məqam Azərbaycanın görkəmli xalq rəssamı Tahir Salahovun xalçadakı əsərlərinin nümunələri də nümayiş olunması idi. Sərgidə nümayiş olunan eksponatlar Azərbaycan xalçaçılığının Vətən tarixindəki yerini və dəyərini göstərən misilsiz parçalardır. [7]

Heydər Əliyev Fondunun dəstəyi və təşkilati köməyi ilə 2011-ci ildə baş tutan bir digər tədbir 16 iyulda başlayan, 20 iyula qədər davam edən Fransanın Sen-Trope şəhərində «Azərbaycanın mədəni zənginlikləri» adlı sərgisidir. Sərgidə əsas məqamı cəlb edən xalça nümunələrinin nümayişidir. Bundan əlavə qonaqların diqqətinə Heydər Əliyev Fondunun Azərbaycana həsr olunmuş kitabları və bukletləri təqdim olunub.

Fondun qədim Azərbaycan xalçaçılıq mədəniyyətini dünya ictimaiyyətinə çatdırması istiqamətində gördüyü bir digər tədbirləri Azərbaycan dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı olan konfrans və festivallardır. Bu tədbirlər çərçivəsində Fond Azərbaycan xalça nümunələrini və qədim Azərbaycan xalçaçılıq məktəblərinin tarixçəsini Paris, Moskva, Berlin, Vatikan, Romada keçirilən görüşlərdə və təşkil olunan sərgilərdə eksponatlar təqdim edərək Azərbaycan mədəniyyətinin zənginliyini bir daha göstərə bilmişdir.

Heydər Əliyev Fondunun və Azərbaycanın Parisdəki Səfirliyinin dəstəyi ilə Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi yaradılmışdır. 19 sentyabr 2012-ci ildə təsis olunan Azərbaycan Mədəniyyət Mərkəzinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və həyat yoldaşı, o cümlədən, Fondun rəhbəri Mehriban xanım Əliyeva iştirak etmişlər. Mərkəzin yaranma məqsədi Azərbaycanın Fransada təbliğatını daha da gücləndirmək, habelə ona vahid mərkəzdən nəzarət etmək və fəaliyyətinin səmərəliliyini artırmaqdır. Azərbaycan Mədəniyyət Mərkəzinin binası Parisin mərkəzində, Eyfel qülləsinin yaxınlığında yerləşir, qeyd etmək lazımdır ki, bu tikili 1904-cü ildə inşa edilmiş tarixi binadır. Bu mərkəzdə Azərbaycan tarixini əks etdirən eksponatlar - arxeoloji tapıntılar, qədim sikkələr, silahlar, mis məmulatları sərgilənmişdir. Zalların birində isə yüzlərlə il əvvəl hazırlanmış xalça və xalça nümunələri nümayiş etdirilir. Bundan əlavə, mərkəzdə həm də Azərbaycan xalça məktəblərinin tarixi və inkişaf yolları haqqında məlumat verilərək milli xalça texniki sənətimizin bütün istiqamətlərinin nümunələri təqdim olunur.

2011-ci ildə Heydər Əliyev Fondu Azərbaycan xalçaçılıq sənətini tanıtmaq istiqamətində etdiyi ən mühüm işlərdən biri «Azərbaycan xalçaları» adlanan Azərbaycan xalçasından bəhs edən toplunu nəşr etdirməsidir. Topluya broşür, 2 DVD və multimedia diski daxildir. Broşurada Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri haqqında ümumi məlumat və hər məktəbə aid xalçaların fotoşəkilləri yer alıb. DVD kolleksiyasına daxil edilmiş «Azərbaycan xalçaları» Heydər Əliyev Fondu tərəfindən hazırlanmış xalçaçılıq sənəti haqqında filmdən ibarətdir. «Qarabağ inciləri» adlı multimedia diski Qarabağ xalçaçılıq məktəbinə həsr olunmuşdur. Disk Qarabağın tarixi, burada xalça məktəbinin formalaşması və onun xüsusiyyətləri haqqında hərtərəfli məlumatlardan ibarətdir. Kolleksiyaya həmçinin «Azərbaycana səfər» adlı DVD daxildir. [1.s.3-5]

«Azərbaycan xalçaları» toplusu ana dilimizdən əlavə fransız, ingilis, rus, alman və italyan dillərində nəşr olunmuşdur.[9]

Azərbaycan xalçaçılığının təbliğinin bir digər istiqaməti dünyanın bir çox ölkələrində Heydər Əliyev Fondunun rəhbərliyi ilə "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsinin təşkil olunması idi. Bu layihə çərçivəsində bir sıra tədbirlər keçirilmişdir. Bunlardan biri Fransada keçirilən Azərbaycanın mədəniyyət və sənətinə həsr olunmuş sərgi və konsertlərdir. Layihə tədbirləri 2012-ci ilin oktyabrın 19-da başlamış noyabrın 12-dək davamt etmişdir. "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun və Azərbaycan səfirliyinin dəstəyi ilə Fransanın Reyms, Şalon-an-Şampan, Niort, Konyak və Romorantin-Lantenay şəhərlərində Azərbaycan mədəniyyət günləri təşkil olunub. Vətənimizinqədim və zəngin tarixi və mədəniyyəti ilə bağlı eksponatlar - mis məmulatlar, Azərbaycan milli geyimləri, milli musiqi alətləri, xüsusən də, Azərbaycan

xalçaları və bu sənətin digər istiqamətləri ilə bağlı nümunələr sərgilənmiş, eyni zamandaAzərbaycan mədəniyyətinin təbliği üçün fransız dilində çap olunmuş kitablar təqdim edilmişdir.

"Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində 2013-cü ildə də bir sıra tədbirlər keçirilmişdir. 2013-cü ildə Fransanınbir sıra şəhərlərində, daha dəqiq desk, fevralın 2-də Miluz, fevralın 9-da Starsburq, fevralın 20-də Kolmar, martın 2-də Şabli, martın 30-da La Roşell, aprelin 27-də Bordo, mayın 2-də Van, mayın 6-da Evian, mayın 18-də Leql, iyunun 14-də Bove, iyulun 4-də isə Kann şəhərlərində bu layihə çərçivəsində keçirilən tədbirlərdə Azərbaycan xalçılığının ən gözəl nümunələri nümayiş olunmuşdur. Bu tədbirlərdə mədəniyyət beşiyi olan Azərbaycanda xalçaçılığının yaranması, naxış və ornamentlərin coğrafi və mədəni izahı, ilməçilik sektorunun inkişafı istiqamətləri ilə bağlı sərgilər təşkil olunmuşdur. Azərbaycan mədəniyyətini əks etdirən kitablarda da xalçaçılığa geniş yer verilmişdir.

10 iyul 2014-cü ildə Kann Festival və Konqreslər Sarayında "Azərbaycan: ənənələr və gələcək ölkəsi" sərgisinin açılış mərasimi keçirilmişdir. Açılış mərasimində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva, Azərbaycan Dostlar Assosiasiyasının sədri Jan-Fransua Monselle, , Fransa Milli Assambleyasının üzvü, Festival və Konqres Sarayının direktoru Kler-Ann Rex çıxış edib. Bir neçə sərgini əhatə edən «Azərbaycan: ənənələr və gələcək ölkəsi» sərgisinin təşkili məqsədi Azərbaycanın xarici ölkələrdə qədim və zəngin tarixini və mədəniyyətini təbliğ etməkdir. Sərgidə Azərbaycan rəssamlarının Fransaya, Azərbaycan xalça məktəbinin bütün istiqamətlərinə həsr olunmuş rəsmləri, yüzillik xalça və xalça məmulatlarının geniş çeşidi, arxeoloji qazıntılar zamanı tapılmış keramika əşyaları nümunələri, milli geyimlər, milli musiqi alətləri sərgilənmişdir. Ziyarətçilərə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan Azərbaycan haqqında kitablar təqdim olunub.

Vətənimizin nadir xəzinələrindən biri olan xalçaların daha aydın və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin qərarı ilə Azərbaycan Xalça Muzeyi binasının tikilməsi qərara alınıb. Beləliklə, 2008-ci il mayın 15-də Bakı şəhərinin Dənizkənarı Milli Parkında tikilinin təməl qoyma mərasimi baş tutub. 26 avqust 2014-cü ildə isə Azərbaycan Prezidenti İlham Əliyev və həyat yoldaşı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva muzeyin açılışında iştirak etmişdilər. Lətif Kərimovun adını daşıyan Azərbaycan Xalça Muzeyi Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və UNESCO-nun dəstəyi ilə inşa edilmişdir. Binanın müəllifi məşhur avstriyalı memar Frans Yantsdır. Muzey binasının çöldən görünüşü bükülmüş xalçanı xatırladır. Binada sərgi zalı, kitabxana, tikmə və toxuculuq mərkəzi, suvenir və kitab stendi, görüş və audio-vizual təqdimat zalı, həmçinin heykəllər və xalçalar nümayiş etdirmək üçün açıq səma zonası

yerləşir. Muzeydə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətlərindən, yüz illik xalça və ilmə məmulatları, metal məmulatları, toxuma, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik, kitablardan ibarət geniş çeşiddən ibarət unikal kolleksiya nümayiş etdirilir. Hazırda muzeydə 13 min 300-dən çox eksponat və əşya saxlanılıb. Muzeylərdə saxlanılan xalça və xalça məmulatlarının qorunması və konservasiyası bu sahədə zəngin təcrübəyə malik mütəxəssisin, 2013-cü ildə Bakıya dəvət olunmuş dünyaca məşhur Viktoriya və Albert Muzeyinin toxumaların konservasiyası üzrə eksperti Luis Skvirerin tövsiyələri və göstərişləri əsasında təmin edilir.

Azərbaycan mədəniyyətinin dünyada tanınması istiqamətində gördüyü işlərlə seçilən Heydər Əliyev Fondu "Azərbaycan mədəniyyəti günləri" layihəsi ilə ümumi Azərbaycan mədəniyyətini həmçinin o Azərbaycan tarixinin, mədəniyyətinin ən dəyərli nümunəsi olan Azərbaycan xalçalarını da dünyada tanıdır. Bu layihə Kann, Afina, Hannover, Drezden, Düsseldorf şəhərlərini əhatə etmişdir.

13 may 2015-ci ildə "Azərbaycan: ənənədən müasirliyə" sərgisi təşkil edilmişdir. Hər il qeyd olunan Avropa muzeylər gecəsi çərçivəsində təşkil olunan bu sərgi Heydər Əliyev Fondunun və Azərbaycanın YUNESKO yanında Daimi Nümayəndəliyinin təşkilati dəstəyi ilə UNESCO-nun qərargahında baş tutmuşdur. "Azərbaycan: ənənədən müasirliyə" ekspozisiyasında ölkə ərazisində aşkar edilmiş arxeoloji tapıntılar, Azərbaycanda qədim və orta əsrlərdə istifadə olunmuş sikkələr, zərgərlik, mis məmulatları, milli musiqi alətləri, geyim, xüsusilə ilə xalçaçılıq nümunələri nümayiş olunub.

15 iyul 2015-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Kannın Festivallar Sarayında "Azərbaycan xalçaları sənətdə" sərgisinin açılışı olub. Sərginin açılışı mərasimində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və ailə üzvləri iştirak ediblər. Əlavə olaraq sərgidə Lətif Kərimov, Vüqar Muradov, Butunay Haqverdiyev və Elçin Vəliyev kimi azərbaycanlı rəssamların milli xalça eskizləri üzrə müasir və pop-sənət əsərləri, həmçinin illüstrasiyalar nümayiş olunub. Sərgidə gənc rəssam Elçin Vəliyevin 7 əsəri nümayiş etdirilib. "Azərbaycan xalçaları incəsənətdə" sərgisi üçün xüsusi hazırlanmış bu əsərlər təkrarolunmazlığı və orijinallığı ilə fərqlənir. Yağlı boya ilə hazırlanmış və xalça motivləri olan bu əsərlər 3D effektlərdən istifadə edərək ziyarətçilərə canlı təsir göstərir. Sərgidə xalq rəssamı, görkəmli xalça ustası Lətif Kərimovun 1969-1970-ci illərdə yaratdığı xalça eskizləri nümayiş olunub. Ilk dəfə olaraq sərgidə nümayiş olunan 15 əsər nümayiş olunub. Məşhur rəssam Butunay Haqverdiyevin ilk dəfə təqdim etdiyi xalça illüstrasiyası Azərbaycan xalça ornamentinə həyat verdi. Ağacdan hazırlanmış illüstrasiya 3D effektlər üçün fərqlidir. Lətif Kərimovun eskizləri ilə yanaşı milli xalçaçılıq sənətinin tarixi və inkişafını, müasir incəsənətdə tətbiqini göstərir. Sərgidə həmçinin 15-16-cı əsr dünya

rəssamlarının əsərlərində təsvir olunmuş xalça motivlərini əks etdirən video installyasiya nümayiş etdirilib. Məşhur rəssam Vüqar Muradovun portret-mənzərə janrlarında yağlı boya ilə hazırlanmış 7 əsəri milli xalça ornamentini unikal modada təqdim etmişdir. Ümumiyyətlə, «İncəsənətdə Azərbaycan xalçaları» sərgisində sərgilənən əsərlər ilk dəfə sərgiyə ayrılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən sərgi ziyarətçilərə Azərbaycan xalçasının hazırlanmasının tarixi, müasir incəsənəti və onun bütün dünyada geniş yayılması haqqında tam məlumat verib. Sərgi 16 iyuldan 31 iyula qədər ictimaiyyətə açıq elan edilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə "Azərbaycan xalçası - ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası yaradılıb. Kolleksiyanın hazırlanması 8 il çəkmişdir. "Yaradılış", "Şikargah", "Xan ovu", "Gənc və dünya", "Bandi-rumi", "Şəbəkəli", "Adəm və Həvva", "Ağaclı", "Narlı", "Göllü", "Müalicə-turunc", "Dörd mövsüm","Yaradılış" əsərində isə xammal hazırlamaqdan hazır məhsulun tamamlanmasına qədər olan bütün mərhələlər parlaq bədii dillə əks olunmuşdur. Kolleksiyanın yaradılmasında Azərbaycanın xalq artisti Eldar Mikayılzadənin rəhbərlik etdiyi 6 rəssam və 14 toxucu iştirak etmişdir. Təbii rənglərlə boyanmış xalçalar ipək və yundan hazırlanmışdır. Burada 170 rəng və tint istifadə edilmişdir. Müxtəlif yeni kəsiklər əldə etmək üçün toxucular bir neçə rəngdən ibarət bir iplik yaratdılar. Şəki Xanının möhtəşəm sarayı, Şəkixanovların evi, dəmir barmaqlıqlar, təbii ornamentlər, zəngin flora və faunamız, "Təkəlduz" və həssas zərgərlik əşyaları xalçaların hazırlanmasında ilham mənbəyi idi. "Azərbaycan xalça-rəqsi ilmələri" toplusuna daxil olan xalçalar haqqında ətraflı məlumat eyni adlı kitabda verilmişdir.Qeyd edək ki, "Azərbaycan xalçası – ilmələrin rəqsi" xalçalarının yeni kolleksiyası və eyni adda kitablar 8 il ərzində hazırlanıb. Qeyd edilib ki, kolleksiya əvvəlcə Heydər Əliyev Mərkəzində göstərilib: Kolleksiyanın bir hissəsi əvvəllər Parisdə, sonra isə Kannda YUNESKO-nun baş ofisində nümayiş olunub. Xalça toxuma sənətində fəlsəfi mövzulara xüsusi diqqət yetirən sənətkar Eldar Mikayılzadənin sənət prinsiplərinin formalaşmasında və yaradıcılıq janrında müəllimi məşhur xalça rəssamı Lətif Kərimov və görkəmli fırça sahibi Səttar Bəhlulzadənin işləri önəm kəsb eləmişdir. Dekorativ formada dərin bilik, tərkiblərin yaradılmasında qüsursuz uyğunluq hissi, həqiqi rəng palitrası və yaxşılaşdırılmış toxuculuq üsulları müəllifə həqiqi sənət nümunələri yaratmağa imkan verirdi.[2]

2019-cu il mayın 27-də Gürcüstan Milli Muzeyində saxlanılan Azərbaycan və şərq kolleksiyalarından ibarət "Tarixin şah əsərləri" sərgisinin açılışı olub. Açılış Heydər Əliyev Mərkəzində baş tutub. Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. Sərgidə 300-ə yaxın eksponat sərgilənmişdir. Sərgi 3 bölmədən ibarət idi. Bu təqdim olunan eksponatlar Qacarlar dövründə yaradılmış və sonralar toplanmış köhnə Azərbaycan bədii nümunələri, İrəvan xanlığının Sərdar Saray Kompleksinə aid

məişət əşyaları və rəsm əsərləri kolleksiyası və rus fotoqrafı Dmitri Yermakovun arxivindən alınan foto sənədləri hər üç bölmədə nümayiş etdirilir.Qacarlar dövrünə aid köhnə sənət nümunələrinin əksəriyyəti dünyaca məşhur yağlı boya rəsmləri, miniatürlər, keramika və metal məhsullar, həmçinin Fətəli şahın dövrünə aid toxuculuq və xalçalar vasitəsilə təqdim olunur. Rəsmin gücünü yaxşı bilən Fətəli şah memarlıq, rəsm və dekorativ sənətdən öz təsirini və nailiyyətlərini nümayiş etdirmək üçün geniş istifadə etmişdir. Fətəli Şahın portreti də eksponatlar arasında olub.Sərgidə həmçinin Azərbaycan panel rəssamlığının banisi, ornament və portret ustası, Azərbaycan təsviri sənətinə böyük təsir göstərmiş Mirzə Qədim İrəvaniyə aid yağlı boya ilə hazırlanmış, həmçinin XIX əsrə aid altı əsər nümayiş etdirilir. Mirzə Qədim İrəvani trafaret rəsmləri, divar bəzəkləri, zərgərlik sənəti əşyaları, ləkədən istifadə edilən işlər və şüşə rəsm sənəti ilə tanınır. Sərgidə həmçinin hərbi topoqraf işləyən daha sonralar isə, 1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsində iştirak edən, müharibədən sonra isə Tiflisdə foto sənəti ilə məşğul olmuş, Qafqaz diyarına səfər etmiş, arxeoloji ekspedisiyalar seriyasında iştirak etmiş D.Yermakovun fotoşəkilləri də nümayiş etdirilir. O, İrəvan qalasının nadir binalarının - Sərdar sarayının, məscidlərin, karvansarayların və İrəvan şəhərinin tarixi mərkəzini formalaşdıran orta əsrlərə aid digər binaların dağıdılması prosesini ətraflı göstərən bir sıra fotoşəkillər paylaşmışdır.

Fondun bir digər təşəbbüsü 2019-cu ilin 28 sentyabrında Azərbaycan Milli Xalça Muzeyində "Nəsimi - poeziya, incəsənət və əxlaq" festivalı çərçivəsində Nəsimi - böyük söz ustasına həsr olunmuş xalça eskizləri müsabiqəsinin final sərgisini təşkil etməsidir. Sərgidə müsabiqənin qalibi olan 3 əsər əsasında işlənmiş xalçalar, həmçinin təqdim olunan əsərlər arasında münsiflər heyətinin seçdiyi yaradıcı xalça eskizləri nümayiş olundu. Müsabiqədə Azərbaycan, Fransa, İtaliya, Hindistan, Rusiya və başqalarının nümayəndələri iştirak etmişlər.Qalib xalçalarla yanaşı, müsabiqəyə təqdim olunan bütün eskizlər açılan sərgidə nümayiş etdirilib. 1-ci yeri Fatma Axundzadənin "Nəsim yeli", Ruhangiz Bağırovanın "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" adlı əsəri 2-ci yerə layiq görülüb. [11]

Son illərdə Azərbaycan xalçaçılığının təbliği ilə bağlı görülən ən mühüm tədbir Milli Xalça Muzeyinin Şuşua filialının yenidən bərpa işləridir. Qeyd etmək zəruridir ki, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı Heydər Əliyev Fondu tərəfindən bərpa edilmişdir. Bina XIX əsrin ikinci yarısında inşa edilmişdir. İşğal dövründə binanın faydasızlığı və tarixi görünüşə müdaxilə səbəbindən burada bərpa işləri 2021-ci ildə başlamışdır. Aparılan işlər nəticəsində binanın daxili divarları, döşəmələri və tavanı bərpa edilmişdir. Qapıları, pəncərələri, tavanları və arakəsmələri bağlamaq üçün istifadə olunan gipsokarton lövhələri sökülmüş və binanın tarixi görünüşü özünə qaytarılmışdır. Fasaddakı çatlar təmir edilmiş və daşlarla örtülmüşdür. Hazırda

burada xalçanın yeni ekspozisiyası nümayiş olunur. Əsasən XVIII - XX əsrlərə aid olan və bir zamanlar təxliyə edilmiş eksponatlarla yanaşı, ekspozisiyada son illərdə filialın kolleksiyasına daxil olan qiymətli xalçalar da yer almışdır. Burada ümumilikdə 115 xalça növü, arxeoloji tapıntılar, milli tikmə və geyim dəstləri, həmçinin zərgərlik və təbii metal nümunələri nümayiş olunur. Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlər boyu burada yaşamış insanların, o cümlədən sənətkarların həyatını və ev təsərrüfatını, onların estetik zövqünü, dünyaya bədii baxışını hiss etmək və bu tarixi mühiti təsəvvür etmək imkanı verir. [10]

Heydər Əliyev Fondunun bir digər təqdirə layiq tədbiri Şuşada “Vaqif poeziyası günləri” çərçivəsində "Dövlət memarı. Bir ömrün ensiklopediyası" xalçasının təqdimatı idi. Bu tədbir 2023-cü il 14 iyul tarixində baş tutub. Bu unikal triptixəsəri müasir Azərbaycanın memarı, milli lider Heydər Əliyevin 100 illiyinə həsr olunub. Heydər Əliyev Fondu, İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC-nin həyata keçirdiyi layihənin həmmüəllifləri əməkdar incəsənət xadimi, "Azərxalça" ASC-nin Direktorlar Şurasının sədri Emin Məmmədov, əməkdar rəssam Rəşad Ələkbərov, "Azərxalça"nın yaradıcı heyətidir. Qeyd etmək lazımdır ki, “Azərxalça” emalatxanasının 11 toxucusu 2022-ci ilin may ayından triptix üzərində işləyiblər. Əsər üç bölmədən ibarətdir. Hər bölmədə Ümummilli Liderin əsas həyat fəlsəfəsi, həmişə diqqət yetirdiyi məsələlər və onun əhəmiyyət verdiyi dəyərlər ilk dəfə “xalça dilində”təqdim olunmuşdur. Birinci bölmədə xalça kompozisiyasına görə xalqın birliyini və böyüklüyünü əks etdirən simvollar təsvir edilmişdir. Ötən əsrin 90-cı illərində respublikamızın xalqla birlikdə xarici və daxili münaqişələrə qarşı mübarizədə olduğunu nəzərə alsaq, xalçada onun xalq etimadına və hakimiyyətinə, xalqın və Heydər Əliyevin birliyinə arxalanması öz əksini tapmışdır. Xalçanın kənarının konturları isə Ulu Öndərin adı və soyadının baş hərfləri, inisial kimi yazılmışdır. [9]

## Ədəbiyyat:


1. Azərbaycan xalçaları. Kataloq/Heydər Əliyev Fondu; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi.- Bakı, 2010.- 20 s.
2. Azərbaycan xalçaları: İlmələrin rəqsi. Heydər Əliyev Fondu. 2016
3. Əliyeva, Y. Heydər Əliyev – Milli-mədəni irsimizin hamisi. http://anl.az/down/ meqale/ses/ses_may2009/78631.htm
4. Heydər Əliyev Fondu. (2009). Bakı: 227 s.

5. Mehriban Əliyeva olduğu kimi. red. T.Şahbazova; ön söz. müəl. N.Cəfərov.- Bakı: Gənc liderlər Uşaq Təşkilatı, 2008.- 96 s.
6. Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə. (2014). II cild. Bakı: 388 s.
7. https://heydar-aliyev-foundation.org/az
8. https://heydar-aliyev-foundation.org/az/content/view/90/2082/Az%C9%99rbaycan-xal%C3%A7alar%C4%B1
9. https://heydar-aliyev-foundation.org/az/content/view/59/5336/Vaqif-Poeziya-G%C3%BCnl%C9%99ri-%C3%A7%C9%99r%C3%A7iv%C9%99sind%C9%99-%E2%80%9CD%C3%B6vl%C9%99tin-memar%C4%B1.-Bir-%C3%B6mr%C3%BCn-ensiklopediyas%C4%B1%E2%80%9D-xal%C3%A7as%C4%B1n%C4%B1n-t%C9%99qdimat%C4%B1-olub
10. https://heydar-aliyev-foundation.org/az/content/view/73/5279/Az%C9%99rbaycan-Milli-Xal%C3%A7a-Muzeyinin-%C5%9Eu%C5%9Fa-filial%C4%B1n%C4%B1n-f%C9%99aliyy%C9%99ti-31-ild%C9%99n-sonra-b%C9%99rpa-edilib
11. https://heydar-aliyev-foundation.org/az/content/view/59/4942/N%C9%99simi-festival%C4%B1-zaman%C4%B1-dahi-%C5%9Fair%C9%99-h%C9%99sr-olunan-xal%C3%A7a-s%C9%99rgisi-a%C3%A7%C4%B1lacaq/

# MİRZƏ BALA MƏMMƏDZADƏNİN MÜSAVAT PARTİYASINDA FƏALİYYƏTİ

**Səidə Mehrəliyeva**
Bakı Dövlət Universiteti
saidamehraliyeva.v@bsu.edu.az

***Açar sözlər:*** *Mirzə Bala Məmmədzadə, Müsavat partiyası, istiqlaliyyət, milli oyanış, təşkilatlanma*

*Mirzə Bala Məmmədzadə Azərbaycan tarixində görkəmli ictimai-siyasi xadim, publisist , milli azadlıq hərəkatının fəal üzvü və rəhbəri, istiqlal ideyalarının aparıcı qüvvəsi kimi tanınır.O, bütün ömrü boyunca milliyyətçilik, azərbaycançılıq dəyərlərini tədqiq və təbliğ edən böyük ziyalı olmuşdur. M.B.Məmmədzadə 1915-1923-cü illərdə Azərbaycan istiqlal hərəkatının görkəmli nümayəndələri olan Məmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad və digər tanınmış şəxslərlə birlikdə xalqın milli idealları, azad yaşamaq hüquqları uğrunda mübarizə aparmışlar.M.Ə.Rəsulzadənin yaxın silahdaşı M.B.Məmmədzadə Azərbaycan mühacirətinin bir ideya ətrafında birləşməsində, mətbuatın yaranmasında, "Müsavat" partiyasının təşkilatlanmasında böyük işlər görmüşdür.Məqalədə onun "Müsavat" partiyasının fəaliyyətində yerindən, partiya qurultaylarında irəli sürdüyü məsələlərdən, bütövlükdə həm Azərbaycanda, həm də Türkiyədə "Müsavat" partiyasının xarici bürosunun yarandığı vaxtlardakı siyasi fəaliyyəti araşdırılmışdır. M.B.Məmmədzadənin"Milli Azərbaycan Hərəkatı" adlı əsəri Müsavat partiyasının aprel işğalından öncə və istiladan sonrakı fəaliyyəti ilə bağlı məsələləriaydınlaşdırmaq üçün mühüm mənbələrdəndir.*

# ACTIVITY OF MIRZA BALA MAMMADZADE IN MUSAVAT PARTY

**Saida Mehraliyeva**

*Key words: Mirza BalaMammadzadeh, Musavat party, independence, national awakening, organization*

*In the history of Azerbaijan, Mirza BalaMammadzadehis known as a social and political figure, publicist, active member and leader of the national liberation movement, leading force of independence ideas. He was a great intellectual who researched and propagated the values of nationalism and Azerbaijaniism throughout his life. In 1915-1923, M.B. Mammadzade fought for the national ideals of the people and the right to live freely together with*

*Mammad Amin Rasulzade, Nasib Bey Yusifbeyli, YusifVazirChamanzaminli, Ahmed Javad and other well-known people who were prominent representatives of the Azerbaijan independence movement. M.A. Rasulzade's close comrade-in-arms M.B. Mammadzade has done great work in uniting the Azerbaijani emigrants around one idea, creating the press, and organizing the Musavat party. In the article, his position in the activities of the Musavat party, the issues he raised at the party congresses, and the foreign office of the Musavat party in Azerbaijan and Turkey as a whole are discussed. Political activity at the time of its creation was investigated. M. B. Mammadzade`s work "National Azerbaijan Movement" is one of the important sources for clarifying the issues related to the activities of the Musavat party before and after the April invasion.*

## ДЕЯТЕЛЬНОСТЬ МИРЗЫ БАЛА МАМЕДЗАДЕ В ПАРТИИ МУСАВАТ

**Саида Мехралиева**

***Ключевые слова:***_Мирза Бала Мамедзаде, партия «Мусават», независимость, национальное пробуждение, организация._

*В истории Азербайджана Мирза Бала Мамедзаде известен как общественно-политический деятель, публицист, активный участник и лидер национально-освободительного движения, ведущая сила идей независимости. Он был великим интеллектуалом, всю жизнь исследовавшим и пропагандировавшим ценности национализма и азербайджанства. В 1915-1923 годах М.Б.Мамедзаде боролся за национальные идеалы народа и право на свободную жизнь вместе с Мамед Амином Расулзаде, Насиб беком Юсифбейли, Юсифом Вазиром Чаманзаминли, Ахмедом Джавадом и другими известными людьми, которые были видными представителями Азербайджанской движение за независимость. Близкий соратник М. А. Расулзаде М. Б. Мамедзаде проделал большую работу по объединению азербайджанской эмиграции вокруг одной идеи, созданию печати, организации партии «Мусават», исследована политическая деятельность в период ее создания. Работа М.Б.Мамедзаде под названием «Национальное азербайджанское движение» является одним из важных источников для выяснения вопросов, связанных с деятельностью партии «Мусават» до и после апрельского вторжения.*

**Giriş.** XX əsrin əvvəllərində başda Bakı şəhəri olmaqla, Azərbaycan şəhərləri böyüyür, nüfuzu artır, ticarət və sənaye inkişaf edirdi. Azərbaycan

inkişaf yolunda sürətlə irəliləyirdi. Bu vəziyyət Azərbaycan cəmiyyətinin bir çox siyasi və mədəni problemlərinin həll olunmasına şərait yaradırdı. 1917-ci ildə Rusiyada fevral burjua inqilabından sonra siyasi partiyalar açıq fəaliyyət göstərməyə başladılar.Belə bir tarixi məqamda, 1911-ci ildə M.Ə.Rəsulzadə və onun "Hümmət" partiyasından olan yoldaşları Abbasqulu Qasımzadə və Vəli Mikayıl oğlu bir araya gələrək "Müsavat" partiyasını qurdular. Bu dövrdə Mirzə Bala Məmmədzadə M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası sıralarına qoşulur. O, 1917-ci ildə "Müsavat" partiyasına üzv olur və partiya sıralarında aktiv fəaliyyəti nəticəsində sayılıb seçilən şəxslərdən birinə çevrilir. Bu dövrdə "Müsavat" partiyasını Azərbaycan xalqının milli azadlığı uğrunda mübarizə aparan və təcrübəsi olan şəxslər idarə edirdi. Partiya bəyannamə xarakteri daşıyan proqram qəbul etmişdi. Bəyannamədə "ümmət" ilə "millət", "türkçülük" ilə "müsəlmançılıq" anlayışları bir-birindən ayırd edilməmişdir.Bu partiyanın əsas məqsədi müsəlman millətlərinin və dövlətlərinin müstəqilliyə, istiqlala qovuşmasına yardım etmək idi.Əhməd bəy Ağaoğlunun yaratdığı "Difai" partiyasının üzvlərinin də "Müsavat" partiya sıralarına qoşulması partiyanın nüfuzunu gücləndirirdi.1917-ci ilin aprel ayında Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi "Türk Ədəmi Mərkəziyyət" firqəsinin də "Müsavat" partiyası ilə birləşməsi partiyanın nüfuzunun daha da artmasına səbəb olmuşdur[10,s.47]. Xalqın milli idealları uğrunda mübarizə aparan milli güclər artıq bu firqə ətrafında birləşmiş və bu təşkilat Azərbaycanın milli azadlıq hərəkatını idarə edən mütəşəkkil siyasi təşkilata çevrilmişdi. M.B.Məmmədzadə ilk vaxtlarda partiyanın qəbul etdiyi proqramın məhəlli muxtariyatla kifayətləndiyini bildirir. Proqramın ilk səhifəsində insanlara hürriyyət, istiqlal sözləri qeyd olunmuşdu.

"Müsavat" ın bəyannaməsində əsas müddəalardan biri də milli demokratiyanın önündə getmək idi.Bu səbəbdən rus siyasi dairələri bir cəbhə yaradaraq "Müsavat" a qarşı qanlı yürüşə başlayacaqdır.1917-ci ilin əvvəlində"Müsavat" partiyasının ilk qurultayı keçirilmişdir. Ölkənin dörd bir yanından milliyyətçi, istiqlalçı nümayəndələr yeni ruh, yeni inam, yeni ümidlə xalqı proqramda elan olunmuş ideyalar ətrafında birləşməyə çağırırdılar. Qurultayda Rusiyada yaşayan türklərin idarə şəkli haqqında arzuları bu şəkildə ifadə olunurdu.

1.Rusiya dövlətinin şəkli idarəsi milli məhəlli muxtariyyata əsaslansın.

2.Mətbuat, söz, vicdan azadlığı eləcə də, təşkilatlanma və tətil kimi siyasi hüquqlar təmin olunsun.

3.Azərbaycan, Türküstan, Qırğızıstan, Başqırdıstan kimi türk ölkələri məhəlli muxtariyyat alsınlar.

4.Rusiya dövlətinin ümumi işlərini idarə etmək üçün bütün muxtariyyatların nümayəndələrindən ibarət bir konqres təşkil olunsun.

5.Hər bir muxtariyyatın mərkəzində qanun vermək səlahiyyəti olan məclisi məbusan təşkil olunsun.

**Partiya sıralarında fəaliyyəti**.“Müsavat” partiyasının alt qanadı olan gənclər qoluna istiqlal mücahidi M.B.Məmmədzadə fəal rəhbərlik edirdi. “Müsavat” partiyasının mətbu orqanı 1915-ci ildən etibarən M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan “Açıq söz” qəzeti idi. Bu qəzet Azərbaycan mətbuatında “türk ədəbi dili ilə” çap olunan ilk qəzet idi.M.B.Məmmədzadə bu qəzetdə millətçilik, türkçülük və müxtəlif məzmunlu məqalələrlə çıxış edərək Azərbaycan gəncliyini milli ruhda birləşməyə səsləyirdi. Bu partiya daha çox ziyalılar, tələbələr və burjuaziya tərəfindən dəstəklənirdi. Qeyd etdiyimiz kimi, 1918-ci ildə Mirzə Bala Gənclər Cəmiyyətinin aktiv üzvlərindən biri idi.Bu cəmiyyətin əsas nəşriyyat orqanı olan “Gənclər yurdu” dərgisinin redaktorluğunu da Mirzə Bala etmişdir.

Cənubi Azərbaycan istiqlal hərəkatının lideri Seyid Cəfər Pişəvəri “Müsavat” firqəsində üç ayrı fraksiyanın olduğunu bildirirdi.

1. Kiçik burjua nümayəndələri ilə mərkəzdə mövqe tutan M.Ə.Rəsulzadə qrupu.

2.İnqilabi hərəkatın təsiri altında olan və sol təmayül göstərən M.B.Məmmədzadə qrupu.

3. Sağ cinaha mənsub N.Yusifbəylinin mülkədar qrupu.

Gənclər Cəmiyyətindəki aktiv fəaliyyəti səbəbilə 1919-cu ildə “Müsavat” partiyasının ikinci qurultayında səs çoxluğu ilə O, Bakı komitəsinə üzv seçilmişdir. M.B.Məmmədzadə bu qurultayda xalq üçün həlli vacib məsələlərə toxunmuşdur. O, əkinə yararlı torpaqların təmənnasız və qarşılıqsız əkinçilərə verilməsi təklifini irəli sürürdü. Qurultayda davam edən uzun müzakirələrdən sonra Mirzə Balanın təklifi qəbul olundu. Qurultayın nəticəsi olaraq 7 nəfərdən ibarət Mərkəz Komitə seçildi . Bu işdə Mirzə Balanın rəhbərlik etdiyi gənclik qrupunun böyük rolu olmuşdur“Müsavat” ın rəhbərlik etdiyi milli azadlıq hərəkatının haraya aparıb çıxaracağını görən ruslar hərəkatın lap əvvəlindən onu boğmağa çalışırdı.1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtında toplanan “Müsavat” partiyasının ikinci qurultayında yeni proqram qəbul olunmuşdu.Proqrama görə,“Müsavat” millətçi,xalqçı və cümhuriyyətçidir.1920-ci il 27 aprel istilasından sonra “Müsavat” ın əsas özəyi məhv edilsə də, partiyanın nümayəndələri bolşevik rejiminə qarşı mübarizəni həm ölkə daxilində, həm də, mühacirətdə davam etdirirdilər.İşğalın ikinci günü partiyanın gizli yığıncağı təşkil olundu[11,s.4].Sonra isə hökumətin razılığı ilə şəhər dumasının yerləşdiyi binada təqribən 300 nəfərə yaxın insanın iştirak etdiyi iclas oldu. Hökumətə müraciət olundu və təxminən 15 nəfərdən ibarət Mərkəzi Komitə təşkil olundu. Komitəyə M.B.Məmmədzadə sədr təyin olundu.Lakin bir müddət sonra partiyanın qanuni fəaliyyət göstərə bilməyəcəyi aydın oldu.Müsavat partiyası gizli şəkildə fəaliyyət göstərməyə başladı.1921-ci

ilin sonunda "Müsavat" partiyası "Müstəqil Azərbaycan uğrunda" şüarı ilə hakimiyyəti ələ almağa hazırlaşırdı.Bu səbəbdən partiyanın hərbi təşkilatı da yaradılmışdı.

Aprel işğalından sonra xaricə mühacir axını başladı. Artıq siyasi mühacirləri bir bayraq altında birləşdirmək zərurəti yaranmışdı. M.Ə.Rəsulzadə 1922-ci ildə Türkiyəyə gələrək "Müsavat" partiyasının xarici bürosunu yaradır[3,s.4]. Xarici büronun ilk komitələri mühacirlərin daha çox məskunlaşdıqları Türkiyə və İranda açıldı. İstanbulda fəaliyyət göstərən xarici büronun sədri M.Ə.Rəsulzadə, katibi M.B.Məmmədzadə, xəzinədarı isə Xəlil bəy Xasməmmədov idi. Onlar partiyanın xarici bürosunun rəyasət heyətini təşkil edirdilər.27 aprel istilasından sonra "Müsavat" partiyasının gizli təşkilatına səs çoxluğu ilə M.B.Məmmədzadə gətirilmişdi.M.Ə.Rəsulzadənin müavini olaraq Bakı Komitəsinin təşkili ona həvalə edilmişdi. M.B.Məmmədzadə yazır ki, Azərbaycanın müxtəlif bölgələrində təşkilat qurmaqda heç bir çətinlik çəkməmişik.Ziyalılar, açıq fikirli kəndlilər, təşkilati işlərdə sınanmış işçilər özləri bizləri axtarıb tapdıqlarını qeyd edir.Onların malı, canı , hər şeylərini vətən uğrunda fəda etməyə hazır olduqlarını bildirir.Gizli "Müsavat" təkilatının ideoloji cəbhəsi çox güclü idi.Mirzə Balanın rəhbərliyi, Cəfər Cabbarlının yaxından iştirakı ilə partiyanın şüarları xalq kütlələrinə sürətlə nüfuz edirdi.Bununla yanaşı, mədəni və ədəbi propaqandalar üçün sovet kitabxana və klublarından istifadə edilirdi.Kitabxanaların əksəriyyətinin rəhbərliyində bizim dostlarımızın dayandığını vurğulayır.Onlar hətta 1923-cü ilə qədər "İstiqlal" qəzetinin 19 sayını nəşr etdirməyə nail olmuşlar.Mirzə Bala aprel istilasının ilk illərində sovet mətbuatına və nəşriyyatına sürətlə nüfuz etdiklərini qeyd edir."Müsavat" partiyasının Bakı təşkilatından sonra ən qüvvətli təşkilatı Qarabağ təşkilatı idi.

Bu dövrdə "Müsavat" partiyası əlifba islahatı adı altında sovet rejiminin ruslaşdırma siyasəti həyata keçirdiyini anlayırdı.Nəriman Nərimanovun keçmiş Parlament binasında təşkil etdiyi ziyalıların toplantısında M.B.Məmmədzadə Rahim Vəkilinin vasitəsilə bu məsələyə etirazını bildirir və hər cür əlifba islahatının ancaq bütün türk dünyası ilə birlikdə edilə biləcəyi fikrini müdafiə edir.M.B.Məmmədzadə yazır ki, yolumuz şanlı istiqlal və hürriyyət yoludur....Azərbaycan hürriyyət və istiqlalına qovuşmadıqca biz bu müqəddəs andımızdan bir an belə dönməyəcəyik.Türkiyədə "Müsavat"ın nüfuz dairəsinin genişlənməsi Sovet hakimiyyətini bərk narahat edirdi. 1925-ci ildə Xarici İşlər Komissarı Çiçerin bildirir ki, biz Türkiyə hökümətinə müraciət etmişik ki, Sovet hökuməti əleyhinə olan intriqalara etiraz etsin və buna son qoyulsun. Bu dövrdə Türkiyənin beynəlxalq vəziyyəti pis olduğundan özü ilə eyni vəziyyətdə olan Sovet hökuməti ilə yaxınlaşdı.1923-cü ildə "Müsavat" partiyasının gizli mətbəəsinin aşkar edilməsindən sonra kütləvi həbslər həyata keçirilməyə başlandı . Mövcud ağır vəziyyətə baxmayaraq , "Müsavat" Mərkəzi Komitə-

sinin ikinci tərkibi yaradıldı və bu tərkib 1926-cı ilin noyabrına kimi fəaliyyət göstərdi. 1931-ci ildə müsavatçılar Türkiyəni tərk etdilər. Polşa hökuməti onları qəbul etdi. “Müsavat” partiyasının rəhbəri M.Ə.Rəsulzadə himayəyə alındı. 1931-1932-ci illərdə Azərbaycan daxilində “Müsavat” təşkilatının fəallığının zəifləməsi müşahidə olunur[1,s.230]. 1931-1937-ci illərdə “Müsavat” mütəşəkkil təşkilat olmamışdır. Bu dövrdə Azərbaycanın mütərəqqi ziyalıları həbsdən yayınan müsavatçılarla birləşərək gizli təşkilat və qruplar yaradırdılar. Onlar gənclərin vətənpərvər ruhda tərbiyə edilməsində, azərbaycançılıq məfkurəsində yetişdirilməsində böyük işlər görmüşlər.

1936-cı ildə Varşavada Milli Müsavat Xalq Partiyasının qurultay səlahiyyətli konfransı təşkil olundu. Partiyanın yeni proqramı qəbul olundu. Proqramda qeyd olunurdu ki, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti rus işğalından azad olacaq və qeyd-şərtsiz müstəqil dövlət halında yaşayacaq.Yeni proqramda Sovet hökumətinin iç üzü göstərilir, bolşevik hakimiyyətinin əleyhinə olan təşkilatlarla əlaqə saxlanılmasının, Azərbaycan istiqlal mübarizəsinin beynəlxalq səviyyədə qaldırılmasının vacibliyi qeyd olunur.Varşava konfransı partiyadaxili münaqişələrin aradan qalxmasında əhəmiyyətli rol oynamışdır.M.B.Məmmədzadə“Müsavat” partiyasının tarixini Azərbaycan xalqının içtimai fikir tarixindən qətiyyən ayırmırdı və “Müsavat” ı tənqid edənlərə deyirdi: əziz və müqəddəs vətənimiz Azərbaycanın ilk dəfə milli istiqlal bayrağını qaldıran, müstəqil milli dövlət həyatı yaşadan, onu millətlərə tanıdan “ Müsavat” firqəsi olmuşdur.O,“Müsavat” partiyasının bütün türk dünyasında xidmətləri olduğunu bildirir.Bu partiya türkçülük ideyalarını siyasi proqram halına salmış, türk xalqlarının istiqlal şüarlarını tələb edən partiya olmuşdur.Xüsusilə də, rus imperiyasının tərkibində yaşayan çoxsaylı türk xalqlarının azadlıq ideyalarını ilk dəfə dilə gətirən, milli azadlıq hərəkatına istiqamət verən Avropa tipli firqə olduğunu qeyd edir.O, 1937-ci ildə minlərlə adamın müsavatçılıq adı ilə sürgün edildiyini, güllələndiyini yazır. Müsavatçılığın bir firqənin ideologiyası olaraq formalaşdığını və bir millətin milli inamı şəklini aldığınıqeyd edir.Bu inamın isə saysız hesabsız fədailəri olduğunu bildirir. M.B.Məmmədzadə “Milli Azərbaycan hərəkatı” kitabının “Milli idealın gerçəkləşməsi uğrunda mübarizə”, “Müsavat və Qafqaz istiqlalı”, “Azərbaycan istiqlalı və Müsavat”, “Dövlət quruculuğunda Müsavat”, “İstilaya qarşı savaşda Müsavat” fəsillərində tarixi hadisələri dərindən təhlil edir. O, bu əsərinin IX bölməsində istilaya qarşı savaşda “Müsavat” partiyasının yerindən bəhs edir.Mirzə Bala, bolşeviklərin 1920-ci il aprelin 29-da Bakıda fövqəladə “Müsavat” konqresi çağırdıqlarını yazır.Konqresdə “Müsavat”ın bolşeviklərin platformasını qəbul etməyi və fəaliyyətini dayandırmağı məsələsi müzakirəyə verilir.Lakin konqres üzvləri bu təklifi qətiyyətlə rədd edirlər.Onlar bildirirlər ki, bolşeviklər verdikləri və imza etdikləri vədlərə sadiq qalacaqları təqdirdə “Müsavat” firqəsi onlara qarşı loyal olacaqdır. Belə bir tərzdə qərarın qəbul

edilməsindən sonra aydın olur ki, "Müsavat" müxalifət mövqeyində dayanmağa davam edir. Sonralar gizli təşkilatın üzvlərini təşkil edəcək bir qrup tələbə tərəfindən hazırlanan məruzədə Azərbaycanın müstəqil dövlət olaraq qalacağı, rus ordusunun Azərbaycandan çıxarılmasını, Azərbaycanın idarə şəklini təyin etmək üçün məclisi-müəssisan çağrılmasının vacibliyi qeyd olunur.Məruzədə həmçinin, siyasi azadlıqların təmin olunması başlıca şərt olaraq irəli sürülür. "Müsavat" ın bu çıxışı Bakı bələdiyyəsinin böyük salonunda toplaşmış yüzlərlə insanda dərin iz buraxmışdır. Bütün bunlar onu göstərirdi ki, "Müsavat" ölüm-dirim mübarizəsinə qərar vermişdir. "Müsavat" partiyasının həm parlamentdə, həm də parlament xaricində qətiyyətli mövqeyi , istiqlaliyyət ideyasına sədaqəti partiyadan kənardakı ünsürlərin də bu firqəyə cəlb olunmasına şərait yaradırdı. Sonralar digər partiyaların nümayəndələrinin də "Müsavat" sıralarına qoşulduğunu qeyd edir.

Aprel istilasından sonra Müsavatçılar Sovet hökumətini yıxmaq üçün çalışırlar. Bu məqsədlə təşkilatlarını genişləndirirlər.Lakin Sovet hökuməti bundan xəbər tutmuş və başçılarını ələ keçirərək onlardan bir daha Sovet hakimiyyətinə qarşı çıxmayacaqlarına dair iltizam alıb buraxmışlar.Halbuki sonralar müsavatçılar arasında təkrar belə fəaliyyət sezilmiş və gizli mətbəələri aşkar edilmişdir. M.B.Məmmədzadə ilkin həbslərin 1923-cü ilin iyun ayında baş verdiyini qeyd edir. Bu həbslər aylarla Türkiyə, İran və Avropa mətbuatının mövzusu olmuşdur. Kirovun və Mirzə Davud Hüseynovun iştirakı ilə keçirilən bu müzakirələr uzun müddət davam etsə belə yenə də,bir nəticə əldə olunmamışdır. "Müsavat" partiyasının gizli komitəsinin fəaliyyətə başlamasından sonra Moskvada sürgündə olan partiya lideri M.Ə.Rəsulzadənin Avropaya qaçırılması qərara alınmışdır. Onun Avropaya mühacirət etdikdən sonra İstanbulda milli nəşriyyat yaratmağa başladığını qeyd edir.Həmin ilin oktyabr ayında aşkar edilən "Müsavat" mətbəəsi və burada dərc olunan "İstiqlal" qəzeti bolşeviklərin planını puça çıxardı.

M.B.Məmmədzadə yerlərdə istiqlal təbliğatı aparmaq üçün ali siyasi mərkəz yaratmışdı. Bu mərkəzin siyasi proqramı gizli "İstiqlal" mətbəəsində də dərc olunmuşdu. Lakin bu proqram 1923-cü il həbsləri zamanı ələ keçirilmişdi. Mirzə Bala bu həbslər barədə yazırdı: aylarla Türkiyə, İran və Avropa mətbuatının mövzusu olan bu həbslərin gedişində müsavatçılardan bu firqədən istefa etməyi və bolşevik rejiminin platformasını qəbul etməyi, sovet işğalına qarşı çıxanları türk düşməni elan etməyi tələb edirdilər. Burada "türk millətinin düşməni" ifadəsi iyun həbsləri zamanı tutulmuş müsavatçıların imzaladığı bəyanata işarədir.

M.B.Məmmədzadə 14 avqust 1923-cü il "Bakinski raboçi" qəzetində çıxan sənədi saxta adlandırır və ona cəmi iki nəfərin imza atdığını qeyd edir. M.B.Məmmədzadə 1920-ci il aprelin 29-da Bakıda keçirilmiş "Müsavat" konqresi ilə bağlı yazır ki, bolşeviklər "Müsavat" partiyasından uzaqlaşdırılmış

iki şəxs( Süleyman Abdullayev və Xəlil İbrahim) vasitəsi ilə "Müsavat"ın bolşevik platformasını qəbul edib fəaliyyətini dayandırmaq təklifi verirlər[7,s.4].Lakin konqres yekdilliklə təklifi rədd etdi.Belə bir doğru tarixi qərarın çıxarılmasında M.B.Məmmədzadənin böyük rolu olmuşdur. M.B.Məmmədzadə yazır ki, bolşeviklərlə gizli əlaqədə edilmiş bu yığıncaqda əsas məruzəni Məmməd Həsən Hacınski etməli idi. Lakin M.B.Məmmədzadə başda olmaqla gənc müsavatçılar vəziyyəti düzgün təhlil edərək M.B.Məmmədzadənin məruzəçi qismində çıxış etməsini təmin etdilər.Bu nüans müsavatçıların istiqlal uğrunda düzgün mövqelərini qoruyub saxladıqlarını bir daha sübuta yetirdi.1923-cü ilin yayında kütləvi həbs olunanlar içində M.B.Məmmədzadə də var idi.Qırmızı terrrorçular gənc istiqlalçıları aldadaraq 14 avqust bəyannaməsinə qol çəkdirdilər.Bəyannamə Müsavat Mərkəzi Komitəsinin buraxıldığını və fəaliyyətini dayandırdığını elan etmişdi.Bu bəyannaməni imzalayan şəxslər içində M.B.Məmmədzadənin imzası yox idi. Bu hadisədən sonra milli istiqlal əqidəli insanların yolu ayrıldı. M.B.Məmmədzadə gizli fəaliyyətə keçərək Azərbaycan siyasi mühacirətinin sonrakı lideri oldu. Bəyannaməni imzalayanların taleyi isə keşməkeşli oldu.Akademik Ziya Bünyadov yazır ki, bəyannaməni imzalayanlar elə güman edirdilər ki, sosializm quruculuğunda onlar da iştirak edəcəklər.Düşünürdülər ki, gizli fəaliyyətdən çıxdıqdan sonra təqib olunmayacaqlar.Lakin bu heç də onların düşündüyü kimi olmadı .Müsavatçıların təqibi dayandırılmadı, əksinə bu proses daha da sürətləndirildi.

Aprel işğalından sonra M.B.Məmmədzadə M.Ə.Rəsulzadənin ən inandığı insanlardan biri idi. 1920-ci il aprelin 27-də yaradılmış gizli "Müsavat" rəhbərliyinə M.B.Məmmədzadənin məsləhət görülməsi heç də təsadüfi olmamışdır.O, M.Ə. Rəsulzadənin göstərişləri ilə fəaliyyət göstərirdi.1923-cü il İrana mühacirətə gedənə qədər gizli hərəkatda tapşırıqlar alan gənc fəalların səlahiyyətləri M.B.Məmmədzadə tərəfindən təsdiqlənirdi.İrana gəldikdən sonra da,"Müsavat" təşkilatlarına rəhbərlik səlahiyyəti ona verilmişdi.1927-ci il Türkiyəyə köçənə kimi Cənubi Azərbaycanda və İranda partiyanın fəallaşdırılması, nüfuzunun genişləndirilməsi yolunda əzmlə çalışmışdır. M.B.Məmmədzadə "Müsavat" xalq firqəsinin 1936-cı ildə Varşavada keçirilmiş konfransında yaxından iştirak etmişdir. O, partiyanın nəşr etdirdiyi bülletenlərdə sovet hakimiyyətini , bolşevik rejimini ifşa edən xeyli məqalələr nəşr etdirirdi.Polşada təşkil olunmuş elmi konfranslarda bu barədə məruzələrlə çıxışlar edirdi. 1938-ci ildə Almaniyanın paytaxtı Berlin şəhərində "Qurtuluş" jurnalı mətbəəsində M.B.Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" adlı əsəri yəni "Milli Azərbaycan Müsavat xalq firqəsinin tarixi" adlı kitabı çap olunmuşdur.O, bu əsərini Azərbaycan Milli İstiqlal hərəkatını əbədiləşdirmək üçün yazmışdır.Bu əsərdə O, qeyd edir ki, "Müsavat" milli mühit xaricində formalaşmış bir firqə olmamışdır.O, "Müsavat" partiyasının milli hüdudlar

daxilində, geniş xalq kütləsi arasında yarandığını, böyüdüyünü, milli hüdudlar daxilində təşəkkül tapdığını qeyd edir.“Müsavat” ın dinamikliyi onun milli tellərlə qırılmaz bağlı olmasından irəli gəldiyini qeyd edir.Rusiya və Ukraynada, eləcə də Türkiyədə, Gürcüstanda təhsil alan azərbaycanlı tələbələr müsavatçılığı xaricə çıxardaraq 1917-ci ildən etibarən partiya ətrafına toplaşmışlar.M.B.Məmmədzadə qeyd edir ki, Azərbaycan istiqlal hərəkatında yolgöstərən rolunda çıxış edən və savaşı davam etdirən bir firqə varsa o da “Müsavat” dır.

M.B.Məmmədzadədövrünün ən qabaqcıl partiyalarından olan “Müsavat” partiyasının qəbul etdiyi proqramı belə səciyyələndirir:Əsrimizin və islamçılıq tradisiyalarını mühafizə edən, milli ideologiyanın, xalqçı proqramın, Azərbaycan və bütün Qafqazın Rusiyadan ayrılması mənasında anlaşılan inqilabçı bir taktikanın tərifindən ibarət olan “Müsavatçılıq” qısa bir zaman kəsiyində Azərbaycan xalqının geniş etibarını qazandı[8,s.27].

1919-cu ildə qurultayda qəbul olunan proqrama “Müsavat” rəhbərləri mövcud vəziyyət səbəbi ilə 1936-cı ilə qədər qayıda bilmədilər.1936-cı ildə M.B.Məmmədzadənin yaxından iştirak etdiyi Varşava konfransında proqramın özünü yox, onun əsaslarını təşkil edən prinsipləri qəbul etmişdilər.Proqramda maraq doğuran məqamlardan biri hər bir türk millətinin ayrıca dövlət quracağı ilə bağlı məsələnin əks olunması idi.Mirzə Bala türk millətlərini dövlətçilik ideyalarının təbliğ olunmasını “Müsavat” firqəsinin ən mühüm xidmətlərindən biri olduğunu qeyd edir.O yazır ki, “Müsavat”ın proqram əsasları türkçülüklə azərbaycançılığı birləşdirməyə nail olmuşdur.Daha sonra “Müsavat” a belə bir tərif verir: müsavatçılıq böyük türk mədəniyyətinə bağlı, milli ,mədəni, humanist dəyərləri mənimsəyən , cümhuriyyət və istiqlaliyyət ideyalarına sadiq Azərbaycan vətənsevərliyidir.

M.B.Məmmədzadə “Milli Azərbaycan hərəkatı” əsərində “Müsavat” partiyasının mühacirətdəki fəaliyyətindən bəhs edərək yazır ki, milli mühacirətin sosial tərkibi daim dəyişilmiş, yeniləşmişdir. Müxtəlif səviyyələrə malik zümrələr bir-birinə qarışmışdır.Mirzə Bala “Müsavat” ın geniş xalq kütləsi ilə sıx münasibətdə olduğunu bildirir.Millətlərin ali mənafeyini, arzu və istəklərini, sosial ehtiyaclarını qavrayaraq mənimsəyən, onu bir sistem daxilində formalaşdırmağa nail olması “Müsavat” ı daim milli həyatın komanda mövqeyində olmasına sövq etmişdir. Əslində “Müsavat” ın daxildə formalaşmaq dövrü bitdikdən sonra xaricə çıxması və milli sərhədlər kənarında yaşayan azərbaycanlılar üçün birləşdirici qüvvə rolunu oynaması 27 aprel istilasından öncə baş vermişdir.M.B.Məmmədzadə “Müsavat” ın fəal iştirakı ilə milli istiqlaliyyət uğrunda davamızın səsinin dünya mətbuatına, beynəlxalq təşkilatlara qədər çatmasını, Azərbaycan məsələsinin yenidən beynəlxalq bir məsələ halına gəldiyini qeyd edir.

M.B.Məmmədzadə "Müsavat" partiyasının dövlət quruculuğunda yerindən bəhs edərək yazır ki, "Müsavat" inqilabın qazancaları olan söz, mətbuat, vicdan, ittifaq azadlıqlarının təmin edilməsini tələb edirdi. Bu, " Müsavat" ın daxili fəaliyyət proqramında öz əksini tapmışdır.Ona görə, dövlət quruculuğunda xalqın etimadından başqa bir də real qüvvə olmalıdır. Bu səbəbdən ordu təşkilinə ciddi əhəmiyyət vermək lazımdır. Xarici müdaxiləyə qarşı müdafiəni təmin etmək, daxildə sabitliyi, asayişi qorumaq baxımdan ordunun təşkili məsələsi əhəmiyyətlidir. Dövlət büdcəsinin ağırlığının yoxsullara deyil, varlı siniflər üzərinə yüklənməli olduğunu qeyd edir. "Müsavat" millətin mövcudluğunu və ölkənin azadlığını qoruya biləcək hökumət istədiklərini bildirir.Belə bir şəraitdə isə yalnız koalisiya prinsipləri əsasında dövlət qurula biləcəyini qeyd edir. "Müsavat" Azərbaycan məktəblərində milli tarix, ədəbiyyat və coğrafiya kimi dərslərin tədris olunmasının istiqlaliyyətə, vətənə, hürriyyətə bağlı gənc nəslin formalaşmasında çox önəmli olduğunu qeyd edir. Millətimizin istiqbalı , gələcəyi olan gənc nəslin ruslaşmasının önünə keçməyə çalışan "Müsavat" Azərbaycan məktəblərində rus dili və tarixinin proqramdan çıxarılmasını, orta və ali məktəblərin hər cəhətdən türkləşdirilməsi tələbini irəli sürüüdü.

1955-ci ildə M.Ə.Rəsulzadənin vəfatından sonra "Müsavat" partiyasına və Azərbaycan Milli Mərkəzinə M.B.Məmmədzadə liderlik etmişdir. O, 1959-cu ildə vəfat etdiyi ilə qədər partiyanın başqanı olaraq fəaliyyət göstərmişdir.

**Nəticə.**M.B.Məmmədzadə partiyadakı dostları tərəfindən təqdir edilmiş və Rəsulzadənin ölümündən sonra "Müsavat" partiyasına rəhbərlik etmişdir. M.B.Məmmədzadə partiyaçılıq anlayışından daha çox öz əsərləri, məqalələri ilə Azərbaycan siyasi düşüncə tarixində yer edinməyə çalışan bir ziyalı olmuşdur. M.B.Məmmədzadə öz əsələrində daha çox xalqın sosial,siyasi problemlərinə həsr olunmuş məsələləri işıqlandırmışdır.O, Azərbaycan gəncliyinin ideoloqu olmuşdur. M.B.Məmmədzadə "Milli Azərbaycan hərəkatı" əsərində "Müsavat" partiyasının yaranması, proqramı, fəaliyyət istiqamətləri haqqında çox geniş məlumatlar vermişdir.O yazır ki, Türk Ədəmi Mərkəziyyət Müsavat xalq firqəsi adını aldıqdan sonra "Müsavat" adlanan bu ideologiya artıq formalaşmış, Azərbaycan cəmiyyətinin arzu və istəklərini ifadə edən bir təşkilata çevrilmişdir."Müsavat" milli azadlıq hərəkatının bələdçisi mövqeyinə keçmişdir.Bu firqə milliyyətçi, azərbaycançı, istiqlalçı, xalqçı və cümhuriyyətçi bir firqədir.

İnqilabi ruhda böyüyən və xalqımızın milli istiqlaliyyəti uğrunda mübarizəyə hələ gənc yaşlarında ikən qoşulan Mirzə Bala öz həmyaşıdları arasında vətənpərvərliyi, istiqlal arzuları ilə seçilirdi.Yaşadığı çətin həyat tərzinə baxmayaraq Mirzə Bala hələ gənc ikən yaradıcılıqla məşğul olmağa başlayır. 1917-ci ildən etibarən Azərbaycanın sosial-siyasi problemləri ilə bağlı müxtəlif mətbu orqanlarında məqalələr dərc etdirir. M.B.Məmmədzadə

demokratik ruhlu qəzetlərdə tez-tez yazılar nəşr etdirirdi. O, “Müsavat” partiyasının mətbu orqanı olan “Açıq söz” qəzetində mütərəqqi ruhlu , toplumu milli azadlığa səsləyən yazılara xüsusi yer verirdi.Əsl istiqlal fədaisi Mirzə Bala qurtuluş yolunu tapmağa çalışır, mütərəqqi ideyalarla xalqı mübarizədə bir olmağa çağırırdı.M.B.Məmmədzadə “Müsavat” mücadiləsinin yorulmaz ideoloquna çevrilmişdi.Ömrünün böyük hissəsini mühacirətdə yaşamış və çoxlu maneələrlə rastlaşmağına baxmayaraq xarici ölkələrdə də milli azadlıq uğrunda mübarizəsini davam etdirmiş, xalqımızın milli özünü dərk və azadlıq mübarizəsinin salnaməsini yaratmışdır.

**Ədəbiyyat:**

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensklopediyası, II cild.Bakı, “Lider” nəşriyyat, 2005, 479 s.
2.Cavanşir.C. Əfsanəvi bayraqdar-Mirzə Bala Məmmədzadə xatirələrdə.Bakı, “ Mücrü”, 2021,81 s.
3.Korkmaz Telli “ Azerbaycan milli mücadilesinin öncülerinden Mirze Bala Mehmetzade ve Açık söz qazetesi.Nevşehir, Sosial Elmlər İnstitutu, 2022, №1, s.1-7
4.Məmmədzadə M B. “İstiqlal mücadiləsi”. Bakı, Zirə Mədəniyyət Mərkəzi Ekopark, 2018, 448 s.
5.Məmmədzadə M.B “ Milli Azerbaycan harekatı”. Azərbaycan Kültür Dərnəyi, Ankara 1991, 235s.
6.Məmmədzadə M.B “ Milli Azərbaycan hərəkatı”.Bakı, “ Nicat”, 1992, 246s.
7.Məmmədzadə M.B “27 aprel istilası”. Azərbaycan, 1954, №8, s.3-5
8.Rəsulzadə M.Ə “ Milli Azerbaycan harekatının harakteri”.Azərbaycan Yurd Bilgisi, 1934, №29,s25-37
9.Rüstəmli A.H. “ Zirədən başlanan yol”(Mirzə Bala Məmmədzadənin həyatı, yaradıcılığı və mühiti).Bakı, “Gənclik”, 2018, 280 s.
10.Vəliyev Ə.“Azerbaycan siyasi düşünce tarihi ve Mirza Bala Mehmetzade. İstanbul, “Çetin” 2006, 394 s.
11.Yurdsevər A.V “Gizli Müsavat təşkilatının vəzifələri”. Ankara,1991, №382

# AZƏRBAYCAN QARAQOYUNLU ORDUSUNU TƏŞKIL EDƏN HƏRBİ BİRLİKLƏR

**Ülvi Zərbəliyev**
Gəncə Dövlət Universiteti
ulvizerbeliyev@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, Qara Yusif, Qaraqoyunlu ordusu, Teymurilər, süvari qoşun.*

*XIV əsrin sonlarında Əmir Teymurun Azərbaycana hərbi yürüşləri dövründə Azərbaycanda onlara qarşı mübarizə aparan qüvvələr arasında Qara Məhəmməd və oğlu Qara Yusifin rəhbərlik etdiyi Qaraqoyunlular önəmli rol oynamışdılar. Şübhəsiz ki, Əmir Teymur ordusuna qarşı mübarizənin gedişində Qara Yusifin başçılığı altında döyüşkən ordu toplanılmış və bu ordu Teymurilərin Azərbaycanda ağalığına son qoyaraq mərkəzi Təbriz şəhəri olan dövlətin yaradılmasında əsaslı rol oynamışdı. Qaraqoyunlu ordusu bir qayda olaraq hökmdarın ixtiyarında olan xüsusi qoşundan və vilayət hakimlərinin nəzarətində olan və çərik adlanan qoşundan ibarət olmuşdur.*

*Qaraqoyunlu ordusunun əsas zərbə qüvvəsini süvari qoşun təşkil etmişdi. Qara Yusifin başçılığı altında Qaraqiyunlu süvari ordusunun Teymurilər üzərindəki ardıcıl qələbələri onlara böyük nüfuz qazandırmış, rəqibləri Ağqoyulularla savaşda da bu ordu öz üstünlüyünü dəfələrlə sübuta yetirmişdi. Qaraqoyunlu süvari ordusunda yüksən nizam-intizam və döyüş ruhu mövzud olmuşdu. Döyüşlərdə rəqibləri üzərində qələbə qazanılmasında əsaslı rol oynamışdı.*

## ВОИНСКИЕ СОЕДИНЕНИЯ, ВХОДЯЩИЕ В СОСТАВ АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ ГАРА-ГОЮНЛУ

**Ульви Зарбалиев**

***Ключевые слова:*** *Азербайджан, Кара Юсуф, армия Гара-Гоюнлу, Тимуриди, кавалерийские войска.*

*Во время военных походов Эмира Тимура в Азербайджан в конце XIV века среди сил, боровшихся против них в Азербайджане, важную роль играли Гара-Гоюнцы во главе с Гара Мухаммедом и его сыном Гара Юсуфом. Несомненно, в ходе борьбы против армии Амира Тимура была собрана воинственная армия под командованием Гара Юсуфа, которая сыграла фундаментальную роль в создании государства с центром в городе Тебриз, положив конец господству Тимуридов в Азербайджане.*

*Войско Гара-Гоюнлу состояло, как правило, из специального войска, находившегося в распоряжении правителя, и войска, находившегося под контролем провинциальных правителей и называвшегося черик.*

*Основную ударную силу армии Гара-Гоюнлу составляла кавалерия. Последовательные победы конницы Гара-Гоюнлу под командованием Гара Юсуфа над Тимуридами принесли им большой авторитет, и эта армия не раз доказывала свое превосходство в боях со своими противниками Аг-Гоюнлу. В кавалерии Гара-Гоюнлу царили повышенная дисциплина и боевой дух. Он сыграл фундаментальную роль в достижении победы над противниками в битвах.*

## MILITARY FORMATIONS THAT ARE PART OF THE AZERBAIJANI QARA-QOYUNLU ARMY

**Ulvi Zarbaliyev**

***Keywords:*** *Azerbaijan, QaraYusif, Qara-Qoyunlu Army, Timurids, cavalry troops.*

*During the military campaigns of Emir Timur to Azerbaijan at the end of the XIV century, Qara-Qoyuntsy led by Kara Muhammad and his son Kara Yusuf played an important role among the forces fighting against them in Azerbaijan. Undoubtedly, during the struggle against the army of Amir Timur, a militant army was assembled under the command of Kara Yusuf, which played a fundamental role in the creation of a state centered in the city of Tabriz, putting an end to the rule of the Timurids in Azerbaijan. Qara-Qoyunlu's army consisted, as a rule, of a special army at the disposal of the ruler, and an army under the control of provincial rulers and called cherik.*

*The main striking force of Qara-Qoyunlu's army was cavalry. The successive victories of the Qara-Qoyunlu cavalry under the command of Kara Yusuf over the Timurids brought them great authority, and this army has repeatedly proved its superiority in battles with its Ag-Qoyunlu opponents. The Qara-Qoyunlu cavalry was dominated by increased discipline and morale. He played a fundamental role in achieving victory over opponents in battles.*

### Giriş

Xalqımızın orta çağlar tarixinin öyrənilməsi baxımından tarix elminin qarşısında bir sıra mühüm problemlər durmaqdadır. Vaxtı ilə pantürkizm, panislamizm və panİranizm öldürücü yarlıqları ilə yasaq olunmuş şərəfli keçmişimiz elə araşdırılmalı, bu günkü gənclərə və gələcək nəsillərə elə çatdırılmalıdır ki, onlar basılmaz qeyrət ruhu, sarsılmaz əqidə və milli qürur duyğusu

ilə minillik üçün silahlanmış olsunlar, tariximizi şərəflə yaşada bilsinlər. Bu şərəfli borcu həyata keçirmək üçün Vətənimizin keçmişinin hərtərəfli və dərindən araşdırılması böyük əhəmiyyətə malikdir. XV yüzillik öz tarixi-fəlsəfi mahiyyətinə görə tariximizin dönüş mərhələsi hesab edilə bilər. Azərbaycan türklərinin milli inkişaf tarixində bu dövrün xüsusi yeri vardır. Məhz XV yüzilliyin başlanğıcında Qara Yusifin başçılığı altında Qaraqoyunlu ordusu Azərbaycanda Teymuri ağalığına son qoydu, mərkəzi Təbriz şəhəri olan və Oğuz-türk dövlətçilik ənənəsinə söykənən dövlət quruldu.Qaraqoyunlu dövlətinin yaranması ilə Azərbaycan ərazisində Oğuzlar (türkmanlar) artıq yalnız etnik cəhətdən deyil, həm də siyasi baxımdan hakim mövqe qazandılar. Bu dönəmdə Dərbənddən Diyarbəkrə və Ərdəbildən Ərzincana qədər uzanan ərazi, yəni Azərbaycan və Şərqi Anadolu torpaqları Yaxın Şərq xalqlarının şüurunda «Türkman eli», Təbriz isə «dar-ül-mülkü Türkman» kimi qəbul edilməyə başlanmışdır[9, 163; 10, 10].

Azərbaycanda Teymuri ağalığına son qoyulması bilavasitə Qara Yusifin rəhbərliyi altında Qaraqoyunlu ordusunun döyüş meydanında düşmənin çoxsaylı ordusundan çəkinməyərək onunla mübarizəyə başlaması, ardıcıl zəfərlər qazanaraq onları ölkədən çıxarmağa nail oldu. Qüdrətli Teymuri ordusuna qarşı mübarizədə Qara Yusifin mühüm qələbələr qazanmasında onun yaratmış olduğu ordu əsaslı rol oynamışdı. Biz bu məqaləmizdə dörün mənbələrinə və elmi tədqiqatlara əsaslanaraq Qara Yusifin Teymurilər üzərində ardıcıl qələbələr qazanmasını təmin edən ordusu barədə məlumat veməyi qarşıya məqsəd qoymuşuq.

### 1. Hökmdarın xüsusi (xassə) qoşunu

Azərbaycan Qaraqoyunlu dövlətinin ordusu sarayın ixtiyarındakı nisbətən azsaylı (xassə) qoşundan və ayrı-ayrı vilayətlərdə yaşayıb, yalnız hərbi yürüşlər zamanı cəmlənərək öz başçıları ilə birlikdə hökmdarın köməyinə yollanan döyüşçülərdən (çərik) ibarət olmuşdur[7, 51]. Qaraqoyunlu hərbi təşkilatı Cəlairilər, Elxanilər və Teymurilərin hərbi təşkilatları ilə oxşar xüsusiyyətlərə malikdir. Təşkilati baxımdan Qaraqoyunlu ordusu ilə Ağqoyunlu hərbi təşkilatı arasında böyük bir oxşarlıq olsa da, yeganə fərq orduların müxtəlif türkman tayfalarından təşkil edilməsidir[16, 298; 6, 69]. Qaraqoyunlu ordusunu təşkil edən tayfalar arasında Sədli, Baharlı, Bayramlı, Alpaut, Düharlı, Qaramanlı, Hacılı, Ağaçəri, Döğər kimi tayfalardan yığılan döyüşçü dəstələri əsas rol oynayırdı. Qaraqoyunlu tayfaları arasında ən döyüşkən qrupu Alpautlar təşkil edirdi. Onlar döyüş zamanı Qaraqoyunlu ordusunun sol cinahında yer alırdılar. Alpautlar əvvəllər Həmədan bölgəsində fəaliyyət göstərdilər. Onların rəhbəri Qorqan bəy Alpaut idi. 1421-ci ilin iyulunda Qaraqoyunlu İsgəndərlə Teymuri sultanı Şahrux arasında baş verən Aləşgərd döyüşünda alpautlar Qorqan və Sorqan Alpautun rəhbərliyi altında ordunun sol cinahında yer almışdılar[15, 68]. Cahanşah dövründə Alpautlar mühüm vəzi-

fələr əldə etdilər. Bu dövrün görkəmli Alpaut bəyləri arasında Bağdad valisi Tavacı Məhəmməd bəy də var idi[15, 245; 6, 71]. Aləşgərd döyüşündə Qaraqoyunlu İsgəndərin ordusunun sağ cinahına Pir Məhmad Sədli öz tabeliyində olan sədlilərlə birlikdə yer almışdı[15, 68].

Türkman tayfaları həmişə hökmdara hərbi dəstək verən birlik olmuşdur. Belə ki, Cahanşah Uzun Həsənə qarşı yürüşə çıxan zaman nökərlərini də özü ilə aparmışdı. Uzun Həsən Cahanşahı qarşılamaq məqsədilə səfərə çıxanda xəfiyyələri məlumat verdilər ki, "Cahanşah Mirzə öz köçünü göndərib və xüsusi qoşunu, əmirləri, boy nökərləri və övladları ilə birgə düşərgəsində qalıb və rahatca yatıb. Fürsəti əldən vermək olmazdı"[15, 245]. Bu xəbəri alan Uzun Həsənin döyüşə girdiyini görürük.

Qaraqoyunlularda hökmdarın xüsusi (xassə) ordusunun əsgəri hissəsi: puşandarlardan – ağırsilahlanmış zirehli süvarilərdən, tirkəşbəndlərdən – ox atanlardan və qulluqçulardan – at və dəvələrə, böyük əmirlərin çadırlarında, nəqliyyat vasitəsində xidmət edənlərdən ibarət olurdu. Puşandarlara və tirkəşbəndlərə nökər deyilirdi. Puşandarlar dövrəsi gümüş və ya qızıl suyuna çəkilmiş xırda lövhəciklərdən qayrılmış zirehli paltarlar geyirdilər. Tirkəşbəndlər isə möhkəm dəri paltarlar geyirdilər ki, bunları nə qılınc zərbəsi kəsə bilir, nə də ox deşə bilirdi[11, 95; 10, 98].

Qaraqoyunlu dövlətinin ilk dövrlərində başlayaraq hökmdara xidmət edən nökərlər mənbələrdə "nökəran-ı xassə və boy nökərləri" kimi bəhs olunmuşdur[4, 579; 5, 89; 8, 37].

Qaraqoyunlu ordusunun ən mühüm hissəsini süvari qoşun təşkil edirdi. Süvari ordu piyada qoşundan sayca daha çox olurdu və onlardan daha sürətli hərəkət edirdilər. Qaraqoyunlular uzun illər at üstündə yarımköçəri həyat sürdükləri üçün daim hərəkətdə olmuş, bu yaşam tərzi onların süvari qüvvələrini digər birliklərdən daha da güclü etmişdir. Qaraqoyunlu süvari qoşunları qədim türk və monqol qoşunları kimi yüngül süvari birliklərdən ibarət olub, yüksək çevik və manevr qabiliyyətinə malik idilər. Belə bir ordunun bir bölgədən digərinə hərəkət etməsi və ərzaq tədarükü görməsi daha asan idi. Qaraqoyunlu hökmdarları süvari qoşunları sayəsində hərbi yürüşlərdə və basqınlarda böyük uğur qazana bilirdilər[14, 66].

Qaraqoyunluların süvari qoşunları əsasən atlı birliklərdən təkil olunurdu. Cahanşah oğlu Pirbudağın üzərinə Şiraza tərəf yürüş edərkən öz düşərgəsini Ucanda qurdu. Pirbudağın min beş yüz nəfərlik süvari qoşunu hücuma göndərdiyini xəbər aldı. Buna görə Məhəmmədi Mirzə, Əmir Şahəli, Əmir Əlişəkər, Əbülfəth Bəstami və Qasım Pərvanəçini bir çox digər əmirlərlə təqribən beş min süvari qoşunu onlara qarşı göndərmişdi[15, 194]. Əbubəkr Tehrani yazır ki, Cahanşah Heratda olan zaman Teymuri Əbu Səidin Ubə tərəfdə olduğu xəbərini aldı. Buna görə qoşun göndərib Ubə tərəfə yollandı. Bu zaman Pirbudaq Şirazdan qoşun çəkib Qohestan vilayətinə gəlmişdi. O, 18

minlik ordusu ilə sürətlə hərəkət edib atasının qoşununa birləşdi. Əsgərlər xeyli sevinib şadlandılar. Qoşun daha da ürəkləndi[15, 189].

Qaraqoyunlular süvari qoşunların hazırlanmasına xüsusi önəm verir, hətta döyüşə getməzdən əvvəl vəziyyətə, mövsümə və düşmən qüvvəsinin imkanlarına uyğun hazırlaşmağa çalışırdılar. Bunun ən gözəl nümunəsini Sultan Şahruxun Azərbaycana yürüşü zamanı Qaraqoyunlu hökmdarı İsgəndərin Teymuri ordusuna müqavimət göstərmək üçün gördüyü hazırlıqlarda görə bilərik. Atları heç vaxt fil görməmiş İsgəndər Teymuri ordusunun fillərindən qorxacağını düşünərək ordusunu öyrətməyə çalışır, saman kisələri və iri mal-qaranı fillərə bənzədir, palçıqdan fil heykəlləri düzəldir, üstünə silahlı adamlar qoyur və atlarını qorxmayana qədər onların üzərinə sürərək öyrətməyə çalışmışdı[12, 100; 1, 63].

***2. Piyada ordu***

Qaraqoyunlu dövlətinin hərbi təşkilatlanması baxımından mühüm əhəmiyyət kəsb edən piyada qüvvələr, döyüş vaxtı istifadə edilən mühüm hərbi birlikdən biridir. Qara Yusiflə Teymuri Əbu Bəkr arasında Təbriz yaxınlığında Sərdrudda baş verən döyüşdə Qaraqoyunlu ordusunda piyada əsgərlər iştirak etmişdi. Həsən bəy Rumlu yazır: "Qara Yusif İraq əmirlərinin sözünün və əməlinin bir-birinə müvafiq olduğunu gördükdə, onların hamısını ənamlar və bəxşişlərlə ümidvar edib hər birini gözəl ikram və bol hədiyyə ilə şərəfləndirdi. Ondan sonra iyirmi min süvari və piyada ilə şahzadəni qarşılamağa çıxdı. Sözügedən ilin zilqədə [ayının] 24-də (21.04.1408) Sərdrudda iki tərəf bir-biri ilə qarşılaşdı"[12, 58]. Döyüş Qara Yusifin qələbəsi ilə başa çatdı. Dövrün ilkin mənbəsi Teymuri Sultan Şahruxla vuruşmağa qərar verən Qara Yusifin Təbriz əyalətindən xüsusi piyada qoşun toplaşmağa çalışdığını göstərir[12, 94]. Faruq Sümer Qara Yusifin topladığı bu piyada əsgərlərin nə məqsədlə toplandığı sualına cavab tapa bilməsə də, Osmanlı ordusundakı piyada əsgərlər kimi onlardan istifadə oluna biləcəyini qeyd edir. O, toplanılan piyada əsgərlərin silahlı döyüşçülər hesab edildiyini və Osmanlı ordusundakı yüngül piyada əsgərlər kimi hərbi xidmətdə istifadə edilməsinin nəzərdə tutulduğu bildirir. Bundan əlavə, o, bu dövrdə toplanan piyada əsgərlərin indiyədək heç vaxt hərbi xidmət keçmədiyini vurğulayaraq, səngər qazmağın da onların vəzifələri arasında yer aldığını qeyd edir. Qara Yusif dövründə piyadalardan istifadə edilməsi, döyüş taktikasında yeni bir üsulu sınamaq istəyi ilə izah edilə bilər[13, 109-110].

Həsən bəy Rumlunun verdiyi məlumata görə, 1429-cu ilin sentyabr ayında Teymuri sultanı Şahruxla Qaraqoyunlu İsgəndər arasında Salmas yaxınlığında baş verən döyüşdə də Qaraqounlu ordusunda süvarilərlə yanaşı, piyada əsgərlər də iştirak etmişdi. Həsən bəy Rumlu yazır: "Ramazan [ayının] 21-də (24.06.1429) cahan hökmdarı Sultaniyyədə cah-calalla dayandı. Ta şəvval [ayının] başlanğıcına (04.07.1429) kimi orada qaldı. Marağa şəhəri

müzəffər əsgərlərin dayanacaq yeri olduqda belə bir xəbər gəldi ki, Mirzə İsgəndər cövşən geyən bahadırların qorxusundan Əlincəqdən Səlmasa köçərək, sağdan dağla və soldan su ilə əhatə edilmiş bir yerdə qərar tutub, ordugahının dörd tərəfində xəndək qazdırıb. Həmin xəbər üzündən o həzrət (Şahrux) Mirzə İsgəndərin üstünə yollandı. Şənbə günü, zilhiccətül-həram ayının 10-da (10. 09.1429) Səlmasda türkman qoşunlarının müqabilində cah-calalla dayandı. Ertəsi gün hər iki tərəf ordunun səflərini düzəltdi. Şahruxun sağ cinahında Baysunqur qərar tutdu. Mirzə Məhəmməd Cuki sol cinahda yerləşdi. O tərəfdən də Mirzə İsgəndər əlli min süvari və piyada ilə mükəmməl və müsəlləh vəziyyətdə qarşıda mövqe tutdu"[12, 128-129; 10, 141-142]. Görünür, İsgəndər vaxtı ilə atasının piyada əsgərlərin iştirakı ilə həyata keçirə bilmədiyi döyüş taktikasını tətbiq etməyi düşünürdü. Lakin Teymuri ordusunda olan fillər "döyüş meydanında bulud və külək kimi dolaşmağa və coşmağa başladığına" görə bunu gerçəkləşdirə bilmədi.

Sonrakı Qaraqoyunlu hökmdarları tərəfindən də piyada ordudan istifadə edilmişdi. Əbubəkr Tehrani yazır ki, Cahanşahın hakimiyyəti dövründə, Seyid Şirvaninin öldürülməsindən sonra, Pirbudağın Lavər keçidində Teymuri Səncər Mirzə ilə çox çətin bir döyüşü oldu. Döyüş zamanı Teymuri ordusu bir neçə dəfə qaraqoyunlulara üstün gəldiyinə görə, Pirbudaq döyüş nizamını itirib geri çəkilməyə və qaçmağa meyl etdi. Lakin Pirqulu Kukeltaş onu sakitləşdirib dayanmağa çağırdı. İgid cavanlardan və Pirbudağa sadiq cəsur əmirlərdən biri olan Əli Çəkkak İsfahani bir dəstə piyadanı hazırlayıb teymurilərin sığındığı dağın arxasından onların evlərinə hücum etdi. Əsgərlərin arasına hay-küy və qarışıqlıq düşdü və onlar öz ailələrini qorumaq üçün geri döndülər. Türkmanlar onlara üstün gəlib pərən-pərən saldılar[15, 181; 3, 286]. İlkin mənbələr Cahan-şahın İraq və Farsı aldıqdan sonra 20 min atlı və piayadanı Əmir Ərəbşaha verib Ərzincana hücuma göndərdiyini bildirir[15, 133]. Bu, Cahanşah dövründə də Qaraqoyunlu ordusunda piyada ordudan istifadə olunduğunu bir daha təsdiq edir.

### *3. Əyalət qoşunu (Çərik)*

Qaraqoyunlu ordusunda ayrı-ayrı vilayətlərdə məskunlaşan və həmin vilayətin idarəsinə rəhbərlik edən tayfa başçılarının sərəncamında olan qoşun çərik adlanırdı. Çərik Qaraqoyunlu dövlətinin əsas hərbi qüvvələrindən biri idi[17, 71]. Ancaq ayrı-ayrı tayfa başçılarının nəzarətində olan hərbi qüvvələr dövlətdən tam asılı olmadığı üçün müharibə zamanı və ya ondan sonra bir tərəfdən digərinə keçə bilərdi. Güclü və qüdrətli görünən Qaraqoyunlu dövləti tayfa başçılarının ordudan getməsi ilə birdən-birə zəif və gücsüzləşə bilərdi. Qaraqoyunlu çərik ordusu əsasən Sədli, Baharlı, Bayramlı, Alpaut, Çagirli, Düharlı, Qaramanlı, Hacılı, Ağaçəri, Döğər tayfalarından təşkil olunurdu. Bəzi ərəb və kürd tayfaları da köməkçi qüvvə kimi iştirak edirdilər[bax: 13, 20-32; 8, 39].

Azərbaycan Qaraqoyunlu dövlətində əyalətlərin idarəsi şahzadələrə və tanınmış əmirlərə həvalə olunurdu, müharibə zamanı həmin əyalətlərin qoşunu hökmdarın ordusuna qoşulur və baş verən döyüşlərdə iştirak edirdilər. Belə ki, 1420-ci ildə Qara Yusif Teymuri sultanı Şahruxa qarşı Təbrizdən hərəkət edən zaman "Azərbaycan, Arran və Bağdad diyarının bölgələrindən çoxlu qoşun və saysız əsgər topladı və sabiq zamanlarda, keçmiş qərinələrdə hər nə toplamışdısa, onlara payladı"[12, 94]. Bu, bir daha təsdiq edir ki, düşmən təhlükəsi ilə üzləşdikdə Azərbaycan Qaraqoyunlu dövlətinin demək olar ki, bütün vilayətlərindən qoşun toplanılırdı. Dövlətin əksər vilayətlərinin idarəsi ayrı-ayrı tayfa başçılarına, tanınmış əmirlərə tapşırıldığına görə ehtiyac duyulduqda onlar hökmdarın çağırışı ilə öz qoşunları ilə onun yardımına tələsir və baş verən döyüşdə iştirak edirdilər.

Əbubəkr Tehraninin verdiyi məlumata görə, Qarakoyunlu İsgəndərlə Teymuri Sultan Şahrux arasında baş verən Aləşgərd döyüşündə İsgəndərin ordusunun sağ cinahında Pir Məhmad Sədli, sol cinahında isə Sorqan və Qorqan Alpaut öz qüvvələri ilə yer almışdılar. Teymuri ordusunun sol cinahında yer alan Ağqoyunlu Osman bəylə döyüşdə Sədlilar məğlub olmuş və Pir Məhmad bəy Sədli, oğlanları Pir Qeyb və Pir Üveyslə birlikdə əsir düşmüşdülər[15, 69, 70]. Baharlu tayfasından Əlişəkər bəy Qaraqoyunluların ən məşhur əmirlərindən biri olmuşdu. O, Ağqoyunlulara qarşı döyüşlərdə yaxından iştirak etmişdi. 1457-ci ildə Dəclə ətrafında Rüsəm Tərxanın başçılığı altında Qaraqoyunlu ordusunun Ağqoyunlu Uzun Həsənlə baş verən döyüşdə Əlişəkər bəy Baharlu öz qüvvələri ilə ordunun sol cinahında yer almışdı[15, 148]. Əbubəkr Tehrani yazır ki, düşmənin sağ cinahını məğlub etmiş Əlişəkər bəy Rüstəm Tərxanın məğlubiyyəti və tutulmasından xəbərsiz olduğuna gərə oğlu Pir Əli bəy və Solan bəylə birlikdə döyüşü davam etdirsə də, məğlub olaraq əsir alınmış, Əlişəkər bəy Cermuq qalasında, Pir Əli Ərqənə qalasında, Solan bəy isə Cünküşə qalasında zindana salınmışdı[bax: 15, 148-152].

Həsən bəy Rumlu yazır ki, Cahanşahın öldürülməsindən sonra Əlişəkər bəyin oğlu Pirəli bəy Əbu Yusif mirzəni səltənətə yüksəldib Həmədana yola düşdü. Onlar Həmədan hüduduna daxil olduqda xəbər gəldi ki, Kiçik Lur hakimi Şah Hüseyn Həmədana basqın edib, Şəhrizurda Bahar ulusu üzərinə həmlə edərək onları qarət etmişdir. Ona görə də qələbə nişanlı şahzadə onların üstünə sürətli yürüş edib, qəflətən ona hücum etdi və Şah Hüseyni mülazimlərindən beş yüz nəfərlə birlikdə qətlə yetirərək Həmədandan Cürbadəqana yollandılar. Oradan isə Şiraza çəkildilər. Lakin 1469-cu il oktyabrın ortalarında Uğurlu Məhəmmədin hücumuna məruz qalaraq öldürüldü[11, 274].

Cahanşahın ordusunda aparıcı döyüşkən tayfa əmirləri ilə yanaşı digər tayfa əmirləri də öz qoşunları ilə yaxından iştirak edirdilər. Əbubəkr Tehrani yazır ki, Cahanşah İraqı və Farsı aldıqdan sonra Əmir Ərəbşah Ayinlünü 20

minlik qoşunla Ərzincana göndərmişdi. Yaqub Alpaut və Əli bəy Ağacəri övladları kimi böyük və şanlı əmirləri də də onlara qoşmuşdu. Qoşun o hüdudlara çatıb Şah Əli Musanı Şətəri qalasında mühasirəyə almışdı. Lakin Uzun Həsənin yürüş xəbərini alan Əmir Ərəbşah qalanın mühasirəsindən əl çəkərək Ərzincana çəkildi. Lakin Ərəbşah və qaraqoyunlu əmirləri Uzun Həsənin və müttəfiqlərinin gücünü və üstünlüyünü bildikləri üçün Ərzincandan Cahanşahın yanına yollandılar[15, 133].

Qaraqoyunlu hökmdarı Qara Yusifin övladları və yetkinlik yaşına çatdıqda ayrı-ayrı bölgələrə vali təyin edilir və onların ətrafına çoxlu əmirlər verilirdi. Şahzadələrin xidmətinə verilən bu əmirlər bütün hakim təbəqəni təmsil edirdi. Bununla da Qaraqoyunlu qoşunları üçün yeni baza yaradılırdı. Vilayətlərə hakim təyin edilən bu şahzadələrin ordusuna çoxlu müxtəlif tayfalar daxil idi. Beləliklə, həm tayfaların siyasi sədaqəti nəzarət altına alınır, həm də şahzadələrin siyasi nüfuz qazanmaq cəhdləri məhdudlaşdırılırdı. Qara Yusifin hakimiyyəti dövründə böyük oğlu Şah Məhəmməd Bağdad valisi idi, Cahanşah Sultaniyyəni, Əbu Səid Ərzincanı, İsfahan Adilcavazı, İsgəndər isə Kərkükü idarə edirdi[13, 111].

Əslində Qara Yusifin vilayət qoşunu (çərik) yaradaraq oğullarını onların başına qoymaqda məqsədi onları siyasətdən uzaqlaşdırmaq və dövlətin yükünü hərbi cəhətdən yüngülləşdirmək idi. Şahzadələrin xidmətinə verilən əmirlər də zaman-zaman onlardan asılı olmayaraq Qara Yusifin ordusuna qatılaraq xidmət edirdilər. Qara Yusifin, eləcə varisləri dövründə Qaraqoyunlu çərik ordusu dağınıq görünsə də, şahzadələrin qoşunları içərisində olan sadiq əmirlər Qaraqoyunlu ordusunun tərkibində olmaqda davam edərək hökmdara sadiq qaldılar.

Çərik ordusu şahzadələrin və ya onların yardımçısı olan əmirlərinin nəzarətində olan birliklər idi. Vilayət qoşununun hamısı heç də eyni tayfadan olan əsgərlər deyildi. Qaraqoyunlu ordusu hər hansı bir səfərə çıxdıqda vilayətlərdən qoşun toplanılırdı. Çərik ordusu şahzadələrin nəzrətində olan qoşunlardan və ya yüksək rütbəli əmirlərin himayəsində olan vilayət qoşunlarından təkil olunurdu. Vilayətlərə vali təyin olunan əmirlər yerli qoşunların da qayğısına qalır və lazım gəldikdə bölgə əsgərləri ilə döyüşə qatılırdı[1, 115].

Qaraqoyunlu hökmdarları hərbi səfərə hazırlaşarkən geniş səlahiyyətlərə malik hərbi vəzifəlilər təyin edərdilər. Bu hərbi vəzifəlilər təvaçilər adlanırdı. Təvacılar müharibə gözlənilən təqdirdə tabeliyindəki əyalətlərə gedərək, hərbi qüvvə toplayan və ayrı-ayrı qoşun dəstələri arasında əlaqə yaradan əmirlər belə adlanmışlar. Onlar döyüşçüləri səfərbər eir, ordunun olacağı yeri onlara bildirirdilər. Döyüşçülərin sayı və ordunun müharibə qüdrəti onun "təvaçi dəftəri" adlanan xüsusi kitabçasında qeyd edilirdi[7, 65; 10, 96].

*Nəticə*

Azərbaycan Qaraqoyunlu dövlətində ordunun əsasısını tanınmış Qaraqoyunlu tayfalarından toplanan əsgərlər təşkil edirdi. Bunlar arasında Baranilərlə yanaşı Sədlu, Baharlı, Bayramlı, Alpaut və Cagirli tayfaları xüsusi yer tuturdu. Buunla yanaşı, Qaramanlı, Hacılı, Ağacəri, Döğər və Düharlı tayfaları da Qaraqoyunlu ordusunun təşkilində mühüm rol oynayırdı. Qaraqoyunlu ordusunun təşkilati cəhətdən formalaşması və döyüş taktikasının yaradılması Qara Məhəmmədin dövründə (1380-1389) başlanılsa da, Qara Yusifin və varislərinin dövründə təşkilati baxımdan özünün ən yüksək fəaliyyəti ilə diqqəti cəlb etmişdir. İlkin qaynaqların verdiyi məlumata görə, Qaraqoyunlu süvari ordusu özünün döyüş qabiliyyətinə görə Yaxın və Orta Şərqin ən sayılıb-seçilən ordularından olmuşdur. Şübhəsiz ki, dövrü üçün yüksək döyüş qabiliyyətinə malik olan bir ordunun yaradılması, hər şeydən əvvəl Qara Yusifin həyatının daim rəqiblərinə və düşmənlərinə qarşı mübarizə həyatını yaşaması ilə sıx bağlı olmuşdur. Qaraqoyunlu ordusu, hökmdarın ixtiyarında olan xüsusi qoşundan, ayrı-ayrı tayfa əmirlərinin və vilayət hakimlərinin nəzarətində olan qoşundan (çərik) ibarət olmuşdu. Ehtiyac duyulduqda bu qoşunlar vahid komandanlıq altında birləşdirilmiş, hökmdarın qatıldığı döyüşlərdə orduya komandanlığı bilavasitə hökmdar, digər hallarda isə əmirül-ümara rəhbərlik etmişdi.Qara Yusif və varisləri dövründə Qaraqoyunlu ordusunun yüksək döyüş qabiliyyətinin qorunub saxlanılması və inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdi.

**Mənbələr və ədəbiyyat.**


1. Aka İ. Timur Ve Devleti, TTK Basımevi, Ankara: 1991.
2. Aka İ. İranda Türkmün Hakimiyyeti (Kara Koyunlular Devri)., TTK Yayınları, 2001.
3. Arayancan A.A. Karakoyunlu Cihanşan ve Dönemi (Siyaset-Teşkilat-İktisad-Din ve Kültür) 1438-1467, (Doktora Tezi), Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara: 2010.
4. Efendiyev O.A. “Kara-Koyunlu, Ak-Koyunlu ve Safevi Devletlerindeki Mülki ve Askeri Teşkilata Bakış”, Yeni Türkiye Kafkaslar Özel Sayı – II, 21/72, (Temmuz-Aralık 2015), s. 578-586.
5. Erdem İ. “Ak-Koyunlu Ordusunu Oluşturan İnsan Unsuru”, Tarih Araştırmaları Dergisi, 15/26, Ankara: 1991, s. 85-92.
6. Erdem İ. “Ak Koyunlu ve Kara Koyunlu Ordularına Genel bir Bakış ”, Tarih Araştırmaları Dergisi, c. 24/37, Ankara: 2005, s. 57-77.
7. Fərzəlibəyli Ş.F. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı: Elm-təhsil, 2003.

8. Korkmaz A. Kara-Koyunlu Devletinin Azkeri Teşkilatı, Efe Akademi Yayınları, İstanbul: 2022.
9. Mustafayev Ş. Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə əsərinin" Azərbaycan dilində nəşri haqqında, Azərb. EA-nın Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, 1998, №1.
10. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Bakı: Çaşıoğlu, 2012.
11. Petruşevski İ.P. XV əsr Azərbaycan dövlətləri, Azərb. SSR EA Tarix İnstitutunun Əsərləri, c. 1, Bakı: 1951, s. 49-108.
12. Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.ü.f.d., dos. Namiq Musalı. Kastamonu: 2017.
13. Sümer F. Kara Koyunlular (Başlanğıcdan Cihan – Şaha kadar). I cilt. Türk Tarih Kurumu Basımevi, Ankara: 1984.
14. Sümer F. Safevi Devletinin Kuruluşu Ve Gelişmesinde Anadolu Türklerinin Rolu. Türk Tarih Kurumu Baslmevi, Ankara: 1999.
15. Tehrani Ə. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi Rahilə Şükürova. Bakı: Elm, 1998.
16. Uzunçarşılı İ.H. Osmanlı Devlet Teşkilatına Medhal, TTK Yayınları, Ankara: 1988.
17. Uzunçarşılı İ.H. Anadolu Beylikleri, Akkoyunlu ve Karakoyunlu Devletleri, TTK yayınları, Ankara: 2011.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 3 (40), s.135-141

# AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

**Xəqani Məmmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
prof.khagani.mammadov@gmail.com

***Açar sözlər:*** *Heydər Əliyev, Ümummilli lider, siyasi xadim, dövlət müstəqilliyi, azərbaycançılıq ideologiyası, milli dövlətçilik təfəkkürü, milli şüur, Zəfər bayramı*

*Məqalədə xalqımızın Ümummilli lideri, görkəmli dövlət və siyasi xadimi Heydər ƏliyevinAzərbaycana rəhbərlik etdiyi dövrdə Vətən və xalq qaşısındakı xidmətləri tarixi faktlar əsasında tədqiq edilmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi1969-1982-ci illərdə respublikanın iqtisadi yüksəlişinə nail oldu, təsərrüfatın bütün sahələrində əsaslı dönüş və dinamik inkişaf baş verdi, elmin, təhsilin, mədəniyyətin tərəqqisi sahəsində mühüm nailiyyətlər əldə edildi.*

*XX əsrin 90-cı illərinin əvvəllərində xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev vətəndaş müharibəsinin qarşısını aldı, Azərbaycanı xaosdan, qardaş qırğınından, dövlət çevrilişindən qurtardı.*

*Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması, iqtisadi dirçəlişə nail olmaq sahələrində mühüm işlər görüldü, ölkəmizdə yeni tarixi dövrün əsası qoyuldu.*

## ЭПОХА ГЕЙДАРА АЛИЕВА В ИСТОРИИ АЗЕРБАЙДЖАНА

**Хагани Мамедов**

***Ключевые слова:****Гейдар Алиев, общенациональный лидер, политический деятель, государственная независимость, азербайджанская идеология, национально-государственное мышление, национальное сознание, День Победы*

*В статье на основе исторических фактов изучены заслуги Общенационального лидера нашего народа, выдающегося государственного и политического деятеля Гейдара Алиева перед Родиной и народом в период руководства Азербайджаном. В 1969-1982 годах, когда Гейдар Алиев руководил Азербайджаном, он добился экономического подъема республики, произошел коренной перелом и динамичное развитие во всех сферах экономики, были достигнуты важные достижения в области науки, образования, и культуры.*

*В начале 90-х годов XX века Гейдар Алиев, приехавший в Баку из Нахичевана по настоянию народа, предотвратил гражданскую войну, спас Азербайджан от хаоса, братоубийства и государственного переворота.*

*В результате мудрой внутренней и внешней политики Гейдара Алиева была проделана важная работа в области демократического государственного строительства, формирования Национальной армии, экономического возрождения и в нашей стране был заложен фундамент новой исторической эпохи.*

## THE ERA OF HEYDAR ALIYEV

**Khagani Mammadov**

***Keywords:*** *Heydar Aliyev, national leader, politician, state independence, Azerbaijani ideology, national-state thinking, national consciousness, Victory Day*

*Based on historical facts, the article examines the merits of the National Leader of our people, the outstanding statesman and political figure Heydar Aliyev to the Motherland and people during the period of leadership of Azerbaijan. In 1969-1982, when Heydar Aliyev was in charge of Azerbaijan, he achieved the economic growth of the republic, there was a radical change and dynamic development in all spheres of the economy, important achievements were made in the field of science, education, and culture.*

*At the beginning of the 90s of the 20th century, Heydar Aliyev, who came to Baku from Nakhchivan at the insistence of the people, prevented the civil war, saved Azerbaijan from chaos, fratricide, and coup d'état.*

*As a result of Heydar Aliyev's wise domestic and foreign policy, important work has been done in the fields of democratic state building, formation of the National Army and achieving economic revival and the foundation of a new historical era was laid in our country.*

Xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə nadir, bənzərsiz şəxsiyyətdir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Təsadüfi deyil ki, ulu öndərimizin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması və daha da zənginləşdirilməsi,

vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir. Dahi lider Azərbaycan naminə bütün fəaliyyəti zamanı milli ideologiyanın yaradılmasına xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Azərbaycan və türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutdu. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşatdı, qəlblərdə özünə əbədi məhəbbət qazandı.

Heydər Əliyevin yorulmaz, məqsədyönlü, ardıcıl və qətiyyətli fəaliyyəti nəticəsində ölkəmiz hərtərəfli inkişafa nail oldu. İctimai-siyasi sabitlik, sülh və əmin-amanlıq bərqərar oldu, bazar iqtisadiyyatı və vətəndaş cəmiyyəti quruculuğuna keçid prosesi gerçəkləşdirildi. Heydər Əliyev siyasi fəlaliyyətində azərbaycançılıq ideyalarının əməli istiqamətini belə şərh edir: "...Biz düz yolla - haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır..."

Heydər Əliyevin milli dövlətçilik təfəkkürü və müstəqil Azərbaycanın milli sərvətinə çevrilmiş zəngin siyasi irsi xalqımızın taleyində həlledici rol oynamışdır. Milli dövlətçilik ənənəsinin dövrün, şəraitin tələblərinə uyğun qurulması müstəqil Azərbaycan Respublikasının gələcək taleyini müəyyənləşdirdi. Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın yenidən qurulması, malik olduğu təbii resurslarından səmərəli istifadə edilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, dayanıqlı iqtisadi inkişafın əldə edilməsi uğurlu neft strategiyasının nəticəsi idi.

Müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən 14 iyun 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıcı kimi daxil olmuşdur. Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi seçildiyi an tariximizin yeni dövrünün, Azərbaycanın ictimai-siyasi, sosial - iqtisadi və mədəni-mənəvi həyatında inkişafın bünövrəsi qoyuldu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi həkk olundu. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları qoyuldu, iqtisadi, sosial və mədəni potensialı formalaşdı. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, əgər XIX əsrin ortalarından 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye müəssisələri tikilmişdirsə, 1969-1982-ci illərdə onların sayı 1048-ə çatdırıldı. Bu illərdə sənaye məhsulunun orta illik artımı 7,9%-ə yüksəldi. 1920-ci illə müqayisədə Azər-

baycanda əhsul istehsalınınhəcmi 187,9 dəfə artmışdı. Bu illərdə respublikada 11 elektrik stansiyası tikilib istifadəyə verildi. Rabitə müəssisələrinin sayı 1,2 dəfə, şəhər telefon stansiyalarının gücü 2,4 dəfə artırıldı.

1982-ci ildə respublikada kənd təsərrüfatı məhsulları 1969-cu illə müqayisədə 2,5 dəfə, 1920-ci illə müqayisədə isə 9 dəfə artmışdı. Şərabçılıq sənayesinin istehsal həcmi 6 dəfədən çox artmışdı. Əhalinin hər üç nəfərindən biri təzə mənzillərə köçmüşdü.

Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsinin ən dolğun səhifələrinitəşkil edir.Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsi, milli şüurun yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev ölkənin inkişafı naminə gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tədbirlər və respublikanın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu qoruyub saxlamışdır.

Heydər Əliyev 1982-1987-ci illərdə Moskvada Sov.İKP MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Şurası sədrinin birinci müavini vəzifələrində çalışdığı dövrdə də Azərbaycanı müntəzəm surətdə diqqət mərkəzində saxlayır, respublikanın maddi-texniki inkişafına, mədəni-mənəvi tərəqqisinə daim qayğı göstərirdi. Sonralar Heydər Əliyev deyirdi:"...Moskvada beş ildən artıq işləyərkən yenə də...Azərbaycana himayədarlıq etmişəm". O, Moskvada yüksək dövlət vəzifəsində işlədiyi dövrdə də xalqımızın maraqlarını təmin etməyə çalışırdı. Heydər Əliyev sonralar deyirdi:"Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim... Ancaq mənim ürəyim də, gecəm də, gündüzüm də Azərbaycanla oldu. Çünki Azərbaycan mənim doğma Vətənim, torpağımdır".

90-cı illərin əvvəllərində ölkədə vətəndaş müharibəsinin başlanması və respublikanın parçalanması təhlükəsinin olduğu bir dövrdə Azərbaycan xalqının gözü Naxçıvana, yeganə ümid yeri olan Heydər Əliyevə dikilmişdi. Heydər Əliyev dövlətçilik təcrübəsinə, siyasi səriştəsinə, dünyagörüşünə arxalanaraq bu böhrandan ölkəni çıxarmağa qadir olan yeganə şəxs idi. Azərbaycanın faciəvi günlərindən biri hesab olunan 4 iyun 1993-cü il Gəncə hadisələrindən sonra vətənin ağır günündə xalqın təkidli dəvəti ilə Naxçıvandan Bakıya gələn Azərbaycanın xilaskarı, dövlətimizin nicatı, ümidi olan Heydər Əliyev qısa zaman ərzində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi.Müdrik siyasətçi Heydər Əliyev həmin dövrdə Azərbaycanı xaosdan, anarxiyadan, müharibədən, qardaş qırğınından, vətəndaş müharibəsindən, dövlət çevrilişlərindən qurtardı, Azərbaycana əmin-amanlıq gətirdi. 1993-cü il iyunun 15-də

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməklə ikinci dəfə qazanılmış müstəqilliyimizin itirilməsinə yol vermədi, dövlətimizin varlığını qorudu.

1993-cü il iyunun 24-də qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başladıqdan sonra Heydər Əliyev Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməlini qoydu, Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bu dövrdən başlayaraq Azərbaycanda həyata keçirilən daxili və xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər məhz Ümummilli Liderin adı və fəaliyyəti ilə bağlıdır.

Ali Sovetə rəhbərlik etdiyi və eyni zamanda Prezident səlahiyyətlərini icra etdiyi dövrdə Heydər Əliyev ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul etmişdir. Heydər Əliyev bu dövrdə xalqın döyüş ruhunu qaldırmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görmüşdür. O, Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsep-siyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirmişdi.

Prezident səlahiyyətlərini icra etdiyi dövrdə Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dəfələrlə vurğulayırdı: "Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır".

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək ölkənin taleyini bu görkəmli dövlət xadiminə həvalə etməklə düzgün seçim etmişdir.

Tale özü Azərbaycanı yenidən dirçəltmək, onun müstəqilliyini qorumaq kimi çətin və şərəfli bir missiyanı məhz Heydər Əliyevə həvalə etdi. Bununla da illərlə davam edən siyasi hakimiyyət böhranı, anarxiya və özbaşınalığa son qoyuldu.

Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər görülmüşdür. Heydər Əliyev dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirmiş, Azərbaycan həqiqətlərini, dövlətimizin mövqeyini dünyaya çatdırmış, bununla da ölkəmizə diqqət və maraq güclənmişdir. Respublikanın siyasi-iqtisadi əlaqələri genişlənmiş, mühüm müqavilə və

sazişlər imzalanmışdır. 1994-cü il sentyabrın 20-dəPrezident Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin müqaviləsi"nə əsasən dünyanın qabaqcıl ölkələrinin 11 iri neft şirkəti ilə 157 milyard dollar ümumi gəlir nəzərdə tutulan neft müqaviləsi 30 il müddətinə imzalandı. Kapital, istismar və nəqliyyat xərcləri çıxılandan sonra yerdə qalan məbləğin 81,7 milyard dolları Azərbaycana, 19,5 milyard dolları isə xarici şirkətlərə çatmalı idi. SELF-5qazma qurğusu yenidən qurulub "İstiqlal" adı ilə istifadəyə verildi. "Çıraq" platformasından120 m dərinlikdə 176 km uzunluğunda neft kəməri çəkildi. Sanqaçal Terminalı tikilib istifadəyə verildi. "Əsrin müqaviləsi"nə uyğun olaraq çıxarılan neftin dünya bazarlarına satılması üçün Bakı-Novorossiysk və Bakı-Supsa (Gürcüstan) neft kəmərləri çəkildi. ABŞ-nın iştirakı ilə Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan respublikaları arasında müqavilələrin bağlanmış müqavilələrin reallaşmağa başlaması nəticəsində XX əsrin sonunadək Azərbaycan Neft Fonduna 230 mln. ABŞ dolları həcmində vəsait daxil oldu.

Qarabağ münaqişəsinin dinc yolla nizama salınması, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl, fəal xarici siyasət yürüdülməyə başlandı. Ölkənin iqtisadi həyatında əsaslı dəyişikliklər baş verdi - mühüm islahatlar aparıldı, Azərbaycanın iqtisadi potensialını hərəkətə gətirmək, maliyyə sistemini yenidən qurmaq sahəsində ciddi addımlar atıldı.

Ulu öndərimizin yenidən hakimiyyətə qayıdışından sonra 1994-cü il oktyabrın 3-4 də və 1995-ci il martın 12-17-də dövlət çevrilişinə cəhdlər oldu. Lakin bu dahi şəxsiyyətin işıqlı dühası, zəngin siyasi təcrübəsi, xalqa möhkəm bağlılığı, nüfuzu, ən gərgin və həlledici anlarda vəziyyəti real qiymətləndirmək bacarığı və cəsarəti sayəsində həmin cəhdlərin qarşısı qətiyyətlə alındı. Heydər Əliyev bu hadisələr zamanı müstəsna dözüm, mətanət və siyasi müdriklik göstərdi, xalq iradəsinin təmsilçisi, dövlət təhlükəsizliyinin yeganə təminatçısı olduğunu bir daha sübut etdi. Onun uzaqgörən siyasəti addım-addım Avropaya pəncərə açdı, BMT-nin yüksək kürsüsündən dünyaya yayıldı.

Dağlıq Qarabağ probleminin milli maraqlarımıza uyğun olaraq həlli, ölkə əhalisinin dinc və firavan həyat şəraitində yaşamasını təmin etmək kimi mühüm tarixi vəzifələri özünün ali proqramı müəyyən etmiş Heydər Əliyev 1995-ci il noyabrın 12-dəAzərbaycan Konstitusiyasının-Ali Qanununun qəbul olunmasına nail oldu. Bu Konstitusiya ümumxalq mənafeyinin əsas hüquqi bazası kimi strateji milli maraqlar nəzərə alınmaqla Azərbaycanın gələcəyinə hesablanmış prisipləri özündə əks etdirmişdir. "Mən Azərbaycan Prezidenti kimi bu barədə qəti fikrimi bildirmişəm və bir daha bəyan edirəm ki, demokratiyanın bütün tələblərini tədbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə, mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin qarşısı alınacaqdır və qanun çərçivəsində ölçülər götürüləcəkdir" deyən dahi öndərin demokratiyaya

milli maraqlar, milli-mənəvi dəyərlər kontekstində yanaşması ilə ölkəmizdə yeni tarixi mərhələnin əsası qoyuldu.

"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-cü il 29 sentyabr tarixli sərəncamında deyilir: "Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sıradaduran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemindəlayiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqışəsinin büynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialıtarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Ondərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir".

Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan xalqı müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşərək böyük bir zəfər tarixi yazdı, Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu.

2023-cü ildə Azərbaycan xalqı, bütün dünyaya səpələnmiş Azərbaycan diasporu, dünya şöhrətli dövlət və siyasi xadimi, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 100 illiyini böyük bayram kimi qeyd edir. Nə qədər müstəqil Azərbaycan dövləti mövcuddur, Azərbaycan xalqı yaşayır, Heydər Əliyevin işıqlı siması, əziz xatirəsi qədir bilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. "Azərbaycan" qəzeti, 29 iyun 1997-ci il.
2. "Azərbaycan" qəzeti, 30 sentyabr 2022-ci il.
3. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild, Bakı,2008.
4. Azərbaycan beynəlxalq aləmdə. III cild, Bakı, 1998.
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, 1997-2001.
6. Əliyev Əhmədova N., Hüseynova Ş. Azərbaycan tarixi. Dərs vəsaiti, Bakı, 2019.
7. Qasımlı M. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006.
8. Mehdiyev Ə. "Əsrin müqaviləsi": Azərbaycanınneft strategiyasının təməl daşı. Bakı, 2014.
9. Çoxəsrlik tariximizin 34 ili. Faktlar və rəqəmlər. Bakı, CBS, 2003.

## MÜNDƏRİCAT

**Aygün Məmmədova, Aslan Qasımov.** 2015-2018-Cİ İLLƏRDƏ BƏRDƏDƏ ARXEOLOJİ QAZINTILAR NƏTİCƏSİNDƏ AŞKARLANAN NUMİZMATİK TAPINTILAR……………………………………..……3-12
**Aynur Kərimli.** AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİ 1952-1989-CU İLLƏR TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA…………...13-22
**Azər İsmayılzadə.** AZƏRBAYCANIN KARBOHİDROGEN EHTİYATLARI VƏ BUNUN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA ROLU.......................................................................23-32
**Aysel Cəfərova.** NƏSİMİ POEZİYASINDA BƏŞƏRİ SEVGİ................33-41
**Cəfər Xanəliyev.** BOLŞEVİZMİN MİLLİ MÜNASİBƏTLƏRDƏ TUTDUĞU MÖVQE VƏ AZƏRBAYCAN SSR-DƏ MİLLİ SİYASƏTDƏ İLK ƏYİNTİLƏR (1920-Cİ İLLƏRİN I YARISI)....................................42-57
**Ceyhun Hüseynov.** XIX ƏSRİN İKİNCİ YARISINDA ÇARİZMİN ŞİMALI AZƏRBAYCANDA KEÇİRDİYİ BƏZİ AQRAR İSLAHATLAR BARƏSİNDƏ..........................................................................................58-66
**Eldar Hacıyev**. ŞAMAXIDA MÜSƏLMANLARA QARŞI SOYQRIMININ TƏŞKİLİ VƏ HƏYATA KEÇİRİLMƏSİ.......................67-75
**Elmira Məmmədova (Süleymanova).** ALBAN MONASTIRI UZUNLAR.........................................................................................76-83
**Kamran Əsədov.** SOVET RUSİYASININ AZƏRBAYCANDA XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ ƏRAZİ BÖLGÜSÜ VƏ ZƏNGƏZURUN STATUSUNUN MÜƏYYƏN EDİLMƏSİ................................................84-96
**Mübariz Əmirov.** ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİS EKSKURSİYALARININ TƏŞKİLİ – MUZEYDƏ DƏRS......................97-102
**Qənirə Mirzəxanlı**. HEYDƏR ƏLİYEV FONDUNUN QƏDİM AZƏRBAYCAN XALÇAÇILIĞI SƏNƏTİNİN TANINMASI İSTİQAMƏTİNDƏ GÖRDÜYÜ İŞLƏR..............................................103-113
**Səidə Mehrəliyeva.** MİRZƏ BALA MƏMMƏDZADƏNİN MÜSAVAT PARTİYASINDA FƏALİYYƏTİ...........................................................114-124
**Ülvi Zərbəliyev**. AZƏRBAYCAN QARAQOYUNLU ORDUSUNU TƏŞKIL EDƏN HƏRBİ BİRLİKLƏR...................................................125-134
**Xəqani Məmmədov.** AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ..................................................................135-141

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2023, 3 (40)*

***Çapa imzalanmış 27.09.2023-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 8***
***Sifariş 114, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***